XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA ŞƏFƏQ-ASİMAN DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ

İLƏ

BP EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED

VƏ

ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİ

ARASINDA

SAZİŞ

AGREEMENT

ON THE EXPLORATION, DEVELOPMENT AND PRODUCTION SHARING FOR THE SHAFAG-ASIMAN OFFSHORE BLOCK IN THE AZERBAIJAN SECTOR OF THE CASPIAN SEA

BETWEEN

THE STATE OIL COMPANY OF THE REPUBLIC OF AZERBAIJAN

AND

BP EXPLORATION (AZERBAIJAN) LIMITED

AND

SOCAR OIL AFFILIATE

MÜNDƏRİCAT

MADDƏ 1
İŞTİRAK PAYLARI 3

MADDƏ 2
HÜQUQLARIN VERİLMƏSİ VƏ SAZİŞİN ƏHATƏ DAİRƏSİ 4

MADDƏ 3
TƏRƏFLƏRİN TƏMİNATLARI, ÜMUMİ
HÜQUQLARI VƏ ÖHDƏLİKLƏRİ 5

MADDƏ 4
KƏŞFİYYAT DÖVRÜ,
ƏLAVƏ KƏŞFİYYAT DÖVRÜ,
İŞLƏNMƏ VƏ HASİLAT DÖVRÜ 11

MADDƏ 5
LAYİHƏNİ İDARƏ EDƏN RƏHBƏR KOMİTƏ
VƏ İLLİK İŞ PROQRAMLARI 21

MADDƏ 6
ƏMƏLİYYAT ŞİRKƏTİ, İŞÇİ HEYƏTİ VƏ PEŞƏ TƏLİMİ 28

MADDƏ 7
HESABAT VƏ NEFT-QAZ ƏMƏLİYYATLARININ
YOXLANMASI HÜQUQU 35

MADDƏ 8
TORPAQDAN VƏ DƏNİZDİBİ SAHƏLƏRDƏN İSTİFADƏ 38

MADDƏ 9
OBYEKTLƏRDƏN İSTİFADƏ 39

MADDƏ 10
KARBOHİDROGENLƏRİN ERKƏN HASİLATI 43

TABLE OF CONTENTS

ARTICLE 1
PARTICIPATING INTERESTS 3

ARTICLE 2
GRANT OF RIGHTS AND SCOPE 4

ARTICLE 3
WARRANTIES AND GENERAL RIGHTS AND
OBLIGATIONS OF THE PARTIES 5

ARTICLE 4
EXPLORATION PERIOD,
ADDITIONAL EXPLORATION PERIOD, AND
DEVELOPMENT AND PRODUCTION PERIOD 11

ARTICLE 5
STEERING COMMITTEE FOR PROJECT
MANAGEMENT AND ANNUAL WORK PROGRAMMES 21

ARTICLE 6
OPERATING COMPANY, PERSONNEL AND TRAINING 28

ARTICLE 7
REPORTS AND ACCESS TO
PETROLEUM OPERATIONS 35

ARTICLE 8
USE OF LAND AND SEA BEDS 38

ARTICLE 9
USE OF FACILITIES 39

ARTICLE 10
EARLY PETROLEUM PRODUCTION 43

MADDƏ 11 PODRATÇININ NEFT-QAZ ƏMƏLİYYATLARI MƏSRƏFLƏRİNİN ƏVƏZİNİN ÖDƏNİLMƏSİ VƏ HASİLATIN BÖLÜŞDÜRÜLMƏSİ	44	ARTICLE 11 CONTRACTOR'S RECOVERY OF PETROLEUM COSTS AND PRODUCTION SHARING	44
MADDƏ 12 VERGİ TUTULMASI	49	ARTICLE 12 TAXATION	49
MADDƏ 13 KARBOHİDROGENLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ	82	ARTICLE 13 VALUATION OF PETROLEUM	82
MADDƏ 14 ƏMLAKA SAHİBLİK, ONUN İSTİFADƏSİ VƏ LƏĞV EDİLMƏSİ	88	ARTICLE 14 OWNERSHIP, USE AND ABANDONMENT OF ASSETS	88
MADDƏ 15 TƏBİİ QAZ	96	ARTICLE 15 NATURAL GAS	96
MADDƏ 16 SƏRBƏST DÖNƏRLİ VALYUTA	100	ARTICLE 16 FOREIGN EXCHANGE	100
MADDƏ 17 MÜHASİBAT UÇOTUNUN APARILMASI QAYDASI	102	ARTICLE 17 ACCOUNTING METHOD	102
MADDƏ 18 İDXAL VƏ İXRAC	103	ARTICLE 18 IMPORT AND EXPORT	103
MADDƏ 19 HASİLATIN SƏRƏNCAMA KEÇMƏSİ	107	ARTICLE 19 DISPOSAL OF PRODUCTION	107
MADDƏ 20 SIĞORTA, MƏSULİYYƏT VƏ MƏSULİYYƏTİN ÖDƏNMƏSİ TƏMİNATLARI	112	ARTICLE 20 INSURANCE, LIABILITIES AND INDEMNITIES	112
MADDƏ 21 FORS-MAJOR HALLARI	121	ARTICLE 21 FORCE MAJEURE	121

MADDƏ 22 ETİBARLILIQ, HÜQUQ VƏ ÖHDƏLİKLƏRİN BAŞQASINA VERİLMƏSİ VƏ TƏMİNATLAR	124	ARTICLE 22 VALIDITY, ASSIGNMENT AND GUARANTEES	124
MADDƏ 23 TƏTBİQ EDİLƏ BİLƏN HÜQUQ, İQTİSADİ SABİTLƏŞMƏ VƏ ARBİTRAJ	129	ARTICLE 23 APPLICABLE LAW, ECONOMIC STABILISATION AND ARBITRATION	129
MADDƏ 24 BİLDİRİŞLƏR	132	ARTICLE 24 NOTICES	132
MADDƏ 25 QÜVVƏYƏMİNMƏ TARİXİ	134	ARTICLE 25 EFFECTIVE DATE	134
MADDƏ 26 ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ TƏHLÜKƏSİZLİK	136	ARTICLE 26 ENVIRONMENTAL PROTECTION AND SAFETY	136
MADDƏ 27 MƏXFİLİK	140	ARTICLE 27 CONFIDENTIALITY	140
MADDƏ 28 BONUS ÖDƏNİŞLƏRİ VƏ AKRHESABI ÖDƏMƏLƏR	143	ARTICLE 28 BONUS PAYMENTS AND ACREAGE FEES	143
MADDƏ 29 SAZİŞİN QÜVVƏSİNƏ XİTAM VERİLMƏSİ	147	ARTICLE 29 TERMINATION	147
MADDƏ 30 DİGƏR MƏSƏLƏLƏR	153	ARTICLE 30 MISCELLANEOUS	153

ƏLAVƏLƏR		**APPENDICES**	
ƏLAVƏ 1 TƏRİFLƏR	(1)	APPENDIX 1 DEFINITIONS	(1)
ƏLAVƏ 2 KONTRAKT SAHƏSİ VƏ XƏRİTƏ	(11)	APPENDIX 2 CONTRACT AREA AND MAP	(11)

ƏLAVƏ 3
MÜHASİBAT UÇOTUNUN APARILMASI QAYDASI (14)

ƏLAVƏ 4
PODRATÇI TƏRƏFİN ƏSAS ANA ŞİRKƏTİNİN
TƏMİNATININ NÜMUNƏSİ (29)

ƏLAVƏ 5
AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN
TƏMİNATI VƏ ÖHDƏLİKLƏRİ (31)

ƏLAVƏ 6
ARBİTRAJ QAYDASI (39)

ƏLAVƏ 7
XAM NEFTİN VƏ TƏBİİ QAZIN HƏCMLƏRİNİN ÖLÇÜLMƏSİ
VƏ KEYFİYYƏTİNİN MÜƏYYƏN EDİLMƏSİ QAYDASI (42)

ƏLAVƏ 8
LAYİHƏ STANDARTLARI VƏ TEXNİKİ ŞƏRTLƏR (45)

ƏLAVƏ 9
ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ STANDARTLARI
VƏ METODLARI (46)

ƏLAVƏ 10
KƏŞFİYYAT İŞLƏRİ PROQRAMI (54)

APPENDIX 3
ACCOUNTING PROCEDURE (14)

APPENDIX 4
FORM OF CONTRACTOR PARTY'S
ULTIMATE PARENT COMPANY GUARANTEE (29)

APPENDIX 5
GUARANTEE AND UNDERTAKING OF
THE GOVERNMENT OF THE REPUBLIC OF AZERBAIJAN (31)

APPENDIX 6
ARBITRATION PROCEDURE (39)

APPENDIX 7
CRUDE OIL AND NATURAL GAS MEASUREMENT
AND EVALUATION PROCEDURE (42)

APPENDIX 8
DESIGN STANDARDS AND SPECIFICATIONS (45)

APPENDIX 9
ENVIRONMENTAL STANDARDS
AND PRACTICES (46)

APPENDIX 10
EXPLORATION WORK PROGRAMME (54)

ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİNİN
YARADILMASINA DAİR
QOŞMA

ADDENDUM
RELATING TO THE FORMATION OF
SOCAR OIL AFFILIATE

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA ŞƏFƏQ-ASİMAN DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA SAZİŞ

BU SAZİŞ 7 oktyabr 2010-cu il tarixində Azərbaycan Respublikasının Bakı şəhərində,

bir tərəfdən Hökumət təşkilatı olan **AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ** ("ARDNŞ"),

digər tərəfdən isə İngiltərədə qeydə alınmış **BP EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED** şirkəti ("BP") və

ARDNŞ tərəfindən yaradılacaq və onun tam nəzarətində olaraq ona bütünlüklə məxsus olacaq **ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİ** ("ONŞ")

arasında tərtib edilmiş və bağlanmışdır. ARDNŞ, BP və ONŞ bundan sonra birlikdə "Tərəflər", ayrı-ayrılıqda isə "Tərəf" adlanacaqlar. Müvafiq qeydiyyat sənədləri ilə təsdiq edildiyi kimi, Tərəflərin hamısı qeydə alındıqları ölkələrin qanunvericiliyinə əsasən hüquqi şəxsdirlər.

NƏZƏRƏ ALARAQ Kİ,

Azərbaycan Respublikasının Konstitusiyasına, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" 18 oktyabr 1991-ci il tarixli Konstitusiya Aktına və "Yerin təki haqqında" 13 fevral 1998-ci il tarixli Azərbaycan Respublikası Qanununa uyğun olaraq, Azərbaycan Respublikasında quruda və su altında yerin təkində təbii halda mövcud olan bütün Karbohidrogenlər üzərində mülkiyyət hüququ Azərbaycan Respublikasına məxsusdur və aşağıda göstərilən rəsmi sənədlərə əsasən bu Karbohidrogenləri idarə etmək və onlara nəzarət etmək səlahiyyətləri ARDNŞ-ə həvalə edilmişdir; və

"Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 13 sentyabr 1992-ci il tarixli 200

AGREEMENT ON THE EXPLORATION, DEVELOPMENT AND PRODUCTION SHARING FOR THE SHAFAG-ASIMAN OFFSHORE BLOCK IN THE AZERBAIJAN SECTOR OF THE CASPIAN SEA

THIS AGREEMENT, made and entered into in Baku, the Republic of Azerbaijan, this 7th day of October 2010 by and between:

THE STATE OIL COMPANY OF THE REPUBLIC OF AZERBAIJAN ("SOCAR"), a Government body, on the one hand; and

BP EXPLORATION (AZERBAIJAN) LIMITED ("BP"), a company incorporated in England; and

SOCAR OIL AFFILIATE ("SOA"), a company to be formed and wholly owned and controlled by SOCAR; on the other hand.

SOCAR, BP and SOA are collectively referred to herein as the "Parties" and individually referred to as a "Party". All the Parties are legal persons in accordance with the legislation of the countries of their registration as confirmed by appropriate documentation thereof,

W I T N E S S E T H:

WHEREAS, in accordance with the Constitution of the Republic of Azerbaijan, and the Constitutional Act of State Independence of the Republic of Azerbaijan dated 18 October 1991, and the Law on Subsurface of the Republic of Azerbaijan dated 13 February 1998, ownership of all Petroleum existing in its natural state in underground or subsurface strata in the Republic of Azerbaijan is vested in the Republic of Azerbaijan, and based upon the below referenced authorisations the authority to control and manage said Petroleum has been vested in SOCAR; and

WHEREAS, pursuant to Presidential Edict No. 200 concerning the creation of the State Oil Company of the Republic of Azerbaijan dated 13 September

nömrəli Fərmanına, "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 24 yanvar 2003-cü il tarixli 844 nömrəli Fərmanına və ARDNŞ-nin Nizamnaməsinə əsasən ARDNŞ hasil edilmiş bütün Karbohidrogenlərə sahibliyi həyata keçirir və Azərbaycan Respublikasında bütün Karbohidrogenlərin kəşfiyyatı və işlənməsi sahəsində bütün səlahiyyətlər ona həvalə edilmişdir, habelə "Xəzər dənizinin Azərbaycan sektorunda Şəfəq-Asiman dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 sentyabr 2010-cu il tarixli 1089 nömrəli Sərəncamı ilə ARDNŞ-ə bu Sazişi hazırlamaq və onu Azərbaycan Respublikasının adından imzalamaq, həmçinin Sazişin qüvvədə olduğu bütün müddət ərzində Sazişə aid olan bütün məsələlər üzrə Sazişin tərəfi kimi Azərbaycan Respublikasını təmsil etmək səlahiyyəti verilmişdir; və

1992, Presidential Edict No. 844 concerning restructuring of the State Oil Company of the Republic of Azerbaijan dated 24 January 2003, and SOCAR's Charter, SOCAR owns all Petroleum produced and is vested with the authority to carry out the exploration and development of all Petroleum in the Republic of Azerbaijan, and pursuant to Presidential Decree No. 1089 On the Exploration, Development, and Production Sharing on the Shafag-Asiman Offshore Block in the Azerbaijan Sector of the Caspian Sea dated 7 September 2010, SOCAR is authorised to prepare and execute this Agreement on behalf of the Republic of Azerbaijan, and to represent the Republic of Azerbaijan as the Party to the Agreement on all matters related to the Agreement throughout the entire term thereof; and

ARDNŞ Kontrakt sahəsində müəyyən işlər görmüşdür, Kontrakt sahəsində və ya onun altında təbii halda mövcud olan Karbohidrogenlərin kəşfiyyatına və sonradan işlənməsinə və hasilatına kömək göstərmək arzusundadır; və

WHEREAS, SOCAR has carried out certain work in the Contract Area and now wishes to promote the exploration for, and subsequent development and production of Petroleum existing in its natural state in, on or under the Contract Area; and

ARDNŞ və BP "Xəzər dənizinin Azərbaycan sektorunda Şəfəq-Asiman dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişin əsas kommersiya prinsipləri və müddəaları haqqında" 6 iyul 2010-cu il tarixli saziş imzalamışlar, və bu prinsiplər və müddəalar bu Sazişin əsasını təşkil etmişdir; və

WHEREAS, SOCAR and BP have executed an Agreement on the Basic Commercial Principles and Provisions of an Exploration, Development and Production Sharing Agreement for the Shafag-Asiman Offshore Block in the Azerbaijan Sector of the Caspian Sea dated 6 July 2010, and such principles and provisions have constituted the framework of this Agreement; and

Podratçı Kontrakt sahəsində Karbohidrogen ehtiyatlarının səmərəli işlənməsi və hasilatı üçün texniki biliklərə və təcrübəyə, inzibatçılıq və idarəetmə üzrə ekspert biliklərinə və maliyyə ehtiyatlarına malikdir və bu məqsədlə ARDNŞ ilə müqavilə münasibətlərinə girmək arzusundadır,

WHEREAS, Contractor has the technical knowledge and experience, the administrative and managerial expertise, and financial resources to efficiently develop and produce the Petroleum resources of the Contract Area, and desires to contract with SOCAR for that purpose.

BUNUNLA TƏSDİQ EDİLİR Kİ, yuxarıda şərh edilənlərin və aşağıda göstəriləcək qarşılıqlı öhdəliklərin müqabil surətdə yerinə yetirilməsi üçün Tərəflər aşağıdakılar barəsində razılığa gəlmişlər:

NOW THEREFORE, for and in consideration of the premises and mutual covenants hereinafter set forth, the Parties agree as follows:

MADDƏ 1

İŞTİRAK PAYLARI

1.1 Hər Podratçı tərəfin bu Saziş üzrə hüquqları və öhdəlikləri bu Sazişin Bağlandığı tarix üçün iştirak paylarının aşağıda göstərilmiş müvafiq faizlərində ("İştirak payları") təsbit edilir:

Podratçı tərəflər	Pay faizləri
BP	əlli (50) faiz
ONŞ	əlli (50) faiz
CƏMİ	yüz (100) faiz

1.2 Tərəflər razılaşırlar ki, İştirak paylarının müəyyənləşdirilmiş faizləri, Kontrakt sahəsi barəsində bir tərəfdən Podratçı tərəflərin və ya onların Ortaq şirkətlərinin hər hansı biri ilə, digər tərəfdən isə hər hansı Hökumət orqanı və ya ARDNŞ arasında hər hansı əvvəlki sazişlərdən və ya müqavilələrdən irəli gələ bilən bütün hüquq və öhdəlikləri əvəz edir. Tərəflər həmçinin razılaşırlar ki, Bağlanma tarixindən başlayaraq bu Saziş Kontrakt sahəsi barəsində ARDNŞ ilə Podratçı tərəflər arasında vahid və tam razılaşmadır.

ARTICLE 1

PARTICIPATING INTERESTS

1.1 The rights and obligations under this Agreement of each of the Contractor Parties shall be held in the following respective percentage participating interests (the "Participating Interest") as of the Execution Date:

Contractor Parties	Percentage
BP	fifty (50) percent
SOA	fifty (50) percent
TOTAL	one hundred (100) percent

1.2 The Parties agree that the percentage Participating Interest shares replace any rights and obligations which may exist regarding the Contract Area by virtue of any prior agreement or contract between any of the Contractor Parties or their Affiliates on the one hand, and any Governmental Authority or SOCAR on the other hand. The Parties agree that, from the Execution Date, this Agreement constitutes the sole and complete understanding between SOCAR and the Contractor Parties regarding the Contract Area.

MADDƏ 2

HÜQUQLARIN VERİLMƏSİ VƏ SAZİŞİN ƏHATƏ DAİRƏSİ

2.1 <u>Müstəsna hüquq verilməsi</u>

Bu Sazişlə ARDNŞ Podratçıya bu Sazişin şərtlərinə uyğun olaraq və onun qüvvədə olduğu müddət ərzində Kontrakt sahəsinin hüdudları daxilində və həmin sahə ilə bağlı Neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verir. Burada xüsusi göstərilən hüquqlar istisna olmaqla, bu Saziş dənizin səthi və dibi, yerin təki, habelə hər hansı digər təbii ehtiyatlar və ya su ehtiyatları barəsində Neft-qaz əməliyyatlarından savayı hər hansı başqa fəaliyyət növü ilə məşğul olmaq üçün hüquqlar nəzərdə tutmur.

2.2 <u>Podratçının məsrəflərin əvəzinin ödənilməsi hüququndan istisna</u>

Bu Sazişin başqa hissələrində xüsusi nəzərdə tutulmuş hallar istisna olmaqla, bu Sazişin qüvvədə olduğu müddət, o cümlədən 4-cü Maddədə nəzərdə tutulan uzadılmış müddətlərin hamısı qurtardıqda Kontrakt sahəsində sənaye hasilatı başa çatdıqdan sonra Neft-qaz əməliyyatları nəticəsində əldə edilən hasilatın həcmi bu Sazişin şərtlərinə uyğun olaraq Podratçının Əsaslı məsrəflərinin və Əməliyyat məsrəflərinin tam ödənilməsi üçün kifayət etmirsə, Podratçı əvəzi ödənilməmiş məsrəflərinin ödənilməsi və ya kompensasiya olunması hüququna malik deyildir.

ARTICLE 2

GRANT OF RIGHTS AND SCOPE

2.1 <u>Grant of Exclusive Right</u>

SOCAR hereby grants to Contractor the sole and exclusive right to conduct Petroleum Operations within and with respect to the Contract Area in accordance with the terms of this Agreement and during the term hereof. Except for the rights expressly provided for herein, this Agreement shall not include rights for any activity other than Petroleum Operations with respect to surface areas and sea beds, sub-soil or to any other natural resource or aquatic resources.

2.2 <u>Exception from Contractor's Right to Cost Recovery</u>

Except as expressly provided elsewhere herein, in the event production resulting from Petroleum Operations, upon completion of commercial production from the Contract Area at the end of the term of this Agreement, inclusive of all extensions provided in Article 4, is insufficient for full recovery of Contractor's Capital Costs and Operating Costs as provided hereunder, then Contractor shall not be entitled to any reimbursement or compensation for any of its costs not recovered.

MADDƏ 3

TƏRƏFLƏRİN TƏMİNATLARI, ÜMUMİ HÜQUQLARI VƏ ÖHDƏLİKLƏRİ

3.1 ARDNŞ-nin təminatları

ARDNŞ bildirir və təminat verir ki:

(a) o, öz Nizamnaməsinin şərtlərinə uyğun olaraq lazımi qaydada təşkil edilmişdir və mövcudluğu qanunidir; və

(b) o, bu Sazişi bağlamaq və icra etmək, bu Sazişin şərtlərinə əsasən Podratçıya hüquqlar və mənafelər vermək və bu Saziş üzrə öz öhdəliklərini yerinə yetirmək üçün Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş bütün səlahiyyətlərə malikdir.

3.2 ARDNŞ-nin ümumi öhdəlikləri

(a) Neft-qaz əməliyyatlarının həyata keçirilməsi üçün Podratçının müraciətinə əsasən ARDNŞ öz səlahiyyətlərinin tam həcmi daxilində Podratçının aşağıdakıları alması üçün Podratçıya kömək etməkdən ötrü Hökumət orqanlarına münasibətdə qanun çərçivəsində mümkün olan bütün səyləri göstərir:

(i) Neft-qaz əməliyyatlarının səmərəli həyata keçirilməsi üçün Hökumət orqanlarının bütün zəruri icazələrini, o cümlədən, lakin bunlarla məhdudlaşmadan, gömrük sənədlərini, vizaları, yaşayış icazələrini, rabitə vasitələrindən istifadə üçün icazələri, torpaq sahələrindən və ya sudan istifadə üçün icazələri, idxal və ixrac lisenziyalarını, bank hesablarının açılmasını, ofis sahələri və işçilər üçün mənzillər əldə edilməsini; habelə

ARTICLE 3

WARRANTIES AND GENERAL RIGHTS AND OBLIGATIONS OF THE PARTIES

3.1 Warranties of SOCAR

SOCAR represents and warrants that:

(a) it is duly organised and validly existing in accordance with the terms of its Charter; and

(b) it has full authority under the laws of the Republic of Azerbaijan to execute and perform this Agreement, to grant the rights and interests to Contractor as provided under this Agreement and to fulfil its obligations under this Agreement.

3.2 General Obligations of SOCAR

(a) Upon the request of Contractor for the implementation of Petroleum Operations, SOCAR within the full limits of its authority shall use its best lawful endeavours with respect to Governmental Authorities to assist Contractor to obtain the following:

(i) any necessary Governmental Authority approvals, including but not limited to customs clearances, visas, residence permits, access to communication facilities, licenses to enter land or water, import and export licenses, the opening of bank accounts, the acquisition of office space and employee accommodation, as may be necessary for efficient implementation of Petroleum Operations; and

(ii) Kontrakt sahəsinə aid olan, lakin ARDNŞ-nin ixtiyarında və ya onun nəzarəti altında olmayan bütün geoloji, geofiziki, geokimyəvi və texniki məlumatları (o cümlədən quyular haqqında məlumatları və sair informasiyanı).

(b) ARDNŞ Neft-qaz əməliyyatlarının səmərəli həyata keçirilməsi üçün zəruri olduğu hallarda bütün başqa müvafiq məsələlərdə Podratçıya kömək etməkdən ötrü öz səlahiyyətlərinin tam həcmi daxilində qanun çərçivəsində mümkün olan bütün səyləri göstərir.

(c) Podratçı yuxarıda göstərilənlərin təmin edilməsi ilə əlaqədar ARDNŞ-nin çəkdiyi bütün qanunauyğun, ağlabatan, faktiki və birbaşa məsrəfləri ödəyir, bu şərtlə ki, bunlar müvafiq sənədlərlə təsdiq edilmiş olsun.

(d) Podratçının müraciətinə əsasən ARDNŞ özündə və ya onun Ortaq şirkətlərində, yaxud onun və ya onların nəzarəti altında olan və Kontrakt sahəsinə aid olan bütün geoloji, geofiziki, geokimyəvi və texniki məlumatları və informasiyanı, o cümlədən quyulara dair hər cür məlumatı Podratçıya təqdim edir. Podratçı bu Sazişin icrası ilə əlaqədar bu məlumatların və ya informasiyanın toplanması, qaydaya salınması və Podratçıya çatdırılmasında ARDNŞ-nin çəkdiyi faktiki birbaşa məsrəfləri ödəyir; ARDNŞ bu məsrəflərə görə Podratçıya nə mənfəət götürmək, nə də zərərə düşmək prinsipi əsasında hesab təqdim edir. Əgər ARDNŞ-nin təqdim etdiyi hesabdakı hər hansı bəndlər Podratçının nöqteyi-nəzərincə göstərilən tələbi təmin etmirsə, Podratçı bunu ARDNŞ-ə bildirir, bundan sonra ARDNŞ və Podratçı irəli sürülmüş etirazları birlikdə nizama salmaq üçün bütün lazımi tədbirləri görürlər. ARDNŞ bu öhdəliyin yerinə yetirilməsi ilə əlaqədar hər hansı məlumatın və ya informasiyanın düzgünlüyünə və ya dolğunluğuna heç bir təminat vermir.

(ii) all geological, geophysical, geochemical and technical data (including well data and any other information) of relevance to the Contract Area not in SOCAR's possession or under its control.

(b) SOCAR within the full limits of its authority shall also use its best lawful endeavours to assist Contractor in all other relevant matters as may be necessary for the efficient implementation of Petroleum Operations.

(c) Contractor shall reimburse SOCAR for any lawful reasonable actual direct costs incurred with respect to the provision of the foregoing, provided such costs are supported by appropriate documentary evidence.

(d) Upon request of Contractor, SOCAR shall provide to Contractor all geological, geophysical, geochemical and technical data and information in the possession or control of SOCAR or its Affiliates of relevance to the Contract Area including all kinds of well data. Contractor shall pay the actual direct costs incurred by SOCAR in the implementation of this Agreement in gathering together, handling and delivering any such data or information to Contractor, which costs will be invoiced to Contractor by SOCAR on the basis that SOCAR is to suffer no loss and obtain no gain. If Contractor does not accept that any items as invoiced by SOCAR satisfy this requirement, Contractor shall notify SOCAR of any such objections and SOCAR and Contractor shall take all necessary steps to mutually resolve all objections raised by Contractor. SOCAR makes no warranties as to the accuracy or completeness of any such data or information in connection with the performance of such obligation.

3.3 Podratçı tərəflərin təminatları və hüquqları

(a) Podratçı tərəflərin hər biri bildirir ki, o, öz təsis sənədlərinin şərtlərinə uyğun olaraq lazımi qaydada təşkil edilmişdir, mövcudluğu qanunidir və müvafiq hökumət icazələrinin alınması şərtilə bu Sazişin müddəalarına müvafiq surətdə Neft-qaz əməliyyatlarının aparılması üçün Azərbaycan Respublikasında və başqa yerlərdə lazımi filiallar və ofislər açmağa və saxlamağa səlahiyyəti vardır.

(b) Hər Podratçı tərəfə, onun Ortaq şirkətlərinə, habelə Podratçının Subpodratçılarına səlahiyyət verilir ki, bu Sazişin qüvvədə olduğu bütün dövr ərzində Azərbaycan Respublikasında təsərrüfat fəaliyyəti və Neft-qaz əməliyyatları aparmaq üçün və ya bunlarda iştirak etmək üçün, o cümlədən Neft-qaz əməliyyatları üçün tələb olunan hər hansı əmlakı satın almaq, icarəyə götürmək və ya əldə etmək üçün Azərbaycan Respublikasında öz filiallarını, daimi idarələrini, daimi nümayəndəliklərini və təsərrüfat fəaliyyətinin digər formalarını təsis etsinlər, bu şərtlə ki, belə nümayəndəliklər və təsərrüfat fəaliyyətinin digər formaları Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş rəsmiyyətlərə və qaydalara zidd olmasın.

3.4 Podratçı tərəflərin ümumi öhdəlikləri

(a) 3.5 bəndinin müddəalarını nəzərə almaq şərtilə, Podratçı tərəflər bu Sazişdə müəyyən olunmuş şərtlərə uyğun olaraq Kəşfiyyat dövrü və Əlavə kəşfiyyat dövrü ərzində lazımi maliyyə vəsaitini, habelə Kontrakt sahəsində Karbohidrogen ehtiyatlarının qiymətləndirilməsi və işlənməsi üçün maliyyə vəsaitini təmin edirlər.

(b) Podratçı Neft-qaz əməliyyatlarını bu Sazişin şərtlərinə müvafiq şəkildə, lazımi səylə, təhlükəsiz və səmərəli surətdə və beynəlxalq neft-qaz sənayesində hamılıqla qəbul edilmiş prinsiplərə uyğun olaraq aparmağı öhdəsinə götürür. Texnoloji obyektlər və avadanlıq üçün layihə

3.3 Warranties and Rights of Contractor Parties

(a) Each Contractor Party represents that it is duly organised and validly existing in accordance with the terms of its foundation documents and is authorised, subject to governmental authorisations, to establish and maintain such branches and offices in the Republic of Azerbaijan and elsewhere as may be necessary to conduct Petroleum Operations in accordance with the terms and conditions of this Agreement.

(b) Each Contractor Party, its Affiliates, and Contractor's Sub-contractors are hereby authorised throughout the term of this Agreement to establish such branches, permanent establishments, permanent representation and other forms of business in the Republic of Azerbaijan as may be necessary or appropriate to qualify to do business in the Republic of Azerbaijan and to conduct or participate in Petroleum Operations, including the purchase, lease or acquisition of any property required for Petroleum Operations, provided such establishments and other forms of businesses comply with the formalities and procedures of laws of the Republic of Azerbaijan in respect thereof.

3.4 General Obligations of Contractor Parties

(a) Subject to Article 3.5, the Contractor Parties shall provide the necessary funds during the Exploration Period and the Additional Exploration Period and also funds to appraise, evaluate and develop the Petroleum resources within the Contract Area in accordance with the terms and conditions set forth in this Agreement.

(b) Contractor shall conduct Petroleum Operations in accordance with the terms of this Agreement in a diligent, safe and efficient manner and in accordance with generally accepted principles of the international Petroleum industry. As regards design standards and specifications for facilities

standartları və texniki şərtlər Layihə standartlarına uyğun olmalıdır. Bu Sazişin bu müddəa ilə ziddiyyət təşkil edən hər hansı şərtinə baxmayaraq, əgər hər hansı Podratçı tərəfin və ya onun Əsas ana şirkətinin hər hansı fəaliyyəti, yaxud fəaliyyətsizliyi həmin Podratçı tərəfin və ya onun Əsas ana şirkətinin tətbiq edilən yurisdiksiyanın qanunlarına əsasən cəzalandırılmasına gətirib çıxara bilərsə, Podratçı tərəflərdən heç biri belə fəaliyyətə və ya fəaliyyətsizliyə məcbur edilə bilməz.

3.5 <u>ONS-in İştirak payının maliyyələşdirilməsinə dair xüsusi müddəa</u>

(a) Digər Podratçı tərəflər Qüvvəyəminmə tarixindən başlayaraq İşlənmə proqramının təsdiq edilməsi tarixinədək ONŞ-in İştirak payına düşən Neft-qaz əməliyyatları məsrəflərinin yüz (100) faizini, onların hər birinin İştirak payının bütün İştirak paylarının cəminə nisbətində maliyyələşdirməyi öhdələrinə götürürlər ("Maliyyələşdirmə"). Belə Maliyyələşdirmənin əvəzi Digər Podratçı tərəflərə 3.5(c) bəndində göstərilən qaydalara müvafiq olaraq və 3.5(b) bəndi ilə nəzərdə tutulmuş faizlərdən başqa heç bir digər faizlər tətbiq olunmadan Saziş üzrə ONŞ-in İştirak payına düşən Karbohidrogenlərin bir hissəsinin hesabına ödəniləcək.

(b) Digər Podratçı tərəflərin belə Maliyyələşdirmə ilə əlaqədar xərclər çəkmiş olduğu tarixdən başlayaraq Digər Podratçı tərəflərə Maliyyələşdirmənin əvəzinin tam ödənilməsi tarixinə qədər Maliyyələşdirmənin ödənilməmiş balansına ("Ödənilməmiş balans") hər Təqvim rübü LİBOR üstəgəl iki (2) faiz dərəcəsi ilə illik faiz hesablanır. Ödənilməmiş balans, Digər Podratçı tərəflərin ONŞ-in İştirak payını 3.5(a) bəndinə əsasən maliyyələşdirmək üçün ayırdığı bütün vəsaitlərdən (onlara bu 3.5(b) bəndinə uyğun surətdə hesablanmış faizlərlə birlikdə), 3.5(c) bəndinə müvafiq qaydada ONŞ-in İştirak payına düşən və Maliyyələşdirmənin əvəzinin ödənilməsi üçün Digər

and equipment the Design Standards shall apply. No Contractor Party shall be required to act or refrain from acting if to do so would make such Contractor Party or its Ultimate Parent Company liable to penalization under the laws of any jurisdiction applicable to such Contractor Party or its Ultimate Parent Company notwithstanding anything to the contrary in this Agreement.

3.5 <u>Special Provision for Carrying SOA's Participating Interest</u>

(a) The Other Contractor Parties shall have the obligation to carry, in the proportion that each of their Participating Interests bears to the total of all of their Participating Interests, one hundred (100) percent of Petroleum Costs attributable to SOA's Participating Interest from the Effective Date until the date of approval of the Development Programme (the "Carry"). Such Carry shall be reimbursed to the Other Contractor Parties by SOA compensating the Other Contractor Parties from a part of Petroleum allocated to SOA's Participating Interest share under this Agreement in accordance with the procedures set forth in Article 3.5(c) without any interest accrued other than as provided for in Article 3.5(b).

(b) From the date costs related to such Carry are incurred by the Other Contractor Parties until the date of reimbursement to the Other Contractor Parties of the Carry in full, an annual interest rate equal to LIBOR plus two (2) percent shall be applied to the unrecovered balance of the Carry (the "Unrecovered Balance") on a Calendar Quarter basis. The Unrecovered Balance means all funds allocated by the Other Contractor Parties to carry SOA's Participating Interest share of Petroleum Costs under Article 3.5(a), together with interest accumulated thereon as calculated pursuant to this Article 3.5(b), less the amounts in equivalent value of SOA's share of Petroleum provided to

Podratçı tərəflərə təqdim edilən Karbohidrogenlərin dəyərinə ekvivalent məbləğləri çıxmaqla müəyyən edilir.

(c) Sənaye hasilatının başlanma tarixindən etibarən ONŞ Maliyyələşdirmənin əvəzini Digər Podratçı tərəflərə onların hər birinin İştirak payının bütün İştirak paylarının cəminə olan nisbətdə aşağıdakı qaydada ödəyəcək:

(i) ONŞ-in İştirak payına düşən Məsrəflərin əvəzinin ödənilməsi üçün Karbohidrogenlərin yüz (100) faizi Maliyyələşdirmənin əvəzinin və ona hesablanmış faizlərin ödənilməsinə yönəldiləcək;

(ii) 3.5(c)(i) bəndinə əsasən Maliyyələşdirmənin əvəzinin və ona hesablanmış faizlərin ödənilməsi üçün nəzərdə tutulan Karbohidrogenlərin həcminə mülkiyyət hüququ Digər Podratçı tərəflərə Çatdırılma məntəqəsində keçir. Karbohidrogenlərin sözügedən həcmlərinin dəyəri 13.1 bəndinin müddəalarına uyğun olaraq hesablanır.

(d) Bu Sazişin 3.5(c) bəndinin müddəaları ilə ziddiyyətə baxmayaraq, ONŞ Ödənilməmiş balansın əvəzini bütövlüklə və ya qismən öz payına düşən Mənfəət Karbohidrogenləri hesabına vaxtından əvvəl ödəyə bilər.

(e) ONŞ öz İştirak payını bütövlüklə və ya qismən Üçüncü tərəfə və ya Podratçı tərəfə güzəşt etdikdə, Digər Podratçı tərəflərin bu Sazişin 3.5(a) bəndi ilə nəzərdə tutulan öhdəlikləri İştirak payının güzəşt edilən hissəsinə proporsional olaraq azalır. İştirak payını ONŞ-dən alan tərəf Maliyyələşdirmə öhdəliyini onun İştirak payının bütün Digər Podratçı tərəflərin İştirak paylarının cəminə olan nisbətdə qəbul edir. ONŞ və/və ya ONŞ-in hüquq varisi güzəşt tarixinə Ödənilməmiş balansın əvəzini (ona hesablanmış faizlə birlikdə) güzəşt edilmiş İştirak payına proporsional məbləğdə Digər Podratçı tərəflərə ödəməyə borcludur, və belə ödəmə güzəşt tarixində həyata

the Other Contractor Parties as compensation therefor in the manner described in Article 3.5(c).

(c) From the Commencement Date of Commercial Production, the Carry shall be reimbursed by SOA to the Other Contractor Parties in the proportion that each of their Participating Interests bears to the total of all of their Participating Interests as follows:

(i) one hundred (100) percent of the Cost Recovery Petroleum attributable to SOA's Participating Interest shall be used to reimburse the Carry and accumulated interest thereon;

(ii) the transfer of title to the Other Contractor Parties of volumes of Petroleum to reimburse the Carry and accumulated interest thereon, as defined in Article 3.5(c)(i), shall be made at the Delivery Point. The value of the said volumes of Petroleum shall be calculated in accordance with the provisions of Article 13.1.

(d) Notwithstanding Article 3.5(c) of this Agreement to the contrary, SOA shall have the right to reimburse in advance all or part of the Unrecovered Balance out of its share of Profit Petroleum.

(e) If SOA assigns all or a part of its Participating Interest to any Third Party or a Contractor Party, the obligations of the Other Contractor Parties provided for in Article 3.5(a) of this Agreement shall be reduced to the extent of the Participating Interest assigned. The assignee of a Participating Interest from SOA shall thereupon assume the Carry obligation in the proportion that its Participating Interest share bears to the total Participating Interest shares of all of the Other Contractor Parties. SOA and/or SOA's assignee shall reimburse to the Other Contractor Parties the portion of the Unrecovered Balance corresponding to the Participating Interest assigned which has not been

keçirilməlidir. Yuxanda göstərilən öhdəliyin ONŞ və/yaxud ONŞ-in hüquq varisi tərəfindən qəbul edilməsi belə güzəştin məcburi şərtidir.

recovered as at the date of assignment, together with interest accrued thereto in accordance with Article 3.5(b), with such reimbursement to occur at the date of the assignment. The acceptance by SOA and/or SOA's assignee of the said obligation for reimbursement shall be a binding condition of such assignment.

(f) Digər Podratçı tərəflərdən hər hansı biri öz İştirak payını bütövlüklə və ya qismən Üçüncü tərəfə, Podratçı tərəfə və ya onun Ortaq şirkətinə güzəşt etdikdə, belə Podratçı tərəfin bu Sazişin 3.5(a) bəndi ilə nəzərdə tutulan öhdəlikləri İştirak payının güzəşt edilən hissəsinə proporsional olaraq azalır. Belə Podratçı tərəfin hüquqi varisi Maliyyələşdirmə öhdəliyini onun İştirak payının bütün Digər Podratçı tərəflərin İştirak paylarının cəminə olan nisbətdə qəbul edir. Yuxanda göstərilən öhdəliyin belə Üçüncü tərəf, Podratçı tərəf və ya Ortaq şirkəti tərəfindən qəbul edilməsi belə güzəştin məcburi şərtidir.

(f) If one of the Other Contractor Parties assigns all or a part of its Participating Interest to a Third Party, a Contractor Party or its Affiliate, the obligations of such Other Contractor Party under Article 3.5(a) of this Agreement shall be reduced to the extent of the Participating Interest assigned. The assignee of such Other Contractor Party shall thereupon assume the Carry obligation in the proportion that its Participating Interest share bears to the total Participating Interest shares of all of the Other Contractor Parties. The acceptance by such Third Party, Contractor Party or Affiliate of the said obligation shall be a binding condition of such assignment.

(g) ONŞ-in bu Saziş üzrə İştirak payının artması heç bir halda Digər Podratçı tərəflərin 3.5(a) bəndinə müvafiq olaraq ONŞ-in İştirak payının maliyyələşdirilməsi üzrə öhdəliklərinin artmasına səbəb ola bilməz.

(g) In no event shall an increase by SOA of its Participating Interest under this Agreement create an obligation of the Other Contractor Parties to carry such increase in SOA's Participating Interest under Article 3.5(a).

MADDƏ 4

KƏŞFİYYAT DÖVRÜ, ƏLAVƏ KƏŞFİYYAT DÖVRÜ, İŞLƏNMƏ VƏ HASİLAT DÖVRÜ

4.1 Kəşfiyyat dövrü

Kəşfiyyat dövrünün müddəti bu Sazişin Qüvvəyəminmə tarixindən etibarən dörd (4) ildir.

4.2 Kəşfiyyat dövrü ərzində iş öhdəlikləri

(a) Podratçı Kəşfiyyat dövrü ərzində aşağıda göstərilən işləri həyata keçirir:

(i) Kontrakt sahəsində ən azı min əlli doqquz (1059) kvadrat kilometr sahəsində üçölçülü seysmik tədqiqat aparır, tədqiqatın nəticələrini təhlil və təfsir edir və qazma üçün təhlükəsiz və ekoloji cəhətdən yararlı yer seçmək məqsədilə Kontrakt sahəsinin mühəndis-geoloji tədqiqatını aparır;

(ii) 4.2(d) bəndinin müddəalarını nəzərə almaq şərtilə, Kontrakt sahəsində iki (2) kəşfiyyat quyusu qazır;

(iii) Ətraf mühitin mühafizəsinə dair lazımi tədqiqat aparır;

(iv) Seysmik tədqiqat, hər kəşfiyyat quyusunun qazılması və digər işlər başa çatdıqca, 4.2(a) (i)–(iii) bəndlərində nəzərdə tutulmuş işlər barəsində tam informasiya, cari və yekun hesabatları təqdim edir.

(b) 4.2(a) (i)–(iii) bəndlərində göstərilmiş işlərin növləri, metodları və həcmi, kəşfiyyat quyularının qazılması və tamamlanması prosesində süxur nümunələrinin götürülməsi

ARTICLE 4

EXPLORATION PERIOD, ADDITIONAL EXPLORATION PERIOD, AND DEVELOPMENT AND PRODUCTION PERIOD

4.1 Exploration Period

The Exploration Period shall be four (4) years from the Effective Date of this Agreement.

4.2 Work Obligations During the Exploration Period

(a) During the Exploration Period Contractor shall carry out the following work:

(i) Shoot, process and interpret a minimum of one thousand and fifty nine (1,059) square kilometres of three dimensional seismic in the Contract Area and carry out an upper section site survey in the Contract Area to select a safe and environmentally sound site for drilling;

(ii) Subject to Article 4.2(d), drill in the Contract Area two (2) exploration wells;

(iii) Conduct the necessary environmental protection study;

(iv) Provide SOCAR with all information on operations specified in Articles 4.2(a) (i)–(iii), both routine and final, after completion of seismic, drilling of each well and all other work.

(b) Types, methods and scope of work as defined in Articles 4.2(a) (i)–(iii), methods and list of analyses including core samplings in the process of drilling and completion of the

daxil olmaqla, tədqiqat işlərinin metodları və siyahısı, həmçinin göstərilən işlər haqqında Podratçının ARDNŞ-ə verdiyi informasiyanın növü, həcmi və müddətləri Kəşfiyyat işləri proqramında təsvir edilir.

(c) Kəşfiyyat dövrü ərzində Podratçının 4.2(a) (i)–(iii) bəndlərində göstərilmiş öhdəliklərinin heç birini və ya bir hissəsini yerinə yetirməməsi Podratçının bu Saziş üzrə öhdəliklərinin Köklü pozuntusu hesab olunur. Bu halda ARDNŞ-nin öz mülahizəsinə görə bu Sazişə 29.1 bəndinə əsasən xitam vermək hüququ vardır və Podratçının Qüvvəyəminmə tarixindən başlayaraq Kəşfiyyat dövrü ərzində çəkdiyi bütün məsrəflərinin Əvəzi ödənilmir. Bu 4.2(c) bəndinə uyğun olaraq bu Sazişə ARDNŞ tərəfindən xitam verilməsi bu 4.2(c) bəndinə əsasən Köklü pozuntuya görə ARDNŞ-nin Podratçıya qarşı yeganə hüquqi müdafiə vasitəsidir. Belə xitam vermə istər ARDNŞ-nin, istərsə də Podratçının xitam vermədən əvvəl meydana çıxa bilən iddialarına heç bir zərər dəymədən həyata keçirilir.

Əgər laydakı təzyiq min (1000) atmosferdən çox olub karbohidrogenlərin sınağı və hasilatı üçün yeni texnologiyaların işlənib hazırlanmasını tələb edərsə, Kəşfiyyat dövrü və ya müvafiq olaraq Əlavə kəşfiyyat dövrü Tərəflərin razılaşdırdığı və müvafiq texnologiyaların işlənib hazırlanması üçün zəruri olan müddətə uzadıla bilər.

Hər hansı qazma qurğusunun, avadanlığın, infrastrukturun olmaması və/yaxud onların əlçatmazlığı, habelə infrastruktur tələblərini Azərbaycan Respublikasında fəaliyyət göstərən neft-qaz operatorlarının iş proqramları ilə əlaqələndirmək zərurətindən irəli gələn hər hansı başqa şəraitin mövcudluğu Podratçıya Kəşfiyyat dövründə və ya Əlavə kəşfiyyat dövründə, yaxud onların uzadılması müddətlərində görüləcək hər hansı işləri modifikasiya etməyə və dəyişdirməyə əsas vermir; lakin bu şərtlə ki, Kəşfiyyat dövrü və ya müvafiq olaraq Əlavə kəşfiyyat dövrü qazıma qurğusundan istifadə etmək imkanı ilə

exploration wells and also types, volumes and deadlines for provision of information on such work by Contractor to SOCAR are described in the Exploration Work Programme.

(c) Contractor's failure to perform all or a portion of its obligations as set out in Articles 4.2(a) (i)–(iii) during the Exploration Period shall constitute a Material Breach by Contractor of its obligations under this Agreement. In this case SOCAR shall have the right at its sole discretion to terminate this Agreement pursuant to Article 29.1, and all costs incurred by Contractor from the Effective Date during the Exploration Period shall not be Cost Recoverable. Termination of this Agreement by SOCAR pursuant to this Article 4.2(c) shall be SOCAR's sole remedy against Contractor for Material Breach under this Article 4.2(c). Such termination shall be without prejudice to any claims either SOCAR or Contractor may have which arose prior to such termination.

In the event that the reservoir pressures are greater than one thousand (1,000) atmospheres requiring the development of new technologies for hydrocarbon testing and production, the Exploration Period or the Additional Exploration Period, as the case may be, may be extended for a period agreed by the Parties as necessary to develop appropriate technologies.

Lack and/or unavailability of any rigs, facilities, infrastructure and any other circumstances caused by the need to co-ordinate infrastructural requirements with the work programmes of Petroleum operators in the Republic of Azerbaijan shall not constitute a basis for Contractor to modify and change any work during the Exploration Period or the Additional Exploration Period or their extensions; provided, however, that the Exploration Period or the Additional Exploration Period, as the case may be, may be extended for a period agreed by the Parties as necessary for access to a drilling rig.

əlaqədar olaraq Tərəflərin razılığa gəldiyi müddətə uzadıla bilər.

(d) Kəşfiyyat dövrü ərzində qazılmalı olan birinci kəşfiyyat quyusu karbohidrogenlərin kommersiya həcmlərini aşkar etməzsə, BP və ARDNŞ məsləhətləşəcək və BP ikinci kəşfiyyat quyusunu qazmamaq qərarına gələ bilər. Belə halda, yuxarıdakı 4.2(a)(ii) bəndində göstərilmiş iş həcmi Podratçı tərəfindən tam yerinə yetirilmiş hesab edilir.

(e) 4.2(a) (i)–(iii) bəndlərində göstərilmiş öhdəliklərin Kəşfiyyat dövrü yaxud onun uzadılmış müddəti ərzində və ya 4.3 bəndində göstərilmiş əlavə işlərin Əlavə kəşfiyyat dövrü yaxud onun uzadılmış müddəti ərzində yerinə yetirilməməsinə yeganə səbəb Fors-major halının baş verməsi ola bilər.

4.3 <u>Əlavə kəşfiyyat dövrü</u>

(a) Əgər Podratçı 4.2(a) (i)–(iii) bəndlərində nəzərdə tutulmuş və Kəşfiyyat dövründə yerinə yetirilməli olan kəşfiyyat işlərini tam və vaxtında yerinə yetirərsə, yaxud BP 4.2(d) bəndinə əsasən ikinci kəşfiyyat quyusunu qazmamaq qərarına gələrsə, Podratçı Kəşfiyyat dövrünün son doxsan (90) günü ərzində ARDNŞ-ə əlavə kəşfiyyat işləri aparmaq niyyətində olduğu barədə, həmin əlavə kəşfiyyat işlərinin növlərinin və həcminin siyahısını təqdim edərək onların vacibliyini əsaslandırmaqla, yazılı bildiriş verə bilər.

Bu bildirişdə Podratçının Əlavə kəşfiyyat dövrü ərzində əlavə kəşfiyyat işləri aparması üçün ARDNŞ-nin yazılı şəkildə razılıq verməsi xahiş olunur və ARDNŞ Podratçının yazılı sorğusunu aldıqdan sonra doxsan (90) gün ərzində razı olub-olmadığını yazılı şəkildə bildirir və Kəşfiyyat dövrü ARDNŞ-dən bu cür razılıq alınanadək avtomatik olaraq uzadılır (belə razılıq verməkdən əsassız imtina edilməməlidir). Podratçının ixtiyarı var ki, Kəşfiyyat dövrü qurtardıqdan yaxud ARDNŞ-nin razılığı alındıqdan sonra,

(d) In the event that the first exploration well to be drilled during the Exploration Period does not encounter commercial hydrocarbons, then BP and SOCAR shall consult, and BP may elect not to drill the second exploration well. In such event, the scope of work set out in Article 4.2(a)(ii) above shall be deemed to have been completely fulfilled by Contractor.

(e) The sole excuse for the failure to carry out the obligations set out in Articles 4.2(a) (i)–(iii) during the Exploration Period or its extensions or additional work as set out in Article 4.3 during the Additional Exploration Period or its extensions shall be the occurrence of Force Majeure circumstances.

4.3 <u>Additional Exploration Period</u>

(a) Subject to complete and timely fulfilment by Contractor of the exploration work as set out in Articles 4.2(a) (i)–(iii) to be performed during the Exploration Period, or if BP elects not to drill the second exploration well as provided in Article 4.2(d), Contractor may within ninety (90) days before the end of the Exploration Period notify SOCAR in writing of its desire to carry out additional exploration work and provide a list of types and scope of work and justification of such additional exploration work.

Such notice shall request SOCAR's written approval to the performance by Contractor of additional exploration work during the Additional Exploration Period and SOCAR shall declare in writing its approval or disapproval (such approval not to be unreasonably withheld) within ninety (90) days of receipt of such written request from Contractor and the Exploration Period shall automatically be extended until such approval has been given by SOCAR. Contractor shall have the right to proceed to the Additional Exploration

bu hadisələrdən hansının daha gec baş verməsindən asılı olaraq, üç (3) illik Əlavə kəşfiyyat dövrünə başlasın. Əlavə kəşfiyyat dövrü ərzində Podratçı ən azı iki (2) kəşfiyyat quyusu qazmalıdır.

(b) Podratçının Əlavə kəşfiyyat dövrü ərzində əlavə kəşfiyyat işlərini (və ya onların bir hissəsini) yerinə yetirməməsi Podratçının bu Saziş üzrə öhdəliklərinin Köklü pozuntusu kimi qiymətləndirilir. Bu halda ARDNŞ-nin öz mülahizəsinə görə bu Sazişə xitam vermək hüququ vardır və Podratçının Kəşfiyyat dövrü və Əlavə kəşfiyyat dövrü ərzində çəkdiyi bütün məsrəflərinin Əvəzi ödənilmir. Bu 4.3 bəndinə uyğun olaraq bu Sazişə ARDNŞ tərəfindən xitam verilməsi bu 4.3 bəndinə əsasən Köklü pozuntuya görə ARDNŞ-nin Podratçıya qarşı yeganə hüquqi müdafiə vasitəsidir. Belə xitam vermə istər ARDNŞ-nin, istərsə də Podratçının xitam vermədən əvvəl meydana çıxa bilən iddialarına heç bir zərər dəymədən həyata keçirilir.

4.4 <u>Kəşf</u>

Kəşfiyyat dövrünün sonuna qədər və ya Podratçının Əlavə kəşfiyyat dövrünə keçdiyi halda Əlavə kəşfiyyat dövrü sonuna qədər Podratçı Kəşf və onun kommersiya dəyəri haqqında ARDNŞ-ə yazılı bildiriş göndərib həmin Kəşfə dair müvafiq məlumatların xülasəsini, o cümlədən, lakin bununla məhdudlaşmadan, aşağıdakı məlumatları (mövcud olduğu həcmdə) təqdim edir: Kəşfin yerləşmə planı, geoloji xəritələr və təfsirlər, seysmik və digər geofiziki məlumatlar, qazma haqqında hesabatlar, quyuların karotaj diaqramları, süxur nümunələri, litoloji xəritələr və layların təsviri, lay sınayıcısı ilə layların sınaq nümunələri, tamamlama işləri haqqında hesabatlar, hasilat sınağına dair məlumatlar, o cümlədən çıxarılmış mayenin miqdarı, təzyiqin artırılması və azaldılması üsulu ilə quyuların tədqiqi, təzyiqin təhlili, neft, qaz və su nümunələrinin təhlili, habelə beynəlxalq neft-qaz sənayesində hamılıqla qəbul edilmiş təcrübəyə uyğun olaraq verilən digər məlumatlar ("Kəşf və onun kommersiya dəyəri haqqında bildiriş").

Period which shall be three (3) years from the end of the Exploration Period or receipt of SOCAR's approval whichever is later. During the Additional Exploration Period Contractor shall drill at least two (2) exploration wells.

(b) Contractor's failure to perform the additional exploration work (or any portion thereof) to be performed during the Additional Exploration Period shall constitute a Material Breach by Contractor of its obligations under this Agreement. In this case SOCAR shall have the right at its sole discretion to terminate this Agreement, and all costs incurred by Contractor from the Effective Date during the Exploration Period and the Additional Exploration Period shall not be Cost Recoverable. Termination of the Agreement by SOCAR pursuant to this Article 4.3 shall be SOCAR's sole remedy against Contractor for Material Breach under this Article 4.3. Such termination shall be without prejudice to any claims either SOCAR or Contractor may have which arose prior to such termination.

4.4 <u>Discovery</u>

Before the end of the Exploration Period or if Contractor enters the Additional Exploration Period then before the end of the Additional Exploration Period, Contractor shall notify SOCAR in writing of a Discovery and its commerciality, summarising relevant information relating to said Discovery, including but not limited to the following, to the extent same are available: location plan, geological maps and interpretations, seismic and other geophysical data, drilling reports, well logs, core samplings, lithologic maps and description of formations, drill stem tests, completion reports, production tests including quantities of fluids produced, build-up/draw down tests and pressure analysis, and analyses of oil, gas and water samples and other information consistent with generally accepted international Petroleum industry practice ("Notice of Discovery and its Commerciality").

Əgər Podratçı Kəşfiyyat dövrünun sonunadək, və ya Podratçı Əlavə kəşfiyyat dövrünə keçərsə onda müvafiq olaraq Əlavə kəşfiyyat dövrünün sonunadək Kəşf və onun kommersiya dəyəri haqqında bildiriş təqdim etməsə, ARDNŞ bu Sazişə xitam verə bilər yaxud Kəşfiyyat dövrünün və ya müvafiq olaraq Əlavə kəşfiyyat dövrünün Kəşf və onun kommersiya dəyəri haqqında bildirişi verməyə zəruri olan müddətə uzadılması haqqında Podratçı ilə razılığa gələ bilər. ARDNŞ bu Sazişə xitam vermək qərarına gəlsə, Podratçının xitam tarixinə çəkdiyi bütün məsrəflərinin Əvəzi ödənilmir.

In the event Contractor does not submit a Notice of Discovery and its Commerciality before the end of the Exploration Period or if Contractor proceeds to the Additional Exploration Period then before the end of the Additional Exploration Period, as the case may be, SOCAR shall have the right to terminate this Agreement or agree with Contractor to extend the Exploration Period or the Additional Exploration Period, whichever is appropriate, for the time required to submit a Notice of Discovery and its Commerciality. In the event SOCAR elects to terminate this Agreement, all costs incurred by Contractor at the date of such termination shall not be Cost Recoverable.

Əgər mövcud yatağın/yataqların və/yaxud Kəşfin qiymətləndirilməsi mövcud yatağın/yataqların və/yaxud Kəşfin təbii sərhədlərinin Kontrakt sahəsinin hüdudlarından kənara çıxdığını göstərirsə, ARDNŞ həmin əlavə sahələri Podratçıya vermək hüququna malikdir (lakin borclu deyildir) və onlar verildiyi halda, həmin əlavə sahələr bu Sazişin predmeti olur.

In the event the appraisal of existing pool/pools and/or a Discovery indicates that the natural boundary of the existing pool/pools and/or a Discovery extends to areas outside the Contract Area, SOCAR shall be entitled (but not obligated) to grant the additional areas to Contractor and if granted such additional areas shall become the subject of this Agreement.

4.5 <u>İşlənmə və hasilat dövrü</u>

İşlənmə və hasilat dövrü İşlənmə proqramının ARDNŞ tərəfindən təsdiq edildiyi tarixdən başlanır və həmin tarixdən etibarən otuz (30) il müddətində davam edir. İşlənmə və hasilat dövrü Podratçının xahişi ilə Kontrakt sahəsindən Karbohidrogenlərin kommersiya cəhətindən səmərəli hasilatının və ləğvetmə əməliyyatlarının başa çatdırılması üçün zəruri olan müddətə uzadıla bilər. Belə uzadılma və onun müddəti ARDNŞ tərəfindən təsdiq edilməlidir.

4.5 <u>Development and Production Period</u>

The Development and Production Period shall begin from the date of SOCAR's approval of the Development Programme and shall continue for thirty (30) years after such date. The Development and Production Period may be extended upon Contractor's request for the period sufficient to complete commercially reasonable production of Petroleum in the Contract Area and abandonment operations. Such extension and its duration shall be subject to SOCAR's approval.

4.6 <u>İşlənmə proqramı</u>

(a) Əgər Podratçı ARDNŞ-ə Kəşf və onun kommersiya dəyəri haqqında bildirişi təqdim edirsə, Podratçı Kəşf və onun kommersiya dəyəri haqqında bildirişin təqdim edildiyi tarixdən altı (6) aydan gec olmayaraq ARDNŞ-nin təsdiqinə həmin Kəşfin işlənməsi üçün Neft-qaz əməliyyatları proqramını ("İşlənmə proqramı") təqdim edir, bu şərtlə ki,

4.6 <u>Development Programme</u>

(a) In the event Contractor submits to SOCAR a Notice of Discovery and its Commerciality, Contractor shall no later than six (6) months after the date of such Notice of Discovery and its Commerciality submit to SOCAR for its approval a programme of Petroleum Operations for the development of such Discovery ("Development

İşlənmə proqramında Podratçının Karbohidrogenlərin hasilatına başlamaq öhdəliyi və şərtləri nəzərdə tutulsun. Podratçı ARDNŞ tərəfindən İşlənmə və hasilat proqramının yazılı təsdiqindən sonra qırx səkkiz (48) aydan gec olmayaraq Karbohidrogenlərin sənaye hasilatına başlamaq üçün lazım olan bütün məqsədəmüvafiq addımları atacaqdır. ARDNŞ-nin İşlənmə proqramını təsdiq etməkdən əsassız olaraq imtina etməyə ixtiyarı yoxdur.

Əgər Podratçı İşlənmə proqramını yuxarıda 4.6(a) bəndində göstərilən altı (6) ay ərzində və ya həmin müddətin hər hansı uzadılması (uzadılmaları) ərzində təqdim etməsə, ARDNŞ həmin altı (6) aylıq müddət və ya müvafiq uzadılma müddəti qurtardıqdan sonra otuz (30) gün ərzində Podratçıya yazılı bildiriş göndərərək bu Sazişə xitam verə bilər və Podratçının çəkdiyi və xitam tarixinə əvəzi ödənilməmiş məsrəflərinin Əvəzi ödənilmir.

(b) Təbii qaz Kəşf olunduğu təqdirdə, yuxarıda 4.6(a) bəndində qeyd olunan altı (6) aylıq müddət Təbii qaz üçün satış bazarlarının tapılması məqsədilə lazımi marketinq tədqiqatlarının aparılması və bütün maraqlı tərəflərlə (potensial alıcılar, hökumət orqanları və subpodratçılar daxil olmaqla, lakin onlarla məhdudlaşmadan) yatağın işlənməsi, Təbii qazın hasilatı, nəqli və satışı üçün zəruri məsələləri əhatə edən sazişlərin bağlanması üçün əlavə dörd (4) il müddətinə uzadılacaq.

Podratçı ARDNŞ ilə birlikdə belə Kəşfin işlənməsinə aid olan və Tərəflər üçün məqbul sayılan sazişləri tezliklə bağlamaq və Üçüncü tərəflərlə Podratçı və ARDNŞ üçün iqtisadi və kommersiya cəhətdən məqbul olan Təbii qazın uzunmüddətli ixrac satışına dair müqavilələri ("Təbii qazın alqı-satqısı müqavilələri") və lazımi nəqletmə sazişlərini bağlamaq üçün mümkün olan bütün ağlabatan səyləri göstərir. Podratçı Təbii qaz üçün həm Azərbaycan Respublikasında, həm də ondan kənarda satış bazarları axtarır.

Programme"), provided that the Development Programme shall include Contractor's commitment and terms to start production of Petroleum. Contractor undertakes to perform all reasonable steps to start commercial production of Petroleum no later than forty-eight (48) months from the date of SOCAR's written approval of the Development Programme. SOCAR shall not unreasonably withhold its approval of the Development Programme.

In the event Contractor does not submit the Development Programme within the six (6) months period referred to in Article 4.6(a) above or during any extension(s) of such period, SOCAR shall have the right to terminate this Agreement by giving written notice to Contractor within thirty (30) days following expiry of the said six (6) months period or the applicable extension(s) of such period, and any unrecovered costs incurred by Contractor at the date of such termination shall not be Cost Recoverable.

(b) In the event of a Natural Gas Discovery, the six (6) months period provided for in Article 4.6(a) above shall be extended for an additional period of four (4) years required to conduct any necessary marketing studies to pursue markets for Natural Gas sales and enter into agreements with all the concerned parties (including without limitation potential buyers, authorities and sub-contractors) covering the elements necessary for the development, production, transportation and sales of the Natural Gas.

Contractor together with SOCAR shall use full and reasonable endeavours to rapidly conclude agreements acceptable to the Parties to develop such Discovery, and with Third Parties to enter into the necessary transportation contracts and long term Natural Gas export sale and purchase agreements that are economically and commercially acceptable to Contractor and SOCAR ("Natural Gas Sale and Purchase Agreements"). Contractor shall pursue markets for Natural Gas both within and outside the Republic of Azerbaijan.

Tərəflər qəbul edirlər ki, marketinq tədqiqatları və Təbii qazın alqı-satqısı müqavilələri və nəqletmə sazişləri barəsində danışıqlar ARDNŞ və Podratçı tərəfindən birlikdə aparılacaq. Belə tədqiqatların nəticələri və Təbii qaz Kəşfinin kommersiya işlənməsinin razılaşdırılmış şərtləri İşlənmə proqramının hazırlanması zamanı Podratçı tərəfindən nəzərə alınır. Bu 4.6(b) bəndində qeyd olunan tədbirlərin yerinə yetirilməsində gecikmə baş verdiyi halda, Tərəflər qeyd olunan dörd (4) illik müddətin uzadılması barədə razılığa gələ bilərlər.

(c) İşlənmə proqramı beynəlxalq neft-qaz sənayesinin hamılıqla qəbul edilmiş standartlarına uyğun surətdə Kontrakt sahəsində Karbohidrogenlərin səmərəli şəkildə və sürətlə işlənib çıxarılmasına dair uzunmüddətli plandır və aşağıdakıları əhatə edir, amma bunlarla məhdudlaşmır:

(i) hər növ quyuların yerləşmə şəbəkəsinə, qazılmasına və tamamlanmasına dair təkliflər;

(ii) Karbohidrogenlərin çıxarılması, saxlanması və nəqli üçün lazım olan mədən hasilat və saxlama obyektlərinə, nəqletmə və çatdırılma vasitələrinə dair təkliflər;

(iii) 18.1(a) bəndinə uyğun olaraq infrastruktura zəruri investisiya qoyuluşuna və Azərbaycan materiallarından, məhsullarından və xidmətlərindən istifadəyə dair təkliflər;

(iv) müvafiq investisiyaların və məsrəflərin smeta dəyəri ilə yanaşı, ayrı-ayrı quyular üzrə alınmış proqnozlar əsasında bütün Kontrakt sahəsində hər kollektor üzrə lay mayelərinin hasilat həcmlərinin proqnozu;

(v) ətraf mühitə və insanların səhhətinə təsirin, əməliyyatların təhlükəsizliyinin qiymətləndirilməsi,

The Parties acknowledge that marketing studies as well as negotiations for Natural Gas Sale and Purchase Agreements and transportation contracts shall be conducted jointly by SOCAR and Contractor. The results of such studies and agreed terms of commercial development of the Natural Gas Discovery shall be considered by Contractor in preparation of the Development Programme. In the event of delay in completion of the actions referred to in this Article 4.6(b), the Parties may agree to extend the said period of four (4) years.

(c) The Development Programme shall be a long range plan for the efficient and prompt development and production of Petroleum from the Contract Area in accordance with generally accepted international Petroleum industry standards and shall include but not be limited to the following:

(i) proposals relating to the spacing, drilling and completion of all types of wells; and

(ii) proposals relating to the production and storage installations, and transportation and delivery facilities required for the production, storage and transportation of Petroleum; and

(iii) proposals relating to necessary infrastructure investments and use of Azerbaijan materials, products and services in accordance with Article 18.1(a); and

(iv) production forecasts for formation fluids for the entire Contract Area by reservoir derived from individual well forecasts and estimates of the investments and expenses involved; and

(v) an environmental impact and health and safety assessment and a plan for preventing environmental

ətraf mühitin çirklənməsinin və ekoloji qəzaların qarşısının alınmasına, eləcə də belə qəzaların nəticələrinin aradan qaldırılmasına dair tədbirlər planı; və

(vi) İşlənmə proqramının hər mərhələsini başa çatdırmaq üçün lazım olan müddətlərin müəyyənləşdirilməsi.

(d) İşlənmə proqramını aldıqdan sonra otuz (30) gün müddətində ARDNŞ Podratçıdan İşlənmə proqramının qiymətləndirilməsi üçün ARDNŞ-ə həqiqətən lazım ola bilən və Podratçının asanlıqla əldə etməsi mümkün olan əlavə informasiya tələb edə bilər.

(e) Əgər ARDNŞ İşlənmə proqramını aldıqdan sonra doxsan (90) gün ərzində həmin proqramda hər hansı dəyişikliklər edilməsi üçün Podratçıya yazılı surətdə müraciət etmirsə, İşlənmə proqramı ARDNŞ tərəfindən təsdiq olunmuş hesab edilir.

(i) ARDNŞ İşlənmə proqramında hər hansı dəyişikliklər edilməsi üçün müraciət etdikdə, Tərəflər təklif olunan dəyişikliklər barədə ARDNŞ-nin yazılı bildirişini Podratçının aldığı tarixdən on beş (15) gün müddətində görüşür və həmin müraciəti müzakirə edirlər. Razılaşdırılmış bütün dəyişikliklər İşlənmə proqramına daxil edilir və belə dəyişilmiş İşlənmə proqramı ARDNŞ tərəfindən təsdiq olunmuş sayılır.

(ii) Tərəflər ARDNŞ tərəfindən təklif edilən dəyişikliklərə dair müvafiq müzakirənin başlanmasından sonra altmış (60) gün ərzində və ya Tərəflərin qarşılıqlı yazılı razılığı ilə müəyyən edilmiş əlavə müddət ərzində razılığa gələ bilmirlərsə, Podratçı növbəti qırx (40) gün ərzində ARDNŞ-nin İşlənmə proqramını təsdiq etməkdən

pollution and any environmental accident, and for steps to clean-up any pollution related to such accident; and

(vi) estimates of the time required to complete phases of the Development Programme.

(d) Within thirty (30) days of receipt of the Development Programme SOCAR may request Contractor to provide such further information as is readily available to Contractor and as SOCAR may reasonably need to evaluate the Development Programme.

(e) Unless SOCAR requests in writing to Contractor any changes to the Development Programme within ninety (90) days of receipt thereof, the Development Programme shall be deemed approved by SOCAR.

(i) In the event that SOCAR requests any changes to the Development Programme then the Parties shall meet within fifteen (15) days of receipt by Contractor of SOCAR's written notification of requested changes and shall discuss such request. Any agreed revision to the Development Programme shall be incorporated into the Development Programme, and such revised Development Programme shall be deemed approved by SOCAR.

(ii) In the event that the Parties do not agree on changes requested by SOCAR within sixty (60) days of the commencement of such discussion, or any extended period mutually agreed by the Parties in writing, Contractor may within a further forty (40) days commence arbitration under the Arbitration Procedure on the question as to whether or not

imtinasının əsassız olub-olmamasını müəyyən etmək məqsədilə Arbitraj qaydasına uyğun surətdə arbitraj araşdırmasına başlaya bilər.

Əgər arbitrlər ARDNŞ-nin İşlənmə proqramını təsdiq etməkdən imtinasının əsassız olduğu barədə qərar qəbul edərlərsə, Podratçının İşlənmə proqramını ARDNŞ tərəfindən təsdiq olunmuş hesab edərək həmin proqrama uyğun surətdə əməliyyatlara başlamağa ixtiyarı vardır. Əgər Podratçı arbitraj qərarı verildikdən sonra bir (1) il ərzində müvafiq İllik iş proqramına və Büdcəyə uyğun olaraq əməliyyatlara başlamırsa, ARDNŞ yuxarıda göstərilən bir (1) illik müddət başa çatdıqdan sonra altmış (60) gün ərzində Podratçıya yazılı bildiriş göndərərək Sazişə xitam verə bilər və Podratçının çəkdiyi və hər hansı ödənilməmiş məsrəflərinin Əvəzi ödənilmir.

Əgər arbitrlər Podratçının təqdim etdiyi İşlənmə proqramının təsdiqindən ARDNŞ-nin imtinasının əsaslı olduğu barədə qərar qəbul edərlərsə, onda Podratçının ixtiyarı var ki, ya yazılı şəkildə (i) İşlənmə proqramı ilə bağlı ARDNŞ-nin tələb etdiyi dəyişiklikləri qəbul etsin və belə dəyişilmiş İşlənmə proqramına müvafiq olaraq, həmin İşlənmə proqramını ARDNŞ tərəfindən təsdiq olunmuş hesab edərək əməliyyatlara başlasın, bu şərtlə ki, belə dəyişilmiş İşlənmə proqramından Podratçının təqdim etdiyi İşlənmə proqramında olan fərqli elementlərlə bağlı Podratçı tərəfindən çəkilən xərclərin əvəzinin ödənilməsi ARDNŞ-nin təsdiqindən asılı olacaq, ya da (ii) arbitrlərin qərarı çıxarıldığı tarixdən altmış (60) gün ərzində Sazişin qüvvəsinə xitam versin, lakin bu halda Podratçının çəkdiyi və hər hansı ödənilməmiş məsrəflərin Əvəzi ödənilmir.

SOCAR's approval of the Development Programme has been unreasonably withheld.

If the decision of the arbitrators is that approval was withheld by SOCAR unreasonably, Contractor shall be entitled to commence operations in accordance with the Development Programme in all respects as if the Development Programme had been approved by SOCAR. If Contractor fails to commence operations within one (1) year of the date of the arbitrators' decision in accordance with the corresponding Annual Work Program and Budget SOCAR shall have the right to terminate this Agreement by giving Contractor notice in writing within sixty (60) days after expiry of the said period of one (1) year and any unrecovered costs incurred by Contractor shall not be Cost Recoverable.

If the arbitrators' decision is that SOCAR reasonably withheld approval of the Development Programme submitted by Contractor, the Contractor shall have the right in writing either (i) to accept the changes to the Development Programme requested by SOCAR and to commence Petroleum Operations in accordance with such amended Development Programme in all respects as if the Development Programme had been approved by SOCAR, provided that recovery of costs incurred by Contractor before the date of the arbitrators' decision with respect to elements of Contractor's Development Programme differing from such amended Development Programme shall depend on SOCAR's approval, or (ii) to terminate this Agreement within sixty (60) days after the date of the decision of the arbitrators and any unrecovered costs incurred by Contractor up to such date shall not be Cost Recoverable.

(f) Podratçı Neft-qaz əməliyyatlarını İllik iş proqramlarının və Büdcələrin icrası yolu ilə həyata keçirir, və onların təsdiqi İşlənmə proqramına müvafiq hissədə dəyişiklik edilməsi hesab edilir.

(g) Podratçı istənilən vaxt, o cümlədən əlavə Kəşflər olduqda və Podratçı belə Kəşflərin işlənməsinə dair qərar qəbul etdikdə, İşlənmə proqramının dəyişdirilməsinə dair Rəhbər komitəyə təkliflər verə bilər, bu şərtlə ki, belə qərar İşlənmə və hasilat dövrünün uzadılmasına əsas olmamalıdır (belə uzatmanın ARDNŞ tərəfindən təsdiq edilməsi halları istisna olmaqla). Həmin təkliflər beynəlxalq neft-qaz sənayesinin standartlarına uyğun olaraq Kontrakt sahəsində Karbohidrogenlərin səmərəli və optimal surətdə işlənib çıxarılması prinsiplərinə uyğun gəlməli və Rəhbər komitə tərəfindən təsdiq olunmalıdır; bu təsdiqdən əsassız olaraq imtina edilə bilməz.

4.7 4.6(a) və 15.2 bəndlərinin müddəaları nəzərə alınmaqla, əgər ARDNŞ-nin İşlənmə proqramını təsdiq etdiyi tarixdən sonra qırx səkkiz (48) ay ərzində Podratçı həmin proqrama uyğun olaraq Kəşfdən irəli gələn işlərə başlamamışdırsa və əgər digər razılaşmalar yoxdursa, ARDNŞ-nin ixtiyarı var ki, yazılı bildiriş verməklə bu Sazişin qüvvəsinə xitam versin və həmin bildirişin verildiyi tarixədək Podratçının belə Kəşfə çəkdiyi və hər hansı ödənilməmiş məsrəflərinin Əvəzi ödənilmir.

(f) Implementation of Petroleum Operations by Contractor shall be through Annual Work Programmes and Budgets, the approval of which shall be deemed to amend the Development Programme to the extent necessary.

(g) Contractor may at any time submit to the Steering Committee proposals to revise the Development Programme, including in the event of further Discoveries and Contractor's decision to develop such Discoveries, provided that such decision shall not constitute a basis to extend the Development and Production Period unless such extension is approved by SOCAR. These proposals shall be consistent with the principles of efficient and optimum development and production of Petroleum from the Contract Area in accordance with international Petroleum industry standards and shall be subject to the approval of the Steering Committee, such approval not to be unreasonably withheld.

4.7 Subject to Articles 4.6(a) and 15.2, if within forty eight (48) months of the date of approval by SOCAR of the Development Programme the Discovery development pursuant to the Development Programme has not been commenced by Contractor, then unless otherwise agreed, SOCAR shall be entitled by giving written notice to terminate this Agreement and any unrecovered costs incurred by Contractor to the date of such notice with respect to the Discovery shall not be Cost Recoverable.

MADDƏ 5

LAYİHƏNİ İDARƏ EDƏN RƏHBƏR KOMİTƏ VƏ İLLİK İŞ PROQRAMLARI

5.1 <u>Layihəni idarə edən Rəhbər komitə</u>

İşlənmə və hasilat dövrünün başlandığı tarixdən ən çoxu otuz (30) gün müddətində ARDNŞ və Podratçı Rəhbər komitə yaradırlar.

Rəhbər komitənin funksiyaları aşağıdakılardan ibarətdir, lakin bunlarla məhdudlaşmır:

(a) Neft-qaz əməliyyatlarına nəzarət;

(b) Podratçının İllik iş proqramlarına və Büdcələrinə baxılması, onların dəyişdirilməsi və təsdiqi;

(c) Mühasibat uçotunun aparılması qaydasına uyğun olaraq məsrəflərin və xərclərin uçotuna nəzarət;

(d) zəruri olduqda, Rəhbər komitənin yardımçı komitələrinin təşkili və onların işinə nəzarət;

(e) kadrların peşə hazırlığı proqramlarına baxılması, onların dəyişdirilməsi və təsdiqi;

(f) 14.2(g) bəndinə uyğun olaraq Ləğvetmə işləri planına və ləğvetmə işləri dəyərinə baxılması və bunların təsdiqi.

5.2 <u>Rəhbər komitənin iş qaydası</u>

Rəhbər komitənin işi və iclasları aşağıda göstərilən qaydalarla aparılır:

ARTICLE 5

STEERING COMMITTEE FOR PROJECT MANAGEMENT AND ANNUAL WORK PROGRAMMES

5.1 <u>Steering Committee for Project Management</u>

SOCAR and Contractor shall, not later than thirty (30) days from the commencement of the Development and Production Period, establish the Steering Committee.

The functions of the Steering Committee shall include but not be limited to:

(a) overseeing Petroleum Operations;

(b) reviewing, revising and approving of Contractor's Annual Work Programmes and Budgets;

(c) supervising the accounting of costs and expenses in accordance with the Accounting Procedure;

(d) in case of necessity, establishing sub-committees of the Steering Committee and reviewing the work of such sub-committees;

(e) reviewing, revising and approving training programmes;

(f) reviewing and approving of the abandonment plan and cost of abandonment operations pursuant to Article 14.2(g).

5.2 <u>Steering Committee Procedure</u>

The following rules shall apply with respect to the Steering Committee and meetings thereof:

(a) Rəhbər komitə ARDNŞ-nin və Podratçının bərabər sayda nümayəndələrindən ibarətdir. Başlanğıc mərhələsində Rəhbər komitənin tərkibinə ARDNŞ-nin iki (2) nümayəndəsi və Podratçının iki (2) nümayəndəsi təyin edilir (hər Podratçı tərəf bir (1) nümayəndə təqdim edir). Eyni şəxs həm ARDNŞ-nin, həm də ONŞ-in nümayəndəsi ola bilməz. İstənilən vaxt Podratçı tərəflərin sayı artdıqda və ya azaldıqda ARDNŞ-nin və Podratçının Rəhbər komitəyə təyin edilən nümayəndələrinin sayı şəraitdən asılı olaraq artırılıb və ya azaldılıb Podratçı tərəflərin sayı ilə bərabərləşdirilir, bu şərtlə ki, ARDNŞ-nin və Podratçının təyin etdikləri nümayəndələrin sayı heç vaxt iki (2) nəfərdən az olmasın. ARDNŞ-nin və Podratçının ixtiyarı var ki, öz nümayəndələrinə əvəzçi təyin etsinlər; əvəzçilər təyin edilmiş nümayəndələrin yerinə iclaslarda iştirak etmək hüququna malikdirlər və Rəhbər komitənin həmin iclaslarında tam səlahiyyətli nümayəndələr sayılırlar. ARDNŞ və Podratçı öz nümayəndələrinin və onların əvəzçilərinin adlarını İşlənmə və hasilat dövrü başlandıqdan sonra iyirmi (20) gün ərzində bir-birinə bildirirlər. ARDNŞ və Podratçı göstərilən nümayəndələri və onların əvəzçilərini digər tərəfə müvafiq surətdə yazılı bildiriş verdikdən sonra dəyişdirə bilərlər.

(a) The Steering Committee shall be comprised of an equal number of members from SOCAR and Contractor. Initially the Steering Committee shall consist of two (2) representatives appointed by SOCAR and two (2) representatives appointed by Contractor (one (1) representative from each Contractor Party). A person cannot represent both SOCAR and SOA. If at any time the number of Contractor Parties increases or decreases the number of representatives to be appointed by each of SOCAR and Contractor shall be increased or reduced, as the case may be, to equal the number of Contractor Parties, provided, however, that the number of representatives to be appointed by each of SOCAR and Contractor shall never be less than two (2). SOCAR and Contractor shall each be entitled to appoint an alternate for each of their representatives, who shall be entitled to attend in place of the designated representatives, such alternate to be considered a representative for all purposes at such Steering Committee meetings. SOCAR and Contractor shall each advise the other of the names of its representatives and their alternates within twenty (20) days following commencement of the Development and Production Period. Such representatives and their alternates may be replaced by SOCAR and Contractor, respectively, upon written notice to the other.

(b) Rəhbər komitənin təsdiqinə çıxarılmış hər hansı məsələ üzrə istər ARDNŞ-nin, istərsə də Podratçının bir (1) səsi vardır. Bu məqsədlə həm ARDNŞ, həm də Podratçı bir-birinə yazılı bildiriş göndərib onların adından səs verməyə səlahiyyət verilmiş nümayəndənin (istəsələr, həm də onun əvəzçisinin) adını göstərirlər. Təyin edilmiş bu şəxslər ARDNŞ-nin və ya Podratçının müvafiq yazılı bildirişinə əsasən vaxtaşırı dəyişdirilə bilər. Yalnız təyin edilmiş səlahiyyətli nümayəndələrin (yaxud onlar olmadıqda əvəzçilərinin) səsləri ARDNŞ-nin və ya Podratçının rəsmi səsi kimi hesaba alınır, hər hansı başqa nümayəndə tərəfindən verilmiş və ya verildiyi güman edilən heç bir başqa səs hesaba alınmır.

(b) SOCAR and Contractor shall each have one (1) vote to cast on any matter submitted for approval by the Steering Committee. For this purpose, each of SOCAR and Contractor shall give written notice to the other specifying the identity of the individual representative (and, if desired, his alternate), who shall be authorised to cast such vote on its behalf. Such designated individuals may be changed from time to time upon written notice by SOCAR or Contractor, as the case may be. No vote cast or purported to be cast by any representative other than said designated individuals (or, in the absence of either, his designated alternate) shall be considered as the official vote of either SOCAR or Contractor, as the case may be.

(c) Rəhbər komitənin sədrini ARDNŞ özünün Rəhbər komitəyə təyin etdiyi nümayəndələr sırasından təyin edir; sədr Rəhbər komitənin iclaslarını aparır.

(d) Rəhbər komitənin katibini Podratçı özünün Rəhbər komitəyə təyin etdiyi nümayəndələr sırasından təyin edir; katibin funksiyasına aşağıdakılar daxildir:

(i) hər iclasdan əvvəl ARDNŞ ilə Podratçı arasında razılaşdırılan gündəliyi tərtib etmək; və

(ii) hər iclasdan sonra ARDNŞ-nin və Podratçının Rəhbər komitənin iclaslarında səs verməyə səlahiyyət verilmiş nümayəndələri arasında razılaşdırılan iclas protokolunu tərtib etmək və yaymaq.

(e) Rəhbər komitənin qərarları yalnız o vaxt qəbul edilmiş sayılır ki, həm ARDNŞ, həm də Podratçı onların lehinə səs versin.

(f) ARDNŞ-nin və Podratçının öz məsləhətçilərini və ekspertlərini Rəhbər komitənin iclaslarına göndərmək hüququ vardır. İclaslarda iştirak edən məsləhətçilər və ekspertlər üçün çəkilən xərclər Rəhbər komitənin razılıq verdiyi hallar istisna olmaqla, Əvəzi ödənilən məsrəflərə aid edilmir.

(g) Həm ARDNŞ-nin, həm də Podratçının nümayəndələrinin azı dörddə üç (3/4) hissəsi, o cümlədən ARDNŞ-nin və Podratçının müvafiq olaraq səsvermə üçün təyin və səlahiyyət verdikləri iki (2) şəxs (və ya onların əvəzçiləri) iştirak etdikdə Rəhbər komitənin iclası yetərsaylı hesab edilir.

(h) Rəhbər komitə Təqvim ilində iki (2) dəfədən az olmayaraq toplanır. Başqa razılaşma olmadıqda iclaslar Bakıda

(c) The chairman of the Steering Committee shall be appointed by SOCAR from one of its appointed representatives to the Steering Committee and shall preside over meetings of the Steering Committee.

(d) The secretary to the Steering Committee shall be appointed by Contractor from one of its appointed representatives to the Steering Committee and shall be responsible for:

(i) the production of an agenda before each meeting, such agenda to be agreed between SOCAR and Contractor; and

(ii) the production and circulation of minutes following each meeting, which minutes shall be agreed between the representatives of SOCAR and Contractor who are the representatives authorised to cast the votes in the Steering Committee.

(e) Decisions of the Steering Committee shall require the affirmative vote of both SOCAR and Contractor.

(f) SOCAR and Contractor shall each be entitled to send advisers and experts to meetings of the Steering Committee. Unless the Steering Committee agrees, the cost of such advisors and experts in attending the meetings shall not be Cost Recoverable.

(g) A quorum of the Steering Committee shall consist of at least three quarters (3/4) of the representatives from each of SOCAR and Contractor, including the two (2) individuals who have been designated by SOCAR and Contractor, respectively, as authorised to cast votes (or their alternates).

(h) The Steering Committee will meet at least two (2) times in a Calendar Year. Meetings shall be held in Baku, unless

keçirilir. Həm ARDNŞ-nin, həm də Podratçının razılığı olduqda Rəhbər komitənin qərarları fiziki iclas keçirilmədən qəbul edilə bilər, bu şərtlə ki, telekonfrans və ya videokonfrans gedişində 5.2(g) bəndinin müddəalarına əsasən müəyyənləşdirilmiş zəruri yetərsaya riayət edilsin; iclas məktublar və ya fakslar mübadiləsi yolu ilə keçirildikdə isə həmin məktubların və ya faksların surətləri bütün Tərəflərə göndərilməlidir. Sonra qərarlar dərhal yazılı şəkildə qeydə alınır və ARDNŞ-nin və Podratçının müvafiq olaraq ARDNŞ və Podratçı adından səs verməyə səlahiyyət verilmiş nümayəndələri tərəfindən təsdiq edilir. İclasın Tərəflərin fiziki iştirakı ilə və ya telekonfrans, məktubların, faksların mübadiləsi vasitəsilə və ya digər qaydada keçirilməsindən asılı olmayaraq, hər bir Tərəfin qərarın qəbul edilməsi prosesində iştirakını təmin etmək üçün Tərəflərin hamısına hər bir iclas barədə bildiriş, fövqəladə hadisələr istisna olmaqla, on beş (15) gün qabaqcadan verilməlidir.

(i) ARDNŞ və Podratçı on beş (15) gün əvvəldən bir-birinə yazılı bildiriş göndərməklə Rəhbər komitənin əlavə iclaslarını çağırmaq hüququna malikdirlər.

5.3 <u>İllik iş proqramları və Büdcələr</u>

(a) Rəhbər komitənin təşkil edildiyi tarixdən ən çoxu otuz (30) gün keçənədək və bundan sonra hər növbəti Təqvim ilinin başlanmasına ən azı üç (3) ay qalmış, İşlənmə və hasilat dövrü ərzində Podratçı həmin Təqvim ili üçün planlaşdırdığı Neft-qaz əməliyyatlarını nəzərdə tutan İllik iş proqramı və ona müvafiq Büdcə hazırlayır və Rəhbər komitənin təsdiqinə verir, yaxud hazırlanıb təsdiqə verilməsini təmin edir. İllik iş proqramı və Büdcə təqdim edildikdən sonra otuz (30) gün ərzində bu sənədlərə, həmçinin onlarla bağlı təklif olunan dəyişikliklərə baxmaq, habelə İllik iş proqramının və Büdcənin son variantını təsdiq etmək məqsədilə Rəhbər komitənin iclası çağırılır. ARDNŞ və Podratçı razılığa gəlmişlər ki, işin gedişində və ya müəyyən hallarla əlaqədar olaraq alınan hər hansı

otherwise agreed. In the event that SOCAR and Contractor agree, the Steering Committee can take decisions without holding an actual meeting; provided that in the event of a teleconference or video conference the quorum requirements set forth in Article 5.2(g) have been complied with and in the event of a meeting via exchange of letters or faxes, such letters and faxes are copied to all Parties. Such decisions shall be recorded in writing promptly thereafter and signed by the representatives of SOCAR and Contractor who are authorised to cast the respective votes of SOCAR and Contractor. Except in an emergency, all Parties shall be given not less than fifteen (15) days advance notice of each meeting, regardless of whether the meeting is in person, by teleconference, by letter, by fax or otherwise, so that each Party may have the opportunity to contribute to the decision-making process.

(i) SOCAR and Contractor shall each have the right to call additional meetings of the Steering Committee upon fifteen (15) days prior written notice to each other.

5.3 <u>Annual Work Programmes and Budgets</u>

(a) Not more than thirty (30) days following the formation of the Steering Committee and thereafter at least three (3) months before the beginning of each Calendar Year during the Development and Production Period, Contractor shall prepare and submit, or cause to be prepared and submitted, to the Steering Committee for approval an Annual Work Programme together with the related Budget in respect of the Petroleum Operations Contractor proposes to be carried out in such Calendar Year. The Steering Committee shall meet within thirty (30) days of receipt of the Annual Work Programme and Budget to consider same and any revisions thereto and to approve the Annual Work Programme and the Budget in its final form. It is agreed by SOCAR and Contractor that knowledge acquired as the work proceeds or

informasiya İllik iş proqramında və Büdcədə düzəliş etmək üçün əsas ola bilər; beləliklə, Podratçı İllik iş proqramında və Büdcədə düzəliş edilməsini Rəhbər komitəyə istənilən vaxt təklif edə bilər. Bu 5.3 bəndində və 5.4 bəndində nəzərdə tutulmuş müddəalar istisna olmaqla, Podratçının müvafiq İllik iş proqramından və Büdcədən xeyli dərəcədə kənara çıxan hər hansı əməliyyatları Rəhbər komitənin razılığını almadan həyata keçirməyə ixtiyarı yoxdur. İllik iş proqramının yerinə yetirilməsi üçün zəruri hallarda Podratçının müvafiq Təqvim ili ərzində xərcləri artırmasına icazə verilir, bu şərtlə ki, xərclərin ümumi məbləğini on (10) faizdən çox artırmaq barəsində Rəhbər komitənin qərarının olduğu hallar istisna edilməklə, ümumi məbləğ qəbul edilmiş büdcənin on (10) faizindən çox olmasın. Bu cür xərclərin zəruriliyi əsaslandırılıb sübuta yetirilərsə, belə qərar qəbul edilməsindən imtina oluna bilməz. Bu Sazişin qalan müddəalarına uyğun olaraq Podratçı İllik iş proqramı təsdiq edildikdən sonra Neft-qaz əməliyyatlarını bu proqrama müvafiq surətdə aparır.

(b) Rəhbər komitənin təşkil edildiyi tarixdən sonra altmış (60) gün ərzində Rəhbər komitə birinci İllik iş proqramını və Büdcəni, hər növbəti İllik iş proqramlarının və Büdcələrin aid olduğu Təqvim ilinin birinci günündək həmin proqramları və büdcələri təsdiq etməyibsə, Podratçının ixtiyarı var (lakin borclu deyildir) ki, İllik iş proqramı və Büdcə Rəhbər komitə tərəfindən təsdiq edilənədək və ya İllik iş proqramı və Büdcə ilə bağlı hər hansı mübahisə, Arbitraj qaydasının müddəalarında nəzərdə tutulduğu kimi, arbitraj yolu ilə həll edilənədək özünün təklif etdiyi İllik iş proqramına və Büdcəyə tam və ya qismən əməl etməklə Neft-qaz əməliyyatları aparsın.

Rəhbər komitə İllik iş proqramını və Büdcəni razılaşdıran kimi və ya arbitraj qərarı elan olunan kimi Podratçı qəbul edilmiş razılaşmaya və ya qərara uyğun olaraq cari

from certain events may justify changes to the details of the Annual Work Programme and Budget; thus Contractor may at any time propose to the Steering Committee an amendment to the Annual Work Programme and Budget. Except as provided in this Article 5.3 and in Article 5.4, Contractor shall not conduct any operations which deviate materially from the applicable Annual Work Programme and Budget without the prior consent of the Steering Committee. If necessary to carry out an Annual Work Programme, Contractor is authorised to make expenditures during the relevant Calendar Year that are in excess of the Budget adopted therefor so long as the aggregate of such excess expenditures does not exceed ten (10) percent of the Budget unless such expenditures exceeding ten (10) percent are approved by the Steering Committee, which approval shall not be withheld where the expenditures have been demonstrated to be reasonable and necessary. In accordance with the other provisions of this Agreement, after approval of an Annual Work Programme, Contractor shall conduct the Petroleum Operations in accordance therewith.

(b) In the event the Annual Work Programme and Budget has not been approved by the Steering Committee in the case of the first Annual Work Programme and Budget within sixty (60) days of the formation of the Steering Committee and in the case of each subsequent Annual Work Programme and Budget by the first day of the Calendar Year to which it relates, Contractor shall be entitled (but not obligated) to carry out Petroleum Operations in accordance with some or all of its proposed Annual Work Programme and Budget until such time as the Annual Work Programme and Budget is agreed by the Steering Committee or any dispute relating to the Annual Work Programme and Budget has been resolved by reference to arbitration in accordance with the Arbitration Procedure.

As soon as agreement on an Annual Work Programme and Budget is reached by the Steering Committee or the decision of the arbitrators is rendered, Contractor shall

və/yaxud növbəti İllik iş proqramını və müvafiq Büdcəni (şəraitə görə) təshih edir, bu şərtlə ki, Podratçı gördüyü işləri ləğv etməyə məcbur olmasın, başlanmış işləri zəruri hesab etdiyi həcmdə axıra çatdıra bilsin, təklif edilən İllik iş proqramı və Büdcə üzrə Neft-qaz əməliyyatları apararkən Podratçının çəkdiyi bütün məsrəflər Neft-qaz əməliyyatları məsrəfləri sayılsın və bu Sazişdə nəzərdə tutulmuş müddəalara müvafiq surətdə Əvəzi ödənilən məsrəflər hesab edilsin. Yuxarıda deyilənlərə baxmayaraq, İllik iş proqramının və Büdcənin hər hansı hissəsinin yerinə yetirilməsi gedişində Podratçının çəkdiyi və Rəhbər komitənin bu İllik iş proqramına və Büdcəyə baxılan iclasının protokolunda göstərilmiş, lakin Rəhbər komitə tərəfindən təsdiq edilməmiş və sonra arbitraj qərarı ilə ARDNŞ-nin nəfinə verilmiş məsrəflər Podratçıya Məsrəflərin əvəzinin ödənilməsi mexanizmi üzrə kompensasiya edilə bilməz; bütün digər hallarda isə Podratçı aşağıdakı maddələr üzrə öz məsrəflərinin əvəzinin ödənilməsi hüququna malikdir:

(i) Podratçının davam edən öhdəlikləri, o cümlədən arbitraj baxışı başlananadək bağlanmış müqavilələr üzrə;

(ii) Podratçının kollektoru, avadanlığı və mədən obyektlərini qorumaq üçün zəruri saydığı işlər üzrə;

(iii) Podratçının ətraf mühitin, sağlamlığın və təhlükəsizliyin mühafizəsini təmin etmək üçün zəruri saydığı işlər üzrə.

5.4 <u>Qəza tədbirləri</u>

Bu Sazişin hər hansı müddəasına zidd olsa belə Podratçı bədbəxt hadisə baş verdikdə və ya digər qəza vəziyyəti yarandıqda (və ya qəza vəziyyəti gözlənildikdə) insanların həyatının, sağlamlığının, ətraf mühitin və əmlakın mühafizəsi üçün zəruriliyi əsaslandırılmış bütün tədbirləri görür. Belə tədbirlərin görülməsinə çəkilən xərclər

amend the then current and/or next following Annual Work Programme and Budget, as appropriate, to conform with such agreement or decision; provided that Contractor shall not be obligated to undo work already performed, may complete any work in progress to the extent Contractor deems necessary and that all costs incurred by Contractor in performing Petroleum Operations under its proposed Annual Work Programme and Budget shall be deemed to be Petroleum Costs subject to Cost Recovery under this Agreement. The foregoing notwithstanding, Contractor shall not be entitled to Cost Recovery of any costs incurred under any portions of the proposed Annual Work Programme and Budget as identified in the written minutes of the Steering Committee meeting at which the proposed Annual Work Programme and Budget was considered and which were not approved by the Steering Committee and for which the arbitration award is issued in favour of SOCAR; except that in all cases Contractor shall be entitled to Cost Recovery of the following items:

(i) ongoing commitments of Contractor, including contracts entered into prior to the initiation of any such arbitration; and

(ii) work Contractor considers necessary for the protection of the reservoir and equipment and facilities; and

(iii) work Contractor considers necessary for the protection of the environment, health and safety.

5.4 <u>Emergency Measures</u>

Notwithstanding any provision of this Agreement to the contrary, in the case of an accident or other emergency (or anticipated emergency), Contractor shall take all measures reasonably considered necessary by Contractor for the protection of life, health, the environment and property. The costs of taking such measures

sanksiya verilmiş əlavə xərclər kimi avtomatik surətdə həmin dövr üçün qüvvədə olan Büdcəyə daxil edilir; bu cür bədbəxt hadisənin, qəza vəziyyətinin (və ya gözlənilən qəza vəziyyətinin) Podratçının Qərəzli xətası nəticəsində əmələ gəldiyi hallar istisna olmaqla, bu xərclər Neft-qaz əməliyyatları məsrəfləri kimi qiymətləndirilir və əvəzi bu Sazişə əsasən ödənilməlidir.

shall be included automatically as an approved addition to the then current Budget and shall be deemed to be Petroleum Costs subject to Cost Recovery under this Agreement, unless such accident or other emergency (or anticipated emergency) was the result of Contractor's Wilful Misconduct.

MADDƏ 6

ƏMƏLİYYAT ŞİRKƏTİ, İŞÇİ HEYƏTİ VƏ PEŞƏ TƏLİMİ

6.1 Əməliyyat şirkəti

BP və ya BP-nin Ortaq şirkəti Kəşfiyyat dövründə və Əlavə kəşfiyyat dövründə və İşlənmə və hasilat dövrü başlanana qədər Əməliyyat şirkəti qismində fəaliyyət göstərir və Qüvvəyəminmə tarixindən sonra bu Sazişin müddəalarına uyğun olaraq əməliyyatlara başlamağa hazır olacaqdır.

İşlənmə proqramı təsdiq edildikdən sonra BP və ONŞ (və ya onların istənilən Ortaq şirkətləri) onlara bərabər paylarda məxsus olacaq qeyri-kommersiya birgə Əməliyyat şirkəti yaradırlar.

Əməliyyat şirkətinin Podratçı tərəflərdən ezam olunan, Azərbaycan vətəndaşlarından və xarici əməkdaşlardan ibarət olan, Əməliyyat şirkətinin rəhbərliyi altında vahid struktur kimi çalışan işçi heyəti olacaqdır.

Əməliyyat şirkəti Azərbaycan Respublikasından kənarda təsis edilə və ya yaradıla bilər, lakin Azərbaycan Respublikasında iş aparmaq üçün Azərbaycan qanunvericiliyinə uyğun olaraq qeydə alınmalıdır.

Podratçı ARDNŞ-nin qabaqcadan verdiyi razılığı ilə və Qüvvəyəminmə tarixindən dərhal sonra Podratçı tərəflərin bağlayacağı birgə əməliyyat sazişində ("Birgə əməliyyat sazişi") nəzərdə tutulan qaydada və hallarda, İşlənmə və hasilat dövrü başlayanadək yazılı şəkildə digər Əməliyyat şirkəti təyin etməklə Əməliyyat şirkətini vaxtaşırı dəyişdirmək, İşlənmə və hasilat dövrü başladıqdan sonra isə birgə Əməliyyat şirkətini yazılı şəkildə başqa Əməliyyat şirkəti təyin etməklə dəyişdirmək hüququna malikdir, bu şərtlə ki, əvəz edən Əməliyyat şirkəti Podratçı tərəflərdən birinin Ortaq şirkəti olsun. Hər hansı belə əvəzetmə üçün çəkilən məsrəflərin əvəzi ödənilmir. Podratçı tərəflər əvvəlki Əməliyyat şirkətinin vəzifələrinin lazımi qaydada və mütəşəkkil surətdə yeni Əməliyyat şirkətinə verilməsini təmin edirlər.

ARTICLE 6

OPERATING COMPANY, PERSONNEL AND TRAINING

6.1 Operating Company

BP or an Affiliate of BP shall act as the Operating Company during the Exploration Period and the Additional Exploration Period and before the commencement of the Development and Production Period and shall be ready to commence operations in accordance with the terms of this Agreement after the Effective Date.

Upon approval of the Development Programme, BP and SOA shall establish a non profit joint Operating Company equally owned by BP and SOA (or any of their Affiliates).

The Operating Company shall employ personnel seconded from the Contractor Parties, expatriate personnel and Azerbaijani citizens who shall work as an integrated team under the management of the Operating Company.

The Operating Company may be incorporated or created outside of the Republic of Azerbaijan but shall be registered to do business in the Republic of Azerbaijan in accordance with Azerbaijan law.

Contractor, upon the prior agreement of SOCAR, shall have the right, in the manner and in the cases defined in the joint operating agreement which the Contractor Parties must enter into promptly after the Effective Date ("Joint Operating Agreement"), from time to time before the commencement of the Development and Production Period to substitute the Operating Company by appointing in writing another Operating Company and after the commencement of the Development and Production Period to substitute the joint Operating Company by appointing in writing another Operating Company, provided that such substitute Operating Company shall be an Affiliate of one of the Contractor Parties. The costs relating to any such substitution shall not be Cost Recoverable. Contractor Parties shall ensure the proper and orderly

6.2 Əməliyyat şirkətinin məsuliyyət dairəsi

Əməliyyat şirkəti Podratçının adından Neft-qaz əməliyyatlarının gündəlik idarə olunmasına, əlaqələndirilməsinə, həyata keçirilməsinə və aparılmasına cavabdehdir, habelə Podratçının tapşırdığı ilə vaxtaşırı başqa funksiyaları yerinə yetirir.

Əməliyyat şirkəti Podratçının verdiyi səlahiyyətlər çərçivəsində İllik iş proqramlarını həyata keçirmək üçün zəruri olan hər hansı gündəlik işlərə dair subpodrat müqaviləsi bağlamağa haqlıdır.

6.3 Təşkilati struktur

Əməliyyat şirkətinin işçi heyətinin ümumi sayı mümkün qədər minimum səviyyədə saxlanılır və Podratçı adından gündəlik Neft-qaz əməliyyatlarının aparılması üçün zəruri olan idarəetmə, texniki, əməliyyat, istismar və inzibati heyətdən ibarətdir.

6.4 Qərarlar

Neft-qaz əməliyyatlarının aparılmasına aid qərarları Podratçının idarəetmə komitəsində keçirilən səsvermədə iştirak edən Podratçı tərəflər, özlərinin Birgə əməliyyat sazişində razılaşdırdıqları səsvermə mexanizminə müvafiq surətdə qəbul edirlər, və Tərəflər razılaşır ki, İşlənmə və hasilat dövrü müddətində Podratçının idarəetmə komitəsinin qərarları Sazişə əsasən İştirak paylarının və Birgə əməliyyat sazişinə əsasən iştirak paylarının birlikdə ən azı əlli beş (55) faizinə malik olan Podratçı tərəflərin müsbət səsini tələb edir, bu şərtlə ki, Podratçı tərəflər bu Sazişin 3.5 bəndinə əsasən yalnız Digər Podratçı tərəflərin maliyyələşdirdiyi işlərinin görülməsinə aid məsələlərə dair qərarların qəbul edilməsi üçün xüsusi qaydalar işləyib hazırlamalıdırlar. ONŞ bir Podratçı tərəf kimi, Digər Podratçı tərəflərlə yanaşı bütün səviyyələrdə qərar qəbul olunmasında, o cümlədən, lakin bununla məhdudlaşmadan,

handover of responsibilities from an outgoing Operating Company to an incoming Operating Company.

6.2 Responsibilities of Operating Company

The responsibilities of the Operating Company shall be the management, co-ordination, implementation and conduct on behalf of Contractor of the day to day Petroleum Operations, and such other functions, as may be delegated to it from time to time by Contractor.

The Operating Company shall have, to the extent authorised by Contractor, the right to subcontract any day to day work required to implement any Annual Work Programme.

6.3 Organisation

The Operating Company personnel shall be kept to the minimum practicable size, and shall include management personnel, technical professionals, operating and maintenance personnel and administrative personnel required to carry out the day to day Petroleum Operations on behalf of Contractor.

6.4 Decisions

Decisions regarding the conduct of Petroleum Operations shall be made by the Contractor Parties participating in voting at the Contractor's management committee in accordance with the voting mechanism agreed among them in the Joint Operating Agreement, and the Parties agree that during the Development and Production Period the decisions of the Contractor's management committee shall require the affirmative vote of the Contractor Parties owning collectively at least fifty five (55) percent of the Participating Interest under the Agreement and participating interest under the Joint Operating Agreement, provided that the Contractor Parties shall develop special provisions for decisions to be taken on the matters regarding the implementation of the work to be financed by the Other Contractor Parties only under Article 3.5 of this Agreement. SOA as a Contractor Party shall participate at all

Birgə əməliyyat sazişində, komitələrdə və/və ya alt komitələrdə, habelə Podratçının idarəetmə komitəsində iştirak edir.

6.5 İş qaydası

Əməliyyat şirkətinin bu Sazişə uyğun olaraq Neft-qaz əməliyyatlarının aparılması üçün zəruri saydığı siyasət, qayda və metodlardan istifadə etməyə ixtiyarı vardır.

6.6 Əməliyyat şirkətinin statusu

Əməliyyat şirkəti bu Sazişdə Podratçı tərəflər üçün nəzərdə tutulmuş bütün imtiyazlardan, güzəştlərdən, azad olmalardan istifadə etmək, kompensasiyalar almaq hüququna malikdir. Əməliyyat şirkətinin əmlakı və ya avadanlığı yoxdur (hərçənd Podratçı tərəflər adından Neft-qaz əməliyyatları apararkən Podratçı tərəflərə məxsus və ya onların istifadəsində olan əmlakdan və ya avadanlıqdan sərbəst istifadə etmək hüququ vardır); Əməliyyat şirkəti bu Sazişə əsasən yalnız operator kimi fəaliyyət göstərir və Podratçı tərəflərin təlimatlarını və göstərişlərini yerinə yetirir; o, hasil edilən Karbohidrogenlərdə hər hansı paya sahib olmaq hüququna malik deyildir, mənfəətsiz və zərərsiz işləyir. Podratçı tərəflərin bütün maliyyə axınları və bu Sazişə uyğun olaraq digər əməliyyatları Əməliyyat şirkəti bir kommersiya təşkilatı olaraq mövcud deyilmiş kimi, mühasibat uçotu kitablarında və hesablarında müvafiq Podratçı tərəflərin adına yazılır və Əməliyyat şirkətinin bütün məqsədlər üçün Vergi tutulan mənfəəti sıfıra (0) bərabərdir.

6.7 İşçi heyəti

(a) Podratçı və onun Subpodratçıları, habelə Əməliyyat şirkəti və onun Subpodratçıları Neft-qaz əməliyyatlarının aparılması üçün özlərinin mülahizələrinə görə zəruri işçi heyətini işə götürmək ixtiyarındadırlar.

decision levels in the same way as the Other Contractor Parties, including but not limited to the Joint Operating Agreement, committees and/or sub-committees and the Contractor's management committee.

6.5 Procedures

The Operating Company shall be free to adopt such policies, practices and procedures as it deems necessary for the conduct of Petroleum Operations in accordance with this Agreement.

6.6 Status of Operating Company

The Operating Company shall be entitled to all of the benefits, waivers, indemnities and exemptions accorded to the Contractor Parties under this Agreement. The Operating Company shall own no assets or equipment (though it shall have the right to freely use assets or equipment owned or used by the Contractor Parties in conducting Petroleum Operations on behalf of the Contractor Parties); shall act only as operator hereunder upon Contractor Parties' instructions and directions; shall not be entitled to any share of Petroleum produced and shall neither make a profit nor incur a loss. The Operating Company shall record all financial flows or other transactions of the Contractor Parties as passing through to the Contractor Parties in accordance with this Agreement as though the Operating Company did not exist as a commercial entity, and for all purposes the amount of its Taxable Profit shall be zero (0).

6.7 Personnel

(a) Contractor and its Sub-contractors and Operating Company and its Sub-contractors shall be free to employ such personnel as in Contractor's and its Sub-contractors' and Operating Company's and its Sub-contractors' respective opinions are required for the purpose of carrying out Petroleum Operations.

(b) Podratçı Əməliyyat şirkətindən tələb edir ki (belə tələbin əməliyyatların səmərəliliyinə uyğun gəlməsi şərtilə), Əməliyyat şirkəti Neft-qaz əməliyyatlarının aparılması üçün Azərbaycan Respublikası vətəndaşlarının işə götürülməsinə üstünlük versin, bu şərtlə ki, həmin vətəndaşlar Əməliyyat şirkətinin tələblərinə cavab verən lazımi biliyə, ixtisaslara və təcrübəyə malik olsunlar. Bu vətəndaşların 6.8 bəndinə uyğun olaraq peşə təlimi keçmək hüququ vardır. Azərbaycan Respublikası vətəndaşlarının işə götürülməsi ilə bağlı Podratçı aşağıdakılara razılıq verir:

(i) Əməliyyat şirkəti vaxtaşırı olaraq ARDNŞ-ə onun planlaşdırdığına görə Azərbaycan Respublikası vətəndaşları tələb olunan iş yerlərinin sayı və peşələr göstərməklə siyahı təqdim edir. Bundan əlavə, Əməliyyat şirkəti öz Subpodratçılarından vaxtaşırı olaraq ARDNŞ-ə onların planlaşdırdıqlarına görə Azərbaycan Respublikası vətəndaşları tələb olunan iş yerlərinin sayı və peşələr göstərməklə siyahı təqdim etmələrini tələb edir;

(ii) ARDNŞ bu siyahını aldıqdan sonra otuz (30) gün müddətində özünün tövsiyə etdiyi namizədlərin siyahısını Əməliyyat şirkətinə və həmin Subpodratçılara təqdim edir;

(iii) ARDNŞ-nin təqdim etdiyi siyahıda göstərilmiş və Əməliyyat şirkətinin və ya Subpodratçıların tələblərinə uyğun gələn namizədlərə Azərbaycan Respublikasının digər vətəndaşlarına münasibətdə Əməliyyat şirkətinə və həmin Subpodratçıların təşkilatlarına işə götürülməkdə üstünlük verilir;

(iv) Əməliyyat şirkətinin və ya Subpodratçıların təşkilatlarında boş iş yerləri qalırsa, ARDNŞ boş yerlər siyahısını aldıqdan sonra iki (2) həftə ərzində Əməliyyat şirkətinə və ya bu Subpodratçılara tövsiyə etdiyi namizədlərin əlavə siyahısını təqdim

(b) Contractor shall require Operating Company to give preference, as far as is consistent with efficient operations, to employing citizens of the Republic of Azerbaijan in the performance of Petroleum Operations, provided that such citizens have the required knowledge, qualifications and experience to meet the requirements of the Operating Company. Such citizens shall be eligible for training in accordance with Article 6.8. With respect to the employment of citizens of the Republic of Azerbaijan, Contractor agrees as follows:

(i) the Operating Company shall provide SOCAR from time to time with a list showing the numbers and job specifications for citizens of the Republic of Azerbaijan which it estimates that it may require. In addition, the Operating Company shall require its Sub-contractors to provide SOCAR from time to time with a list showing the numbers and job specifications for employees that they estimate they may require;

(ii) SOCAR shall, within thirty (30) days of receipt of such list, provide the Operating Company and such Sub-contractors with a list of candidates recommended by SOCAR;

(iii) persons from the list provided by SOCAR shall enjoy a priority consideration pertaining to any other citizen of the Republic of Azerbaijan for employment by the Operating Company and the Sub-contractors if they meet the requirements of the Operating Company or such Sub-contractors;

(iv) in the event that vacant positions remain in the Operating Company or Sub-contractors' organisations, SOCAR shall within two (2) weeks of receipt of vacant positions provide Operating Company or such Sub-contractors an additional list

edir; bundan sonra yenə də boş iş yerləri qalırsa, bu yerlərə Əməliyyat şirkətinin və ya Subpodratçıların mülahizəsi ilə Azərbaycan Respublikası vətəndaşları arasından işçi götürülə bilər;

(v) əgər Əməliyyat şirkətinin və ya həmin Subpodratçıların müstəqil seçdikləri namizədlər ARDNŞ-nin əməkdaşlarıdırsa, bu namizədlər ARDNŞ ilə məsləhətləşdikdən sonra işə götürülürlər;

(vi) Neft-qaz əməliyyatlarının aparılması ilə əlaqədar iş yerlərinin Azərbaycan Respublikası vətəndaşları ilə komplektləşdirilməsinə dair ümumi hədəf rəqəmləri aşağıda göstərilir:

	Azərbaycan Respublikasının vətəndaşları
Sənaye hasilatının başlanma tarixinədək	
Mühəndis-texniki işçilər	50%–70%
Fəhlə heyəti	80%
Sənaye hasilatının başlanma tarixində	
Mühəndis-texniki işçilər	80%
Fəhlə heyəti	90%
Sənaye hasilatının başlanma tarixindən beş (5) il sonra	
Mühəndis-texniki işçilər	90%
Fəhlə heyəti	95%

of candidates recommended by SOCAR and if vacant positions still remain the Operating Company or such Sub-contractors shall be entitled to fill these vacant positions with such citizens of the Republic of Azerbaijan as the Operating Company or such Sub-contractors choose;

(v) in the event that the candidates selected independently by the Operating Company and such Sub-contractors include SOCAR employees, then such persons shall be hired by the Operating Company or such Sub-contractors after consultation with SOCAR;

(vi) overall target manning levels of citizen employees of the Republic of Azerbaijan pertaining to Petroleum Operations shall be as follows:

	Citizens of the Republic of Azerbaijan
Prior to Commencement Date of Commercial Production	
Professionals	50%–70%
Non-professionals	80%
Upon Commencement Date of Commercial Production	
Professionals	80%
Non-professionals	90%
Five (5) years after Commencement Date of Commercial Production	
Professionals	90%
Non-professionals	95%

(c) 6.7(b) bəndinin müddəalarına əməl etmək şərtilə Podratçının, Əməliyyat şirkətinin və hər hansı Subpodratçıların bu Sazişin qüvvədə olduğu bütün müddət ərzində Neft-qaz əməliyyatlarının aparılması ilə əlaqədar işə götürdükləri işçilərin sayını və seçimini müstəqil müəyyənləşdirməyə səlahiyyəti və ixtiyarları vardır.

Podratçının, Əməliyyat şirkətinin və Subpodratçıların işə götürdükləri bütün Azərbaycan Respublikası vətəndaşları işə yazılı əmək müqavilələrinə əsasən qəbul edilirlər. Müqavilədə işçinin iş vaxtının müddəti, əmək haqqının və müavinətlərin məbləği, işəgötürən tərəfindən təqdim edilən güzəştlər, habelə əmək şəraitinin bütün digər şərtləri müəyyənləşdirilir. İşə qəbul olunan işçilər, onlarla baqlanmış yazılı əmək müqavilələrinə müvafiq surətdə Neft-qaz əməliyyatlarının aparılması ilə bağlı Podratçının, Əməliyyat şirkətinin və ya Subpodratçıların mülahizəsinə görə müəyyənləşdirilən iş yerlərinə göndərilirlər. Podratçının, Əməliyyat şirkətinin və Subpodratçıların ixtiyarı var ki, beynəlxalq neft-qaz sənayesində ənənəvi olan və Podratçının, Əməliyyat şirkətinin və Subpodratçının təcrübəsinə və mülahizəsinə əsasən işin ən yüksək səmərəliliyini və heyətin işə maraq göstərməsini təmin edən işəgötürmə və işdənçıxarma, işin və işçilərin qiymətləndirilməsi, habelə maddi həvəsləndirmə proqramları və metodlarını (istər əcnəbi, istərsə də Azərbaycan Respublikası vətəndaşları olan işçilər üçün) müstəqil müəyyən edib tətbiq etsinlər.

6.8 <u>Peşə təlimi</u>

Podratçı Azərbaycan Respublikasının vətəndaşları olan kadrlara Neft-qaz əməliyyatları ilə bağlı peşə təlimini (o cümlədən təkrar peşə təlimini) təmin edir. Podratçının bu 6.8 bəndinə uyğun olaraq nəzərdə tutulan xərcləri müvafiq İllik iş proqramı və Büdcəyə və Neft-qaz əməliyyatları məsrəflərinə daxil edilir; lakin sözügedən xərclər il ərzində iki yüz min (200.000) Dollardan az olduqda onların əvəzi ödənilmir. İl ərzində iki yüz min (200.000) Dollardan

(c) Subject to Article 6.7(b), Contractor, Operating Company and any Sub-contractors are hereby authorised and shall be free, throughout the term of this Agreement, to determine the number and selection of all employees to be hired by them in connection with the conduct of Petroleum Operations.

All citizens of the Republic of Azerbaijan hired by Contractor, the Operating Company and any Sub-contractors shall be hired pursuant to written employment contracts, which shall specify the hours of work required of the employee, the compensation and benefits to be paid or furnished by the employer and all other terms of employment. Such employees may be located wherever Contractor, the Operating Company or Sub-contractors deem appropriate in connection with the Petroleum Operations in accordance with such written employment contracts entered into with them. Contractor, the Operating Company and Sub-contractors shall be free to implement recruitment, dismissal, performance review and incentive compensation programmes and practices (both with respect to foreign expatriate employees and citizens of the Republic of Azerbaijan) that are customary in international Petroleum operations and in Contractor's, the Operating Company's and Sub-contractor's experience and judgement are best able to promote an efficient and motivated workforce.

6.8 <u>Training</u>

Contractor shall provide training (including retraining) for citizens of the Republic of Azerbaijan with respect to the Petroleum Operations. Expenditures by Contractor pursuant to this Article 6.8 shall be part of the relevant Annual Work Programme and Budget and shall be included as Petroleum Costs; however, the aforesaid expenditures less than two hundred thousand (200,000) Dollars in any year shall not be Cost Recoverable. Expenditures in excess of

artıq olan xərclər Neft-qaz əməliyyatları məsrəflərinə daxil edilir və onların əvəzi ödənilir. Bu iki yüz min (200.000) Dollarlıq hüdud məbləği hər il ÜDM deflyatoru indeksinin artmasına uyğun olaraq artırılır.

two hundred thousand (200,000) Dollars in any year shall be included as Petroleum Costs and shall be Cost Recoverable. The threshold value of two hundred thousand (200,000) Dollars shall be escalated annually in line with increases in the GDP Deflator Index.

MADDƏ 7

HESABAT VƏ NEFT-QAZ ƏMƏLİYYATLARININ YOXLANMASI HÜQUQU

7.1 Hesabatlar və sənədlər

Podratçı Neft-qaz əməliyyatlarına dair hesabatları və sənədləri aşağıdakı qaydada tərtib və təqdim edir:

(a) Podratçı Kontrakt sahəsində Neft-qaz əməliyyatlarının aparılması gedişində əldə etdiyi və Kontrakt sahəsinə aid olan bütün geoloji və geofiziki informasiyanı və məlumatı orijinalda və ya keyfiyyətlə köçürülmüş şəkildə, yaxud münasib yerlərdə lentə və ya digər daşıyıcılara qeydə alır və bu cür informasiyanı və məlumatı əldə etdikdən sonra əməli cəhətdən ən qısa müddətlərdə onların surətlərini, o cümlədən təfsirlərini, qazma jurnallarını və quyuların karotaj diaqramlarını, habelə Podratçı tərəfindən əldə edilən və beynəlxalq neft-qaz sənayesinin hamılıqla qəbul olunmuş standartları ilə nəzərdə tutulan hər hansı digər informasiyanı ARDNŞ-ə verir.

(b) Podratçı neft-qaz sənayesinin hamılıqla qəbul edilmiş beynəlxalq təcrübəsinə uyğun olaraq aşağıdakı məlumatı daxil etməklə qazma jurnalları tərtib edir və quyuların qazılması, dərinləşdirilməsi, tamponajı və ya ləğvi haqqında qeydlər aparır:

(i) quyunun qazıldığı horizontlar haqqında;

(ii) qoruyucu borular, qazma və nasos-kompressor boruları, quyu avadanlığı və quyuya endirilən alətlər, habelə onların modifikasiyaları və əvəzediciləri haqqında;

(iii) aşkar edilmiş Karbohidrogenlər, su və faydalı qazıntılar haqqında;

ARTICLE 7

REPORTS AND ACCESS TO PETROLEUM OPERATIONS

7.1 Reports and Records

Contractor shall keep and submit reports and records of Petroleum Operations as follows:

(a) Contractor shall record, in an original or reproducible form of good quality and on tape or other media where relevant, all geological and geophysical information and data relating to the Contract Area obtained by Contractor in the course of conducting Petroleum Operations thereon and shall deliver a copy of all such information and data, including the interpretation thereof and logs and records of wells, and any other information obtained by Contractor consistent with generally accepted international Petroleum industry standards, to SOCAR as soon as practicable after the same has come into the possession of Contractor.

(b) Contractor shall keep logs and records of the drilling, deepening, plugging or abandonment of wells consistent with generally accepted international Petroleum industry practice and containing particulars of:

(i) the strata through which the well was drilled;

(ii) the casing, drill pipe, tubing and down-hole equipment run in the well and modifications and alterations thereof;

(iii) Petroleum, water and valuable mineral resources encountered;

habelə beynəlxalq neft-qaz sənayesinin hamılıqla qəbul edilmiş təcrübəsi ilə nəzərdə tutulan digər informasiyanı.

(c) Yuxarıdakı 7.1(b) bəndinə müvafiq surətdə tələb olunan informasiya ARDNŞ-ə konkret quyunun qazılıb başa çatdırılmasından sonra doxsan (90) gün müddətində quyuların qazılıb başa çatdırılmasına dair hesabatlar şəklində təqdim edilir.

(d) Zərurət olduqda laboratoriya tədqiqatı və ya analizi məqsədilə Podratçının ixtiyarı var ki, Kontrakt sahəsindən götürülmüş petroloji nümunələri (o cümlədən süxur və şlam nümunələrini) və Karbohidrogen nümunələrini, habelə quyuda aşkar edilmiş formasiyaların və ya suyun xarakterik nümunələrini və lent, yaxud digər daşıyıcılarda olan seysmik məlumatı Azərbaycan Respublikasından aparsın; ARDNŞ-nin müvafiq sorğusu ilə Podratçı göstərilən nümunələri ona təqdim edəcəkdir.

(e) Podratçı ARDNŞ-ə aşağıdakı hesabatları təqdim edir:

(i) daxil olduqca qazma işləri haqqında gündəlik hesabatları və mədən-geofiziki tədqiqatlar haqqında həftəlik hesabatları;

(ii) hər Təqvim rübü başa çatdıqdan sonra on beş (15) gün ərzində – əvvəlki Təqvim rübündə aparılmış Neft-qaz əməliyyatlarının gedişi haqqında aşağıdakılardan ibarət hesabatı:

(1) yerinə yetirilmiş Neft-qaz əməliyyatlarının təsviri və əldə edilmiş faktik informasiya, o cümlədən, ümumilikdə Kontrakt sahəsi üzrə, habelə ayrılıqda hər quyu üzrə Karbohidrogenlər hasilatının həcmi haqqında məlumat; və

and any other information consistent with generally accepted international Petroleum industry standards.

(c) The information required by Article 7.1(b) above shall be submitted to SOCAR in the form of well completion reports within ninety (90) days from completion of the well in question.

(d) Contractor may if necessary remove from the Republic of Azerbaijan, for the purpose of laboratory examination or analysis, petrological specimens (including cores and cuttings) or samples of Petroleum found in the Contract Area and characteristic samples of the strata or water encountered in a well and seismic data on tape or other media. Upon request, Contractor will provide such specimens and samples to SOCAR.

(e) Contractor shall supply to SOCAR:

(i) daily reports on drilling operations and weekly reports on field geophysical surveys as soon as they are available;

(ii) within fifteen (15) days after the end of each Calendar Quarter, a report on the progress of Petroleum Operations during the preceding Calendar Quarter covering:

(1) description of the Petroleum Operations carried out and the factual information obtained, including Petroleum production data from the Contract Area overall and on a well by well basis; and

(2) Podratçının əməliyyatlar apardığı sahənin təsviri; və

(3) bütün quyuların yerini və digər Neft-qaz əməliyyatlarının həyata keçirildiyi yerləri göstərən xəritə;

(iii) hər Təqvim ili qurtardıqdan sonra üç (3) ay ərzində – yuxarıdakı (ii) bəndində göstərilmiş məsələləri əvvəlki Təqvim ili üçün ümumiləşdirən illik hesabatı;

(iv) Neft-qaz əməliyyatlarının əsas elementlərinin görülüb başa çatdırılması haqqında və ya gözlənilməz hadisələr haqqında hesabatları, habelə Rəhbər komitənin sorğusu ilə digər hesabatları. Bundan əlavə, Podratçı Karbohidrogenlərin kəşfindən savayı bütün digər kəşflər, məsələn, qeyri-karbohidrogen təbii ehtiyatlarının kəşfləri barəsində ARDNŞ-ə məlumat verəcəkdir.

7.1(e)(i) bəndinə uyğun olaraq ARDNŞ-ə təqdim edilməli olan gündəlik və həftəlik cari hesabatlar tərtib edildiyi dildə təqdim olunur; 7.1 bəndinə uyğun olaraq ARDNŞ-ə təqdim edilməli olan bütün qalan hesabatlar və sənədlər ingilis və Azərbaycan dillərində təqdim edilir.

7.2 <u>Neft-qaz əməliyyatlarının yoxlanması</u>

ARDNŞ-nin lazımi qaydada səlahiyyət verilmiş nümayəndələrinin ixtiyarı var ki, yoxlama başlanmazdan ən azı üç (3) gün əvvəl yazılı bildiriş təqdim etmək şərtilə Neft-qaz əməliyyatlarına aid işləri, obyektləri, avadanlığı və materialları əsaslandırılmış müntəzəmliklə və ağlabatan müddətlərdə yoxlasınlar, lakin belə yoxlama Neft-qaz əməliyyatlarına əsassız mane olmamalı və ya bunları ləngitməməlidir.

(2) a description of the area in which Contractor has operated; and

(3) a map indicating the location of all wells and other Petroleum Operations;

(iii) within three (3) months of the end of each Calendar Year, an annual report summarising the matters specified in paragraph (ii) above for the preceding Calendar Year;

(iv) reports on completion of major elements of Petroleum Operations or unforeseen events and other reports requested by the Steering Committee. Additionally, Contractor will inform SOCAR of all discoveries other than of Petroleum, such as discoveries of non-Petroleum natural resources.

The daily and weekly reports required to be submitted to SOCAR pursuant to Article 7.1(e)(i) shall be submitted in the original language of the reports and all other reports and records required to be submitted to SOCAR pursuant to this Article 7.1 shall be submitted to SOCAR in the English and Azerbaijani languages.

7.2 <u>Access to Petroleum Operations</u>

Duly authorised representatives of SOCAR may on not less than three (3) days notice in writing inspect at justified intervals, and at reasonable times work, facilities, equipment and materials relating to the Petroleum Operations, provided that such inspection shall not unreasonably interfere with or delay the conduct of Petroleum Operations.

MADDƏ 8

TORPAQDAN VƏ DƏNİZDİBİ SAHƏLƏRDƏN İSTİFADƏ

Bu Sazişin 28.2 bəndinin müddəalarına əməl edilməsi şərtilə ARDNŞ bu Sazişin qüvvədə olduğu bütün müddət ərzində Neft-qaz əməliyyatlarının aparılması üçün zəruri olan, öz nəzarəti altında olan torpaq sahələrini və dənizdibi sahələri pulsuz istifadə üçün Podratçının sərəncamına verir (bu şərtlə ki, Podratçının həmin istifadəsi ARDNŞ-nin bunlardan istifadə etməsi üçün əsassız maneələr törətməsin, həmçinin bu şərtlə ki, Podratçının belə istifadəsi nəticəsində ARDNŞ hər hansı xərclər çəkərsə, Podratçı ARDNŞ-ə birbaşa və ya dolayı yolla heç bir mənfəət qazandırmadan həmin xərcləri ödəsin), və ARDNŞ öz səlahiyyətlərinin tam həcmi daxilində qanun çərçivəsində mümkün olan bütün səyləri göstərir ki, Podratçı Neft-qaz əməliyyatları aparmaq məqsədilə zəruri hallarda dövlət mülkiyyətində olan və ARDNŞ-nin qanuni istifadəsində olan torpaqlara aid olmayan bütün başqa torpaq sahələrini və dənizdibi sahələri, o cümlədən digər işlərlə yanaşı, quruda və dənizdə boru kəmərlərinin, kabellərin və avadanlığın inşası, çəkilməsi, istismarı və onlara texniki xidmət üçün sahələri pulsuz istifadədən ötrü əldə edə bilsin. Podratçı Neft-qaz əməliyyatlarının aparılması üçün zəruri olan yerüstü, yeraltı, dənizüstü və dənizaltı obyektləri/vasitələri inşa və istismar etmək hüququna malikdir. Torpaq sahələrinin ayrılması və Podratçının həmin sahələrdə tikdiyi obyektlərin yerləşdirilməsi, bu Sazişdə müəyyənləşdirilmiş başqa şərtlər istisna olmaqla, torpaqdan istifadə sahəsində məhdudiyyətlərə dair Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq surətdə həyata keçirilir.

ARTICLE 8

USE OF LAND AND SEA BEDS

Subject to Article 28.2 of this Agreement, SOCAR shall make available to Contractor, at no cost to Contractor, the use of any land and sea beds under its control as necessary to carry out Petroleum Operations throughout the term of the Agreement, (provided such use by Contractor does not interfere unreasonably with SOCAR's use thereof and further provided that if such use by Contractor results in expense for SOCAR, Contractor shall reimburse SOCAR for such expense, without creating any profit directly or indirectly for SOCAR), and SOCAR within the full limits of its authority shall use its best lawful endeavours to make available, at no cost to Contractor, all other land owned by the State and located beyond the land which SOCAR utilises legally and sea beds necessary to carry out Petroleum Operations including, but not limited to, the construction, laying, operating and maintaining, both onshore and offshore, of pipelines, cables and equipment. Contractor shall have the right to construct and maintain, above and below any such lands and sea beds, the facilities necessary to carry out Petroleum Operations. Land allocation and location of facilities constructed by Contractor on such land shall be in accordance with Azerbaijan legislation regarding land use restrictions, except as may be modified by this Agreement.

MADDƏ 9

OBYEKTLƏRDƏN İSTİFADƏ

9.1 ARDNŞ-ə məxsus obyektlər

Podratçının ixtiyarı var ki, Kontrakt sahəsində Qüvvəyəminmə tarixinədək qazılmış, Podratçının fikrincə, Neft-qaz əməliyyatları aparmaq üçün zəruri olan quyulardan pulsuz istifadə etsin. Podratçı ARDNŞ-nin birbaşa və ya dolayı sahibliyində, yaxud nəzarəti altında olan obyektləri, o cümlədən, bunlarla yanaşı, infrastrukturu, gəmiləri, qazma qurğularını, nəqletmə vasitələrini, təchizat bazalarını, anbarları, liman qurğularını əsaslı təmir, rekonstruksiya etdikdə və ya modernləşdirdikdə ARDNŞ həmin obyektlərdən Neft-qaz əməliyyatlarının yerinə yetirilməsi üçün zəruri olan dərəcədə istifadə edilməsində Podratçıya üstün hüquq verilməsini təmin edir.

9.2 ARDNŞ-nin yardımı

(a) ARDNŞ hökumət orqanları və Üçüncü tərəflər qarşısında səlahiyyətlərinin tam həcmi daxilində qanun çərçivəsində mümkün olan bütün səyləri göstərir ki, Podratçı Azərbaycan Respublikasında yanacağın nəql edilməsi, hazırlanması və daşınması vasitələrindən, habelə infrastrukturun hər hansı digər real istifadəçisinə kommersiya əsasında verilən və ya razılaşdırılan şərtlərdən az sərfəli olmayan şərtlərlə öz Karbohidrogen payı üçün bütün belə vasitələrdən, habelə infrastrukturdan istifadə etmək imkanına malik olsun.

(b) ARDNŞ Hökumət orqanları və Üçüncü tərəflər qarşısında səlahiyyətlərinin tam həcmi daxilində qanun çərçivəsində mümkün olan bütün səyləri göstərir ki, Azərbaycan Respublikasının hüdudlarından kənarda müvafiq hakimiyyət orqanlarından və yurisdiksiyalardan Podratçının Neft-qaz əməliyyatları üçün ağlabatan dərəcədə zəruri saydığı və/yaxud göstərilən hakimiyyət orqanlarının və yurisdiksiyaların tələb edə biləcəyi hüquqları, imtiyazları, səlahiyyətləri, icazələri və başqa razılaşmaları almaqda

ARTICLE 9

USE OF FACILITIES

9.1 SOCAR Facilities

Contractor shall have the right to use, at no cost to Contractor, pre-drilled wells in the Contract Area at the Effective Date if deemed by Contractor to be necessary for the conduct of Petroleum Operations. In the event that Contractor materially refurbishes, upgrades or improves any facilities that are under SOCAR's direct or indirect ownership or control, including but not limited to infrastructure, vessels, rigs, means of transportation, supply bases, warehouses, port facilities, then SOCAR shall ensure that Contractor has prior right to use such facilities as may be necessary for the purpose of carrying out Petroleum Operations.

9.2 SOCAR Assistance

(a) SOCAR shall within the full limits of its authority use its best lawful endeavours with respect to Governmental Authorities and Third Parties to provide Contractor access for its share of Petroleum to all necessary transportation, treatment and export facilities and infrastructure in the Republic of Azerbaijan on terms no less favourable to Contractor than those granted to, or agreed with, any other bona fide arm's length user of such facilities and infrastructure.

(b) SOCAR shall within the full limits of its authority use all lawful reasonable endeavours, with respect to Governmental Authorities and Third Parties, to assist Contractor in obtaining such rights, privileges, authorisations, approvals and other agreements from authorities and jurisdictions, outside the territory of the Republic of Azerbaijan as Contractor shall reasonably deem necessary for Petroleum Operations and/or as may be required by such authorities and jurisdictions, but shall not

Podratçıya kömək etsin, lakin ARDNŞ bu hüquqların, imtiyazların, səlahiyyətlərin və icazələrin alınmadığı təqdirdə məsuliyyət daşımır. Belə razılaşmaların sırasına digər məsələlərlə yanaşı, ixrac boru kəmərinin çəkilməsi üçün sahələr ayrılması, istismar hüquqlarının verilməsi, Kontrakt sahəsində hasil edilmiş və saxlanmış Karbohidrogenlərin, Azərbaycan Respublikasına göndərilən və ya onun ərazisindən aparılan materialların, avadanlığın və sair maddi-texniki təchizat predmetlərinin yüklənib yola salınmasına, anbara vurulmasına və ya boşaldılıb yüklənməsinə dair icazələr və öhdəliklər, habelə dövlət vergilərindən, yerli və digər vergilərdən, daşıma tariflərindən, yerinə yetirilən Neft-qaz əməliyyatları üçün başqa yurisdiksiyalarda göstərilmiş digər tariflərdən və əlavələrdən azad edilmə məsələləri daxildir.

(c) ARDNŞ Hökumət orqanları və Üçüncü tərəflər qarşısında səlahiyyətlərinin tam həcmi daxilində qanun çərçivəsində mümkün olan bütün səyləri göstərəcək, iştirak payına, nəzarət və idarə etmək və ya fəaliyyəti istiqamətləndirmək hüququna malik olduğu öz Ortaq şirkətləri, birgə müəssisələri, yaxud təşkilatları barəsində isə təminat yaradacaq ki, Podratçı Azərbaycan Respublikasında başqa obyektlərlə yanaşı, sahil qurğuları obyektlərindən, zavodlardan, dəniz infrastrukturu obyektlərindən, təchizat bazalarından və gəmilərdən, anbarlardan, mallardan, xidmətlərdən və nəqliyyat vasitələrindən istifadə etsin, bu şərtlə ki, bu obyektlər, bazalar və sair ilə əlaqədar ARDNŞ-nin Üçüncü tərəflər qarşısında heç bir mövcud öhdəliyi yoxdur və Podratçının bunlardan istifadəsi ARDNŞ-nin və/yaxud Üçüncü tərəflərin cari əməliyyatlarına əngəl törətmir. Burada "nəzarət" səhmdarların ümumi yığıncaqlarında səs hüququ verən səhmlərin əlli (50) faizindən çoxuna sahiblik, yaxud səhmdarların ümumi yığıncağında və ya şirkətin, müəssisənin, ya da təşkilatın icra və ya rəhbər orqanının hər hansı iclasında qərarlar qəbul etmək, yaxud qəbul olunmasını (səsvermə yolu ilə və ya başqa cür) təmin etmək qabiliyyəti deməkdir. Belə istifadə aşağıdakılar barəsində təmin edilir:

be responsible if such rights, privileges, authorisations and approvals are not obtained. Such agreements may include, but need not be limited to, such matters as export pipeline rights of way and operation rights, permits and undertakings with respect to the transhipment, storage or staging of Petroleum produced and saved from the Contract Area, materials, equipment and other supplies destined to or from the territory of the Republic of Azerbaijan, and exemptions from national, local and other taxes, transit fees, and other fees and charges on Petroleum Operations being conducted in such other jurisdictions.

(c) SOCAR shall within the full limits of its authority use all reasonable lawful endeavours with respect to Governmental Authorities and Third Parties, and shall be obligated with respect to its Affiliates, joint ventures or enterprises in which it has an interest and the right to control, manage or direct the action of such companies, ventures or enterprises, to ensure that Contractor has access to inter alia onshore construction and fabrication facilities, offshore infrastructures, supply bases and vessels, warehousing, goods, services and means of transportation in the Republic of Azerbaijan provided that those items are not subject to prior and/or existing obligations to Third Parties and that Contractor's use thereof does not interfere with the existing operations of SOCAR and/or any Third Party. As used herein, "control" shall mean the ownership of more than fifty (50) percent of the shares authorised to vote at a general meeting of shareholders, or the ability to pass or procure the passing of a decision (whether by casting of votes or otherwise) at a general meeting of shareholders, or at any meeting of the executive or management body, of the company, venture or enterprise. Such access shall be:

(i) Üçüncü tərəflərin obyektləri və xidmətləri barəsində bu obyektlərin və xidmətlərin hər hansı digər real istifadəçisi ilə kommersiya əsasında razılaşdırılmış şərtlərdən Podratçı üçün az sərfəli olmayan şərtlərlə; və

(ii) ARDNŞ-nin və hansı Ortaq şirkətlərdə, birgə müəssisələrdə və ya təşkilatlarda ARDNŞ iştirak payına, nəzarət və idarə etmək, yaxud fəaliyyəti istiqamətləndirmək hüququna malikdirsə, onların obyektləri və xidmətləri barəsində – bu obyektlərin və xidmətlərin keyfiyyətinə və səmərəliliyinə uyğun dərəcələr üzrə; özü də bu dərəcələr ARDNŞ-də və/yaxud həmin Ortaq şirkətlərdə, birgə müəssisələrdə və ya təşkilatlarda tətbiq edilən dərəcələrə bərabər olmalı, başqa şərtlər isə Podratçı üçün ARDNŞ-ə və/yaxud həmin Ortaq şirkətlərə, birgə müəssisələrə və ya təşkilatlara verilən, yaxud onlarla razılaşdırılan şərtlərdən az sərfəli olmamalıdır.

9.3 <u>Podratçının obyektləri</u>

Podratçı Neft-qaz əməliyyatları ilə əlaqədar olaraq nəzarət və ya istismar etdiyi bütün obyektlərə ("Podratçının obyektləri") texniki xidmət və onların təmiri üçün cavabdehdir. Podratçının obyektlərindən Üçüncü tərəflərin istifadə etməsi müqabilində verilən haqq Neft-qaz əməliyyatları hesabına daxil olur. ARDNŞ Podratçının obyektlərində olan artıq qurğulardan istifadə etmək hüququna malikdir, bu şərtlə ki, həmin istifadə Neft-qaz əməliyyatlarının aparılmasına mane olmasın və mənfi təsir göstərməsin. Üçüncü tərəflərin Podratçı ilə razılaşdırılmış şərtlərlə artıq qurğulardan istifadə etmələrinə icazə verilir. Sıfır balansı əldə edilənədək Podratçının obyektlərindən istifadə edilməsində üstünlük əvvəlcə Podratçıya, sonra Üçüncü tərəflərə və nəhayət, ARDNŞ-ə verilir. ARDNŞ Podratçının obyektlərindən qarşılıqlı surətdə razılaşdırılan və Neft-qaz əməliyyatları hesabına daxil edilən haqqı ödəməklə istifadə edir. Sıfır balansı əldə edildikdən

(i) with respect to facilities and services of Third Parties, on terms which are no less favourable to Contractor than those granted or agreed with any other bona fide arm's length user of such facilities and services; and

(ii) with respect to facilities and services of SOCAR and such Affiliates, joint ventures or enterprises in which SOCAR has an interest and the right to control, manage or direct the action thereof, at rates commensurate with the quality and efficiency of such facilities and services, which rates shall be the same as are available to SOCAR and/or such Affiliates, joint ventures or enterprises and as regard other terms no less favourable to Contractor than those granted to or agreed with SOCAR and/or such Affiliates, joint ventures or enterprises.

9.3 <u>Contractor Facilities</u>

Contractor shall be responsible for the maintenance and repair of all facilities controlled and operated by Contractor in connection with the Petroleum Operations ("Contractor Facilities"). Fees from Third Parties' access to Contractor Facilities shall be credited to the Petroleum Operations Account. SOCAR shall have the right to use excess capacity in Contractor Facilities provided such use does not interfere with or adversely affect Petroleum Operations. Third Parties may use such excess capacity on terms agreed with Contractor. Prior to Zero Balance the priority of such use of Contractor Facilities shall be first Contractor, second Third Parties, and finally SOCAR. SOCAR shall pay a mutually agreed fee for such use to be credited to the Petroleum Operations Account. After Zero Balance the priority shall be first Contractor, second SOCAR and finally Third Parties. SOCAR's use after Zero Balance shall be free of charge, except that maintenance of Contractor Facilities, for

sonra Podratçının obyektlərindən əvvəlcə Podratçı, sonra ARDNŞ, nəhayət, Üçüncü tərəflər istifadə edir. Sıfır balansı əldə edildikdən sonra ARDNŞ Podratçının obyektlərindən pulsuz istifadə edir, amma Podratçı özünün hər hansı obyektindən müvəqqəti olaraq istifadə etmirsə və bu obyekti yalnız ARDNŞ istismar edirsə, belə obyektin cari planlı təmiri qarşılıqlı razılaşma üzrə həyata keçirilir. Bu sənədin hər hansı müddəalarına zidd olsa belə Podratçının ixtiyarı var ki, köhnəlmiş və ya faydalı iş ehtiyatı tükənmiş avadanlığı və obyektləri satsın. Podratçı belə avadanlığı və obyektləri (14.2(d) bəndinin müddəalarının şamil edildiyi Əsas fondlar istisna olmaqla) satmaq niyyəti barəsində ARDNŞ-ə məlumat verir. Əgər otuz (30) gün ərzində ARDNŞ bu avadanlığı və obyektləri öz balansına qəbul etmirsə, Podratçının onları təklif edilən ən sərfəli qiymətlə satmağa ixtiyarı vardır. Bu cür satışlardan əldə edilən vəsait Sıfır balansı əldə edilənədək Neft-qaz əməliyyatları hesabına, Sıfır balansı əldə edildikdən sonra isə ARDNŞ-nin hesabına daxil edilir. Bu sənədin hər hansı müddəalarına zidd olsa da Kontrakt sahəsində çıxarılmış Karbohidrogenlərin nəql olunmasında Podratçının obyektlərindən istifadə edilərkən ARDNŞ bu Sazişə əsasən proporsional şəkildə Karbohidrogenlər götürməkdə Podratçı ilə bərabər üstünlük hüququna malikdir.

the time being not used by Contractor and being utilised exclusively by SOCAR, shall be on terms to be mutually agreed. Notwithstanding anything to the contrary in this Agreement, Contractor shall have the right to dispose of equipment and facilities, which are either obsolete or are nearing the end of their useful economic life. Contractor shall notify SOCAR of its intention to dispose of any such equipment and facilities (except in the case of fixed assets to which the provisions of Article 14.2(d) shall apply). Unless SOCAR elects, within thirty (30) days to assume responsibility for and take delivery thereof, Contractor shall be free to dispose of any such equipment and facilities at the best price obtainable. Funds from such sales prior to Zero Balance will be credited to the Petroleum Operations Account and after Zero Balance will be credited to SOCAR's account. Notwithstanding any provision herein to the contrary, SOCAR and Contractor shall have equal priority to capacity in Contractor Facilities to transport Petroleum produced from the Contract Area in proportion to their rights to take Petroleum under this Agreement.

MADDƏ 10

KARBOHİDROGENLƏRİN ERKƏN HASİLATI

Əgər Podratçı Kəşfiyyat dövrü və ya bu Sazişin 4.3 bəndinə uyğun olaraq başlamağa ixtiyarı olduğu Əlavə kəşfiyyat dövrü başa çatmamışdan əvvəl ARDNŞ-ə Kəşf və onun kommersiya dəyəri haqqında yazılı bildiriş təqdim edib Karbohidrogenlərin erkən hasilatına başlamaq arzusunda olduğunu bildirərsə, Podratçı Karbohidrogenlərin erkən hasilatı üçün işlənmə təklifini ARDNŞ-nin təsdiqinə verir. ARDNŞ belə təklifi aldığı tarixdən sonra altmış (60) gün ərzində Podratçıya işlənmə təklifinin təsdiq olunması və ya olunmaması haqqında yazılı məlumat verir. Podratçının Karbohidrogenlərin erkən hasilatına dair işlənmə təklifi ilə əlaqədar ARDNŞ-nin qəbul etdiyi qərardan asılı olmayaraq, Podratçı İşlənmə proqramını ARDNŞ-ə təqdim etmək və 4.6 bəndində nəzərdə tutulan bütün digər işləri görmək öhdəliyindən azad olunmur. Karbohidrogenlərin erkən hasilatı üçün işlənmə təklifinin təsdiq olunması və onun həyata keçirilməsinə başlanması Podratçını Kəşfiyyat dövrü və Əlavə kəşfiyyat dövrü ərzində öz öhdəliklərini yerinə yetirməkdən və onların tamamilə və ya qismən həyata keçirilməməsi üzündən yaranan müvafiq nəticələrdən azad etmir.

ARTICLE 10

EARLY PETROLEUM PRODUCTION

If before the end of the Exploration Period or the Additional Exploration Period (which period Contractor shall have the right to proceed to in accordance with Article 4.3) Contractor submits a written Notice of Discovery and its Commerciality and Contractor's wish to proceed to early Petroleum production, Contractor shall submit a development proposal for early Petroleum production for SOCAR's approval. Within sixty (60) days of receipt of such proposal, SOCAR shall notify Contractor of its approval or disapproval of the development proposal. Irrespective of SOCAR's decision relating to Contractor's development proposal for early Petroleum production, Contractor shall not be free from its obligation to submit to SOCAR the Development Programme and perform all other procedures, provided for in Articles 4.6. Approval of the development proposal for early Petroleum production and its commencement shall not free Contractor from its obligations during the Exploration Period and Additional Exploration Period and corresponding consequences of a partial or full failure to fulfil them.

MADDƏ 11

PODRATÇININ NEFT-QAZ ƏMƏLİYYATLARI MƏSRƏFLƏRİNİN ƏVƏZİNİN ÖDƏNİLMƏSİ VƏ HASİLATIN BÖLÜŞDÜRÜLMƏSİ

11.1 Neft-qaz əməliyyatlarında Karbohidrogenlərdən istifadə edilməsi

Podratçı Kontrakt sahəsində çıxarılan Karbohidrogenlərdən Neft-qaz əməliyyatlarında yanacaq kimi, qazlift əməliyyatlarında, boru kəmərlərinin doldurulması üçün (Çatdırılma məntəqəsinə qədər), Kontrakt sahəsi hüdudları daxilində Karbohidrogen yataqlarında lay təzyiqini saxlamaq məqsədilə laya yenidən vurmaq üçün pulsuz istifadə etmək hüququna malikdir. Podratçı Neft-qaz əməliyyatlarının istehsal ehtiyacları üçün Karbohidrogenlər işlədilməsini minimuma endirməyə səy göstərməlidir. Planlar tərtib edilərkən Podratçı İllik iş proqramında Neft-qaz əməliyyatlarının optimal qaydada həyata keçirilməsi zamanı istifadə edilməsi nəzərdə tutulan Karbohidrogenlərin smeta həcmini göstərir. Əgər İllik iş proqramının həyata keçirilməsi gedişində Podratçı smetada razılaşdırılmış həcmi on (10) faizdən çox artırmaq istəyirsə, dəyişdirilmiş smetaya dair təkliflərini Rəhbər komitənin müzakirəsinə və təsdiqinə verir.

11.2 Məsrəflərin əvəzinin ödənilməsi

(a) Podratçının ixtiyarı var ki, Neft-qaz əməliyyatlarına çəkdiyi məsrəflərin əvəzini Ümumi hasilat həcmindən aşağıdakı qaydada alsın:

(i) Birinci növbədə bütün Əməliyyat məsrəflərin əvəzi ödənilir;

(ii) İkinci növbədə bütün Əsaslı məsrəflərin əvəzi Podratçının Əməliyyat məsrəflərinin ödənilməsi üçün lazım olan Xam neft və Sərbəst təbii qaz həcmləri çıxıldıqdan sonra Ümumi hasilat həcmində qalmış Xam neftin əlli (50) faizdən və Sərbəst təbii qazın əlli (50) faizdən artıq olmayan

ARTICLE 11

CONTRACTOR'S RECOVERY OF PETROLEUM COSTS AND PRODUCTION SHARING

11.1 Use of Petroleum for Petroleum Operations

Contractor shall have the right to use free of charge Petroleum produced from the Contract Area for Petroleum Operations for fuel, artificial lift, pipeline fill and pack (up to the Delivery Point), and reinjection to preserve the pressure of Petroleum reservoirs in the Contract Area. Contractor shall endeavour to minimise use of Petroleum for Petroleum Operations. For planning purposes Contractor shall provide in the Annual Work Programme an estimate of the amount of Petroleum it anticipates will be used for the optimum implementation of Petroleum Operations. If during the implementation of the Annual Work Programme Contractor estimates that it will use more than ten (10) percent over and above the amount estimated, Contractor shall submit its proposals for the revised estimate to the Steering Committee for its review and approval.

11.2 Cost Recovery

(a) Contractor shall be entitled to the recovery of Petroleum Costs from Total Production as follows:

(i) All Operating Costs shall first be recovered;

(ii) All Capital Costs shall then be recovered from a maximum of fifty (50) percent of Crude Oil and fifty (50) percent of Non-associated Natural Gas remaining out of Total Production after deduction of Crude Oil and Non-associated Natural Gas required to recover Contractor's Operating Costs

həcmindən ödənilir ("Əsaslı məsrəflərin əvəzinin ödənilməsi üçün Karbohidrogenlər").

(b) 11.2(a) bəndinə uyğun olaraq əvəzi ödənilən Neft-qaz əməliyyatları məsrəflərinin uçotu Mühasibat uçotunun aparılması qaydasına uyğun surətdə aparılır.

11.3 <u>Məsrəflərin əvəzinin ödənilməsi üçün Karbohidrogenlər üzərində mülkiyyət hüququnun verilməsi</u>

Podratçının məsrəflərinin əvəzinin ödənilməsi Çatdırılma məntəqəsində ona Kontrakt sahəsindən çıxarılan Xam neftin və Sərbəst təbii qazın həcmləri üçün Karbohidrogenlər üzərində mülkiyyət hüququnun verilməsi yolu ilə təmin edilir; həmin neftin və qazın dəyəri Neft-qaz əməliyyatlarına çəkilən və 11.2 bəndinə müvafiq şəkildə əvəzi ödənilməli olan Neft-qaz əməliyyatları məsrəflərinə ekvivalent olmalıdır (ekvivalentlik 13.1 bəndində göstərilən qaydaya uyğun olaraq müəyyənləşdirilməklə) ("Məsrəflərin əvəzinin ödənilməsi üçün Karbohidrogenlər").

11.4 <u>Rüblük hesabat</u>

(a) Məsrəflərin əvəzinin ödənilməsi hesabı Təqvim rübü əsasında aparılır.

(b) (i) Hər Təqvim rübü qurtardıqda Maliyyə məsrəfləri, o cümlədən əvəzi ödənilməmiş Əsaslı məsrəflər və əvvəlki Təqvim rübündən keçirilmiş, lakin adı çəkilən cari Təqvim rübündə əvəzi ödənilməmiş Əməliyyat məsrəfləri əvəzi ödənilməmiş Əsaslı məsrəflərə və/yaxud Əməliyyat məsrəflərinə əlavə edilir;

(ii) Hər Təqvim rübü üzrə əvəzi ödənilməmiş Əməliyyat məsrəflərinə aid Maliyyə məsrəfləri hər Təqvim rübü qurtarandan sonra həmin günədək əvəzi ödənilməmiş Əməliyyat məsrəfləri saldosu ilə cəmlənir və sonra Əməliyyat məsrəfləri kimi ödənilir;

("Capital Cost Recovery Petroleum").

(b) Accounting of Petroleum Costs to be recovered in accordance with Article 11.2(a) shall be in a manner consistent with the Accounting Procedure.

11.3 <u>Transfer of Title to Cost Recovery Petroleum</u>

Cost Recovery by Contractor shall be achieved by transferring to Contractor title at the Delivery Point to quantities of Crude Oil and Non-associated Natural Gas from the Contract Area of equivalent value (as determined pursuant to Articles 13.1) to the Petroleum Costs to be recovered by Contractor in accordance with Article 11.2 ("Cost Recovery Petroleum").

11.4 <u>Quarterly Accounting</u>

(a) Cost Recovery shall be calculated on a Calendar Quarter basis.

(b) (i) At the end of each Calendar Quarter, Finance Costs shall be applied to any unrecovered Capital Costs and/or Operating Costs, including any unrecovered Capital Costs and Operating Costs carried forward from any previous Calendar Quarter, which have not been recovered in such current Calendar Quarter;

(ii) Finance Costs in respect of unrecovered Operating Costs for each Calendar Quarter shall, at the end of each Calendar Quarter, be aggregated with the unrecovered balance of Operating Costs at that date and thereafter be recovered as Operating Costs;

(iii) Hər Təqvim rübü üzrə əvəzi ödənilməmiş Əsaslı məsrəflərə aid Maliyyə məsrəfləri hər Təqvim rübü qurtardıqdan sonra həmin günədək əvəzi ödənilməmiş Əsaslı məsrəflərin saldosu ilə cəmlənir və sonralar Əsaslı məsrəflər kimi ödənilir.

(c) Yuxarıda deyilənlərə baxmayaraq, İşlənmə proqramının təsdiq edilməsinə qədər Neft-qaz əməliyyatları məsrəflərinə Maliyyə məsrəfləri tətbiq edilmir.

(d) Podratçının Neft-qaz əməliyyatlarına çəkdiyi və əvəzi ödənilməli olan, lakin əvvəlki Təqvim rübündə əvəzi ödənilməmiş kumulyativ məsrəfləri sonrakı Təqvim rübünə keçirməyə hüququ daim təmin edilir.

(e) Əgər hər hansı Təqvim rübündə çəkilən və ya bu Təqvim rübünə keçirilən əvəzi ödənilməmiş kumulyativ Əsaslı məsrəflərin və Əməliyyat məsrəflərinin məbləği göstərilən Təqvim rübü dövründə məsrəflərin əvəzinin ödənilməsi üçün ayrılmış Əsaslı məsrəflərin əvəzinin ödənilməsi üçün Karbohidrogenlərin dəyərindən az olursa, Əsaslı məsrəflərin əvəzinin ödənilməsi üçün istifadə edilməmiş həmin Karbohidrogenlərə əlavə Mənfəət Karbohidrogenləri kimi baxılır.

11.5 <u>Mənfəət Karbohidrogenləri</u>

Əməliyyat məsrəflərinin və Əsaslı məsrəflərin yuxarıdakı 11.2 və 11.4 bəndlərində nəzərdə tutulduğu kimi əvəzinin ödənilməsi üçün lazım olan Xam neftin və Sərbəst təbii qazın həcmləri çıxılandan sonra qalan Ümumi hasilat həcminin saldosu ("Mənfəət Karbohidrogenləri") hər Təqvim rübündə hesablanır və 19.5 bəndinin müddəaları nəzərə alınmaqla ARDNŞ ilə Podratçı arasında aşağıdakı düstur və "R-faktor" mexanizmi əsasında bölüşdürülür.

(iii) Finance Costs in respect of unrecovered Capital Costs for each Calendar Quarter shall, at the end of each Calendar Quarter, be aggregated with the unrecovered balance of Capital Costs at that date and thereafter be recovered as Capital Costs.

(c) Notwithstanding the above, Finance Costs shall not be applied to any unrecovered Petroleum Costs prior to the approval of the Development Programme.

(d) Contractor shall have the continuing right to carry over to subsequent Calendar Quarters accumulated Petroleum Costs which are recoverable but which have not been recovered in previous Calendar Quarters.

(e) To the extent that the unrecovered accumulated Capital Costs and Operating Costs incurred or carried forward in any Calendar Quarter are less than the value of the Capital Cost Recovery Petroleum available for Cost Recovery purposes during such Calendar Quarter, then the unused Capital Cost Recovery Petroleum shall be treated as additional Profit Petroleum.

11.5 <u>Profit Petroleum</u>

The balance of Total Production remaining after deducting the quantities of Crude Oil and Non-associated Natural Gas necessary to enable recovery of Operating Costs and Capital Costs (as provided in Articles 11.2 and 11.4 above) ("Profit Petroleum") shall be calculated on a Calendar Quarter basis and, subject to the provisions of Article 19.5, shall be shared between SOCAR and Contractor according to the R Factor model as follows.

Mənfəət Karbohidrogenlərinin bölgüsü cədvəli

R-faktor intervalı	ARDNŞ-nin payı (%)	Podratçının payı (%)
0.00 < R < 1.00	45.0	55.0
1.00 ≤ R < 2.00	55.0	45.0
2.00 ≤ R < 3.00	70.0	30.0
3.00 ≤ R < 4.00	80.0	20.0
R ≥ 4.00	90.0	10.0

R-faktor, hesablanan faizlə birlikdə Podratçının əvəzi ödənilmiş kumulyativ Əsaslı məsrəflərinin üstəgəl Podratçının mənfəətinin, kumulyativ Əsaslı məsrəflərə bölünməsi yolu ilə müəyyən edilir.

Qüvvəyəminmə tarixindən başlayaraq (n+1) Təqvim rübü üçün R-faktorun qiyməti (n) Təqvim rübünün axırında aşağıda göstərilən qaydada müəyyənləşdirilir:

$$\text{R-faktor (n+1)} = \frac{\Sigma\,(\text{CCRn} + \text{FCn} + \text{PPLn})}{\Sigma\,\text{CCSn}}$$

burada:

CCRn *n* Təqvim rübünün sonuna Podratçının əvəzi ödənilmiş Əsaslı məsrəfləri;

FCn *n* Təqvim rübünün sonuna Podratçının əvəzi ödənilmiş Maliyyə məsrəfləri;

CCSn *n* Təqvim rübünün sonuna Podratçının çəkdiyi Əsaslı məsrəfləri;

PPLn *n* Təqvim rübünün sonuna alınmış Mənfəət Karbohidrogenlərində Podratçının payının dəyəri;

n növbəti Təqvim rübünün sıra nömrəsi;

Profit Petroleum Sharing Table

R Factor Band	SOCAR Share (%)	Contractor Share (%)
0.00 < R < 1.00	45.0	55.0
1.00 ≤ R < 2.00	55.0	45.0
2.00 ≤ R < 3.00	70.0	30.0
3.00 ≤ R < 4.00	80.0	20.0
R ≥ 4.00	90.0	10.0

R Factor is determined as Contractor's cumulative Capital Costs recovered, including interest accrued, plus Contractor's profit, divided by cumulative Capital Costs.

Beginning at the Effective Date the value of the R Factor in respect of Calendar Quarter (n+1) shall be determined at the end of Calendar Quarter (n) compounded, and accumulated in accordance with the procedure below:

$$\text{R Factor (n+1)} = \frac{\Sigma\,(\text{CCRn} + \text{FCn} + \text{PPLn})}{\Sigma\,\text{CCSn}}$$

where:

CCRn means Contractor's Capital Costs recovered as of the end of the *n*th Calendar Quarter;

FCn means Contractor's Finance Costs recovered as of the end of the *n*th Calendar Quarter;

CCSn means Contractor's Capital Costs incurred as of the end of the *n*th Calendar Quarter;

PPLn means the value of Contractor's share of Profit Petroleum lifted as of the end of the *n*th Calendar Quarter;

n means the index number of the relevant Calendar Quarter;

Σ (n) Təqvim rübünədək və (n) Təqvim rübü də daxil olmaqla Σ işarəsindən sağda yerləşən hədlərin kumulyativ ədədi cəmi.

11.6 <u>Mənfəət Karbohidrogenləri üzərində mülkiyyət hüququnun verilməsi</u>

Podratçının Xam neft və Sərbəst təbii qaz şəklində Mənfəət Karbohidrogenlərində payı üzərində mülkiyyət hüququ Podratçıya Çatdırılma məntəqəsində keçir.

Σ means the cumulative arithmetic sum of the items to the right of the Σ symbol up to and including Calendar Quarter (n).

11.6 <u>Transfer of Title to Profit Petroleum</u>

Title to Contractor's share of Profit Petroleum shall be out of Crude Oil and Non-associated Natural Gas and shall be transferred to Contractor at the Delivery Point.

MADDƏ 12

VERGİ TUTULMASI

12.1 Ümumi qaydalar

(a) Bu Saziş üzrə hər bir Podratçı tərəfin öhdəliklərinin şərti belədir ki, Mənfəət vergisinə dair, bu 12-ci Maddədə göstərilən öhdəlik istisna edilməklə, Podratçı tərəflər Karbohidrogen fəaliyyəti ilə əlaqədar meydana çıxan və ya ona bilavasitə, yaxud dolayısı ilə aid olan hər hansı xarakterli heç bir Vergiyə cəlb olunmurlar.

(b) Bununla təsdiq edilir ki, İkiqat vergitutmanın aradan qaldırılması haqqında müqavilələr Vergilər üzrə güzəştlərin tətbiq edilməsini təmin edir.

(c) Bu 12-ci Maddənin məqsədləri baxımından aşağıda göstərilən terminlərin mənası belədir:

(i) "Dövlət büdcəsi" – Vergilərin yığılması məqsədi ilə Azərbaycan Respublikasının tətbiq olunan qanununa əsasən Hökumət orqanı tərəfindən yaradıla bilən Respublika və yerli büdcələrin, yaxud digər belə büdcələrin cəmi deməkdir.

(ii) "Əsas fondlar"a – Podratçı tərəfin vergi balansında adətən "əsas" və ya "qeyri-əsas" fondlar başlığı altında nəzərdə tutulan, hər birinin ümumi dəyəri müəyyən edilmiş son həddən artıq olan və nəzərdə tutulan istifadə müddəti bir (1) ili ötən bütün fondlar daxildir. Bu Sazişin bağlandığı Təqvim ili üçün həmin müəyyən edilmiş son həddi beş min (5000) Dollardır. Hər sonrakı Təqvim ili üçün, həmin müəyyən edilmiş son həddi əvvəlki Təqvim ilinin müəyyən edilmiş həddinə dörd (4) faiz əlavə olunmaqla artırılır.

ARTICLE 12

TAXATION

12.1 General Provisions

(a) It is a condition to the obligations of each Contractor Party under this Agreement that, except for the Profit Tax obligation described in this Article 12, the Contractor Parties shall not be subject to any Taxes of any nature whatsoever arising from or related, directly or indirectly, to Hydrocarbon Activities.

(b) It is hereby acknowledged that Double Tax Treaties shall have effect to give relief from Taxes.

(c) For the purposes of this Article 12 the following expressions shall have the meanings ascribed to them below:

(i) "State Budget" means consolidated Republican and local budgets or such other budgets as may be created by Governmental Authority pursuant to the applicable law of the Republic of Azerbaijan for the purposes of collection of Taxes.

(ii) "Fixed Assets" shall include all assets which it is usual to include in the Contractor Party's tax balance sheet under the heading of fixed or intangible asset, the total value of each of which exceeds a limit and has an anticipated useful life of more than one (1) year. This limit for the Calendar Year in which this Agreement is executed shall be five thousand (5,000) Dollars. For each subsequent Calendar Year, the limit shall be increased by four (4) percent over the limit which applied in the previous Calendar Year.

(iii) "Karbohidrogen fəaliyyəti" – bu Saziş çərçivəsində Podratçı tərəfin bilavasitə və ya Əməliyyat şirkəti vasitəsilə apardığı Neft-qaz əməliyyatlarının Azərbaycan Respublikasının hüdudları daxilində və ya onun hüdudlarından kənarda həyata keçirilməsindən asılı olmayaraq bütün fəaliyyət növləri deməkdir. Hər Podratçı tərəf yuxarıda müəyyən edilən Karbohidrogen fəaliyyəti üzrə ayrıca mühasibat uçotunu və hesabatlarını aparır.

(iv) "Vergi orqanı" – Azərbaycan Respublikasının Vergilər Nazirliyi və ya Azərbaycan Respublikasının Vergilər Nazirliyinin təyin etdiyi hər hansı varisi deməkdir.

(v) "Saxtakarlıq" – Podratçı tərəfin Vergiləri ödəməkdən yayınmaq niyyəti ilə Vergilərə dair məlumatları gizlətmək və ya təqdim edilməsinin qarşısını almaq və onların toplanması ilə bağlı qəsdən, qabaqcadan düşünülmüş və şüurlu etinasızlıq faktları ilə ifadə edilən və təkrar yol verilmiş hər hansı əsassız fəaliyyəti və ya fəaliyyətsizliyi deməkdir.

(vi) "Mənfəət vergisi dərəcəsi" – bu Saziş imzalanan vaxt Azərbaycan Respublikasında tətbiq olunan və bu Saziş qüvvədə olduğu bütün müddət ərzində dəyişmədən tətbiq ediləcək iyirmi (20) faiz Mənfəət vergisi dərəcəsi deməkdir.

12.2 <u>Mənfəət vergisi</u>

(a) Hər bir Podratçı tərəf bu Saziş imzalanan vaxt Azərbaycan Respublikasında ümumiyyətlə tətbiq olunan və qüvvədə olan qanunvericiliyə müvafiq olaraq, həmçinin bu Sazişin müddəalarından irəli gələn dəyişiklikləri nəzərə almaqla, öz Karbohidrogen fəaliyyətinə görə Mənfəət vergisi üçün ayrıca məsuliyyət daşıyır. Azərbaycan Respublikasının

(iii) "Hydrocarbon Activities" means all Petroleum Operations carried out in connection with this Agreement by Contractor Party, directly or through the Operating Company, whether such activities are performed in the Republic of Azerbaijan or elsewhere. Each Contractor Party shall maintain separate books and accounts for the above Hydrocarbon Activities.

(iv) "Tax Authority" means the Ministry of Taxes of the Republic of Azerbaijan or any successor thereto appointed by the Ministry of Taxes of the Republic of Azerbaijan.

(v) "Fraud" means any illegitimate and repeated action or omission of the Contractor Party expressed in deliberate, intended and premeditated cases of failures for the purpose of evasion from Taxes by means of concealing information on Taxes or prevention of submission or collection thereof.

(vi) "Profit Tax Rate" is a rate of twenty (20) percent which is the applied Profit Tax Rate existing in Republic of Azerbaijan on the day of execution of this Agreement and which shall remain fixed for the entire term of this Agreement.

12.2 <u>Profit Tax</u>

(a) Each Contractor Party shall be severally liable for Profit Tax in respect of its Hydrocarbon Activities in accordance with the legislation which is generally applicable and existing in the Republic of Azerbaijan on the day of execution of this Agreement and as amended by the provisions of this Agreement. In the event of any conflict

daxili qanunvericiliyi ilə bu Sazişin müddəaları arasında hər hansı ziddiyyət yarandıqda, Sazişin müddəaları üstün tutulur. Hər bir Podratçı tərəf özünün Azərbaycan Respublikasında Karbohidrogen fəaliyyətinə aid olmayan təsərrüfat fəaliyyətinə görə Azərbaycan Respublikasında tətbiq edilən qanunlara və normativ aktlara uyğun şəkildə Mənfəət vergisi ödəmək üçün məsuliyyət daşıyır.

(b) Bununla konkret olaraq qeyd edilir ki, bu 12-ci Maddənin müddəaları fərdi qaydada hər bir Podratçı tərəfə aid edilir və hər bir Podratçı tərəfin Mənfəət vergisi üzrə fərdi məsuliyyətini tənzimləyir. Mənfəət vergisi 12.1(c)(iii) bəndində göstərilən ayrıca mühasibat uçotu və hesabatlarında Satışlardan daxil olan gəlir, Digər gəlirlərdə və Çıxılmalar maddələri üzrə həmin Podratçı tərəfin ayrıca payına əsaslanır.

(c) ARDNŞ hər Təqvim ili üçün hər Podratçı tərəf adından Dövlət büdcəsinə Dollarla Mənfəət vergisini, o cümlədən qabaqcadan hesablanmış Mənfəət vergisini və onlara aid olan, həmin Mənfəət vergisinin və ya qabaqcadan hesablanmış Mənfəət vergisinin vaxtında ödənilməməsi nəticəsində hesablanan faizləri və cərimələri (Podratçı tərəfin lazımi bəyannaməni vaxtında hazırlamaq iqtidarında olmaması nəticəsində hesablanan faizlər istisna edilməklə) öz vəsaitlərindən ödəyir. Bununla ARDNŞ Podratçı tərəflərə zəmanət verir ki, hər Podratçı tərəfin Mənfəət vergisini, o cümlədən, yuxarıda göstərildiyi kimi, ona aid faizləri və cərimələri Dövlət büdcəsinə bu Saziş üzrə ARDNŞ-ə çatacaq Karbohidrogenlərin satışından əldə edilən varidatdan birinci növbədə ödəyəcəkdir. ARDNŞ 12.3(f) bəndində nəzərdə tutulduğu kimi, belə ödəniş üçün Vergi orqanının müvafiq Podratçı tərəfə rəsmi qəbzlər verməsini təmin edir. Podratçı tərəflərdən hər hansı birinin sorğusu alındıqdan sonra on (10) gün ərzində həmin Podratçı tərəfə ARDNŞ-nin əvvəlki cümlədə adı çəkilən öhdəliklərinə uyğun olaraq Dövlət büdcəsinə vəsaitin həqiqətən keçirildiyini təsdiqləyən sənəd (Podratçı

between the provisions of such internal legislation of the Republic of Azerbaijan and those of this Agreement, the provisions of this Agreement shall govern. Each Contractor Party shall be liable for payment of the Profit Tax in connection with its business activities in the Republic of Azerbaijan that are not related to Hydrocarbon Activities, under the applicable laws and normative acts of the Republic of Azerbaijan.

(b) It is specifically acknowledged that the provisions of this Article 12 shall apply individually to each Contractor Party and regulate individual liability of every Contractor Party for the Profit Tax. Profit Tax shall be based on such Contractor Party's separate share of the items of Sales Income, Other Income and in accordance with provisions related to Deductions, as written in separate books and accounts as provided in Article 12.1(c)(iii).

(c) SOCAR shall in respect of each Calendar Year pay out of its funds on behalf and in the name of each Contractor Party such Contractor Party's Profit Tax to the State Budget in Dollars including estimated Profit Tax, and any interest, fines or penalties with respect thereto which is attributable to the failure to pay any such Profit Tax or estimated Profit Tax when it is due (except interest resulting from a Contractor Party's failure to prepare a required return by the due date therefor). SOCAR hereby guarantees to Contractor Parties that payment of each Contractor Party's Profit Tax to the State Budget including any interest, fines or penalties as aforesaid, shall have first priority upon the proceeds of sale of Petroleum to which SOCAR is entitled under this Agreement. SOCAR shall cause the Tax Authority to issue to each Contractor Party official receipts as provided for in Article 12.3(f). Upon request of any Contractor Party, SOCAR shall provide to such Contractor Party within ten (10) days of such request a document (in a form acceptable to all Contractor Parties) confirming actual transfer of funds to the State Budget in satisfaction of SOCAR's obligation as described in the preceding sentence. For purposes of

tərəflərin hamısı üçün məqbul formada) təqdim edir. ARDNŞ-nin gəlirlərinə və ya mənfəətinə aid ARDNŞ bu 12.2(c) bəndinə uyğun olaraq Podratçı tərəflərdən hər birinin əvəzinə və onların adından ödəmiş olduğu Mənfəət vergisini hesaba almamalıdır. ARDNŞ, Mənfəət vergisindən qaytarılan məbləğləri (hər hansı Podratçı tərəfin ödədiyi Mənfəət vergisi və cərimələrdən qaytarılan məbləğlər istisna edilməklə) hər Podratçı tərəfin adından və onun əvəzinə almaq və özündə saxlamaq ixtiyarına malikdir; ARDNŞ qaytarılan bu məbləğləri almağı haqqında müvafiq Podratçı tərəflərə təsdiqedici sənəd verir.

(d) (i) Yazılı bildiriş azı otuz (30) gün qabaqcadan verildikdə hər Podratçı tərəfin istənilən vaxt ixtiyarı var ki, hər hansı Təqvim ilində ARDNŞ-nin Mənfəət karbohidrogenləri payından və əldə olunan vəsaitdən həmin Podratçı tərəfin Mənfəət vergisinə dair ARDNŞ-nin öhdəliklərinin necə yerinə yetirilməsini Podratçı tərəfin seçdiyi beynəlxalq nüfuza malik müstəqil auditorlara təftiş etdirsin. Podratçı tərəf bu auditin xərclərini çəkir və bu xərclər Əvəzi ödəniləsi məsrəflər sayılmır. Belə bir audit 12.3(d) bəndinin müddəalarına uyğun olaraq son və qəti şəkildə müəyyən olunan Təqvim ilinə şamil oluna bilməz. Bu cür audit elə keçirilməlidir ki, ARDNŞ-nin işinə əsassız əngəl törətməsin. ARDNŞ auditora mümkün olan dərəcədə şərait yaradır ki, auditor ARDNŞ-nin Mənfəət Karbohidrogenləri payından alınan vəsaitdən, hər hansı Təqvim ili üçün Podratçı tərəfin Mənfəət vergisinin tamamilə ödənildiyini təsdiq etməkdən ötrü lazım ola biləcək bütün məlumatları əldə edə bilsin.

(ii) Xüsusi qeyd edilir ki, 11.5 bəndində göstərilən Mənfəət karbohidrogenlərin bölüşdürülməsi elə müəyyən edilir ki, Podratçının Mənfəət vergisi ARDNŞ-nin Mənfəət karbohidrogenlərin payına

computing the liability of SOCAR for Taxes assessed on SOCAR's income or profits, SOCAR shall not be entitled to credit against its tax liability the Profit Tax paid by SOCAR on behalf and in the name of each of the Contractor Parties pursuant to this Article 12.2(c). SOCAR shall be entitled to receive and retain any Profit Tax refunds (other than refunds of Profit Tax and penalty sanctions paid by a Contractor Party) on behalf and in the name of each of the Contractor Parties and shall provide to the appropriate Contractor Parties a statement showing that any such refund has been received.

(d) (i) On not less than thirty (30) days prior written notice each Contractor Party shall have the right at any time to have the performance by SOCAR of obligations on payment by SOCAR of that Contractor Party's Profit Tax liability from funds generated by SOCAR's share of Profit Petroleum for any Calendar Year audited by a firm of internationally recognised independent accountants selected by the Contractor Party. Contractor Party shall bear the costs of such audit and such cost shall not be Cost Recoverable. Such audit may not relate to a Calendar Year, which has been finally and conclusively determined in accordance with the procedure set out in Article 12.3(d). Such audit shall be conducted in such a fashion that it does not cause unreasonable inconvenience to SOCAR. SOCAR shall accord to the auditor reasonable access to such evidence as the auditor may require to satisfy the auditor as to full payment of Contractor Party's Profit Tax for any Calendar Year from funds generated by SOCAR's share of Profit Petroleum.

(ii) It is specifically acknowledged that Profit Petroleum sharing as set out in Article 11.5 shall be so determined to include Contractor Party's Profit Tax in SOCAR's share of Profit Petroleum from

daxil edilsin – 12.2(c) bəndinə uyğun olaraq ARDNŞ Podratçının Mənfəət vergisini Dövlət büdcəsinə bu paydan ödəməlidir. Buna görə 12.2(c) bəndinə müvafiq olaraq ARDNŞ-nin Podratçı adından Mənfəət vergisini ödəməsini ARDNŞ və Vergi orqanı bu verginin Podratçı tərəfindən ödənildiyi kimi qəbul edir və Podratçı onun 12.2(a) və 12.2(b) bəndlərinə müvafiq olaraq Karbohidrogen fəaliyyətindən Mənfəət vergisini ödəmək vəzifəsini tamamilə yerinə yetirmiş və azad edilmiş hesab olunur. Podratçının Mənfəət vergisi ödəmək öhdəliyinə baxmayaraq, Podratçı 12.2(d)(iii) bəndinin müddəalarına uyğun olaraq Mənfəət vergisi ödənişlərini həyata keçirmək haqqında qərar qəbul etdiyi hallar istisna olmaqla, Vergi orqanı Podratçının Mənfəət vergisinin ödənilməsi məsələsini yalnız ARDNŞ ilə həll edir.

(iii) Buna baxmayaraq, əgər ARDNŞ 12.2(c) bəndində göstərildiyi kimi, Podratçı tərəflərin adından Mənfəət vergisinin ödənişlərinin vaxtında Dövlət büdcəsinə ödəməyə qadir deyilsə və ya müvəqqəti qadir olmursa, onda hər bir Podratçı tərəfin hüququ var ki, Mənfəət vergisini, o cümlədən qabaqcadan hesablanmış Mənfəət vergisini, onunla bağlı faizləri, müamilələri və ya cərimələri təkbaşına bilavasitə Dövlət büdcəsinə ödəmək qərarına gəlsin. Bu halda, Podratçı tərəfin Mənfəət Karbohidrogenlərini götürmək üçün gələcək səlahiyyəti artır və ARDNŞ-nin payı nəzərdə tutulan Mənfəət vergisi də daxil olmaqla, Podratçı tərəfindən ödənilən Mənfəət vergisinin həcminə bərabər olan həcmdə müvafiq şəkildə azalır. ARDNŞ tərəfindən Podratçı tərəfin Mənfəət vergisinin, o cümlədən qabaqcadan hesablanmış Mənfəət vergisinin ödənilməməsi, ödəniş üçün nəzərdə tutulan vaxtdan başlayaraq otuz (30) gündən çox bir müddətdə davam edərsə, Podratçı tərəf özünü nəzərdə tutulmuş Mənfəət vergisi də

which SOCAR must pay such Contractor Profit Tax to the State Budget as provided in Article 12.2(c). Therefore, the payment of the Profit Tax by SOCAR on behalf and in the name of the Contractor Party under Article 12.2(c) shall be treated by SOCAR and the Tax Authority as having been paid by the Contractor and as a complete satisfaction and release of the Contractor's obligation to pay Profit Tax related to its Hydrocarbon Activities as set forth in Articles 12.2(a) and 12.2(b). Notwithstanding Contractor's obligation to pay Profit Tax, the Tax Authority shall look solely to SOCAR for the payment of the Contractor's Profit Tax, unless Contractor elects to make any Profit Tax payments according to the provisions of Article 12.2(d)(iii).

(iii) Nevertheless, if SOCAR fails to make timely payments of the Profit Tax, including estimated Profit Tax, on behalf of the Contractor Parties to the State Budget as provided for in Article 12.2(c) or becomes so unable from time to time, each Contractor Party shall have the right to decide to pay the Profit Tax, including estimated Profit Tax, any interest, fines or penalties with respect thereto, individually directly to the State Budget. In such case, the Contractor Party's future entitlement to lift Profit Petroleum shall be increased, and SOCAR's entitlement shall be correspondingly diminished, by a volume of equivalent value to such amount of Profit Tax, including estimated Profit Tax, any interest, fines or penalties with respect thereto, paid by the Contractor Party. In the event that the non-payment by SOCAR of a Contractor Party's Profit Tax, including estimated Profit Tax, continues for a period exceeding thirty (30) days from the due date for payment, the Contractor Party shall have the option of discharging its liability for all future

daxil olmaqla, bütün gələcək Mənfəət vergisinin ödənişi mükəlləfiyyətindən azad edə bilər və bu Sazişin şərtlərinə əsasən Tərəflər arasındakı ilkin iqtisadi balansın yenidən qurulması üçün xüsusi sazişi razılaşdırır və sonra ARDNŞ və həmin Podratçı tərəf 12.2(c) bəndinə uyğun olaraq Mənfəət vergisi ödənilməsi üzrə öhdəliklərin həmin Podratçı tərəfə keçməsinin şərtləri barədə Vergi orqanına məlumat verirlər.

(e) Təqvim ili üçün Podratçı tərəfin Vergi tutulan mənfəəti və ya bu məbləğ mənfidirsə, Podratçı tərəfin Vergi tutulan zərəri bərabərdir: bu Təqvim ili ərzində Podratçı tərəfin Satışlardan daxil olan gəlirinin, Digər gəlirlərinin və Mənfəət vergisinin Ümumi təshihinin cəmi minus Çıxılmalar. "Vergi tutulan mənfəət", "Vergi tutulan zərər", "Satışlardan daxil olan gəlir", "Digər gəlirlər", "Mənfəət vergisinin Ümumi təshihi" və "Çıxılmalar" anlayışlarının mənası bu 12.2 bəndində müəyyənləşdirilmişdir.

(f) Vergi tutulan zərər sonrakı Təqvim ilinə keçirilir və həmin Təqvim ilində mövcud Vergi tutulan mənfəət hesabına ödənilir və Vergi tutulan zərər müvafiq məbləğdə azaldılır. Həmin Təqvim ilində bu yolla ödənilməmiş Vergi tutulan zərərin hər hansı qalığı Vergi tutulan mənfəətin hesabına tamamilə ödənilənədək məhdudiyyətsiz sonrakı Təqvim illərinə keçirilir.

(g) Keçirilmiş Vergi tutulan zərərin azaltdığı Vergi tutulan mənfəətdən Mənfəət vergisi dərəcəsi ilə Mənfəət vergisi tutulur.

(h) Satışlardan daxil olan gəlir Təqvim ili ərzində Podratçı tərəfin Karbohidrogen fəaliyyətinin həyata keçirildiyi zaman çıxarılan Karbohidrogenlərin satışından əldə edilmiş gəlirlərin həcmi deməkdir. Bu Karbohidrogenlər mübadilə və ya svop əməliyyatları nəticəsində əldə edilmişsə, Karbohidrogenlərin Satışlarından daxil olan gəlir həmin Podratçı tərəfin Təqvim ili ərzində mübadilə və ya dəyişmə

payments of Profit Tax, including estimated Profit Tax, and there shall be made a special agreement for the reestablishment of the initial economic equilibrium between the Parties, and, thereupon, SOCAR and such Contractor Party shall notify the Tax Authority of the terms of a transfer to such Contractor Party of the liability to pay the Profit Tax as provided for in Article 12.2(c).

(e) Taxable Profit, or if such sum is negative Taxable Loss, of a Contractor Party for a Calendar Year shall be equal to the sum of the Sales Income, the Other Income received by the Contractor Party during the Calendar Year and Profit Tax Gross Up less Deductions. The terms Taxable Profit, Taxable Loss, Sales Income, Other Income, Profit Tax Gross Up and Deductions shall have the meaning ascribed to them in this Article 12.2.

(f) Taxable Losses shall be carried forward to the next Calendar Year and set off against any available Taxable Profit in that Calendar Year and Taxable Losses shall be reduced accordingly. Any balance of Taxable Losses not so set off in that Calendar Year shall be carried forward without limitation to future Calendar Years until fully set off against Taxable Profit.

(g) Taxable Profit as reduced by Taxable Losses brought forward, shall be subject to Profit Tax at the Profit Tax Rate.

(h) Sales Income shall be defined as the amount of income derived during the Calendar Year by the Contractor Party from sales of Petroleum produced in the conduct of Hydrocarbon Activities. In the event such Petroleum is exchanged or swapped, then Sales Income shall be defined as the amount of income derived during the Calendar Year by such Contractor Party from sales of the Petroleum

yolu ilə əldə edilən Karbohidrogenlərin satışından götürdüyü gəlirin həcmi deməkdir. Bu 12.2(h) bəndinin məqsədləri baxımından Satışlardan daxil olan gəlir aşağıdakıları tətbiq etmək yolu ilə müəyyənləşdirilir: kommersiya cəhətdən müstəqil satışda (13.1(e)(v) bəndində müəyyən edildiyi kimi) həmin Podratçı tərəfin satdığı məhsulun faktik qiyməti; kommersiya cəhətdən asılı satışda isə kommersiya cəhətdən bu cür asılı satışlar üçün dəyərin müəyyən edilməsinin 13.1 bəndində göstərilən prinsipləri tətbiq etmək yolu ilə müəyyənləşdirilir.

(i) Digər gəlirlər Karbohidrogen fəaliyyətinin gedişində Podratçı tərəfin əldə etdiyi nağd vəsaitlərin hər hansı məbləği kimi müəyyən olunur, və bu məbləğlər 6.6 bəndində müəyyən olunduğu kimi, Əməliyyat şirkətinin əldə etdiyi və Podratçının hesabına aid edilmiş bütün Digər gəlirləri, o cümlədən, lakin bunlarla məhdudlaşmadan, aşağıdakıları əhatə edir:

(i) sığorta varidatı;

(ii) valyuta əməliyyatlarından əldə edilən gəlirlər;

(iii) 14.2(d) və (e) bəndlərinin müddəalarına uyğun olaraq Ləğvetmə işləri fondundan alınan məbləğlər;

(iv) 14.2(h) bəndinin müddəalarına uyğun olaraq Ləğvetmə işləri fondundakı izafi vəsaitlərin bölüşdürülməsindən əldə edilən məbləğlər;

(v) faiz gəlirləri;

(vi) malgöndərənlərdən, avadanlıq istehsal edənlərdən və ya onların agentlərindən qüsurlu materiallara və ya avadanlığa görə alınan məbləğlər;

(vii) obyektlərdən və ya intellektual mülkiyyətdən istifadəyə görə, xidmət haqqı kimi alınan, materialların satışından və ya çarter haqqı şəklində

received in the exchange or swap. For purposes of this Article 12.2(h), Sales Income shall be determined by applying, in the case of arm's length sales (as defined in Article 13.1(e)(v)), the actual price realised by such Contractor Party, and, in the case of non arm's length sales, the principles of valuation as set out in Article 13.1 for such non arm's length sales.

(i) Other Income shall be defined as any amounts of cash received by a Contractor Party in the carrying on of Hydrocarbon Activities and such amounts shall include all Other Income received by the Operating Company and allocated to the Contractor Party under Article 6.6, including but not limited to the following:

(i) insurance proceeds;

(ii) realised exchange gains;

(iii) amounts received under Articles 14.2(d) and (e) from the Abandonment Fund;

(iv) amounts received under Article 14.2(h) for distributions of excess funds in the Abandonment Fund;

(v) interest income;

(vi) amounts received from suppliers, manufacturers or their agents in connection with defective materials and equipment;

(vii) amounts received for the use of facilities or intellectual property, compensation for services, sales of materials or charter hire;

əldə edilən məbləğlər;

(viii) əvvəlcədən ARDNŞ tərəfindən ödənilən və Podratçıya qaytarılan və bu Podratçı tərəfindən ARDNŞ-ə əvəzi ödənilməyəcəyi təqdirdə Mənfəət vergisinin geri qaytarılması. ARDNŞ öz vergi tutulan mənfəətini hesablayan zaman Mənfəət vergisindən həmin məbləği tutmaq səlahiyyətinə malikdir.

Bu şərtlə ki, Podratçı tərəfin əldə etdiyi aşağıdakı məbləğlər Digər gəlirlərə salınmasın:

(1) Karbohidrogenlərin satışından əldə edilən məbləğlər;

(2) 12.2 (n) və (o) bəndlərində başqa cür nəzərdə tutulanlar istisna edilməklə, Əsas fondların satışından əldə edilən məbləğlər;

(3) kredit şəklində alınan məbləğlər və ya Podratçı tərəfə verilən pul vəsaitləri;

(4) bu Sazişin şərtləri altında meydana çıxan hər hansı bir Podratçı tərəfin hüquq və öhdəliklərinin satışından əldə olunan məbləğlər;

(5) Vergilərin qaytarılmasından əldə edilən məbləğlər (yuxarıda 12.2(i)(viii) bəndində göstərilənlər istisna olmaqla) və ya Podratçı tərəfin öz Ortaq şirkətindən aldığı dividendlər;

(6) Podratçı tərəfin (və ya onun Ortaq şirkətinin) çəkdiyi xərclərlə bağlı kompensasiya şəklində və ya başqa şəkildə alınmış məbləğlər – Podratçı tərəfin Vergi tutulan mənfəəti və ya Vergi tutulan zərəri hesablamaq məqsədləri üçün Çıxılmalar kimi baxdığı belə xərclərin məbləğlərindən artıq məbləğlər (belə halda Podratçı tərəf bu cür izafi

(viii) refunds of Profit Tax originally paid by SOCAR, and refunded to a Contractor Party, in the event SOCAR is not compensated by such Contractor Party. SOCAR shall be entitled to deduct such amount of Profit Tax in computing its own taxable profit.

Provided, however, Other Income shall not include the following amounts received by a Contractor Party:

(1) amounts received from sales of Petroleum;

(2) except as otherwise provided in Articles 12.2 (n) and (o), amounts received from sales of Fixed Assets;

(3) amounts received as loans, or funds contributed, to the Contractor Party;

(4) amounts received from sales of any of the Contractor Party's rights and obligations arising under this Agreement;

(5) amounts received as refunds of Taxes (except as provided in Article 12.2(i)(viii) above) or as dividends received by a Contractor Party from an Affiliate of such Contractor Party;

(6) amounts received in reimbursement of or otherwise in connection with expenditures incurred by a Contractor Party (or an Affiliate thereof) in excess of the amounts of such expenditures that have been treated as Deductions by the Contractor Party for purposes of computing Taxable Profit or Taxable Loss (in which case the amounts of any such excess

məbləğlərə daha həmin məqsədlər üçün Çıxılmalar kimi baxmır və 12.2(m) bəndində göstərilən saldo müvafiq şəkildə təshih edilməlidir);

(7) əldə edilmiş, Podratçı tərəfin tam sərəncamında olmayan və həmin Podratçı tərəfin sərvətini artırmayan məbləğlər;

(8) əvvəllər Mənfəət vergisi tutulmuş gəlirlər.

(j) Mənfəət vergisinin Ümumi təshihi yuxarıdakı 12.2(c) bəndinə uyğun olaraq ARDNŞ-nin həmin Podratçı tərəf adından ödədiyi Podratçı tərəfin Təqvim ili üçün Mənfəət vergisi öhdəliyinin ümumi məbləğinə bərabər məbləğ kimi müəyyən edilir; bu cür Mənfəət vergisinin öhdəliyi həmin Təqvim ili üçün Podratçı tərəfin Vergi tutulan mənfəətinin Mənfəət vergisi dərəcəsinə vurmaqla müəyyən edilən məbləğə bərabərdir. Bu 12.2(j) bəndi ARDNŞ-nin Podratçı tərəf adından ödəməli olduğu vergini hesablamaq üçün istifadə olunur. Əgər ARDNŞ belə Mənfəət vergisini ödəmirsə və belə Mənfəət vergisini ARDNŞ-nin əvəzinə Podratçı tərəf ödəyirsə, Mənfəət vergisinin Ümumi təshihi sıfıra (0) bərabər olur.

(k) Təqvim ili ərzində Podratçı tərəfin Vergi tutulan mənfəətinin və ya Vergi tutulan zərərinin məbləğini müəyyən etmək məqsədləri baxımından Çıxılmalara Karbohidrogen fəaliyyəti ilə əlaqədar olaraq Podratçı tərəfin çəkdiyi və praktikaya müvafiq olaraq ödənişləri təsdiq edən sənədləri mövcud olan bütün xərclər daxildir və bu məbləğlərə Əməliyyat şirkətinin Azərbaycan Respublikasında və onun hüdudlarından kənarda çəkdiyi və 6.6 bəndinə əsasən Podratçı tərəfin hesabına yazılmış Çıxılmalar, və o cümlədən, lakin bunlarla məhdudlaşmadan aşağıdakı xərclər daxildir:

(i) Podratçı tərəfin əməkdaşlarına və onların ailələrinə mənzil, yemək verilməsi, kommunal xidmətlər

shall not thereafter be treated as Deductions by the Contractor Party for such purposes and corresponding adjustments shall be made to the balance in Article 12.2(m));

(7) amounts received which are not freely at the disposal of and do not increase the wealth of the Contractor Party;

(8) income which was before subject to Profit Tax.

(j) Profit Tax Gross Up shall be defined as an amount equal to the total amount of a Contractor Party's Profit Tax liability for a Calendar Year which is payable on behalf of the Contractor Party by SOCAR pursuant to Article 12.2(c) above; such Profit Tax liability is equal to the value of the Profit Tax Rate multiplied by Contractor Party's Taxable Profit for such Calendar Year. This Article 12.2(j) shall be used to calculate the tax SOCAR shall pay on behalf of the Contractor Party. If SOCAR fails to pay such Profit Tax and the Contractor Party pays such Profit Tax instead of SOCAR, then Profit Tax Gross Up shall equal to zero (0).

(k) For purposes of determining the amount of the Taxable Profit or Taxable Loss of a Contractor Party for a Calendar Year, Deductions shall include all costs documentary supported and incurred by the Contractor Party in accordance with the practice in connection with the conduct of Hydrocarbon Activities and such amount shall include all Deductions incurred by the Operating Company and allocated to the Contractor Party under Article 6.6, whether incurred in the Republic of Azerbaijan or elsewhere, including but not limited to the following:

(i) the full amount of gross wages, salaries, and other amounts charged to all employees of the Contractor

göstərilməsi, uşaqlarının təhsil almaları ilə bağlı bütün xərclərin, habelə yaşadıqları ölkədən gəlmələri və geriyə qayıtmaları üçün çəkilən yol xərclərinin ödənilməsi ilə birlikdə bütün əməkdaşlara hesablanmış əmək haqlarının, maaşların tam məbləğləri və digər məbləğlər;

(ii) Azərbaycan Respublikasında dövlət sosial sığortasına çəkilən bütün xərclər, o cümlədən, lakin bunlarla məhdudlaşdırılmadan təqaüd fonduna, sosial sığorta fonduna və tibbi sığorta fonduna ayırmalar və əməkdaşlar üçün bütün digər sosial ödənişlər;

(iii) Kontrakt sahəsi ilə bağlı kəşfiyyat və qiymətləndirmə işlərinə çəkilən məsrəflər;

(iv) Kontrakt sahəsi ilə bağlı quyuların qazılması ilə bağlı məsrəflər (beynəlxalq neft-qaz sənayesinin hamılıqla qəbul edilmiş üsullarına uyğun olaraq adətən utilizasiya edilən hər hansı avadanlıq və ya əsas fond vahidinə çəkilmiş məsrəflər istisna olunmaqla);

(v) Satış məntəqəsinədək Karbohidrogenlərin nəql edilməsi və realizəsi üçün çəkilən məsrəflər, o cümlədən, lakin bununla məhdudlaşmadan, boru kəməri tarifləri, komisyon və broker haqları;

(vi) cari icarə ili üçün icarə müqavilələri üzrə ödənişlər;

(vii) sığorta üzrə xərclər;

(viii) işçilərin peşə hazırlığına çəkilən xərclər;

(ix) Kontrakt sahəsi ilə bağlı hər bir Podratçı tərəfin ofislərinin və ya təsərrüfat fəaliyyəti göstərdiyi digər yerlərin fəaliyyəti ilə bağlı çəkilən xərclər, o

Party together with all costs incurred in connection with the provision of accommodation, food, public utilities, children's education, and travel to and from home country for employee and family; and

(ii) all costs of state social insurance of the Republic of Azerbaijan, including, but not limited to contributions to the pension fund, social insurance fund and medical insurance fund and all the other social payments for the employees; and

(iii) exploration and appraisal costs related to the Contract Area; and

(iv) costs associated with drilling wells (excluding the costs of any item of equipment or capital asset which is usually salvaged in accordance with practices generally accepted and recognised in the international Petroleum industry); and

(v) costs of transportation of Petroleum to the Point of Sale and of marketing, including without limitation pipeline tariffs, commissions and brokerages; and

(vi) payments made under a lease agreement for the current year of the lease; and

(vii) insurance costs; and

(viii) personnel training costs; and

(ix) costs connected with the activities of the offices or other places of business of each Contractor Party including management, research and development,

cümlədən idarə xərcləri, tədqiqatlara və elmi araşdırmalara çəkilən xərclər və ümumi inzibati xərclər;

(x) Əsas fondlar olmayan hər hansı avadanlıq və ya əmlak vahidinə çəkilən xərclər;

(xi) Karbohidrogen fəaliyyətinin həyata keçirilməsi nəticəsində əmələ gəlmiş hər hansı borca və bu borcların hər hansı təkrar maliyyələşdirilməsinə görə ödənilən faizlərin, haqların və əlavələrin bütün məbləğləri; bu şərtlə ki, aşağıdakılar istisna edilsin: (1) Ortaq şirkətin borcu olduqda bu cür vəziyyətlərdə müstəqil tərəflərin razılaşdıra biləcəkləri faiz dərəcəsindən artıq faizlər və (2) borcun qaytarılmasının gecikdirilməsi üzündən ödənilməli olan faizlər;

(xii) Podratçı tərəfin Ortaq şirkətləri tərəfindən Azərbaycan Respublikasının hüdudlarından kənarda göstərilən və ya ONŞ və onun Ortaq şirkətləri tərəfindən çəkilən (Mühasibat uçotunun aparılması qaydasının 2.14 bəndinə müvafiq) və onların Karbohidrogen fəaliyyətinə dolayısı ilə fayda verən ümumi, inzibati xidmət üzrə xərclərinin ödənilməsi üçün ayrılan hissə. Bu xidmətlərə inzibati, hüquqi, maliyyə, vergi və kadr işləri ilə bağlı vəzifələri yerinə yetirən işçilərə aid ofis xərcləri, ekspertizalar təmin edilməsi, yaxud konkret layihələrə aid edilməsi mümkün olmayan digər qeyri-texniki vəzifələr daxildir. Bu Sazişə görə Təqvim ilində həmin xərclərin hər bir Podratçı tərəf üçün ayrılan hissəsi aşağıdakı düsturla müəyyən edilən həcmə bərabərdir:

$$a = (b/c)\, d$$

burada:

and general administration expenses related to the Contract Area; and

(x) the cost of any item of equipment or asset which is not a Fixed Asset; and

(xi) amounts of interest, fees and charges paid in respect of any debt incurred in carrying out the Hydrocarbon Activities and any refinancing of such debts, excluding (1) in the case of Affiliate debt, interest in excess of a rate which would have been agreed upon between independent parties in similar circumstances, and (2) additional interest which becomes payable because the debt is repaid after its due date for repayment; and

(xii) an allocable portion covering costs of general administrative support provided by a Contractor Party's Affiliates outside of the Republic of Azerbaijan or by SOA and its Affiliates (in accordance with paragraph 2.14 of the Accounting Procedure) which results in an indirect benefit to Hydrocarbon Activities. Such support will include the services and related office costs of personnel performing administrative, legal, treasury, tax and employee relations, services, provision of expertise and other non technical functions which cannot be specifically attributed to particular projects. The allocable portion of such costs with respect to this Agreement for each Contractor Party for the Calendar Year shall be equal to the amount determined using the following formula:

$$a = (b/c)\, d$$

where:

a = Təqvim ilində Podratçı tərəf üçün ayrılan hissə;

b = Təqvim ilinin axırı üçün həmin Podratçı tərəfin İştirak payının faizi;

c = Təqvim ilinin axırı üçün Podratçı tərəflərin İştirak payları faizlərinin cəmi; və

d = Təqvim ilində Podratçı tərəflərin əlavə ümumi və inzibati xərclərinin cəmi.

Təqvim ilində Podratçı tərəflərin əlavə ümumi və inzibati xərclərinin cəmi aşağıdakı düsturla müəyyən edilən məbləğə bərabərdir:

d = w + x + y + z

burada:

d = Təqvim ilində Podratçı tərəflərin əlavə ümumi və inzibati xərclərinin cəmi;

w = Təqvim ilində Podratçı tərəflərin Əsaslı məsrəfləri on beş milyon (15.000.000) Dollara qədər olsa, məbləğin üç (3) faizi;

x = Təqvim ilində Podratçı tərəflərin Əsaslı məsrəfləri on beş milyon (15.000.000) Dollardan otuz milyon (30.000.000) Dollara qədər olsa, məbləğin iki (2) faizi;

a = the allocable portion for a Contractor Party for the Calendar Year;

b = the percentage Participating Interest of that Contractor Party at the end of the Calendar Year;

c = the sum of the percentage Participating Interests of the Contractor Parties at the end of the Calendar Year; and

d = the sum of the general and administrative overhead of the Contractor Parties for the Calendar Year.

The sum of the general and administrative overhead of the Contractor Parties for the Calendar Year shall be the amount determined using the following formula:

d = w + x + y + z

where:

d = the sum of the general and administrative overhead of the Contractor Parties for the Calendar Year;

w = three (3) percent of the sum of the Contractor Parties' Capital Costs for the Calendar Year, if any, up to fifteen million (15,000,000) Dollars;

x = two (2) percent of the sum of the Contractor Parties' Capital Costs for the Calendar Year from fifteen million (15,000,000) Dollars to thirty (30,000,000) million Dollars, if any;

y = Təqvim ilində Podratçı tərəflərin Əsaslı məsrəfləri otuz milyon (30.000.000) Dollardan çox olsa, məbləğin bir (1) faizi;

z = Təqvim ilində Podratçı tərəflərin Əməliyyat məsrəfləri məbləğinin bir tam onda beş (1,5) faizi;

(xiii) Ləğvetmə işləri fonduna ödəmələr;

(xiv) tələf edilməsi və ya zərər vurulması nəticəsində material və ya əmlak itkiləri; Təqvim ili ərzində ləğv edilən və ya imtina olunan əmlak, ümidsiz borclar və itkilərə görə Üçüncü tərəflərə kompensasiya hesabına ödənişlər;

(xv) digər itkilər, o cümlədən valyuta mübadiləsindən dəyən itkilər və ya Karbohidrogen fəaliyyəti ilə bilavasitə bağlı olan rüsumlar;

(xvi) Karbohidrogen fəaliyyətini həyata keçirərkən Podratçı tərəfin çəkdiyi digər məsrəflər;

(xvii) 28.2 bəndində nəzərə alınan məbləğlər;

(xviii) Karbohidrogen fəaliyyəti ilə əlaqədar olaraq torpaq sahələrinin alınması və ya onlardan istifadə edilməsi üçün çəkilən əlaqədar təsadüfi xərclər;

(xix) Podratçı tərəfin İştirak payı faizindən irəli gələn öhdəliklər və onlarla bağlı məsrəflərdən başqa Podratçı tərəfin üzərinə qoyulan və yalnız bu Podratçı tərəfin mühasibat kitablarına və hesablarına salınan öhdəliklər və onlarla bağlı xərclər (və bu zaman belə maliyyə öhdəliklərinin və onunla bağlı məsrəflərin aid olduğu İştirak payına sahib olan Podratçı tərəf eyni məbləğə Çıxılmaları daxil etmək hüququna malik deyil);

y = one (1) percent of the sum of the Contractor Parties' Capital Costs for the Calendar Year in excess of thirty million (30,000,000) Dollars, if any; and

z = one point five (1.5) percent of the sum of the Contractor Parties' Operating Costs for the Calendar Year; and

(xiii) payments into the Abandonment Fund; and

(xiv) losses of materials or assets resulting from destruction or damage, assets which are renounced or abandoned during the Calendar Year, bad debts and payments made to Third Parties as compensation for damage; and

(xv) any other losses, including realised exchange losses, or charges directly related to Hydrocarbon Activities; and

(xvi) other expenditures which the Contractor Party incurs in carrying out Hydrocarbon Activities; and

(xvii) amounts stipulated in Article 28.2; and

(xviii) incidental costs incurred for the acquisition or occupation of land in connection with Hydrocarbon Activities; and

(xix) liabilities and related costs charged to the Contractor Party which are in excess of such Contractor Party's Participating Interest share of such liabilities and related costs and which shall only be entered in the books and accounts of such Contractor Party (provided that in such case, a Contractor Party holding the Participating Interest associated with such financial liabilities and related costs shall not be entitled to include Deductions

(xx) 12.2(1) bəndində göstərilən üsulla hesablanan amortizasiya ayırmaları.

(l) (i) Amortizasiya ayırmaları aşağıdakı qaydada hesablanır:

(aa)	Aşağıdakı (bb), (cc) bəndlərində əhatə edilməyən Əsas fondlar	Təqvim ili üçün qalıq dəyərinin iyirmi beş (25) faizi
(bb)	28.1 bəndində göstərilən Bonus ödənişləri	Təqvim ili üçün ilkin dəyərin on (10) faizi
(cc)	İnzibati binalar, anbarlar və bu cür qurğular ("Binalar")	Təqvim ili üçün ilkin dəyərin iki tam onda beş (2,5) faizi

Əsas fondlara məsrəflər üzrə amortizasiya məbləği Azərbaycanda alınan mallara Əlavə dəyər vergisi (ƏDV) istisna olmaqla, Əsas fondların qiymətinə görə hesablanır. 12.2(k) bəndinə əsasən Çıxılma kimi baxılan hər hansı məbləğ 12.2(l) bəndinə əsasən amortizasiya edilmir.

(ii) 12.2(l)(i)(aa) bəndində təsvir edilən Əsas fondlar üzrə Təqvim ili ərzində çəkilən bütün məsrəflər iyulun birində (1-də) çəkilən məsrəflər sayılır ki, bunun da nəticəsində xərclərin əlli (50) faizi əvvəlki Təqvim ilindən keçirilən amortizasiya olunmamış məbləğlərin saldosuna əlavə edilir. Sonra Əsas fondların satışından əldə olunan hər hansı məbləğlər həmin saldodan çıxılır ki, bu da təshih edilmiş saldo əmələ gətirir ("Təshih edilmiş

into the same amount); and

(xx) amortisation calculated as hereinafter provided in Article 12.2(l).

(l) (i) Amortisation Deductions shall be calculated as follows:

(aa)	Fixed Assets which are not described in (bb) or (cc) below	twenty five (25) percent per Calendar Year declining balance basis
(bb)	Bonus payments referred to in Article 28.1	ten (10) percent per Calendar Year straight line basis
(cc)	Office buildings, warehouses and similar constructions ("Buildings")	two point five (2.5) percent per Calendar Year straight line basis

The amount of amortisation for expenditure on a Fixed Asset shall be computed on the cost of the Fixed Asset exclusive of Value Added Tax (VAT) on goods purchased in the Republic of Azerbaijan. Any item which is treated as Deduction under Article 12.2(k) shall not be amortised under Article 12.2(l).

(ii) All expenditures on Fixed Assets described in Article 12.2(l)(i)(aa) incurred during the Calendar Year shall be deemed to have been incurred on first (1st) July with the result that fifty (50) percent of the expenditure shall be added to the balance of the unamortised amounts brought forward from the preceding Calendar Year. The balance shall then be reduced by any amounts received from the disposal of Fixed Assets to give an adjusted balance

saldo") və o, sonradan aşağıdakı qaydada amortizasiya edilir:

Əvvəlki Təqvim ilindən keçirilmiş saldo	x
Üstəgəl Təqvim ili ərzində Əsas fondlar üzrə çəkilən məsrəflərin əlli (50) faizi	x
Çıxılsın Təqvim ili ərzində Əsas fondların satışından alınan faktiki varidatın tam məbləği	(x)
Təshih edilmiş saldo	x
Çıxılsın amortizasiya çıxılmaları: Təshih edilmiş saldonun iyirmi beş (25) faizi	(x)
Üstəgəl Təqvim ili ərzində Əsas fondlar üzrə çəkilən məsrəflərdən çıxılmış əlli (50) faiz saldo	x
Sonrakı Təqvim ilinə keçirilən saldo	x

(iii) əgər Azərbaycan Respublikasında olan, bu Sazişin məqsədləri üçün Karbohidrogen fəaliyyətində istifadə olunan Əsas fondlar hər hansı Təqvim ilində özgəninkiləşdirilərsə (o cümlədən, lakin bununla məhdudlaşmadan, 14-cü Maddəyə müvafiq olaraq ötürülərsə), onda:

(aa) əgər Təshih edilmiş saldo üstəgəl "Təqvim ili ərzində Əsas fondlar üzrə çəkilən məsrəflərdən çıxılmış əlli (50) faiz saldo" müsbətdirsə, onun tam məbləğinə bu Təqvim ilində Çıxılma kimi baxılır, yaxud

("Adjusted Balance"), which will then be amortised as follows:

Balance brought forward from preceding Calendar Year	x
Add fifty (50) percent of the expenditure incurred on Fixed Assets during Calendar Year	x
Less the full amount of the actual proceeds from sales of Fixed Assets during Calendar Year	(x)
Adjusted Balance	x
Less amortisation: twenty five (25) percent of the Adjusted Balance	(x)
Add excluded fifty (50) percent balance of expenditure incurred on Fixed Assets during the Calendar Year	x
Balance to carry forward to following Calendar Year	x

(iii) If in any Calendar Year, all Fixed Assets in the Republic of Azerbaijan used in Hydrocarbon Activities for the purposes of this Agreement are disposed of (including but not limited to a transfer pursuant to Article 14) then:

(aa) if the Adjusted Balance plus the "excluded fifty (50) percent balance of expenditure incurred on Fixed Assets during the Calendar Year" is positive, the full amount shall be treated as a Deduction in that Calendar Year, or

(bb) əgər Təshih edilmiş saldo üstəgəl "Təqvim ili ərzində Əsas fondlar üzrə çəkilən məsrəflərdən çıxılmış əlli (50) faiz saldo" mənfidirsə, onun tam məbləğinə bu Təqvim ilində Digər gəlirlər kimi baxılır.

(iv) Təqvim ili ərzində Binanın satılması, özgəninkiləşdirilməsi və ya tərk edilməsi ("Özgəninkiləşdirilmə") nəticəsində Podratçı tərəfin razılaşdığı mənfəətinin və ya zərərlərinin cəmi Digər gəlirlər və ya Çıxılmalar hesab edilir və aşağıdakı qaydada hesablanır:

Binanın Özgəninkiləşdirilməsindən gələn varidat (əgər beləsi varsa)	x
Çıxılsın Binanın Təshih edilmiş dəyəri	(x)
Binanın Özgəninkiləşdirilməsindən mənfəət/(zərər)	x

Binanın Təshih edilmiş dəyəri aşağıdakı qaydada hesablanır:

Binanın ilkin dəyəri	x
Üstəgəl əsaslı təkmilləşdirmələrin dəyəri	x
Çıxılsın yığılmış amortizasiya Çıxılmaları	(x)
Binanın Təshih edilmiş dəyəri	x

(m) Podratçı tərəfin Vergi tutulan mənfəətini və ya Vergi tutulan zərərini hesablamaq məqsədləri üçün həmin Podratçı tərəfin Karbohidrogen fəaliyyəti ilə əlaqədar olaraq Qüvvəyəminmə tarixinədək çəkdiyi bütün məsrəflər (o cümlədən, lakin bunlarla məhdudlaşdırılmadan

(bb) if the Adjusted Balance plus the "excluded fifty (50) percent balance of the expenditure incurred on Fixed Assets during the Calendar Year" is negative, the full amount shall be treated as Other Income in that Calendar Year.

(iv) There shall be treated as Other Income or Deductions the amount of gains or losses recognised by a Contractor Party during the Calendar Year from the sale, disposition or abandonment ("Disposition") of a Building computed as follows:

Proceeds (if any) from Building Disposition	x
Less Adjusted Basis of Building	(x)
Gain/(Loss) on Building Disposition	x

The Adjusted Basis of such Building shall be calculated as follows:

Original cost of the Building	x
Add cost of capitalised improvements	x
Less accumulated amortisation Deductions	(x)
Adjusted Basis of Building	x

(m) For purposes of computing a Contractor Party's Taxable Profit or Taxable Loss, all costs incurred by the Contractor Party in connection with Hydrocarbon Activities (including but not limited to costs incurred directly or indirectly in connection with technical work in the Republic of

Azərbaycan Respublikasında və ya digər yerlərdə texniki işlə bağlı çəkilən birbaşa, yaxud dolayı məsrəflər, habelə Podratçı tərəfin Azərbaycan Respublikasındakı nümayəndəlik ofislərinin məsrəfləri) həmin tarixdə çəkilən məsrəflər hesab edilir. Yuxarıda deyilənlərə baxmayaraq bu Saziş barəsində danışıqlara və tibbi, mədəni və xeyriyyəçilik fəaliyyətinə çəkilən müstəqim və ya dolayı məsrəflər həmin Podratçı tərəfin Vergi tutulan mənfəəti və ya Vergi tutulan zərəri hesablanarkən nəzərə alınmır.

(n) Podratçı tərəf özünə məxsus hər hansı Əsas fondu bu cür Əsas fondun qalıq dəyərindən asılı olmayaraq bazar qiymətləri ilə satmaq və ya başqasına vermək hüququna malikdir.

(o) Hər hansı Podratçı tərəf özünün Sazişdə İştirak payını tamamilə və ya qismən başqasına verdiyi halda onun müvəkkili İştirak payı verilən Təqvim ili üçün Podratçı tərəfin Vergi tutulan zərərinin əgər beləsi varsa, həmin zərərin hamısını, və ya İştirak payı qismən verildikdə, Vergi tutulan zərərinin proporsional hissəsini həmin Təqvim ili üçün Çıxılmalar kimi qiymətləndirilməli olduğunu iştirak payını verən Podratçı tərəfin seçmək ixtiyarı var.

12.3 <u>Mənfəət vergisi uçotu və vergi bəyannamələri</u>

(a) Hər Podratçı tərəf:

(i) Vergilərin uçotu jurnalını və qeydləri, həmçinin Vergi tutulan mənfəətin və Vergi tutulan zərərin hesablanmasını ancaq Dollarla aparır.

(ii) Satışlardan daxil olan gəlirləri, Digər gəlirləri və Çıxılmaları Qüvvəyəminmə tarixindən Azərbaycan Respublikasında tətbiq edilən kassa mədaxilləri və məxaricləri metodu ilə əks etdirir.

(iii) maliyyə hesabatlarını və Mənfəət vergisi haqqında bəyannamələri ancaq Dollarla tərtib edir və vergi

Azerbaijan or elsewhere and costs incurred by representative offices in the Republic of Azerbaijan of the Contractor Party) which were incurred prior to the Effective Date shall be deemed to have been incurred on such date. Notwithstanding the foregoing, direct or indirect costs of conducting the negotiation of this Agreement and in supporting medical, cultural or charitable activities shall not be included in computing the Contractor Party's Taxable Profit or Taxable Loss.

(n) A Contractor Party has the right to sell or transfer any Fixed Assets which it owns at market prices without regard to book value of the Fixed Assets.

(o) Should any Contractor Party assign all or any part of its Participating Interest in the Agreement, the assigning Contractor Party shall have the option to elect to have the assignee treat as Deductions for the Calendar Year in which the assignment occurs all, or a proportional part if only part is assigned, of the Taxable Loss, if any, of the assignor Contractor Party for such Calendar Year.

12.3 <u>Profit Tax Accounting and Returns</u>

(a) Each Contractor Party shall:

(i) maintain its tax books and records, and compute its Taxable Profit and Taxable Loss, exclusively in Dollars.

(ii) recognise items of Sales Income, Other Income and Deductions in accordance with the cash receipts and disbursements basis applicable in the Republic of Azerbaijan as of the Effective Date.

(iii) draw up its financial statements and Profit Tax returns in Dollars and submit one set of accounts

balansından və mənfəət və zərər haqqında hesabatdan ibarət Təqvim ili üçün mühasibat komplektini, habelə Karbohidrogen fəaliyyətini əks etdirən Mənfəət vergisi məbləğinin hesablanması üzrə hesabatı təqdim edir.

(iv) hər Təqvim ili üçün öz maliyyə hesabatlarının və Mənfəət vergisi haqqında bəyannamələrinin Podratçı tərəfin təyin etdiyi və Azərbaycan Respublikasında təftişlər aparmaqdan ötrü müvafiq icazələri (lisenziyaları) olan auditor tərəfindən təftiş olunmasını təmin edir.

(v) hər Təqvim ili üçün vergi maliyyə hesabatlarını və Mənfəət vergisi haqqında bəyannamələri auditorun müvafiq arayışı ilə birlikdə sonrakı Təqvim ilinin on beş (15) martından gec olmayaraq Vergi orqanına təqdim edir. Mənfəət vergisi üzrə ilkin bəyannamə təqdim edildiyi halda, Podratçı tərəf cari ilin otuz (30) iyun tarixinədək Mənfəət vergisi üzrə yekun bəyannamə təqdim etmək hüququna malikdir.

(vi) Podratçı tərəfin öz mülahizəsinə görə, Vergi tutulan mənfəət əldə edəcəyi birinci Təqvim ilindən başlayaraq hər Təqvim rübü üçün Vergi tutulan mənfəətin qabaqcadan hesablanmış məbləğinə əsasən həmin Təqvim rübünün, eləcə də həmin Təqvim ilində əvvəlki Təqvim rüblərinin qabaqcadan hesablanmış Mənfəət vergisini ödəmək üçün məsuliyyət daşıyır. Qabaqcadan hesablanmış Mənfəət vergisi 12.2(c) yaxud 12.2(d)(iii) bəndinə uyğun olmaqla, Dövlət büdcəsinə müvafiq Təqvim rübü qurtarandan sonra iyirmi beş (25) gündən gec olmayaraq ödənilir. Ödənclə birlikdə razılaşdırılmış forma üzrə hazırlanmış hesablamalar Vergi orqanına təqdim edilir. Təqvim rübü üçün qabaqcadan qoyulan Mənfəət vergisi hesablanarkən hər Podratçı tərəf İllik iş proqramından və şəxsi rəyincə, hər hansı digər informasiyadan istifadə edə bilər.

for the Calendar Year consisting of a tax balance sheet and profit and loss account, together with one Profit Tax computation for the Calendar Year reflecting its Hydrocarbon Activities.

(iv) have its tax financial statements and Profit Tax return for each Calendar Year audited by an auditor appointed by the Contractor Party and who has relevant permits (licenses) to carry out such audits in the Republic of Azerbaijan.

(v) submit tax financial statements and Profit Tax returns for each Calendar Year, together with an appropriate opinion from the auditor, to the Tax Authority no later than the fifteenth (15th) March of the following Calendar Year. In the case of preliminary Profit Tax return filing, Contractor Party shall have the right to file the final Profit Tax return until thirtieth (30th) June of the current year.

(vi) beginning in the first Calendar Year in which it estimates it will earn a Taxable Profit, be liable based upon its estimate of its Taxable Profit for estimated Profit Tax for such Calendar Quarter, as well as for estimated Profit Tax for previous Calendar Quarters in that Calendar Year. Estimated Profit Tax shall be paid in accordance with Article 12.2(c) or Article 12.2(d)(iii) to the State Budget not later than within twenty five (25) days following the end of the relevant Calendar Quarter. Along with the payment, computations prepared in accordance with the agreed form shall be submitted to the Tax Authority. In calculating the estimated Profit Tax for a Calendar Quarter, each Contractor Party may utilise the Annual Work Programme along with any other information which it deems appropriate.

(b) Təqvim ili üçün Mənfəət vergisinə dair qəti bəyannamə təqdim ediləndən sonra həmin Təqvim ili ərzində Təqvim rübləri hesabına ödənilən qabaqcadan hesablanmış Mənfəət vergiləri məbləğləri Mənfəət vergisinə dair qəti bəyannamədə hesablandığı kimi qəti Mənfəət vergisi məbləğinə daxil edilir. Artıq ödənmiş hər hansı məbləği Dövlət büdcəsi Podratçı tərəfə o, Mənfəət vergisinə dair qəti bəyannaməni təqdim edəndən sonra qırx beş (45) gün müddətində qaytarır (ya da, Podratçı tərəfin seçimi ilə həmin Təqvim rübü və ya növbəti Təqvim rübü (rübləri) üçün Mənfəət vergisinin hər bir qabaqcadan ödənmiş məbləğin əvəzini verəcək). Əskik ödənmiş hər hansı məbləğ 12.2(c) və ya 12.2(d)(iii) bəndinə uyğun surətdə Mənfəət vergisinin qəti bəyannaməsi təqdim ediləndən sonra on (10) gün müddətində ARDNŞ tərəfindən Dövlət büdcəsinə ödənilir. Bütün hallarda Təqvim ili üçün Mənfəət vergisinin qəti məbləği Mənfəət vergisinə dair bəyannamədə hesablandığı məbləğdə, sonrakı Təqvim ilinin iyirmi beş (25) martından gec olmayaraq ödənilir.

(b) Upon filing the final Profit Tax return for a Calendar Year, estimated Profit Tax paid with respect to the Calendar Quarters during such Calendar Year shall be credited against the final Profit Tax as calculated on the final Profit Tax return. Any overpayment shall be refunded by the State Budget within forty-five (45) days following the date the Contractor Party's final Profit Tax return is submitted (or, upon election of the Contractor Party, shall be offset against any advance payment amounts of the Profit Tax for such Calendar Quarter or for the following Calendar Quarter(s)). Any underpayment shall be paid by SOCAR to the State Budget in accordance with Article 12.2(c) or Article 12.2(d)(iii) within ten (10) days following the date such final Profit Tax return is submitted. In any event, the final Profit Tax for a Calendar Year as calculated in the Profit Tax return shall be payable no later than twenty-fifth (25th) March of the following Calendar Year.

(c) İlkin və qəti hesablanmış Mənfəət vergisi (habelə artıq ödənilmiş məbləğin qaytarılması) üzrə, həmçinin ona hər hansı faizlər, cərimə sanksiyaları üzrə bütün ödənişlər aşağıdakı 12.3(d) bəndində göstərildiyi kimi, Dollarla həyata keçirilir.

(c) All estimated and final payments (and refunds of overpayments) of Profit Tax and any interest and penalty sanctions thereon as described in Article 12.3(d) below shall be made in Dollars.

(d) (i) Təqvim ili üçün Mənfəət vergisinə dair bəyannamə təqdim edilməsi və Mənfəət vergisinin müvafiq şəkildə ödənilməsi həmin Təqvim ili üçün Mənfəət vergisi haqqında bəyannamənin verildiyi tarixdən altmış (60) ay keçəndən sonra həmin Təqvim ili üçün Mənfəət vergisinə dair bütün öhdəliklərin tam və qəti nizama salınması hesab edilir.

(d) (i) The filing of the Profit Tax returns and payment of Profit Tax thereunder for a Calendar Year shall be deemed to be a final and conclusive settlement of all Profit Tax liabilities for that Calendar Year upon the date sixty (60) months from the date the Profit Tax return for such Calendar Year was filed.

(ii) Vergi orqanı hər bir Podratçı tərəfin hər Təqvim ili üçün Mənfəət vergisinə dair bəyannamələrini yoxlamaq səlahiyyətinə malikdir. Yoxlama qurtarandan sonra Vergi orqanı təklif olunan hər

(ii) The Tax Authority shall have the authority to conduct an audit of each Contractor Party's Profit Tax return for each Calendar Year. Upon completing such audit, the Tax Authority shall

hansı düzəlişi Podratçı tərəf ilə müzakirə edir və lazım gələrsə, Mənfəət vergisi çərçivəsində əlavə ödəniləsi məbləğ haqqında bildiriş məktubu və ya artıq ödənilmiş məbləğlərin qaytarılması haqqında bildiriş məktubu verir. Mənfəət vergisinin razılaşdırılmış qaydada hər hansı artıq və ya əskik ödənilən məbləğləri Podratçı tərəf müvafiq bildiriş məktubunu alandan sonra, vəziyyətdən asılı olaraq, 12.2(c) və ya 12.2(d) bəndinə uyğun olaraq ödənilir. Əgər Podratçı tərəf və Vergi orqanı Mənfəət vergisinin əskik və ya artıq ödənilmiş məbləğini, yaxud bununla bağlı hər hansı məbləğləri razılaşdıra bilməsələr, həmin məsələnin tənzimlənməsi 23.3 bəndinə uyğun olaraq arbitraj qaydası ilə həyata keçirilir.

(iii) Podratçı tərəfin Təqvim ili üçün qəti bəyannaməsində göstərilən Mənfəət vergisinin əskik və ya artıq ödənilməsi tam müəyyən olunandan sonra, vəziyyətdən asılı olaraq, 12.2(c) bəndinə uyğun olaraq ARDNŞ və ya 12.2(d) bəndinə uyğun olaraq Podratçı tərəf əskik və ya artıq ödənilmiş məbləğə görə, ödənişdən bir gün əvvəl üstünlük təşkil edən LİBOR dərəcəsi üstəgəl dörd (4) faiz hesabı ilə Dövlət büdcəsinə faizlər ödəyir. Həmin faizlər Mənfəət vergisinə dair qəti bəyannamənin təqdim olunduğu Təqvim ilinin iyirmi beş (25) mart tarixindən başlayaraq Mənfəət vergisinin ödənildiyi və ya qaytarıldığı tarixədək hesablanır.

(iv) Yuxarıdakı (iii) bəndinə uyğun olaraq ödənilən faizlərdən əlavə olaraq Podratçı tərəfə Vergilərə aid yalnız aşağıda göstərilən cərimə sanksiyaları tətbiq edilə bilər:

(aa) əgər Podratçı tərəf Mənfəət vergisinə dair bəyannaməni 12.3 bəndində müəyyən olunmuş son müddətə təqdim etmirsə və ya

discuss any proposed adjustments with the Contractor Party and, where appropriate, issue a notice of additional Profit Tax due or a notice of refund. Any agreed underpayments or overpayments of Profit Tax shall be paid following receipt by the Contractor Party of the appropriate notice in accordance with Article 12.2(c) or, as the case may be, Article 12.2(d). If the Contractor Party and the Tax Authority are unable to agree upon the amount of Profit Tax underpaid or overpaid, the issue shall be submitted to arbitration applying the principles contained in Article 23.3.

(iii) Upon a final determination that there has been either an underpayment or overpayment of Profit Tax on the Contractor Party's final Profit Tax return for a Calendar Year, SOCAR as provided in Article 12.2(c) or the Contractor Party as provided in Article 12.2(d) shall pay to the State Budget interest on the amount of the underpayment or overpayment at the rate of LIBOR prevailing on the day before payment plus four (4) percent. Such interest shall be computed from twenty-fifth (25th) March in the Calendar Year the final Profit Tax return was filed until the date the Profit Tax is paid or refunded.

(iv) In addition to interest payable as computed under (iii) above, a Contractor Party shall be subject to only the following penalty sanctions with respect of Taxes:

(aa) if a Contractor Party fails to file a final Profit Tax return on dates defined in Article 12.3 or delays filing thereof, it shall be liable for a

gec təqdim edirsə, ondan həmin Mənfəət vergisinə dair bəyannamə üzrə ödəyəcəyi Mənfəət vergisi məbləğinin yüz on (110) faizi həcmində cərimə alınır;

(bb) əgər Təqvim ili üçün Mənfəət vergisinə dair qəti bəyannamədə əks etdirilən ödənilməli Mənfəət vergisinin məbləği Podratçı tərəfin Saxtakarlığı nəticəsində az göstərilmişdirsə, belə azaldılmış məbləğin iki yüz (200) faizi həcmində cərimə alınır. Eyni cərimə 12.4 və 12.5 bəndlərində müəyyən edilmiş vergilərin Saxtakarlıq nəticəsində tutulmamasına görə belə pozuntuya yol verilmiş Podratçı tərəfə və ya Subpodratçıya tətbiq edilir;

(cc) Podratçı tərəf burada qeyd edilən cərimələrin tətbiq edilməsinə qarşı çıxış edə bilər və lazım gəldikdə 23.3 bəndinə müvafiq olaraq məsələ arbitraj məhkəməsinə verilə bilər.

(dd) yoxlamanın Podratçı tərəf, Əməliyyat şirkəti və ya Subpodratçının Xarici subpodratçıya etdiyi ödənişlərdən düzgün məbləğdə vergi tutmamasını müəyyənləşdirdiyi təqdirdə, tələb olduğundan az və ya çox ödənilmiş belə məbləğ tutulmasını həyata keçirən tərəf Dövlət büdcəsinə ödəyir və ya Dövlət büdcəsi tutulmanı həyata keçirən tərəfə belə olduğundan çox və ya az ödənilən məbləği son dəfə müəyyənləşdirdikdən sonra müvafiq maddələrə əsasən ödəyir. Bu ödənişlə birgə ödənişin həyata keçirdiyi gündən bir gün əvvəl dörd (4) faiz əlavə olunmaqla, LİBOR dərəcəsi ilə faiz də ödənilir. Bu faizlər verginin, yaxud verginin qaytarılmasının ödəniş üçün təyin olunan günündən əsil ödəniş gününədək hesablanır.

penalty of one hundred and ten (110) percent of the Profit Tax required to be paid with such Profit Tax return;

(bb) if the amount of Profit Tax due as shown on the final Profit Tax return for a Calendar Year was understated due to Fraud by the Contractor Party, it shall be liable for a penalty of two hundred (200) percent of the amount of the understatement. The same penalty shall apply to the Contractor Party or Sub-contractor for failure to apply the taxes envisioned in Articles 12.4 and 12.5 due to Fraud;

(cc) a Contractor Party shall be entitled to raise objection to the application of penalties referred to herein and if necessary any dispute shall be settled by arbitration in accordance with the principles of Article 23.3;

(dd) in the event that after audit it is determined that a Contractor Party, the Operating Company or a Sub-contractor has failed to withhold the correct amount of tax from payments made to a Foreign Sub-contractor, the amount of such underpayment or overpayment shall be paid by the withholding party to the State Budget, or by the State Budget to the withholding party upon the final determination in accordance with the applicable provisions. Along with such payment, interest shall be payable at a rate of LIBOR prevailing on the day before payment plus four (4) percent. Such interest shall be calculated from the date on which the tax or refund should have been paid until the date it is actually paid.

(e) Hər bir Podratçı tərəf öz maliyyə hesabatlarını və Mənfəət vergisi haqqında bəyannamələrini Vergi orqanına təqdim edir. Mənfəət vergisinin qabaqcadan hesablanmış və qəti ödəniş məbləğləri Dövlət büdcəsinə hər Podratçı tərəfin adından və əvəzində ARDNŞ tərəfindən ödənilir.

(f) Vergi orqanı ödənişin həyata keçirilməsindən sonra on (10) gün müddətində hər bir Podratçı tərəfə Mənfəət vergisinin qabaqcadan hesablanmış və ya qəti məbləğinin ödənildiyini təsdiq edən rəsmi vergi qəbzləri təqdim edir. Bu vergi qəbzlərində ödənişin tarixi, məbləği, hansı valyuta ilə ödənildiyi və Azərbaycan Respublikasında məxsus olan digər xüsusiyyətlər göstərilir.

12.4 <u>Xarici subpodratçılara vergi qoyulması</u>

(a) Qanuni surətdə yaradılmış və ya təşkil edilmiş hüquqi şəxs olan Xarici subpodratçı ("Hüquqi şəxs–Xarici subpodratçı") aşağıdakı qaydalara uyğun olaraq vergiyə cəlb olunur:

(i) Hesab edilir ki, Hüquqi şəxs–Xarici subpodratçılar Karbohidrogen fəaliyyəti ilə əlaqədar olaraq Azərbaycan Respublikasında görülən iş və xidmətlərdən aldıqları ödənişlərin iyirmi beş (25) faizi həcmində vergi tutulan mənfəət əldə edirlər və sonradan həmin mənfəətə iyirmi (20) faizi dərəcəsi ilə vergi qoyulmalıdır ki, bu vergi də ümumən həmin ödənişlərin beş (5,0) faizini təşkil edir. Belə ödənişləri həyata keçirən hər hansı şəxs həmin ödənişlərdən beş (5,0) faiz dərəcəsi ilə tutulacaq vergiləri ödənmə tarixindən sonra otuz (30) gün müddətində Dövlət büdcəsinə keçirir. Bu vergilər həmin Hüquqi şəxs–Xarici subpodratçının vergi məsuliyyətini, habelə onun bəyannamə təqdim etmək və bütün Vergiləri ödəmək öhdəliklərini tamamilə əhatə edir.

(e) Each Contractor Party shall submit its financial statements and Profit Tax returns to the Tax Authority. Estimated and final Profit Tax payments shall be made to the State Budget by SOCAR, for and on behalf of each Contractor Party.

(f) The Tax Authority will issue to each Contractor Party official tax receipts evidencing the payment of estimated or final Profit Tax within ten (10) days of any such payment. Such tax receipts shall state the date and amount of such payment, the currency in which such payment was made and any other particulars customary in the Republic of Azerbaijan for such receipts.

12.4 <u>Taxation of Foreign Sub-contractors</u>

(a) A corporate Foreign Sub-contractor, being a legitimately created or incorporated legal entity ("Corporate Foreign Sub-contractor"), shall be taxed as follows:

(i) Corporate Foreign Sub-contractors shall be deemed to earn a taxable profit of twenty five (25) percent of the payments received in respect of work and services performed within the Republic of Azerbaijan in connection with Hydrocarbon Activities and they shall be further deemed to be subject to tax on this deemed profit at the rate of twenty (20) percent resulting in a total tax obligation of five (5.0) percent of such payments. Any person making such payments shall withhold such tax from such payments, at a rate of five (5.0) percent and shall pay such withheld taxes to the State Budget within thirty (30) days from the date of payment. Such taxes withheld shall fully satisfy such Corporate Foreign Sub-contractor's tax compliance, including filing obligations and liability for all Taxes.

(ii) Podratçı tərəfə, Əməliyyat şirkətinə və ya digər Subpodratçıya Azərbaycan Respublikasının hüdudları daxilində Karbohidrogen fəaliyyəti ilə bağlı mallar satan hər bir Hüquqi şəxs–Xarici subpodratçı, Azərbaycan Respublikasının hüdudları daxilində satılmış malların faktiki sənədləşdirilmiş dəyərinə əlavə olan, lakin Azərbaycan Respublikasının hüdudları daxilində işlərin görülməsi və xidmətlərin göstərilməsi ilə əlaqədar olmayan və tədarüklərin sənədləşdirilməsi üçün yığımları, broker haqları, sənədləşdirmə haqları, qiymətləndirmə və ya digər oxşar rüsumları daxil edən məbləğdən ("Əlavə məbləğ") iyirmi (20) faiz dərəcəsi ilə vergi ödəyir. Hüquqi şəxs–Xarici subpodratçıya həmin ödənişləri yerinə yetirən hər hansı hüquqi şəxs onun tərəfindən Hüquqi şəxs–Xarici subpodratçının xeyrinə həyata keçirilən ödənişlərdən Əlavə məbləğlə bağlı iyirmi (20) faiz dərəcə ilə vergi tutur və tutulmuş vergiləri Hüquqi şəxs–Xarici subpodratçıya ödənişlərin yerinə yetirildiyi təqvim ayının sonundan başlayaraq otuz (30) gün ərzində Dövlət büdcəsinə ödəyir. Bu 12-ci Maddənin hər hansı digər müddəalarına baxmayaraq, Hüquqi şəxs–Xarici subpodratçı Əlavə məbləğ və ya qabaqcadan yaxud ödəniş alındıqda satılan malların dəyəri ilə bağlı sənədləri təqdim etmədikdə, belə Hüquqi şəxs–Xarici subpodratçı belə malların satışından əldə etdiyi ödənişlərin tam həcmindən (xərclər çıxılmadan) beş (5,0) faiz dərəcə ilə vergi ödəməlidir.

(aa) Hər bir Hüquqi şəxs–Xarici subpodratçı hər Təqvim ili üçün Karbohidrogen fəaliyyəti ilə bağlı əldə edilən ödənişlər daxil olmaqla, lakin bununla məhdudlaşmadan, Azərbaycan Respublikasında cari Təqvim ilində əldə edilmiş bütün gəlir haqda məlumat daxil

(ii) Any Corporate Foreign Sub-contractor which sells goods to a Contractor Party, the Operating Company or any other Sub-contractor within the Republic of Azerbaijan in connection with the Hydrocarbon Activities and receives payment of an amount in excess of the actual documented costs of the goods sold within the Republic of Azerbaijan being extra charges, fees for the producing of documents for supplies, brokerage fees, documentation fees, valuation or other similar payments ("Mark-up"), which excess amount is not connected with work or services provided within the Republic of Azerbaijan, shall be subject to tax on the full amount of such Mark-up paid to such Corporate Foreign Sub-contractor at a rate of twenty (20) percent. Any legal entity making such payments to the Corporate Foreign Sub-contractor shall withhold the Tax at a rate of twenty (20) percent from the Mark-up included into the payments to such Corporate Foreign Sub-contractor and shall pay such withheld taxes to the State Budget within thirty (30) days from the end of the calendar month when the payment to the Corporate Foreign Sub-contractor was made. Notwithstanding any other provisions of this Article 12, where the Corporate Foreign Sub-contractor fails to produce documents related to the Mark-up or the value of the goods sold before or on receipt of the payment for such goods, such Corporate Foreign Sub-contractor shall be liable to tax at a rate of five (5.0) percent upon full amount of receivable from such sale (without deducting the expenses).

(aa) Each Corporate Foreign Sub-contractor shall be responsible for filing each Calendar Year a Profit Tax return and tax reports (returns) reporting all income earned in the Republic of Azerbaijan during the Calendar Year, including but no limited to the payments

olmaqla Mənfəət vergisinə dair bəyannamə və maliyyə vergi hesabatlarını təqdim etmək üçün məsuliyyət daşıyır. Hər bir Hüquqi şəxs–Xarici subpodratçı bununla bərabər beynəlxalq səviyyədə tanınmış müstəqil mühasibat işçilərindən ibarət təşkilat tərəfindən təqdim olunan onun Azərbaycan Respublikasındakı fəaliyyəti ilə bağlı meydana çıxan məsrəflər və mənfəət barədə tam və ədalətli şəkildə hesabat verdiyi haqda ona təqdim etdiyi arayış təqdim edir.

(bb) Hər bir Hüquqi şəxs–Xarici subpodratçı, həmçinin tətbiq edilən qanunvericiliyə uyğun olaraq, (şəxsi gəlir vergisinin tutulması haqqında hesabatlar, çıxılmalar üzrə hesabatlar, gömrük sənədləşdirmələri üçün ödənilən haqlar üzrə hesabatlar və sosial fondlara ödənilən haqlarla bağlı bəyannamələr daxil olmaqla, lakin onlarla məhdudlaşmadan) bütün digər Vergi bəyannamələrini, hesabatları və maliyyə hesabatlarını təqdim etməlidir.

(cc) Hər hansı Hüquqi şəxs–Xarici subpodratçının yuxandakı (aa) və yaxud (bb) bəndlərinə uyğun olaraq, hər hansı Vergi bəyannaməsini, hesabatı və ya maliyyə hesabatını təqdim etməməsi Vergi tutan Tərəfə qarşı hər hansı faiz, cərimə yaxud digər cəza növlərinin tətbiq edilməsi ilə nəticələnmir.

(iii) Podratçı tərəf və ya Əməliyyat şirkəti öz Subpodratçılarının hər hansı vergini tutmadıqları və ya ödəmədikləri üçün, göstərilən Subpodratçıların Azərbaycan Respublikasının vergi qanunlarını hər hansı şəkildə yerinə yetirmədikləri üçün heç bir öhdəliyə malik deyil və ya heç bir məsuliyyət daşımır;

received in connection with Hydrocarbon Activities. Each Corporate Foreign Sub-contractor shall include with this return a statement provided by a firm of internationally recognised independent accountants of international standing that costs and profits incurred in connection with its activities in the Republic of Azerbaijan have been fully and fairly reported.

(bb) Each Corporate Foreign Sub-contractor shall also file all other Tax returns, reports and financial statements in accordance with the applicable law (including, but not limited to personal income Tax withholding reports, withholding Tax reports, customs documentation fee statements and social fund contribution returns).

(cc) The failure of any Corporate Foreign Sub-contractor to file any Tax return, report or financial statement pursuant to (aa) or (bb) above shall not result in any interest, fines or penalties against any Party withholding such Taxes due.

(iii) Contractor Party or the Operating Company shall have no liability or responsibility for any Taxes which their Sub-contractors do not withhold or pay or for any other failure of such Sub-contractors to comply with the laws of the Republic of Azerbaijan.

(b) Fiziki şəxs olan Subpodratçı göstərilmiş işlərə və xidmətlərə görə 12.6 bəndinə müvafiq olaraq Azərbaycanda gəlir vergisinə cəlb olunur. Fiziki şəxs olan Subpodratçı mallar təqdim etdiyi halda 12.4(a)(ii) bəndinə müvafiq olaraq vergiyə cəlb olunur.

(c) Yuxarıda göstərilənlərə baxmayaraq, İkiqat vergitutmanın aradan qaldırılması haqqında müqavilələr onların müddəalarının aid edildiyi Xarici subpodratçılara vergilər üzrə güzəştlərin tətbiq edilməsini təmin edir.

Bu Sazişdə ziddiyyət təşkil edən hər hansı müddəaya baxmayaraq:

(i) 12.5(b) bəndi bu Sazişin bütün şərtlərinə tətbiq edilir.

(ii) Hüquqi şəxs–Xarici Subpodratçılara edilən ödənişlərə, bu 12.4 bəndində nəzərdə tutulanlardan başqa, heç bir Mənfəət vergisi və ya gəlir vergisi qoyulmur və ya tutulmur;

(iii) hər bir Subpodratçı Azərbaycan Respublikasının tətbiq edilən qanunlarına və qaydalarına müvafiq olaraq, Azərbaycan Respublikası daxilində Karbohidrogen fəaliyyəti ilə bağlı olmayan təsərrüfat fəaliyyəti ilə əlaqədar Vergilərin ödənilməsi və hesabatların təqdim olunması üçün məsuliyyət daşıyır.

12.5 <u>Xarici subyektlərə ödənişlərdən vergi tutulması</u>

(a) 12.4(a) bəndində nəzərdə tutulanlar istisna edilməklə, Podratçı tərəfin Azərbaycan Respublikasının hüdudlarından kənarda təşkil olunmuş hər hansı subyektə verdiyi ödənişlərə Vergi qoyulmur və ya onlardan Vergi tutulmur. Əvvəlki cümlədə şərh edilənlərə baxmayaraq, Azərbaycan Respublikasının hamılıqla tətbiq edilən qanunlarına və

(b) A Sub-contractor being a physical person shall be subject to the personal income Tax of Azerbaijan in accordance with Article 12.6 in case of provision of works and services. A Sub-contractor being a physical person shall be subject to the provisions of Article 12.4(a)(ii) in case of provision of goods.

(c) Notwithstanding the foregoing, Double Tax Treaties shall provide for application upon relevant Foreign Sub-contractors of the Tax benefits provided thereby.

Notwithstanding any other provisions of this Agreement to the contrary:

(i) Article 12.5(b) shall apply to all terms of this Agreement.

(ii) Except as provided for by Article 12.4, no Profit Tax or income tax or any other Tax shall be imposed upon or withheld from payments made to Corporate Foreign Sub-contractors.

(iii) each Sub-contractor shall be liable for payment and reporting of Taxes in connection with its business activities in the Republic of Azerbaijan that are not related to Hydrocarbon Activities under the applicable laws and regulations of the Republic of Azerbaijan.

12.5 <u>Taxation of Payments to Foreign Entities</u>

(a) Except as provided by Article 12.4(a), no Taxes shall be withheld or imposed on payments made by a Contractor Party to any person organised outside the Republic of Azerbaijan. Notwithstanding the preceding sentence, in accordance with the generally acceptable laws and normative acts of the Republic of Azerbaijan, Taxes may be

normativ aktlarına əsasən aşağıdakılardan beş (5,0) faiz dərəcəsi ilə Vergi tutula bilər və belə vergitutma həmin hüquqi şəxsin vergi öhdəliklərinin, hesabat öhdəliklərinin və bütün Vergilərə dair məsuliyyətinin yerinə yetirilməsini təmin edir:

(i) Azərbaycan Respublikası hüdudlarından kənarda yaradılmış bank və ya digər maliyyə təsisatı tərəfindən Neft-qaz əməliyyatları ilə bağlı Podratçı tərəfə verilmiş kredit üzrə Podratçı tərəfin ödədiyi faizlərdən;

(ii) Neft-qaz əməliyyatlarında Azərbaycan Respublikasının vətəndaşı olmayan müəlliflərin əsərlərindən, ixtiralarından və digər qeyri-maddi mülkiyyətlərindən istifadə üçün (lakin belə nəşrlər, ixtiralar və qeyri-maddi mülkiyyətlə bağlı Neft-qaz əməliyyatlarında istifadə edildiyi mallara, avadanlıqlara və məhsullara görə yox) Podratçı tərəfin ödədiyi müəllif haqlarından.

(b) Yuxanda göstərilənlərə baxmayaraq, hər hansı Azərbaycan Respublikası hüdudlarından kənarda təşkil olunmuş hüquqi şəxslərə tətbiq edilə bilən İkiqat vergitutmanın aradan qaldırılması haqqında müqavilələrin müddəaları ilə və əgər belə Müqavilə mövcud deyilsə, 1 noyabr 1997-ci ildə yenidən işlənilən İƏİT-in (OECD) Gəlir və Kapital üzrə Model Vergi Konvensiyasına müvafiq müqavilə qüvvədə olarsa, mövcud ola bilən üstünlüklərindən faydalana bilər. Hər bir halda, xarici şəxsə belə üstünlüklərdən faydalanmasına şərait yaratmaq üçün əlavə inzibati addım atmağa lüzum yoxdur.

(c) Hər bir Podratçı tərəfin Ortaq şirkətləri beynəlxalq Neft-qaz sənayesinin təcrübəsinə və öz iş ənənələrinə uyğun olaraq (və belə işlərə Vergi ödəməkdən boyun qaçırmağa yönələn işlər daxil edilməməlidir) nə mənfəət/nə zərər prinsipi əsasında mal təchizatı, işlərin görülməsi yaxud xidmətlərin göstərilməsi ilə məşğul olur. Əgər yuxarıda adı çəkilən

withheld at a rate of five (5.0) percent on the following and such Tax shall satisfy Tax obligations, reporting obligations and all liability of such legal entity for the Taxes:

(i) interest paid by a Contractor Party related to a loan to the Contractor Party received in connection with Petroleum Operations from a bank or other financial institution without a presence in the Republic of Azerbaijan;

(ii) royalties paid by a Contractor Party to authors who are not citizens of the Republic of Azerbaijan for the use of their publications, inventions or other intangible property in Petroleum Operations (but not for goods, equipment or products relating to such publications, inventions or intangible property used in Petroleum Operations).

(b) Notwithstanding the foregoing, entities organised outside the Republic of Azerbaijan shall be entitled to the provisions of an applicable Double Tax Treaty, or if there is no such treaty, the benefits that would have been available if a treaty equivalent to the OECD Model Tax Convention on Income and Capital, updated as of 1 November 1997, were in force. In either event, no further administrative action shall be necessary to enable the foreign person to take advantage of such benefits.

(c) Affiliates of any Contractor Party, in accordance with the established practice of the international Petroleum industry and with their ordinary business activities (and such activities shall not include activities directed towards avoidance of Taxes), shall provide goods, works or services on a no gain / no loss basis. If this above mentioned

şərtə əməl olunarsa, belə Ortaq şirkətlərin fəaliyyətinə Azərbaycan Respublikasında mənfəət əldə etməsi kimi baxılmır və buna görə də onlardan heç bir Vergi tutulmamalıdır.

12.6 Əməkdaşların və fiziki şəxslərin vergiyə cəlb olunması

(a) Bütün Vergi tutulan rezidentlər, hər Podratçı tərəfin, Əməliyyat şirkətinin, onların Ortaq şirkətlərinin, Xarici subpodratçılarının əməkdaşları, o cümlədən Xarici subpodratçı kimi fəaliyyət göstərən fiziki şəxslər bilavasitə Azərbaycan Respublikasındakı əmək fəaliyyəti nəticəsində qazandıqları gəlirlərdən Azərbaycanda fiziki şəxslərin gəlir Vergisini ödəməyə borcludurlar. Vergi tutulan rezidentlər olmayan əməkdaşlar isə Azərbaycanda fiziki şəxslərin gəlir Vergisini ödəmək üçün məsuliyyət daşımırlar. Bu 12.6 bəndi baxımından və tətbiq edilə bilən hər hansı İkiqat vergitutmanın aradan qaldırılması haqqında müqaviləyə əməl olunmaqla və ayrı-seçkiliyə yol vermədən "Vergi tutulan rezident" konkret dövr ərzində aşağıdakı şərtlərdən hər hansı birinə əməl edən hər hansı fiziki şəxs deməkdir:

(i) Otuz (30) və ya daha çox ardıcıl gün ərzində Azərbaycanda ezamiyyətdə olan hər hansı fiziki şəxs; belə halda həmin şəxs otuz (30) ardıcıl gündən çox olan hər hansı müddət ərzində Azərbaycanda göstərdiyi əmək fəaliyyəti nəticəsində qazandığı şəxsi gəlirdən Azərbaycan gəlir Vergisini ödəmək üçün məsuliyyət daşıyacaqdır. Hər hansı Təqvim ilində Azərbaycan Respublikasında otuz (30) və ya daha çox ardıcıl gündən artıq müddət ərzində olmayan, lakin bu Təqvim ilində ümumən doxsan (90) gündən artıq və daha çox müddətdə Azərbaycan Respublikasında qalan fiziki şəxs Azərbaycan Respublikasında olduğu doxsanıncı (90) gündən sonra Azərbaycan Respublikasında bilavasitə əmək fəaliyyəti nəticəsində qazandığı gəlirdən Azərbaycan gəlir Vergisini ödəmək üçün məsuliyyət daşıyır;

condition is fulfilled, no profit shall be deemed to arise in the Republic of Azerbaijan, and therefore no Taxes shall be imposed or withheld from them.

12.6 Taxation of Employees and Physical Persons

(a) All Tax Residents, employees of each Contractor Party, the Operating Company, their Affiliates, Foreign Sub-contractors, including any physical persons acting as Foreign Sub-contractors, shall be liable to pay Azerbaijan personal income Tax only on their income earned as a direct result of their employment in the Republic of Azerbaijan. Employees who are not Tax Resident shall not be liable to pay Azerbaijan personal income Tax. For purposes of this Article 12.6, and subject to any applicable Double Tax Treaty and of a non-discriminatory nature, "Tax Resident" shall be defined as any physical person who satisfies either of the following requirements for a specific period:

(i) any person who stays in the Republic of Azerbaijan on a business trip for a period which shall exceed thirty (30) consecutive days, provided that such person shall be liable for Azerbaijan personal income Tax only on his or her income earned as a result of his or her employment in the Republic of Azerbaijan for any period which shall exceed thirty (30) consecutive days. A person whose presence in the Republic of Azerbaijan shall not exceed thirty (30) consecutive days in any Calendar Year, but whose presence in the Republic of Azerbaijan shall cumulatively exceed ninety (90) days in such Calendar Year shall be liable for Azerbaijan personal income Tax only on his or her taxable income earned after the ninetieth (90th) day of the presence in the Republic of Azerbaijan as a direct result of employment in the Republic of Azerbaijan;

(ii) Hər hansı Təqvim ilində əsas iş yeri kimi fəaliyyət göstərmək üçün (əgər bu cür fəaliyyət Azərbaycan Respublikasından kənarda əsas iş yerinə nisbətən ikinci dərəcəli deyilsə) planlaşdırılan cədvəl üzrə vaxtaşırı olaraq ümumən doxsan (90) gündən çox Azərbaycan Respublikasında olan fiziki şəxs, həmçinin vaxta cədvəli üzrə vaxtada olan şəxslər. Belə şəxs Təqvim ili ərzində Azərbaycan Respublikasındakı bilavasitə fəaliyyəti nəticəsində qazandığı bütün gəlirlərdən o cümlədən bu şəxs Vergi tutulan Rezident olanadək Azərbaycan Respublikasında işlədiyi həmin doxsan (90) gün ərzində qazandığı gəlirlərdən Azərbaycan gəlir Vergisi ödəmək üçün məsuliyyət daşıyır.

(b) Hər Podratçı tərəf, Əməliyyat şirkəti, onların Ortaq şirkətləri, Subpodratçıları, o cümlədən Xarici subpodratçı kimi fəaliyyət göstərən fiziki şəxslər Azərbaycan Respublikasının Dövlət Sosial Sığorta Fonduna haqq ödəyir və həmin haqlar (o cümlədən, lakin bunlarla məhdudlaşdırılmadan, pensiya fonduna, işə düzəlmə fonduna, sosial sığorta fonduna, məşğulluq fonduna və tibbi sığorta fonduna haqlar) ancaq Azərbaycan Respublikasının vətəndaşları olan daimi əməkdaşlara aiddir.

(c) Hər bir Podratçı tərəf, onun Ortaq şirkətləri, Əməliyyat şirkəti və Subpodratçılar Azərbaycan Respublikasının vətəndaşı olan və belə Tərəflə işçi kimi daimi əmək münasibətlərinə malik olmayan fiziki şəxslərə ödənilən ödənişlərdən Azərbaycan Respublikasında tətbiq edilən gəlir vergisini tutur.

12.7 <u>Vergidən azad edilmə</u>

(a) Hər bir Podratçı tərəf, Əməliyyat şirkəti və onun Subpodratçıları Karbohidrogen fəaliyyətləri ilə bağlı (sıfır

(ii) any person who is present in the Republic of Azerbaijan on a routine basis for periods cumulatively exceeding ninety (90) days in any Calendar Year for regularly scheduled periodic employment as his or her primary place of employment (and which employment is not incidental to the exercise of that primary employment outside of the Republic of Azerbaijan), including those persons being on rotation in accordance with the schedule of rotation. Such a person shall be liable for Azerbaijan personal income Tax on all income earned as a direct result of his or her employment in the Republic of Azerbaijan during the Calendar Year, including income earned during the ninety (90) days of employment in the Republic of Azerbaijan before such person has become Tax Resident.

(b) Each Contractor Party, the Operating Company, their Affiliates, Sub-contractors, including any physical person acting as a Foreign Sub-contractor shall make contributions to the State Social Insurance Fund of the Republic of Azerbaijan and similar payments (including but not limited to contributions to the pension funds, the recruitment fund, the social insurance fund, the employment fund and the medical fund) only with respect to employees who are citizens of the Republic of Azerbaijan.

(c) Each Contractor Party, its Affiliates, the Operating Company and Sub-contractors shall withhold from payments to persons who are citizens of the Republic of Azerbaijan and do not have permanent employment relationships with such Party personal income tax of the Republic of Azerbaijan.

12.7 <u>Tax Exemptions</u>

(a) Each Contractor Party, the Operating Company and their Sub-contractors shall be exempt with credit (zero (0)

(0) vergi dərəcəsi ilə) Əlavə dəyər vergisindən azaddır. Bu aşağıdakılara tətbiq edilir:

(i) onlara təchiz edilən və ya onların təchiz etdikləri mal, iş və xidmətlər;

(ii) Karbohidrogenlər və bu Karbohidrogenlərdən emal olunan bütün məhsulların ixracı;

(iii) mal (tütün, ərzaqdan və alkoqollu içkilərdən savayı), iş və xidmətlərin əldə edilməsi və idxalı.

(b) Əlavə olaraq, Karbohidrogen fəaliyyəti ilə bağlı hər bir Podratçı tərəfi və ya Əməliyyat şirkətini mal, iş və xidmətlərlə (birbaşa və ya dolayısı ilə) təchiz edən hər bir təchizatçı bu mal, iş və xidmətləri (sıfır (0) faiz ilə) Əlavə dəyər vergisindən azad hesab edir.

(c) Yuxarıda göstərilmiş 12.7 (a) bəndinin şərtlərinə əsasən mal, iş və xidmətlərlə təchiz olunan zaman sıfır (0) faiz dərəcə ilə Əlavə dəyər vergisini ödəməli olan şəxs, alınan mal, iş və xidmətlərə görə sıfır (0) faiz dərəcəsindən artıq tutulan Əlavə dəyər vergisini ödədiyi hallarda, həmin şəxs məbləği geri almaq və ya onun tərəfindən ödənilməli hər hansı başqa Vergilərin (həmin şəxs öz əməkdaşlarına və ya Subpodratçılarına Ödəniş zamanı tutulan Vergilər də daxil olmaqla) məbləğləri ilə qarşılıqlı əvəzləşdirmək səlahiyyətinə malikdir.

(d) 12.4 və 12.5 bəndlərinin şərtləri istisna olmaqla, hər bir Podratçı tərəf və ya onun daimi nümayəndəlikləri tərəfindən Azərbaycan Respublikasından kənarda yaradılmış hüquqi şəxsə və ya təşkilata ödənilən məbləğdən Vergi tutulmur və bu məbləğ vergiyə cəlb olunmur.

(e) Bu Sazişin 12.7(a) bəndində nəzərdə tutulduğu kimi Vergi orqanı və ya digər müvafiq vergi yaxud gömrük orqanı hər

percent rate) from Value Added Tax in connection with Hydrocarbon Activities. This will apply to the following:

(i) goods, works and services supplied to or by it;

(ii) exports of Petroleum and all products processed or refined from such Petroleum;

(iii) imports and acquisitions of goods (excluding tobacco, foodstuff and alcohol), works and services.

(b) In addition, every supplier of goods, works and services (directly or indirectly) to each Contractor Party or the Operating Company in connection with Hydrocarbon Activities shall treat those supplies for the Value Added Tax purposes as being exempt with credit (zero (0) percent rate).

(c) Where in accordance with Article 12.7(a) above a person should pay the Value Added Tax at a zero (0) percent and is charged and pays input VAT at a rate more than zero (0) percent on the supply to that person of goods, works or services, that person shall be entitled to receive a refund or offset against the amount of any other Taxes payable by that person (including Taxes withheld by that person on payments to its employees or Sub-contractors).

(d) Except as provided by Article 12.4 and Article 12.5, no Taxes shall be withheld or imposed on payments made by each Contractor Party or its permanent establishments to any legally entity or organization incorporated outside the Republic of Azerbaijan.

(e) The Tax Authority or other appropriate Tax or customs body shall provide each Contractor Party, Operating

Podratçı tərəfə, Əməliyyat şirkətinə və onların Subpodratçılarına hər hansı vergidən azadolunma və/yaxud ƏDV-nin sıfır (0) faizi rejimini təsdiq edən etibarlı şəhadətnamələri Podratçı tərəfin, Əməliyyat şirkətinin, və ya Subpodratçının bu cür sertifikat verilməsi haqqındakı sorğusundan sonra otuz (30) gün müddətində təqdim edir.

Company and their Sub-contractors with certificates confirming the exemptions and/or VAT zero (0) percent rate as provided in Article 12.7(a) of this Agreement within thirty (30) days of the Contractor Party, Operating Company or their Sub-contractors requesting such certificate.

12.8 Digər məsələlər

(a) Hər bir Podratçı tərəf, onun Ortaq şirkətləri, Əməliyyat şirkəti və Subpodratçılar qeydiyyata görə rüsumlar və ya hər hansı Hökumət orqanı tərəfindən təyin olunan bu kimi haqlar ödəyirlər, bu şərtlə ki, rüsumlar nominal olsun və onlar ayrı-seçkiliyə yol verilmədən təyin edilsin.

(b) Əməliyyat şirkəti 6-cı Maddəyə uyğun olaraq yaradıldığı üçün həmişə sıfır (0) dərəcədə Vergi tutulan mənfəətə malikdir, belə Əməliyyat şirkəti Mənfəət vergisi ödəyən hüquqi şəxs hesab edilmir və beləliklə Mənfəət vergisi haqqında bəyannamə, hesabat və maliyyə hesabatları təqdim etməkdən azad edilir. Hər bir Əməliyyat şirkəti müvafiq qanunvericiliyə uyğun olaraq bütün başqa Vergilər üzrə (gəlir vergisi haqqında hesabatlar, gömrük sənədləşdirmələri üçün rüsumların qəbzləri və sosial təminat fondlarına ödənişlər haqqında hesabatlar daxil olmaqla, lakin onlarla məhdudlaşmadan) bəyannamə, hesabat və maliyyə hesabatlarının təqdim edilməsi üçün məsuliyyət daşıyır.

(c) Qüvvəyəminmə tarixindən sonra Podratçı ilə danışıqlar aparmaq və bu Sazişin Vergiyə dair müddəalarını həyata keçirilməsi və şərh edilməsi üçün lazım olan qaydaları müəyyən edən Protokolları imzalamaq üçün Komissiya yaradılır. Belə Protokollar bu Sazişin bütün şərtləri ilə uyğun gəlir və bu Saziş üzrə vergi məsələlərinin şərh edilməsində Hökumət orqanları tərəfindən verilən və ya dərc edilən hər hansı digər Sərəncam və ya Təlimatlara bərabər hesab edilir.

12.8 Other

(a) Every Contractor Party, its Affiliates, Operating Company and Sub-contractors shall pay registration or similar fees imposed by a Governmental Authority to the extent they are nominal and of a non-discriminatory nature.

(b) Due to the establishment of the Operating Company in accordance with Article 6, it always has its Taxable Profit at the level of zero (0), such Operating Company shall not be treated as a legal entity subject to the Profit Tax and therefore shall be exempt from the submission of Profit Tax returns, reports and financial statements. In accordance with the applicable laws every Operating Company shall remain liable for the submission of returns, reports and statements on all other Taxes (including, but not limited to personal income Tax reports, customs documentation fee statements and reports on contributions to the social insurance fund).

(c) There shall be established a Commission for the purpose of conducting negotiations with Contractor upon the Effective Date and signing Protocols for the determination of the rules required for the administration and interpretation of Tax related provisions of this Agreement. Such Protocols shall correspond to all provisions of this Agreement and shall have the force equivalent to the force of any other Decisions or Instructions being issued or published by the Governmental Authorities in connection with interpretation of the Tax related provisions of this Agreement.

12.9 İştirak payının ötürülməsindən Mənfəət vergisi

Hər hansı Podratçı tərəfin İştirak payının tamamilə və ya qismən Üçüncü tərəfə və ya hər hansı Podratçı tərəfə Satışı və yaxud Daimi ötürülməsindən alınan Xalis gəlirdən aşağıdakı qaydada Vergi tutulur:

(a) Bu 12.9 bəndinin məqsədləri baxımından aşağıdakı terminlərə belə mənalar verilir:

(i) "Ümumi gəlir" – öz hüquqlarını başqasına verən Podratçı tərəfin bu Sazişə uyğun olaraq İştirak payının hər hansı bir hissəsinin başqasına verilməsi müqabilində aldığı ümumi haqq deməkdir.

(ii) "Qalıq dəyər" – bu Sazişə əsasən Məsrəfləri ödənilməyən hər hansı sərmayənin (kumulyativ məsrəflər) amortizasiya edilməmiş balansı deməkdir.

(iii) "Satış və ya Daimi ötürmə" – aşağıdakılar istisna olmaqla, İştirak payına mülkiyyət hüququnun tamamilə və ya qismən verilməsi və ya ötürülməsi deməkdir:

(aa) bu Sazişlə bağlı götürülmüş kredit nəticəsində baş verən hüquq və öhdəliklərin verilməsi; yaxud

(bb) Azərbaycan Respublikasında mənfəət əldə olunmayan layihələrdə iştirak paylarının mübadiləsi; yaxud

(cc) işlərin görülməsini təşkil edən öhdəliklərin əvəzində hər hansı hüquq və öhdəliklərin verilməsi; yaxud

12.9 Share Transfer Profit Tax

Tax due on the Net Income received for a Sale or Permanent Assignment of all, or any portion, of any Contractor Party's Participating Interest to a Third Party or any Contractor Party shall be payable according to the following:

(a) For the purposes of this Article 12.9, the following expressions shall have the meaning assigned to them herein below:

(i) "Gross Income" means the total consideration received by an assigning Contractor Party for an assignment of any portion of Participating Interest under this Agreement.

(ii) "Written-Down-Value" means the un-amortised balance of any investment (accumulated costs), which, pursuant to this Agreement, is not subject to Cost Recovery.

(iii) "Sale or Permanent Assignment" shall mean any transfer or assignment of the ownership rights to all or a portion of a Participating Interest excluding:

(aa) a transfer resulting from a loan made in respect of this Agreement; or

(bb) any exchange of Participating Interests in projects where no profit is generated in the Republic of Azerbaijan; or

(cc) any transfer for which consideration consists of a work obligation; or

(dd) hüquq və öhdəliklərin hər hansı məcburi verilməsi.

(iv) "Xalis gəlir" – Ümumi gəlir və aşağıdakılardan ibarət olan tutulmaların (vergi çıxılmalarının) ümumi məbləği arasındakı fərq deməkdir:

(aa) Hüquq və öhdəliklərin ötürülməsinin qüvvəyə mindiyi tarixə çəkilmiş kumulyativ Neft-qaz əməliyyatları məsrəflərində Podratçı tərəfin payı;

(bb) Hüquq və öhdəliklərini başqasına verən Podratçı tərəfin həyata keçirdiyi və bu Sazişə əsasən Neft-qaz əməliyyatları məsrəflərinə aid olmayan sərmayələrin (kumulyativ məsrəflərin) Qalıq dəyəri;

(cc) Hüquq və öhdəliklərin bu cür verilməsi ilə əlaqədar çəkilən məsrəflər.

(b) Hüquq və öhdəliklərin Satışından və ya Daimi ötürülməsindən əldə olunan Xalis gəlirə 12.1(c)(vi) bəndində müəyyən olunan Mənfəət vergisi dərəcəsi tətbiq edilir. Ümumi gəlir əldə edilərkən hüquq və öhdəlikləri verən Podratçı tərəf Xalis gəliri hesablayır və yuxarıda göstərilən Mənfəət vergisi dərəcəsini ona tətbiq edir.

(c) 12.9(a)(iii)(aa) bəndində göstərilən məbləğlər Əməliyyat şirkətinin qanuni fəaliyyət göstərən auditoru tərəfindən təsdiq edilir, 12.9(a)(iii)(bb) bəndində göstərilən məbləğlər isə məsrəfləri çəkən Podratçı tərəfin və ya Podratçı tərəfin Ortaq şirkətinin qanuni fəaliyyət göstərən auditoru tərəfindən təsdiq edilir.

(d) Hüquq və öhdəlikləri verən Podratçı tərəf bu qayda ilə hesablanan Vergini Ümumi gəlir alındıqdan sonra otuz (30) təqvim günündən gec olmayaraq Azərbaycan Respublikası

(dd) any involuntary transfer.

(iv) "Net Income" means the difference between the Gross Income and the total amount of established deductions (tax withholdings), which shall consist of:

(aa) Contractor Party's share of the accumulated Petroleum Costs incurred up to date on which the assignment becomes effective;

(bb) Written-Down-Value of any investment (accumulated costs) made by the assigning Contractor Party, which is not charged to the Petroleum Costs under this Agreement;

(cc) Costs incurred for such assignment.

(b) Profit Tax Rate defined in Article 12.1(c)(vi) shall be applied to the Net Income from Sale or Permanent Assignment. Upon receipt of Gross Income, an assigning Contractor Party shall compute the Net Income, and shall apply to the Net Income the computed Profit Tax Rate indicated above.

(c) The amounts set forth in Article 12.9(a)(iii)(aa) shall be certified by the statutory auditor of the Operating Company and the amounts set forth in Article 12.9(a)(iii)(bb) shall be certified by the statutory auditor of the Contractor Party or Affiliate of a Contractor Party which incurred the costs.

(d) An assigning Contractor Party shall pay the Tax so calculated to the State Budget of the Republic of Azerbaijan no later that thirty (30) calendar days after receipt of the

Dövlət büdcəsinə ödəyir. Ümumi gəlir hissə-hissə alındığı təqdirdə tutulacaq ümumi Vergi də hissə-hissə ödənilir. Ümumi gəlirin hissələri tam Ümumi gəlirə münasibətdə bərabər bölündüyü kimi, Vergi də tutulacaq ümumi Vergiyə nəzərən bərabər bölünməlidir.

(e) Hüquq və öhdəlikləri verən Podratçı tərəf hüquq və öhdəliklərin verildiyi Təqvim ili üçün Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş formada və müddətdə bəyannamə təqdim edir.

12.10 Qüvvədə qalma

Bu Sazişdə zidd olan müddəalara baxmayaraq, bu Sazişə xitam verildikdən sonra bu 12-ci Maddənin müddəaları hər bir Podratçı tərəfin Vergilər üzrə öhdəliklərinə aid bütün məsələlər qəti həll edilənədək qüvvədə qalır.

Gross Income. In the event that Gross Income is received in instalments the total Tax due shall be paid in instalments. Each such Tax instalment shall be the same proportion of the total Tax due, as the corresponding instalment of Gross Income is in relation to total Gross Income.

(e) An assigning Contractor Party shall for the Calendar Year when it makes an assignment submit a report in the form and during the period of time specified by the legislation of the Republic of Azerbaijan.

12.10 Survival

Notwithstanding any other provisions of this Agreement to the contrary, the provisions of this Article 12 shall survive the termination of this Agreement until such time as all matters pertaining to Contractor Parties' liabilities for Taxes are finally and conclusively determined.

MADDƏ 13

KARBOHİDROGENLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

13.1 <u>Xam neftin və Sərbəst təbii qazın dəyərinin müəyyən edilməsi</u>

(a) Məsrəflərin əvəzinin ödənilməsi, Mənfəət Karbohidrogenlərinin bölüşdürülməsi və bu Sazişdə xüsusi nəzərdə tutulan digər məqsədlər üçün Xam neftin dəyəri hər hansı Təqvim rübündə aşağıdakı qaydada müəyyən edilir:

(i) Təqvim rübü ərzində hər hansı Tərəf Kontrakt sahəsindən hər ixrac marşrutu üzrə çıxarılan Xam nefti (və ya Kontrakt sahəsindən çıxarılan Xam neft əvəzinə mübadilə və ya neftin "svop" sazişləri nəticəsində əldə edilmiş digər Xam nefti) Satış məntəqəsində kommersiya cəhətdən müstəqil əqdlərə əsasən satırsa, bu cür satışların hamısında tətbiq olunan orta xüsusi satış qiyməti üzrə (komisyon və broker haqqı çıxıldıqdan sonra), Çatdırılma məntəqəsində Xam neftin dəyərini ("Xalis ixrac dəyəri") təyin etmək üçün Xam neftin Satış məntəqəsinə nəql olunmasına Tərəflərin çəkdiyi xərcləri, o cümlədən, lakin bunlarla məhdudlaşmayaraq, boru kəməri tariflərini, tranzit rüsumlarını, sığortalar, nəqliyyat vasitələrinin gecikmə haqlarını, qarışdırma nəticəsində baş verən keyfiyyət və/və ya kəmiyyət itkiləri, terminallardan istifadə haqqını, tankerlərin icarə edilməsini və boru kəməri üçün vergiləri nəzərə almaqla; bu şərtlə ki, bütün Tərəflərin kommersiya cəhətdən müstəqil əqdlər əsasında satışlarının ümumi həcmi Təqvim rübü ərzində bütün Tərəflərin satışlarının hamısının ümumi həcminin otuz üç tam üçdə bir (33 1/3) faizindən çox olsun; və ya

ARTICLE 13

VALUATION OF PETROLEUM

13.1 <u>Valuation of Crude Oil and Non-associated Natural Gas</u>

(a) The valuation of Crude Oil for purposes of Cost Recovery, sharing of Profit Petroleum and as otherwise specifically provided in this Agreement in any Calendar Quarter shall be the net back value calculated as follows:

(i) for each export route where there have been export sales of Crude Oil from the Contract Area (or such other Crude Oil obtained through exchanges or swap agreements which is exchanged or swapped for Crude Oil from the Contract Area) by any Party in arm's length transactions during the Calendar Quarter, the weighted average per unit price realised in all such sales (after deducting commissions and brokerages), at the Point of Sale, adjusted for costs incurred by the Parties of transporting the Crude Oil to the Point of Sale, including but not limited to pipeline tariffs, transit fees, insurances, demurrages, quality and/or quantity losses by blending, terminal fees, tanker costs and pipeline taxes to arrive at a value of the Crude Oil at the Delivery Point ("Net Back Value"); provided that the total volume of such arm's length sales made by all Parties exceeds thirty-three and one-third (33 1/3) percent of the total volume of all sales made by all Parties during the Calendar Quarter; or

(ii) əgər hər ixrac marşrutu üzrə kommersiya cəhətdən müstəqil ixrac satışlarının ümumi həcmi yuxarıdakı 13.1(a)(i) bəndində göstərilmiş faizdən artıq deyildirsə – (A) kommersiya cəhətdən müstəqil əqdlər (yuxarıdakı 13.1(a)(i) bəndinə əsasən müəyyən edilmiş əqdlər) daxilində satılmış Xam neftin orta xüsusi qiyməti üzrə və (B) kommersiya cəhətdən qeyri-müstəqil əqdlər əsasında satılmış Xam neftin Təqvim rübü ərzində "Platts Oylqram" nəşrində bu cür Xam neft üçün göstərilən orta xüsusi qiymət üzrə; lakin nəşrdə bu qiymət göstərilmədikdə Xam neftin Tərəflər arasında razılaşdırılmış üç (3) nümunə növü üçün Təqvim rübündə "Platts Oylqram"da dərc edilmiş xüsusi "FOB" qiymətlərinin orta kəmiyyəti götürülür; yuxarıdakı (i) bəndində göstərildiyi kimi, Xam neftin Xalis ixrac dəyərini təyin etmək üçün Xam neftin keyfiyyətini, növünü, həcmini, Satış məntəqəsinə nəql edilməsinə çəkilən xərcləri nəzərə almaqla. Əgər bu 13.1(a)(ii) bəndinə əsasən arayış üçün zəruri olduğu dövrdə "Platts Oylqram"ın nəşrinə son qoyulmuşdursa və ya bu nəşrin dərci on beş (15) günlüyə dayandırılmışdırsa, lazımi rəqəmlər Neft-qaz sənayesində beynəlxalq nüfuzu olan münasib alternativ nəşrdən götürülür. Əgər Tərəflər Sənaye hasilatının başlanma tarixinə qədər Xam neftin üç (3) nümunə növü barəsində razılığa gələ bilməsələr (və ya hər hansı alternativ nəşrlər barəsində razılığa gələ bilməsələr), aşağıdakı 13.1(c) bəndinin müddəalarına əsasən qəti qərarı beynəlxalq nüfuza malik olan ekspert qəbul edir;

(iii) əgər Təqvim rübü ərzində çıxarılan Xam neftin ixrac satışları bir neçə ixrac marşrutu ilə həyata keçirilərsə, həmin Təqvim rübü üçün Xam neftin dəyəri bütün ixrac marşrutları üçün Xalis ixrac dəyərinin orta xüsusi qiyməti kimi müəyyən edilməlidir.

(ii) for each export route where the total volume of arm's length export sales does not exceed the percentage of sales referred to in Article 13.1(a)(i) above, the weighted average per unit price of: (A) Crude Oil sold in arm's length sales (determined as provided in Article 13.1(a)(i) above) and (B) Crude Oil sold in non-arm's length sales at the average price quoted for such Crude Oil in Platts Oilgram during the Calendar Quarter, but if no such price is quoted then the average of per unit FOB price quotations for three (3) representative crude oils to be agreed by the Parties, as published in Platts Oilgram in the Calendar Quarter, adjusted for quality, grade, quantity, costs of transporting the Crude Oil to the Point of Sale as provided in (i) above, to arrive at a Net Back Value of the Crude Oil. In the event that Platts Oilgram ceases to be published or is not published for fifteen (15) days in the period required for its use in this Article 13.1(a)(ii) then the required data shall be taken from an available alternative publication internationally recognised by the Petroleum industry. If the Parties cannot agree the three (3) representative crude oils by the Commencement Date of Commercial Production or fail to agree on any alternative publication the matter shall be referred for final decision to an internationally recognised expert in accordance with the provisions of Article 13.1(c) below;

(iii) where export sales of Crude Oil during any Calendar Quarter are conducted through several export routes, the value of Crude Oil for such Calendar Quarter shall be determined as weighted average of Net Back Values for all export routes.

(b) Hər hansı Təqvim rübündə Məsrəflərin əvəzinin ödənilməsi və Mənfəət Karbohidrogenlərinin bölüşdürülməsi üçün Sərbəst təbii qazın dəyəri, bu Sazişin digər yerlərində konkret olaraq şərtləşdirildiyi kimi Podratçının həmin Sərbəst təbii qazı Satış məntəqəsinə çatdırmaq üçün çəkdiyi xərclər, o cümlədən boru kəməri tarifləri, Nəqletmə itkiləri və boru kəməri üçün vergilər daxil olmaqla, lakin onlarla məhdudlaşmayan xərclər çıxılmaqla, qaz satışına dair müqavilə əsasında kommersiya cəhətdən müstəqil satış zamanı tətbiq edilən faktiki qiymətə bərabərdir ("Xalis ixrac dəyəri").

Podratçı Sərbəst təbii qazı kommersiya cəhətdən qeyri-müstəqil əqdlərlə satdığı hallarda, Sərbəst təbii qazın dəyəri üstünlük təşkil edən beynəlxalq qiymətqoyma prinsipləri əsasında və bazar, növ, keyfiyyət, həcm, daşınma, habelə digər müvafiq amillər nəzərə alınmaqla ARDNŞ ilə Podratçı arasında razılaşdırılmış qiymətlə müəyyən edilir ("Xalis ixrac dəyəri").

(c) Müvafiq Təqvim rübü qurtardıqdan sonra otuz (30) gündən gec olmayaraq bütün Tərəflər Xam neftin və Sərbəst təbii qazın müvafiq Təqvim rübündə kommersiya cəhətdən müstəqil satışlarının hamısı üçün satış həcmlərini, tarixlərini, qiymətlərini və Satış məntəqəsini Podratçıya bildirirlər və Podratçı həmin Təqvim rübü bitdikdən sonra qırx beş (45) gün müddətində yuxarıdakı 13.1(a) və 13.1(b) bəndlərində göstərilmiş müddəalara əməl edilməsi məqsədilə Xam neftin və Sərbəst təbii qazın dəyərinin müəyyən edildiyi haqqında ARDNŞ-ə bildiriş verir; həmin bildirişdə kommersiya cəhətdən müstəqil olan bütün əqdlər üçün satış həcmləri, tarixləri, qiymətləri və Satış məntəqəsi göstərilir. Əgər hər hansı Tərəf Podratçının 13.1(a) və ya 13.1(b) bəndlərinə əsasən elan etdiyi dəyərlə razılaşmırsa və Xam neftin və ya Sərbəst təbii qazın dəyərinin müəyyən edilməsi haqqında ARDNŞ-nin Podratçıdan məlumat aldığı tarixdən otuz (30) gün keçənədək ARDNŞ ilə Podratçı Xam neftin və ya Sərbəst təbii qazın dəyəri barəsində razılığa

(b) The value of Non-associated Natural Gas in any Calendar Quarter for the purposes of Cost Recovery, sharing of Profit Petroleum, and as otherwise specifically provided in this Agreement shall be the actual arm's length sale price realised under a gas sales agreement less costs incurred by the Contractor Parties of transporting such Non-associated Natural Gas to the Point of Sale including but not limited to pipeline tariffs, Transit Losses and pipeline taxes ("Net Back Value").

Where Non-associated Natural Gas is sold by Contractor in non-arm's length sales, Non-associated Natural Gas shall be valued at a price to be determined by agreement between SOCAR and Contractor based on pricing principles prevailing internationally, taking into account market, grade, quality and quantity, transportation and other relevant considerations ("Net Back Value").

(c) Within thirty (30) days after the end of the relevant Calendar Quarter, all Parties shall notify Contractor of the volumes, dates, prices and Point of Sale for all arm's length sales of Crude Oil and Non-associated Natural Gas during such Calendar Quarter, and within forty five (45) days after the end of such Calendar Quarter Contractor shall notify SOCAR of valuations of Crude Oil and Non-associated Natural Gas for the purposes of Article 13.1(a) and Article 13.1(b) above, which notice shall specify volumes, dates, prices, and Points of Sale for all arm's length sales. If any Party does not accept any valuation notified by Contractor pursuant to Article 13.1(a) or Article 13.1(b) and SOCAR and Contractor cannot reach agreement on the value of Crude Oil or Non-associated Natural Gas within thirty (30) days of receipt of notice by SOCAR of Contractor's valuation of Crude Oil or Non-associated Natural Gas, such determination shall be made by an internationally recognised expert appointed by Contractor and SOCAR, but

gələ bilmirlərsə, bu dəyəri Podratçı və ARDNŞ tərəfindən təyin olunan, beynəlxalq miqyasda tanınmış ekspert müəyyən edir, lakin onlar yuxarıda göstərilən otuz (30) günlük müddət qurtardığı andan başlayaraq otuz (30) gün ərzində ekspert təyin etmək haqqında razılıq əldə edə bilməsələr, ekspert Stokholm (İsveç) Ticarət Palatasının prezidenti tərəfindən ARDNŞ-nin və ya Podratçının ərizə ilə müraciətindən sonra təyin olunur. Təyin edilən ekspert Karbohidrogenlərin satışı sahəsində beynəlxalq nüfuza malik olmalıdır. Ekspert bu Sazişin ingiliscə olan mətnindən istifadə edəcək. Təyin olunduqdan sonra otuz (30) gün ərzində ekspert öz qərarı haqqında yazılı məlumat verir və onun qərarı qəti hesab olunur, ARDNŞ və Podratçı üçün məcburi sayılır.

if they fail to agree within thirty (30) days from the end of the thirty (30) days referred to above on the appointment of such expert, then such appointment shall be made by the President of the Stockholm Chamber of Commerce, Sweden on the application of SOCAR or Contractor. Such expert shall be a person internationally recognised as having expertise in the marketing of Petroleum. The English language text of this Agreement will be utilised by the expert. The expert shall in writing, report his determination within thirty (30) days of his appointment and his determination shall be final and binding upon SOCAR and Contractor.

Hesablaşmalar və ödənişlər aparmaq məqsədilə cari Təqvim rübü üçün Xam neftin və ya söhbət Sərbəst təbii qazdan gedirsə, Sərbəst təbii qazın Xalis ixrac dəyərini müəyyən etməzdən əvvəl müvəqqəti olaraq, yəni həmin dövrdə tətbiq edilə bilən Xalis ixrac dəyəri qəti müəyyənləşdirilənə qədər Xam neftin və ya Sərbəst təbii qazın əvvəlki Təqvim rübü üçün müəyyən olunmuş Xalis ixrac dəyərindən istifadə edilir. Müvəqqəti hesablaşmalarda və ödənişlərdə düzəlişlər etmək lazım gəldikdə, belə düzəlişlər tətbiq oluna bilən belə Xalis ixrac dəyəri müəyyən edildikdən sonra otuz (30) gün ərzində həyata keçiriləcək.

Pending the determination of the Net Back Value of Crude Oil or as the case may be Non-associated Natural Gas for a given Calendar Quarter, the Net Back Value of Crude Oil or Non-associated Natural Gas determined for the preceding Calendar Quarter shall be provisionally applied to make calculation and payment until the applicable Net Back Value for that period is finally determined. Any adjustment to such provisional calculation and payment, if necessary, will be made within thirty (30) days after such applicable Net Back Value is finally determined.

(d) Nəqletmə itkiləri (Podratçının təmin etdiyi hər hansı sığorta hesabına Podratçıya əvəzi ödənilmiş itkilərdən və Podratçının boru kəməri sahiblərindən və ya operatorlarından kompensasiyasını aldığı itkilərdən başqa) Ümumi hasilat həcmindən çıxılır. Podratçının Nəqletmə itkilərindən sığortalanmaq üçün verdiyi sığorta xərcləri Əvəzi ödənilən məsrəflər deyildir. Belə itkilərə görə verilən sığorta kompensasiyalarının heç biri Məsrəflərin əvəzinin ödənilməsi hesabına daxil edilmir. Podratçı nəqletmə itkilərinin sığorta edilməsi üçün cavabdehdir.

(d) Transit Losses (other than losses for which Contractor has been reimbursed from any insurances taken out by Contractor and losses for which Contractor has been reimbursed from pipeline owners or operators) shall be deducted from Total Production. Insurance premiums paid by Contractor for insurance taken out by Contractor covering Transit Losses shall not be Cost Recoverable. Any insurance reimbursements for such losses shall not be credited to Cost Recovery. Contractor shall be responsible for the insurance of Transit Losses.

(e) 13.1(a) və (b) bəndlərinə əsasən Xam neftin və ya Sərbəst təbii qazın tətbiq oluna bilən Xalis ixrac dəyəri müəyyən olunarkən aşağıdakılar tətbiq edilir:

(i) bu 13.1 bəndinin "satışlara" aid müddəaları ayrıca bir satışa da eyni dərəcədə aiddir və müvafiq surətdə təfsir olunur; və

(ii) Satış məntəqəsində Xam neft və ya Sərbəst təbii qazın üzərində mülkiyyət hüququnun Tərəfdən alıcıya keçdiyi an satış anı hesab olunur; və

(iii) "Satış məntəqəsi" elə bir coğrafi nöqtə və ya nöqtələrdir ki, satışın hansı şərtlərlə – FOB, CIF, CFR şərtləri ilə, yaxud beynəlxalq neft sənayesində hamılıqla qəbul edilmiş hər hansı başqa şərtlərlə aparılmasından asılı olmayaraq, orada Xam neft və ya Sərbəst təbii qazın üzərində mülkiyyət hüququ satıcıdan alıcıya keçir. Mümkün satış məntəqələrinin nümunələri sırasına ixrac neft kəmərinin son məntəqəsindəki terminalın çıxış flanetsində qoyulmuş buraxılış sayğacı, neftayırma zavodundakı giriş sayğacı və ya tankerdəki giriş flanetsi daxildir; və

(iv) "Nəqletmə itkiləri" dedikdə, Çatdırılma məntəqəsindən ixrac nəqletmə sistemlərinin (həmçinin müvafiq hallarda, Qara dəniz rayonundan Xam neftin çıxarılması üçün, əgər söhbət Təbii qazdan gedirsə, Sərbəst təbii qazın Satış məntəqəsinə nəql olunması üçün istifadə edilən hər hansı boru kəməri daxil olmaqla) son məntəqəsinə Xam neftin və ya Sərbəst təbii qazın vurulması gedişində əmələ gələn və boru kəmərlərində beynəlxalq təcrübədə qəbul edilmiş normal itki hədlərindən, yəni sıfır tam onda bir (0,1) faizdən artıq olan itkilər nəzərdə tutulur; və

(e) In determining the applicable Net Back Value of Crude Oil or Non-associated Natural Gas pursuant to Articles 13.1(a) and (b) the following shall apply:

(i) provisions in this Article 13.1 dealing with “sales” shall equally apply to a single sale and shall be interpreted accordingly; and

(ii) the point in time at which title in Crude Oil or Non-associated Natural Gas transfers at the Point of Sale from a Party to the buyer shall be deemed to be the time of sale; and

(iii) “Point of Sale” shall mean the geographical location or locations where title to Crude Oil or as the case may be Non-associated Natural Gas passes from a seller to a buyer, whether such sale is FOB, CIF, CFR or any other manner generally recognised by the international Petroleum industry. Examples of possible Points of Sale include the sales meter at the outlet of the terminal at the terminus of the export pipeline, the inlet meter at a refinery, or the inlet flange to a tanker; and

(iv) “Transit Losses” – shall mean losses incurred during the pipeline transport of Crude Oil and Non-associated Natural Gas from the Delivery Point to the terminus of the export transportation systems (including, if applicable, any pipeline utilised for transhipment of the Crude Oil to exit the Black Sea area or in the case of Non-associated Natural Gas to the Point of Sale) in excess of the normal international pipeline loss allowance of one-tenth of one (0.1) percent; and

(v) "Kommersiya cəhətdən müstəqil satış" – əqd bağlamaq istəyən müstəqil alıcı və satıcı arasında Sərbəst dönərli valyuta müqabilində beynəlxalq bazarda Karbohidrogenlər satışı və ya mübadiləsi deməkdir, həm də bu zaman barter əqdlərini nəzərdə tutan satışlar, hökumətlərarası satışlar, habelə beynəlxalq bazarda Karbohidrogenlər satışında qüvvədə olan adi iqtisadi stimullarla deyil, tamamilə və ya qismən digər mülahizələrlə şərtləndirilən başqa əqdlər istisna edilir.

13.2 Həcmlərin ölçülməsi

(a) Podratçının hasil etdiyi Karbohidrogenlərin həcmi və keyfiyyəti beynəlxalq neft-qaz sənayesinin hamılıqla qəbul edilmiş standartlarına uyğun üsullar və cihazlar ilə ölçülür və Ölçmə qaydasına uyğun olaraq Tərəflərin nəzarəti altında saxlanılır.

(b) Podratçı Ölçmə qaydasının müddəalarına uyğun olaraq Karbohidrogenlərin həcmini ölçmək və keyfiyyətini müəyyən etmək üçün istifadə olunan cihazları yoxladığı və kalibrlədiyi haqda ARDNŞ-ə qabaqcadan yazılı məlumat verir. ARDNŞ-nin yoxlamada və kalibrləmədə müşahidə aparmaq üçün öz xərci və öz riski hesabına öz mütəxəssislərini göndərməyə ixtiyarı vardır.

(c) Ölçmə metodu və ya ölçmə üçün istifadə edilmiş cihazlar hasilatı artıq və ya əskik göstərdikdə, əgər başqa hal sübut olunmursa, belə hesab edilir ki, ölçmə cihazlarının son dəfə yoxlandığı vaxtdan etibarən səhv mövcud olmuşdur; bu halda səhvə yol verilən dövr üçün orta dəyər üzrə zəruri düzəlişlər edilir və ya müvafiq müddət ərzində məhsulun lazımi həcmində natura şəklində çatdırılmasını nizamlamaq üçün tədbirlər görülür.

(d) Kontrakt sahəsindən çıxarılan və 11.1 bəndində göstərildiyi kimi, Podratçının istifadə etmədiyi Karbohidrogenlər Çatdırılma məntəqəsində ölçülür.

(v) an "arm's length sale" is a sale or exchange of Petroleum between a willing and non-affiliated buyer and seller on the international market in exchange for payment in Foreign Exchange, excluding a sale involving barter, sales from government to government and other transactions motivated in whole or in part by considerations other than the usual economic incentives involved in Petroleum sales on the international market.

13.2 Measurement

(a) The volume and quality of Petroleum produced by Contractor shall be measured by methods and appliances in accordance with generally accepted international Petroleum industry practice, and shall be monitored by the Parties in accordance with the Measurement Procedure.

(b) Contractor shall give prior written notice to SOCAR of any testing and calibration by Contractor of the appliances used in the measurement and determination of quality of Petroleum pursuant to the Measurement Procedure. SOCAR, at its cost and risk, shall be entitled to have witnesses participate at such testing and calibration.

(c) Where the method of measurement, or the appliances used therefor, have caused an overstatement or understatement of production, the error shall be presumed to have existed since the date of the last calibration of the measurement devices, unless otherwise proved, and an appropriate adjustment shall be made to the average value for the period of the error, or by an adjustment in deliveries in kind over an equivalent period.

(d) Petroleum produced from the Contract Area and not used by Contractor pursuant to Article 11.1 shall be measured at the Delivery Point.

MADDƏ 14

ƏMLAKA SAHİBLİK, ONUN İSTİFADƏSİ VƏ LƏĞV EDİLMƏSİ

14.1 Əmlaka sahiblik və ondan istifadə

Neft-qaz əməliyyatlarının aparılması üçün nəzərdə tutulan Əsas fondların və daşınar əmlakın aşağıdakı kateqoriyalarına mülkiyyət hüququ ARDNŞ-ə aşağıda göstərilən qaydada keçir:

(a) Torpaq sahələrinin satın alınmasına qanunla icazə veriləcəyi təqdirdə Podratçının Neft-qaz əməliyyatları üçün satın aldığı, o cümlədən ARDNŞ-nin təminatı ilə alınan torpaq sahələri alındığı andan ARDNŞ-nin mülkiyyəti olur;

(b) Neft-qaz əməliyyatlarında Podratçının istifadə etdiyi və dəyəri Neft-qaz əməliyyatları məsrəflərinə aid edilən Əsas fondlar və daşınar əmlak üzərində mülkiyyət hüququ ARDNŞ-ə aşağıda göstərilən tarixlər içərisində ən erkən tarixdə keçir: (i) Sıfır balansına nail olunandan sonra gələn Təqvim rübünün sonunda və ya (ii) bu Sazişin qüvvəsinə xitam verilməndən sonra. Axırıncı halda Podratçının 23.3(b) bəndində və 29-cu Maddədə nəzərdə tutulan hüquqları məhdudlaşdırmadan, Əsas fondlar üzərində mülkiyyət hüququ bu Saziş üzrə onlara aid edilən məsrəflərin əvəzinin ödənilib-ödənilməməsindən asılı olmayaraq ARDNŞ-ə keçir. Sıfır balansına nail olunandan sonra mülkiyyət hüququ ARDNŞ-ə verilən Əsas fondlar və daşınar əmlak, yalnız iqtisadi resurs qalığı məhdud olan əmlak vahidlərindən başqa, istismara yararlı olmalı və aşınması nəzərə alınmaqla, hamı tərəfindən qəbul edilmiş beynəlxalq texniki standartlara uyğun gəlməlidir.

(c) Podratçının ixtiyarı var ki, əmlak üzərində mülkiyyət hüququnun bu 14.1 bəndinə əsasən ARDNŞ-ə keçib-keçməməsindən asılı olmayaraq Neft-qaz əməliyyatlarını

ARTICLE 14

OWNERSHIP, USE AND ABANDONMENT OF ASSETS

14.1 Ownership and Use

Title to the following categories of fixed and moveable assets for use in Petroleum Operations shall pass to SOCAR in accordance with the following:

(a) When legally permissible to purchase land, any land purchased by Contractor for Petroleum Operations, including the land purchased by Contractor under SOCAR's guarantee, shall become the property of SOCAR, as soon as it is purchased.

(b) Title to fixed and moveable assets employed by Contractor in the performance of Petroleum Operations and the cost of which is claimed as Petroleum Costs shall be transferred to SOCAR upon the earlier to occur of (i) the end of the Calendar Quarter following the achievement of Zero Balance or (ii) the termination of this Agreement. In this latter case, without prejudice to Contractor's rights under Articles 23.3(b) and 29, title to fixed assets will pass to SOCAR irrespective of whether the costs thereof have been Cost Recovered. Except in respect of items which have limited residual economic life, fixed and moveable assets the title to which is transferred to SOCAR following the achievement of Zero Balance shall be in reasonable working order and shall comply with generally accepted international technical standards, subject to wear and tear.

(c) Contractor is entitled, at no additional cost, to the full and exclusive use and enjoyment of all land and fixed and moveable assets acquired for the purpose of Petroleum

aparmaq məqsədilə alınmış bütün torpaq sahələrindən, bütün Əsas fondlardan və daşınar əmlakdan heç bir əlavə xərc qoymadan bu Sazişin qüvvədə olacağı bütün müddət ərzində tam və müstəsna hüquqla istifadə etsin.

(d) Hər hansı Əsas fondun 29.5 bəndinə uyğun surətdə qismən təhvilinə dair razılaşmaya əsasən Podratçı təhvil verilən sahədəki əmlakdan imtina etdiyini, ondan istifadə etmək və ya onu Neft-qaz əməliyyatları ilə əlaqədar olaraq hər hansı başqa yerə köçürmək niyyətində olmadığını bildirir. 14.1(f) bəndinin müddəalarına əməl edilməsi şərtilə ARDNŞ bu bildirişin alındığı andan etibarən altmış (60) gün ərzində həmin Əsas fondlar üzərində mülkiyyət hüququnu, sahibliyi və nəzarəti öz öhdəsinə götürməyə qərara ala bilər.

(e) Bu Sazişin qüvvədə olduğu müddət ərzində Neft-qaz əməliyyatlarının həyata keçirilməsi prosesində Podratçının topladığı və hazırladığı məlumatın və başqa informasiyanın birgə sahibi ARDNŞ və Podratçıdır. Bu Sazişin qüvvəsinə xitam verildikdən sonra həmin məlumatın və informasiyanın hamısının üzərində mülkiyyət hüququ ARDNŞ-ə keçir. Hər bir Podratçı tərəf göstərilən məlumatdan və informasiyadan Azərbaycan Respublikasında Karbohidrogenlərlə bağlı digər fəaliyyət növləri ilə əlaqədar olaraq sonralar da istifadə etmək hüququna malikdir. Bu Sazişin qüvvədə qalacağı müddət ərzində Podratçı bu Sazişin 27.2 bəndində göstərilmiş prinsiplərə uyğun surətdə həmin məlumatı və informasiyanı mübadilə etmək hüququna malikdir.

(f) İcarəyə götürülmüş avadanlıq üzərində mülkiyyət hüququ, bu Sazişin 14.3 bəndində ayrıca göstərilmiş hallar istisna olmaqla, Sazişin qüvvəsinə xitam verildikdən sonra ARDNŞ-ə keçmir və belə halda Podratçı adı çəkilən avadanlığı aparmaq hüququna malikdir.

(g) Bu 14-cü Maddənin məqsədləri baxımından, "Əsas fondlar" – Neft-qaz əməliyyatları aparmaq üçün zəruri olan və Kontrakt sahəsinin hüdudları daxilində yerləşən irimiqyaslı

Operations throughout the term of this Agreement irrespective of whether title to such asset has passed to SOCAR in accordance with this Article 14.1.

(d) With respect to any fixed asset Contractor shall, upon agreement of partial relinquishment pursuant to Article 29.5, give notice of abandonment of such assets in the area to be relinquished which Contractor does not intend to use or relocate elsewhere in connection with Petroleum Operations. Subject to Article 14.1(f), SOCAR may, within sixty (60) days of receipt of such notice, elect to assume ownership, possession and custody of such fixed assets.

(e) Data and other information collected and generated by Contractor in the course of Petroleum Operations shall, during the term of this Agreement, be jointly owned by SOCAR and Contractor. Following the termination of this Agreement ownership of all such data and information shall revert to SOCAR. Thereafter, each Contractor Party shall be entitled to continue to use such data and information in relation to its other Petroleum related activities in the Republic of Azerbaijan. Contractor shall be entitled to trade such data and information in accordance with the principles set out in Article 27.2 of this Agreement during the term of this Agreement.

(f) Except as otherwise provided in Article 14.3 of this Agreement, ownership of leased equipment shall not transfer to SOCAR at the end of this Agreement, and Contractor shall at such time be free to export such equipment.

(g) For purposes of Article 14, "fixed assets" means large structures and facilities essential to the conduct of Petroleum Operations that are located within the Contract

qurğular və obyektlər, məsələn, platformalar, yığım vasitələri, quyular, boru kəmərləri, dayaq blokları, neft-qaz ayırma və suayırma qurğuları, neft nasos stansiyaları, boşaltma terminalları, qaz kompressor stansiyaları və bu cür digər qurğular və obyektlər deməkdir.

14.2 Əmlakın ləğv edilməsi

(a) Kontrakt sahəsindəki Neft-qaz əməliyyatlarında Podratçının istismar etdiyi bütün Əsas fondların ləğv edilməsini maliyyələşdirmək məqsədi ilə Tərəflər yüksək beynəlxalq nüfuza malik olan, ARDNŞ ilə Podratçı arasında razılaşdırılmış bankda birgə məqsədli hesab açırlar. Bu hesab "Ləğvetmə işləri fondu" adlanacaq, həm də fond vəsaitdən maksimum fayda götürülməsini nəzərdə tutmaqla idarə ediləcəkdir. Məqsədli hesabın strukturu və Ləğvetmə işləri fondunun vəsaitinin idarə edilməsinin şərtləri ARDNŞ ilə Podratçı arasında razılaşdırılır. Ləğvetmə işləri fonduna qoyulmuş bütün pul vəsaitinin əvəzi Əməliyyat məsrəfləri kimi ödənilməlidir. Ləğvetmə işləri fondu bütün Əsaslı məsrəflərin on beş (15) faizindən artıq ola bilməz.

(b) Hansının daha tez baş verməsindən asılı olaraq, (i) İşlənmə və hasilat dövrünün başlanmasının on beşinci (15-ci) ildönümü təsadüf edən Təqvim rübündən, yaxud (ii) İşlənmə proqramında müəyyən edilmiş Karbohidrogenlər ehtiyatlarının çıxarılmasının əlli (50) faizə çatacağı Təqvim rübündən sonra gələn birinci Təqvim rübündə Podratçı Ləğvetmə işləri fonduna vəsait köçürməyə başlayır. Əgər Ləğvetmə işləri fonduna pul vəsaiti daxil olmağa başlayandan sonra Kontrakt sahəsində qalan Karbohidrogenlərin ümumi ehtiyatlarını müəyyən səviyyəyə qədər artıran bir Kəşf edilərsə və bunun nəticəsində ümumi məcmu ehtiyatların yetmiş (70) faizindən az hissəsinin çıxarıldığı məlum olarsa, Ləğvetmə işləri fonduna vəsait köçürülməsi dayandırılır. Karbohidrogenlər ehtiyatının (həmin Kəşf nəticəsində müvafiq surətdə artmış ehtiyatın) yetmiş (70) faizinin çıxarıldığı an gəlib çatdıqdan sonra Podratçı Ləğvetmə

Area, such as platforms, gathering facilities, wells, flowlines, pipelines, jackets, oil, gas and water separation facilities, oil pump stations, loading terminals, gas compression stations and the like.

14.2 Abandonment

(a) In order to finance abandonment of all fixed assets employed in Petroleum Operations within the Contract Area by Contractor, the Parties shall open a joint escrow account at a bank of good international repute to be agreed between SOCAR and Contractor. This account shall be known as the "Abandonment Fund" and shall be administered for value. The structure of the escrow account and the terms for the administration of the Abandonment Fund monies shall be mutually agreed between SOCAR and Contractor. All monies allocated to the Abandonment Fund shall be recoverable as Operating Costs. In no event shall the Abandonment Fund exceed fifteen (15) percent of all Capital Costs.

(b) Contractor shall commence making contributions to the Abandonment Fund in the first Calendar Quarter following the earlier of: (i) the fifteenth (15th) anniversary of the beginning of the Development and Production Period, or (ii) the Calendar Quarter when fifty (50) percent of Petroleum reserves identified in the Development Programme have been recovered. Should the point be reached at which payments into the Abandonment Fund have commenced and a Discovery is made subsequent thereto which increased the total remaining Petroleum reserves in the Contract Area to a level where less than seventy (70) percent of overall combined reserves have been recovered, then payments into the Abandonment Fund shall be suspended. Contractor shall resume payments into the Abandonment Fund when the point is reached where seventy (70) percent of Petroleum reserves (as increased by such Discovery) have been recovered. The formula for

işləri fonduna yenidən vəsait köçürməyə başlayır. 14.2(c) bəndində göstərildiyi kimi, həmin vəsaitin həcmini təyin etmək üçün istifadə olunan düstur yenidən hesablanmış Karbohidrogenlər ehtiyatı nəzərə alınmaqla təshih edilir. Lakin Ləğvetmə işləri fonduna əvvəllər verilmiş bütün vəsaitlər üstəgəl onların yığılmış faizləri tam həcmdə Podratçının hesabına yazılır.

(c) Podratçı hər Təqvim rübündə Ləğvetmə işləri fonduna aşağıdakı düstura uyğun şəkildə vəsait köçürür:

QAT = ((COA/ARES) x PARES) – CAF

burada:

QAT müvafiq Təqvim rübü üçün Ləğvetmə işləri fonduna köçürülməli olan vəsaitin məbləğidir;

COA ləğvetmə əməliyyatlarının 14.2(g) bəndinə uyğun olaraq müəyyən edilən və 14.2(a) bəndində göstərilmiş həddən yüksək olmayan smeta dəyəridir;

ARES Ləğvetmə işləri fondunun açıldığı Təqvim rübünün sonundan başlayaraq çıxarılmalı olan Karbohidrogenlərin qiymətləndirilmiş qalıq ehtiyatlarıdır;

PARES Ləğvetmə işləri fondunun açıldığı Təqvim rübünün sonundan etibarən Karbohidrogenlərin məcmu hasilatıdır;

CAF əvvəlki Təqvim rübünün axırı üçün Ləğvetmə işləri fondunun balansıdır.

(d) Əgər hər hansı bir anda Podratçı Kontrakt sahəsində yerləşən Əsas fondun bu Saziş qüvvədən düşənədək ləğv

determining the amount of such payments as set forth in Article 14.2(c) shall be revised to take into account the revised Petroleum reserves. Contractor shall receive, however, full credit for all payments previously paid into the Abandonment Fund, plus accrued interest thereon.

(c) Contractor shall transfer funds on a Calendar Quarter basis to the Abandonment Fund according to the following formula:

QAT = ((COA/ARES) x PARES) – CAF

where:

QAT is the amount of funds to be transferred to the Abandonment Fund in respect of the relevant Calendar Quarter;

COA is the estimated cost of abandonment operations established pursuant to Article 14.2(g), up to the limit established in Article 14.2(a);

ARES is the estimated Petroleum reserves remaining to be recovered from the end of the Calendar Quarter in which the Abandonment Fund was opened;

PARES is the cumulative production of Petroleum from the end of the Calendar Quarter in which the Abandonment Fund was opened;

CAF is the Abandonment Fund balance at the end of the previous Calendar Quarter.

(d) If, at any time, Contractor recommends abandonment of a fixed asset within the Contract Area prior to the termination

olunmasını tövsiyə edirsə, Podratçının tövsiyəsi alındıqdan sonra otuz (30) gün ərzində ARDNŞ həmin fondun istismarını davam etdirməyi qərara almaq hüququna malikdir və bu halda özü üçün münasib olan bir vaxtda və tərzdə onun ləğv edilməsi məsuliyyətini öz üzərinə götürür; ARDNŞ həmin Əsas fondu ləğv etməyə başladığı anda, ya da Saziş qüvvədən düşəndən sonra – bunlardan hansının daha əvvəl baş verməsindən asılı olaraq, – Ləğvetmə işləri fondunun müvafiq hissəsi ARDNŞ-ə verilir. Əgər ARDNŞ Əsas fondun istismarını davam etdirməyi qərara almırsa, onu ləğv etmək haqqında qərar Rəhbər komitə tərəfindən qəbul edilir, bu şərtlə ki, gündəliyinə Podratçının tövsiyəsi ilk dəfə salınmış iclasda Rəhbər komitə həmin Əsas fondun ləğv olunması barədə yekdil rəyə gələ bilmirsə, belə hesab edilir ki, ARDNŞ həmin Əsas fondun istismarını davam etdirməyi qərara almışdır və həmin Əsas fondlar barəsində bütün sonrakı məsuliyyət Podratçının üzərindən götürülür. Əgər Rəhbər komitə həmin Əsas fondu ləğv etməyi qərara alırsa, bu qərardan sonrakı otuz (30) gün ərzində ARDNŞ Podratçıya məlumat verir ki, həmin Əsas fondun ləğv olunması üçün məhz kim məsuliyyət daşıyır: Podratçı, yoxsa ARDNŞ-nin özü. Otuz (30) gün ərzində ARDNŞ tərəfindən belə bir məlumat verilmədikdə, hesab edilir ki, ARDNŞ Əsas fondun ləğv edilməsi üçün məsuliyyəti Podratçının üzərinə qoymağı qərara almışdır. Ləğvetmə işləri fondunun müvafiq hissəsi Əsas fondun ləğv edilməsi üçün cavabdeh olan Tərəfin hesabına köçürülür. ARDNŞ Əsas fondun ləğv edilməsi ilə bağlı bütün əməliyyatları və ya Əsas fondun istismarının davam etdirilməsini beynəlxalq neft-qaz sənayesində qəbul edilmiş praktikaya uyğun surətdə və elə tərzdə həyata keçirir ki, Neft-qaz əməliyyatlarına mane olmasın.

(e) Bu Saziş qüvvədən düşdükdə Podratçı Kontrakt sahəsinin hüdudları daxilində Neft-qaz əməliyyatlarında istismar olunan Əsas fondlardan hansılarını ləğv etmək niyyətindədirsə, onların hamısı barəsində ARDNŞ-ə məlumat verir. ARDNŞ Podratçının məlumatını aldıqdan sonra otuz (30) gün müddətində Podratçıya ARDNŞ-nin

of this Agreement, SOCAR may elect, within thirty (30) days of receipt of Contractor's recommendation, to continue using such fixed asset, in which event SOCAR shall be responsible for abandoning such fixed asset as and when it decides, and the appropriate portion of the Abandonment Fund shall be transferred to SOCAR at the time it commences abandonment of such fixed asset or termination of this Agreement, whichever is earlier. If SOCAR fails to elect to continue using such fixed asset the Steering Committee shall determine whether to abandon such asset provided that if the Steering Committee fails to reach agreement on the abandonment of such fixed asset at the meeting at which Contractor's recommendation first appears on the agenda then SOCAR shall be deemed to have elected to continue using such fixed asset and Contractor shall have no further liability of any kind with respect to such asset. If the Steering Committee decides to abandon such fixed asset, within thirty (30) days of such decision SOCAR shall notify Contractor whether Contractor or SOCAR shall be responsible for abandoning such fixed asset. If SOCAR fails to notify Contractor within such thirty (30) day time period, SOCAR shall be deemed to have decided that Contractor is to abandon such fixed asset. The appropriate portion of the Abandonment Fund shall be transferred to the Party responsible for abandoning such fixed asset. Any abandonment operations, or continued use by SOCAR, shall be conducted in accordance with international Petroleum industry practice and in such a manner that does not interfere with Petroleum Operations.

(e) Upon termination of this Agreement, Contractor shall notify SOCAR of all fixed assets employed in Petroleum Operations within the Contract Area which Contractor intends to abandon. SOCAR shall, within thirty (30) days of receipt of Contractor's notice, notify Contractor of such fixed assets which SOCAR elects to continue to use, as well

Əsas fondlardan hansılarının istismarını davam etdirməyi qərara aldığını bildirir, habelə Podratçıya məlumat verir ki, ARDNŞ yerdə qalan bütün Əsas fondları özü ləğv etmək niyyətindədir, yoxsa həmin Əsas fondların ləğv edilməsi üçün məsuliyyəti Podratçının üzərinə qoyur. Ləğvetmə işləri fondunun əmlakın ləğv edilməsi ilə bağlı işlərin həcminə uyğun gələn və həmin əmlaka aid olan hissəsi adı çəkilən Əsas fondların ləğv edilməsi üçün kimin məsuliyyət daşımasından asılı olaraq ya Podratçının, ya da ARDNŞ-nin hesabına köçürülür. ARDNŞ hər hansı Əsas fonddan istifadəni davam etdirməyi və ya onu ləğv etməyi qərara aldıqda, ARDNŞ bu Əsas fondları özü üçün münasib olan bir vaxtda və tərzdə ləğv etmək hüququna malikdir. Əsas fondlar beynəlxalq neft-qaz sənayesində hamılıqla qəbul edilmiş praktikaya uyğun şəkildə ləğv olunur, bu şərtlə ki, ləğv edilməsi üçün məsuliyyət daşıdığı əmlakı Podratçının tamamilə ləğv edə bilməsindən ötrü Ləğvetmə işləri fondunda kifayət qədər pul vəsaiti olmayanda Podratçı fondda olan bütün nağd vəsaiti ləğvetmə tədbirlərinin həyata keçirilməsinə xərcləyir və bundan sonra hər hansı ləğvetmə əməliyyatlarını dayandırır; bu andan etibarən o, qalmaqda olan həmin Əsas fondların ləğv edilməsi ilə bağlı heç bir məsuliyyət daşımır və ya öhdəlik götürmür. Ləğv edilməyən hər hansı Əsas fondlar təhlükəsiz vəziyyətdə saxlanmalıdır ki, bu da ləğvetmə tədbirləri çərçivəsində təmin olunur.

as whether SOCAR elects to abandon all other fixed assets or have Contractor abandon such other fixed assets. A portion of the Abandonment Fund commensurate with and attributable to any fixed assets shall be transferred to Contractor or SOCAR, as the case may be, who is responsible for abandoning such fixed assets. If SOCAR elects to continue to use or to abandon any fixed assets, SOCAR may abandon such fixed assets as and when it decides. Abandonment of any fixed assets shall be in accordance with generally accepted international Petroleum industry practice; provided, however, in the event there are insufficient funds in the Abandonment Fund to enable Contractor to complete abandonment operations for which Contractor is responsible, Contractor shall expend all amounts available in the Abandonment Fund in the performance of its abandonment operations and shall thereupon cease any further abandonment operations and have no further liability or obligation to abandon such remaining fixed assets. Any unabandoned fixed assets shall as part of the abandonment operations be left in a safe condition.

(f) ARDNŞ Kontrakt sahəsində hər hansı Əsas fondları ləğv etməyi qərara aldıqda və ya yuxarıdakı (d) bəndində nəzərdə tutulduğu kimi, hər hansı Əsas fondlardan istifadəni davam etdirməyi qərara aldıqda həmin Əsas fondlara və onların ləğv edilməsinə aid olan hər cür məsuliyyət və öhdəlik, habelə Ləğvetmə işləri fondunda kifayət qədər məbləğ olmadıqda hər hansı vəsait ödəmək məsuliyyəti və öhdəliyi Podratçının üzərindən tamamilə götürülür. ARDNŞ həmin Əsas fondların davam edən istismarı və qəti ləğvi nəticəsində, habelə ARDNŞ-nin göstərilən Əsas fondları lazımınca ləğv etməməsi nəticəsində baş verən hər hansı itkilər və ziyan üçün

(f) Upon SOCAR electing to abandon any fixed assets in the Contract Area or electing pursuant to (d) above, to continue using any such fixed assets, Contractor shall be released from all responsibility and liability of every kind pertaining to such fixed assets and abandonment thereof as well as payment of any further funds should there be insufficient funds in the Abandonment Fund. SOCAR shall indemnify Contractor from and against any loss, damage and liability of any nature whatsoever, as well as any claim, action or proceeding instituted against Contractor, or any Contractor Parties, by any person or entity, including, but not limited to any Governmental Authority, arising from, or in any way

məsuliyyəti öz üzərinə götürəcəyinə və hər hansı itkiyə, zərərə və ya məsuliyyətə, eləcə də hər hansı fiziki və ya hüquqi şəxsin, o cümlədən, lakin bununla məhdudlaşdırılmadan hər hansı Hökumət orqanının Podratçı və ya hər hansı Podratçı tərəf əleyhinə qaldırdığı hər hansı pretenziyaya, iddiaya və ya məhkəmə tədqiqatına görə məsuliyyəti öz üzərinə götürəcəyinə və Podratçıya kompensasiya ödəyəcəyinə təminat verir.

connected with, the continued use of such fixed assets and their ultimate abandonment, as well as any failure by SOCAR to properly abandon any such fixed assets.

(g) İşlənmə proqramında müəyyən edilmiş Karbohidrogen ehtiyatlarının əlli (50) faizinin çıxarılmasının planlaşdırıldığı Təqvim ilindən azı bir (1) il əvvəl Podratçı Ləğvetmə planını və ləğvetmə əməliyyatlarının smetasını hazırlayıb Rəhbər komitənin müzakirəsinə verir. Bundan sonra Podratçı ləğvetmə əməliyyatlarının smetasını hər il təhlil edir və lazım gəlsə, o cümlədən sonrakı Kəşfləri nəzərə almaq üçün smetaya müvafiq dəyişikliklər edir.

(g) Not later than one (1) year prior to the Calendar Year in which fifty (50) percent of the Petroleum reserves identified in the Development Programme are expected to be recovered, Contractor shall prepare an abandonment plan and an estimate of the cost of abandonment operations for approval by the Steering Committee. Annually thereafter Contractor shall examine the estimated costs of abandonment operations and, if appropriate, revise the estimate including such revision as may be necessary to take into account subsequent Discoveries.

(h) Ləğvetmə işləri fondunda izafi vəsait varsa, bütün ləğvetmə tədbirləri başa çatdıqdan sonra bu vəsait Podratçının və ARDNŞ-nin yerinə yetirdiyi ləğvetmə tədbirlərinin dəyərinə mütənasib surətdə ARDNŞ və Podratçı arasında bölüşdürülür, lakin heç bir halda Podratçının payı 11.5 bəndinin müddəalarına uyğun olaraq bu Sazişin qüvvəsinə xitam verilməzdən əvvəlki on (10) il ərzində Mənfəət Karbohidrogenlərinin ARDNŞ ilə Podratçı arasında bölünən həcmlərinin hesablanmış orta həcminə mütənasib surətdə bölündüyü təqdirdə Podratçının ala biləcəyi izafi vəsaitin məbləğindən çox olmamalıdır.

(h) In the event that there are excess funds in the Abandonment Fund following completion of all abandonment operations, then such excess shall be distributed between SOCAR and Contractor in proportion to the cost of abandonment operations undertaken by Contractor and SOCAR, but in no event shall Contractor's share exceed an amount it would have received had the excess funds been distributed in the ratio of the weighted average of the last ten (10) years Profit Petroleum distribution between SOCAR and Contractor under the provisions of Article 11.5 prior to termination of this Agreement.

(i) Ləğvetmə işləri fonduna ödənilən haqlardan, bu fonda daxil olan məbləğlərdən və ya onun qazandığı, yaxud malik olduğu vəsaitdən heç bir Vergi tutulmur.

(i) No Taxes shall be imposed on any amounts paid into, received or earned by or held in the Abandonment Fund.

14.3 Avadanlığın icarəsi

Neft-qaz əməliyyatları gedişində bütün Podratçı tərəflər öz Ortaq şirkətlərindən və ya Üçüncü tərəflərdən icarəyə götürülmüş avadanlıqdan istifadə etmək hüququna malikdirlər. Podratçının uzunmüddətli icarə (bu 14-cü Maddənin məqsədləri baxımından, on (10) ildən artıq müddətə icarə deməkdir) əsasında istifadə etdiyi avadanlığa gəlincə, Podratçı Neft-qaz əməliyyatlarında bu avadanlıqdan bir daha istifadə etmək niyyətində deyilsə, Podratçı avadanlığı onun sahibləri olan Ortaq şirkətlərdən icarəyə götürmüşsə, həmin icarənin ARDNŞ-ə verilməsini təmin edəcək, avadanlığı Üçüncü tərəflərdən icarəyə götürmüşsə, həmin icarənin ARDNŞ-ə verilməsi imkanı yaradılmasını təmin etmək üçün öz səlahiyyəti daxilində bütün ağlabatan səyləri göstərəcək, habelə çalışacaqdır ki, icarə sazişində ARDNŞ-nin bu avadanlığı əldə etmək hüququ nəzərdə tutulsun.

14.3 Leases of Equipment

Each Contractor Party shall have the right to use equipment leased from its Affiliates or Third Parties in the course of Petroleum Operations. In the case of any equipment, which is on long-term lease (which for the purposes of this Article 14 shall mean a lease in excess of ten (10) years) to Contractor, Contractor shall, with respect to such leases from such Affiliates of equipment owned by such Affiliates, ensure, and with respect to such leases from Third Parties, use reasonable lawful efforts to procure, that any such lease is transferable to SOCAR when Contractor no longer wishes to use such equipment for Petroleum Operations and that such lease includes an option to purchase exercisable by SOCAR.

MADDƏ 15

TƏBİİ QAZ

15.1 Təbii səmt qazı

Xam neft Kəşf olunduğu və Kəşfiyyat dövrü və ya Əlavə kəşfiyyat dövrü ərzində digər Kəşflərin olmadığı təqdirdə, həmin Xam neft Kəşfindən hasil edilən Təbii qaz Təbii səmt qazı kimi klassifikasiya ediləcək və bu Təbii səmt qazının emal üçün istifadə edilməyən hissəsi (Podratçının 11.1 və 15.3 bəndlərində nəzərdə tutulmuş hüquqlarına əməl edilməsi şərtilə) ARDNŞ-ə Çatdırılma məntəqəsində pulsuz çatdırılır.

Podratçıya ixtiyar verilir ki, Kontrakt sahəsində kəşf olunmuş maye karbohidrogenləri çıxarsın və onlarla birlikdə çıxan Təbii səmt qazını satış uçun maye karbohidrogenlərdən ayırmaq məqsədilə emal etsin, bu şərtlə ki, belə emal Podratçı üçün iqtisadi cəhətdən əlverişli metodlarla aparılsın. Təbii səmt qazından ayrılan mayelər Xam neft sayılır.

15.2 Sərbəst təbii qaz

Sərbəst təbii qaz Kəşf olunarsa, ARDNŞ ilə Podratçı 4.6(b) bəndində nəzərdə tutulmuş qaydada belə Sərbəst təbii qazın sənaye üsulu ilə çıxarılmasına dair əlavə şərtlər razılaşdırırlar, və belə şərtlər razılaşdırıldıqda Podratçı müvafiq İşlənmə proqramını təqdim edir.

Podratçının Sərbəst təbii qazın Kəşfinə və işlənməsinə qoyduğu sərmayənin əvəzi 11.2 və 11.5 bəndlərində göstərilən mexanizmə uyğun olaraq Sərbəst təbii qazın satışı yolu ilə ödənilir. Sərbəst təbii qaz Kəşf olunduğu halda Mənfəət karbohidrogenləri 11.5 bəndində göstərilmiş mexanizmə uyğun surətdə Sərbəst təbii qazın satışı yolu ilə bölüşdürülür.

ARTICLE 15

NATURAL GAS

15.1 Associated Natural Gas

In case of a Crude Oil Discovery and provided no further Discoveries have been made during the Exploration Period or the Additional Exploration Period, then Natural Gas produced from such Crude Oil Discovery shall be classified as Associated Natural Gas and such Associated Natural Gas not used for processing (subject to Contractor's rights pursuant to Article 11.1 and Article 15.3) shall be delivered to SOCAR free of charge at the Delivery Point.

Contractor shall have the right to produce hydrocarbon liquids found within the Contract Area and to process Associated Natural Gas produced with any such liquids in order to extract such liquids for sale, provided that such processing can be conducted in a manner that is economically justified for Contractor. Liquids saved shall be treated as Crude Oil.

15.2 Non-associated Natural Gas

In the event of a Non-associated Natural Gas Discovery, additional terms for commercial development of such Non-associated Natural Gas shall be agreed between SOCAR and Contractor, and upon reaching such agreement the applicable Development Programme shall be submitted by Contractor, as set out in Article 4.6(b).

Return on Contractor's investment in the Non-associated Natural Gas Discovery and development shall be through marketing of Non-associated Natural Gas in accordance with the mechanism described in Articles 11.2 and 11.5. In the case of a Non-associated Natural Gas Discovery Profit Petroleum shall be shared through marketing of Non-associated Natural Gas in accordance with the mechanism described in Article 11.5.

4.6(b) bəndində göstərilmiş müddət ərzində və ya hər hansı razılaşdırılmış əlavə müddət ərzində Tərəflər Sərbəst təbii qazın sənaye üsulu ilə çıxarılmasına dair əlavə şərtlər barəsində razılığa gəlmirlərsə, ARDNŞ və/yaxud onun Ortaq şirkətləri İşlənmə proqramına uyğun surətdə Podratçı Sərbəst təbii qazın Kəşfindən irəli gələn işlərə başlayanadək istənilən vaxt Podratçıya yazılı bildiriş verməklə və bu 15.2 bəndinin müddəalarına əməl edilməsi şərti ilə, neft-qaz sənayesində hamılıqla qəbul edilmiş təcrübəyə uyğun olaraq məsuliyyəti və çəkilən xərcləri öz öhdələrinə götürməklə bu Sərbəst təbii qazın Kəşfindən irəli gələn işlər aparmaq hüququna malikdirlər, bu şərtlə ki, ARDNŞ 11.2 və 11.5 bəndlərində nəzərdə tutulmuş mexanizmə uyğun olaraq Podratçının məsrəflərinin əvəzini Podratçıya bütünlüklə ödəsin.

Failing agreement on the additional terms of commercial development of the Non-associated Natural Gas Discovery within the period set forth in Article 4.6(b) or any agreed extended period, then SOCAR and/or its Affiliates shall have the right exercisable at any time before Contractor has commenced development of the Non-associated Natural Gas Discovery pursuant to the Development Programme by giving written notice to Contractor to develop at SOCAR's and/or its Affiliates' sole risk and cost and subject to this Article 15.2 such Non-associated Natural Gas Discovery in accordance with the international Petroleum industry practice subject to reimbursement in full by SOCAR to Contractor of costs incurred by Contractor in accordance with the mechanism described in Articles 11.2 and 11.5.

Beynəlxalq neft-qaz sənayesinin hamılıqla qəbul edilmiş prinsiplərinə, habelə bu Sazişin şərtlərinə uyğun olaraq, ARDNŞ və/yaxud onun Ortaq şirkətləri Neft-qaz əməliyyatlarını lazımi səylə, təhlükəsiz və səmərəli şəkildə aparırlar. ARDNŞ və/yaxud onun Ortaq şirkətləri və Podratçı Kontrakt sahəsində Neft-qaz əməliyyatlarını elə aparırlar ki, Neft-qaz əməliyyatlarını həyata keçirməkdə bir-birinin işinə mane olmasınlar və əngəl törətməsinlər və kollektorun ümumi məhsuldarlığına bilavasitə və ya dolayısı ilə zərər yetirməsinlər.

SOCAR and/or its Affiliates shall conduct Petroleum Operations in a diligent, safe and efficient manner and in accordance with generally accepted principles of the international Petroleum industry and otherwise in accordance with the terms of this Agreement. SOCAR and/or its Affiliates shall conduct Petroleum Operations in the Contract Area in a manner that does not interfere or hinder the conduct of Petroleum Operations of each other and also in a manner which shall not directly or indirectly damage the overall reservoir performance.

4.6(f) və 4.6(g) bəndlərinin, habelə 5.3 və 5.4 bəndlərinin müddəaları ARDNŞ-nin Neft-qaz əməliyyatları aparmasına bütün hallarda elə tətbiq edilir ki, sanki bu bəndlərdə Podratçıya olan bütün istinadlar ARDNŞ-ə aiddir.

Articles 4.6(f) and 4.6(g) and Articles 5.3 and 5.4 shall apply to SOCAR's conduct of Petroleum Operations in all respects as if each reference therein to Contractor were a reference to SOCAR.

ARDNŞ və/yaxud onun Ortaq şirkətləri tərəfindən Sərbəst təbii qaz Kəşfinin işlənməsi başlandıqdan sonra və Sənaye hasilatının başlanma tarixindən əvvəl Podratçının ixtiyarı var ki, ARDNŞ-nin və/yaxud onun Ortaq şirkətlərinin əvəzinə məsuliyyəti öz üzərinə götürməklə Sərbəst təbii qazın işlənməsi əməliyyatlarını həyata keçirsin; bundan sonra Podratçı ARDNŞ-nin bu işlənmə ilə əlaqədar məsrəflərinin əvəzini 11.2 bəndində göstərilmiş mexanizmə uyğun şəkildə ödəyir.

At any time from commencement of development by SOCAR and/or its Affiliates of the Non-associated Natural Gas Discovery and prior to the Commencement Date of Commercial Production, Contractor shall be entitled to assume responsibility for and take over operation from SOCAR and/or its Affiliates and develop Non-associated Natural Gas and SOCAR shall thereafter be reimbursed for its costs incurred in connection with such development in accordance with the mechanism described in Article 11.2.

İşlənmə proqramı ARDNŞ tərəfindən təsdiq olunduqdan sonra dörd (4) il ərzində Podratçı İşlənmə proqramına uyğun olaraq Sərbəst təbii qazın işlənməsinə başlamırsa, digər razılaşmaların olmadığı təqdirdə ARDNŞ-nin ixtiyarı var ki, yazılı bildiriş verməklə, bu Kəşf üçün İşlənmə proqramında müəyyən edilmiş Sərbəst təbii qaz ehtiyatlarını bu Sazişin çərçivəsindən çıxarsın; Sərbəst təbii qazın Kəşfinə dair bu bildirişin alındığı tarixədək Podratçının çəkdiyi, əvəzi ödənilməmiş məsrəflərin Əvəzi ödənilmir.

Belə Sərbəst təbii qaz Sazişin çərçivəsindən çıxarıldıqdan sonra hər bir Tərəf Kontrakt sahəsində özünün kəşfiyyat, işlənmə və hasilat işlərini elə aparır ki, digər Tərəfin apardığı və ya planlaşdırdığı Neft-qaz əməliyyatlarına mane olmasın və əngəl törətməsin və Kontrakt sahəsində kollektorun ümumi məhsuldarlığına bilavasitə və ya dolayısı ilə zərər yetirməsin.

15.3 <u>Təbii qazın məşəldə yandırılması və ya havaya buraxılması</u>

(a) Qəza vəziyyətlərində, avadanlıq nasaz olduqda, hər hansı obyektlərin, o cümlədən çatdırılma sistemlərin təmir edildiyi və ya onlara planlı texniki xidmət göstərildiyi hallarda, yaxud ARDNŞ 15.1 bəndinin müddəalarına uyğun surətdə Podratçının verdiyi Təbii səmt qazını qəbul etmədiyi halda, Podratçı Təbii səmt qazının müvafiq həcmini məşəldə yandırmaq və ya havaya buraxmaq hüququna malikdir.

(b) Sərbəst təbii qaza münasibətdə, Sərbəst təbii qazın hər hansı alıcısı öz payını götürmürsə və Podratçı bu Sərbəst təbii qazı əvvəlcə həmin alıcı ilə razılaşdırılmış şərtlərlə ARDNŞ-ə təklif edəndən sonra ARDNŞ bu qazı qəbul etməkdən imtina edirsə yaxud qəbul etmək iqtidarında deyilsə, Podratçı Sərbəst təbii qazın hasilatını alıcının və ya ARDNŞ-nin imtina etdiyi həcmdə azaldır. Əgər Podratçı hər hansı səbəbdən öz Sərbəst təbii qaz payını sata bilmirsə,

If within four (4) years of the date of approval by SOCAR of the Development Programme work on the Non-associated Natural Gas development pursuant to the Development Programme has not been commenced by Contractor, then unless otherwise agreed, SOCAR shall be entitled by giving written notice to withdraw from the scope of this Agreement Non-associated Natural Gas reserves as defined in the Development Programme for such a Discovery and any unrecovered costs incurred by Contractor to the date of such notice with respect to such Discovery of Non-associated Natural Gas shall not be Cost Recoverable.

Following the withdrawal of such Non-associated Natural Gas from the scope of this Agreement each Party shall ensure that its conduct of exploration, development and production activities in the Contract Area shall be performed in a manner that does not interfere with or hinder Petroleum Operations conducted or planned to be conducted by the other Party and also in a manner which shall not directly or indirectly damage the overall reservoir performance in the Contract Area.

15.3 <u>Flaring or Venting of Natural Gas</u>

(a) Contractor shall have the right to flare or vent the applicable amount of Associated Natural Gas in the event of emergencies, equipment malfunctions, repairs or maintenance of any facilities, including delivery systems, or SOCAR's failure to take delivery of Associated Natural Gas to be delivered to it by Contractor as provided in Article 15.1.

(b) In the case of Non-associated Natural Gas, in the event of a failure by any buyer thereof to take delivery, provided however, that in such event Contractor has first offered such Non-associated Natural Gas to SOCAR on the same terms agreed with such buyer and if SOCAR has refused or has failed to take delivery thereof, then Contractor shall reduce the production of Non-associated Natural Gas by the volumes not taken by any buyer or SOCAR. In the event of

Sərbəst təbii qaz quyularını bağlamaqla və ya onların məhsuldarlığını məhdudlaşdırmaqla Sərbəst təbii qazın hasilatını müvafiq həcmdə azaltmalıdır.

Contractor's failure to market its entitlement of Non-associated Natural Gas for any reason Contractor shall reduce the production of Non-associated Natural Gas by the applicable volumes and shut in Non-associated Natural Gas wells or restrict its production rate.

MADDƏ 16

SƏRBƏST DÖNƏRLİ VALYUTA

Podratçıya və hər Podratçı tərəfə, habelə onların Ortaq şirkətlərinə və Subpodratçılarına bu Sazişin qüvvədə olacağı dövr ərzində və bu Sazişlə əlaqədar olaraq aşağıdakı işləri görməyə səlahiyyət verilir:

(a) Həm Azərbaycan Respublikasında, həm də onun hüdudlarından kənarda Sərbəst dönərli valyuta ilə bank hesabları, habelə Azərbaycan Respublikasında yerli valyuta ilə bank hesabları açmaq, aparmaq və onlardan istifadə etmək;

(b) Neft-qaz əməliyyatları üçün Azərbaycan Respublikasına Sərbəst dönərli valyuta ilə zəruri vəsait gətirmək;

(c) Bu Saziş üzrə Neft-qaz əməliyyatlarını həyata keçirməkdən və Podratçının digər öhdəliklərini yerinə yetirməkdən ötrü, lazım gəldikcə, qanunla yol verilən ən əlverişli mübadilə məzənnəsi (və hər cür şəraitdə Azərbaycan Respublikası Mərkəzi Bankının digər xarici investorlar üçün tətbiq etdiyi mübadilə məzənnəsindən az əlverişli olmayan məzənnə) ilə, adi və hamılıqla qəbul olunmuş bank komisyon haqlarından başqa heç bir məbləğ çıxılmadan və ya haqq ödənilmədən Sərbəst dönərli valyutaya yerli valyuta almaq;

(d) Neft-qaz əməliyyatlarında istifadə etmək üçün nağd şəkildə mövcud olan və ya həmin əməliyyatlarla bağlı qazanılmış, cari yerli tələbatdan artıq olan yerli valyutanı qanunla yol verilən ən əlverişli mübadilə məzənnəsi (və hər cür şəraitdə, Azərbaycan Respublikası Mərkəzi Bankının digər xarici investorlar üçün tətbiq etdiyi məzənnədən az əlverişli olmayan mübadilə məzənnəsi) ilə, adi və hamılıqla qəbul edilmiş bank komisyon haqlarından başqa heç bir məbləğ tutulmadan və ya haqq ödənilmədən Sərbəst dönərli valyutaya çevirmək;

(e) Bu Sazişə uyğun olaraq əldə edilmiş bütün varidatı, o cümlədən Karbohidrogenlərin Podratçı tərəflərə çatan payının ixracından gələn bütün varidatı heç bir məhdudiyyət olmadan Azərbaycan

ARTICLE 16

FOREIGN EXCHANGE

Contractor and each Contractor Party, and their Affiliates and Sub-contractors, are authorised throughout the duration of this Agreement and in connection with this Agreement to:

(a) Open, maintain and operate Foreign Exchange bank accounts both inside and outside the Republic of Azerbaijan and local currency bank accounts inside the Republic of Azerbaijan;

(b) Import into the Republic of Azerbaijan funds required for Petroleum Operations in Foreign Exchange;

(c) Purchase local currency with Foreign Exchange at the most favourable exchange rate legally available to it (and in any event at a rate of exchange no less favourable than that granted by the Central Bank of the Republic of Azerbaijan to other foreign investors), without deductions or fees other than usual and customary banking charges, as may be necessary for conduct of the Petroleum Operations and performance of other obligations of Contractor hereunder;

(d) Convert local currency available for use in, or earned in connection with, Petroleum Operations exceeding their immediate local requirements into Foreign Exchange at the most favourable exchange rate legally available to it (and in any event at a rate of exchange no less favourable than that granted by the Central Bank of the Republic of Azerbaijan to other foreign investors), without deductions or fees other than usual and customary banking charges;

(e) Export, hold and retain outside the Republic of Azerbaijan, or dispose of, all proceeds obtained under this Agreement, including without limitation all payments received from export sales of

Respublikasının hüdudlarından kənara aparmaq, orada saxlamaq, yaxud onların barəsində sərəncam vermək;

(f) Özlərinin yerli tələbatından artıq olan hər hansı Sərbəst dönərli valyutanı Azərbaycan Respublikasından kənara köçürmək;

(g) Sərbəst dönərli valyutanı yerli və ya hər hansı başqa valyutaya çevirmək barəsində qanunda nəzərdə tutulan və ya məcburi tələblərin hamısından azad olmaq;

(h) Xarici vətəndaşlar olan və Neft-qaz əməliyyatları çərçivəsində Azərbaycan Respublikasında işləyən öz əməkdaşlarına xaricdə əmək haqqını, müavinətləri və digər güzəştli ödəncləri qismən və ya tamamilə Sərbəst dönərli valyuta ilə vermək;

(i) Neft-qaz əməliyyatlarında çalışan öz Xarici Subpodratçılarına ödəncləri bilavasitə Azərbaycan Respublikasından kənarda Sərbəst dönərli valyuta ilə vermək.

Podratçıya lazım olarsa, ARDNŞ yuxarıda göstərilmiş icazələrdən hər hansı birinin alınmasında Podratçıya kömək etmək üçün öz səlahiyyətlərinin tam həcmi daxilində hər hansı Hökumət orqanlarının qarşısında qanun çərçivəsində mümkün olan bütün səyləri göstərir.

Contractor Parties' share of Petroleum;

(f) Transfer outside the Republic of Azerbaijan any Foreign Exchange in excess of their local requirements;

(g) Be exempt from all legally required or mandatory conversions of Foreign Exchange into local or other currency;

(h) Pay in Foreign Exchange partly or wholly abroad the salaries, allowances and other benefits received by their expatriate employees working in the Republic of Azerbaijan on Petroleum Operations; and

(i) Pay directly outside the Republic of Azerbaijan in Foreign Exchange their Foreign Sub-contractors working on Petroleum Operations.

SOCAR shall within the full limits of authority use all reasonable lawful endeavours with any Governmental Authorities, in order for Contractor to obtain any of the above authorisations in the event that Contractor requests it to do so.

MADDƏ 17

MÜHASİBAT UÇOTUNUN APARILMASI QAYDASI

Podratçı Neft-qaz əməliyyatlarının mühasibat sənədlərini və uçotunu Mühasibat uçotunun aparılması qaydasına uyğun surətdə aparır.

ARTICLE 17

ACCOUNTING METHOD

Contractor shall maintain books and accounts of Petroleum Operations in accordance with the Accounting Procedure.

MADDƏ 18

İDXAL VƏ İXRAC

18.1 İdxal və ixrac hüquqları

(a) Podratçı, Əməliyyat şirkəti, onların Ortaq şirkətləri, agentləri və Subpodratçıları heç bir Vergi tutulmadan və heç bir məhdudiyyət qoyulmadan aşağıdakıları öz adlarından Azərbaycan Respublikasına idxal və yenidən ixrac etmək hüququna malikdirlər: hər cür avadanlıq, materiallar, dəzgahlar və alətlər, nəqliyyat vasitələri, ehtiyat hissələri, qida məhsulları (qida məhsullarının idxalına dair Azərbaycan Respublikasında qüvvədə olan qaydalara əməl etməklə), Podratçının əsaslandırılmış rəyinə görə, Neft-qaz əməliyyatlarının lazımınca aparılması və yerinə yetirilməsi üçün zəruri olan mallar və başqa əşyalar (spirtli içkilər və tütün məmulatı istisna olmaqla); bu şərtlə ki, Azərbaycan təchizatçıları malların qiyməti, keyfiyyəti və mövcudluğu baxımından bütün mühüm cəhətlərdə xarici mənbələrlə rəqabət aparmaq qabiliyyətinə malik olduqları hallarda Podratçı Azərbaycan təchizatçılarını, əgər Azərbaycan təchizatçısının müqavilə qiyməti potensial qalib gələ bilən xarici təchizatçının müqavilə qiymətindən on (10) faizdən artıq deyilsə, üstün tutacaqdır. Bu 18.1 bəndinin məqsədləri baxımından, "Azərbaycan təchizatçıları" mülkiyyət formasından asılı olmayaraq Azərbaycan Respublikasında qeydə alınmış və təsis edilmiş, həmçinin xarici investorların iştirakı ilə təsis edilmiş və Azərbaycan Respublikasında qanuni əsaslarla fəaliyyət göstərən, sahiblik və/və ya istifadə hüquqları ilə müvafiq torpaq sahələri, infrastruktur obyektləri, texniki vəsaitləri, aparıcı texnologiyaları, işçi qüvvəsi, texniki və kommersiya bilikləri, idarəçilik qabiliyyəti və təcrübəsi, maliyyə vəsaitləri və Azərbaycan Respublikasında fəaliyyət göstərməyə əsas verən lisenziyaları və digər hüquqları olan təsərrüfat subyektləri deməkdir.

ARTICLE 18

IMPORT AND EXPORT

18.1 Import and Export Rights

(a) Contractor, Operating Company, their Affiliates, agents and Sub-contractors, shall have the right to import into, and re-export from the Republic of Azerbaijan free of any Taxes and restrictions in their own name the following: all equipment, materials, machinery and tools, vehicles, spare parts, foodstuff (subject to compliance with applicable regulations of the Republic of Azerbaijan pertaining to the import of foodstuff), goods and supplies (excluding alcohol and tobacco products) necessary in Contractor's reasonable opinion for the proper conduct and achievement of Petroleum Operations, provided, however, that with respect to the purchase thereof Contractor shall give preference to Azerbaijani Suppliers in those cases in which such Azerbaijani Suppliers are in all material respects competitive in price, quality and availability with those available from other sources, even if the contract price of such an Azerbaijani Supplier is higher by not more than ten (10) percent than the contract price of the potential winning foreign supplier. For purposes of this Article 18.1, "Azerbaijani Suppliers" shall mean business entities registered and incorporated in the Republic of Azerbaijan, regardless of ownership, legally operating in the Republic of Azerbaijan and possessing and/or having access to certain land areas, infrastructure, technical facilities, advanced technology, manpower, technical and commercial knowledge, management skills and experience, financial resources, licences and other rights for activity in the Republic of Azerbaijan, including business entities established with participation of foreign investors.

Yuxarıda deyilənlərə baxmayaraq, Podratçı Neft-qaz əməliyyatları üçün alınmış və məsrəfləri Neft-qaz əməliyyatları hesabına daxil edilmiş hər hansı maddi sərvətləri Azərbaycan Respublikasından yenidən ixrac etmək hüququna malik deyildir (təmir və ya texniki xidmətlə bağlı zəruri hallar istisna edilməklə, lakin bu şərtlə ki, həmin təmir və ya texniki xidmət başa çatdırıldıqdan sonra əsaslandırılmış müddət ərzində bu maddi sərvətlər Azərbaycan Respublikasına yenidən idxal edilsin).

(b) Podratçı, Əməliyyat şirkəti, onların Ortaq şirkətləri, agentləri və Subpodratçıları, onların bütün əməkdaşları və onların ailə üzvləri Vergi tutulmadan və məhdudiyyət qoyulmadan istənilən vaxt Azərbaycan Respublikasına bütün qida məhsulları (qida məhsullarının idxalına dair Azərbaycan Respublikasında qüvvədə olan qaydalara əməl etməklə), mebel, paltar, məişət texnikası, nəqliyyat vasitələri, ehtiyat hissələri və Azərbaycan Respublikasına iş üçün ezam olunan, yaxud səfər edən əcnəbi əməkdaşların və onların ailə üzvlərinin şəxsi istifadəsindən ötrü hər hansı şəxsi əmlak (spirtli içkilər və tütün məmulatı istisna olmaqla) idxal və yenidən ixrac etmək hüququna malikdirlər. Podratçı və/yaxud onun Subpodratçıları və ya onların Azərbaycan Respublikasında çalışan əməkdaşları tərəfindən idxal edilmiş malların hər hansı Üçüncü tərəfə şəxsi satışları zamanı Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq (12-ci Maddənin müddəalarına əməl edilməsi şərti ilə) vergi tutulur.

(c) Dəyəri yüz əlli min (150.000) Dollardan artıq olan malların, işlərin və xidmətlərin satın alınması bütün hallarda tender əsasında keçirilir (ancaq bir təchizatçının olması halları istisna edilməklə). Hər tenderin bütün mərhələlərinin nəticələri haqqında ARDNŞ-ə məlumat verilir. Bu yüz əlli min (150.000) Dollarlıq hüdud məbləği hər il ÜDM deflyatoru indeksinin artmasına uyğun olaraq artırılır. ARDNŞ tender keçirilməsinin bütün mərhələlərində iştirak edir. Bununla əlaqədar ARDNŞ Əməliyyat şirkətinə öz nümayəndələrini ("ARDNŞ Nümayəndələri") göndərir, və

Notwithstanding the foregoing, (except when necessary for repair or maintenance provided that, within a reasonable time after completion of the repair or maintenance, such items shall be re-imported into the Republic of Azerbaijan), Contractor shall not have the right to export from the Republic of Azerbaijan any items purchased for Petroleum Operations, the costs of which have been included in the Petroleum Operations Account.

(b) Contractor, Operating Company, their Affiliates, agents and Sub-contractors, and all of their employees and family members, shall have the right to import into and re-export from the Republic of Azerbaijan, free of Taxes and restrictions and at any time, all foodstuff (subject to compliance with applicable regulations of the Republic of Azerbaijan pertaining to the import of foodstuff), furniture, clothing, household appliances, vehicles, spare parts and all personal effects (excluding alcohol and tobacco products) for personal use by the foreign employees and their families assigned to work in, or travel to, the Republic of Azerbaijan. Private sales of imported goods by Contractor and/or its Sub-contractors and their employees in the Republic of Azerbaijan to any Third Party will be taxable in accordance with Azerbaijan legislation (subject to Article 12).

(c) Any purchase of goods, works and services where the value exceeds one hundred fifty thousand (150,000) Dollars shall be made on a competitive tender basis (except when only one supplier is available). SOCAR shall be advised of the results of each tender at every bid stage. The threshold value of one hundred fifty thousand (150,000) Dollars shall be escalated annually in line with increases in the GDP Deflator Index. SOCAR shall participate at every bid stage. In that regard SOCAR shall send to the Operating Company its representatives ("SOCAR Representatives") whose

bu Nümayəndələrin məsuliyyətinə ilkin qiymətləndirilmə siyahısının hazırlanmasının ilk mərhələsindən təchizatçının son olaraq seçildiyinə və müqavilənin icrasına qədər nəzarət vəzifələri daxildir. Bu ARDNŞ Nümayəndələri hər dəfə tenderin qalibi elan olunmazdan əvvəl ARDNŞ-ə və Əməliyyat şirkətinə aşkar etdikləri faktlar barəsində məlumat verməyə və Əməliyyat şirkətini vaxtında ARDNŞ-nin müvafiq məsələlərlə bağlı mövqeyi haqda məlumatla təchiz etməyə məsuldurlar. ARDNŞ Nümayəndələrinin Əməliyyat şirkətinin kontrakt komitəsinin iclaslarında səs hüququ yoxdur, lakin ARDNŞ Nümayəndələri mütəxəssis kimi tender təklifi, müqavilə bağlanması və/yaxud sonrakı icrası ilə bağlı öz rəylərini və ARDNŞ-nin rəyini ifadə edə bilərlər və həmin rəylər Əməliyyat şirkəti tərəfindən müzakirə olunmalı və nəzərə alınmalıdır.

18.2 <u>Karbohidrogenlərin ixracı</u>

Hər Podratçı tərəf, onun müştəriləri, onun və onların nəqletmə agentləri bu Sazişin müddəalarına uyğun olaraq Podratçıya çatası Karbohidrogenləri heç bir Vergi ödəmədən (Mənfəət vergisindən başqa) istənilən vaxt sərbəst şəkildə ixrac etmək hüququna malikdirlər.

18.3 <u>Gömrük qaydaları</u>

12-ci Maddənin, 18.1 və 18.2 bəndlərinin müddəalarına əməl edilməsi şərtilə bu Saziş ilə bağlı bütün idxal və ixrac əməliyyatları müvafiq gömrük qaydalarının və təlimatlarının tələblərinə əməl olunmaqla və lazımi sənədlər tərtib edilməklə həyata keçirilir və Podratçı, Əməliyyat şirkəti, onların Ortaq şirkətləri, agentləri və Subpodratçıları gömrük rəsmiləşdirilməsi/sənədləşdirmə xidmətlərinin müqabilində yığımları ödəyir, bu şərtlə ki, belə yığımlar nominal olsun, gömrük rəsmiləşdirilməsi/sənədləşdirmə xidmətinin təqdim edilməsinə çəkilən faktiki məsrəflərə uyğun olsun və ayrı-seçkilik olmadan tətbiq edilsin, lakin həmin gömrük rəsmiləşdirilməsi/sənədləşdirmə xidmətləri üçün yığımların məbləği heç bir halda aşağıda göstərilən dərəcələrdən artıq olmamalıdır:

responsibility shall include monitoring the contracting and procurement process from initial preparation of pre-qualification lists to the ultimate selection of contracts, and through to implementation. These SOCAR Representatives shall have responsibility to report to SOCAR and the Operating Company their findings and to give timely input to the Operating Company as to SOCAR's position on relevant matters prior to each contract award. The SOCAR Representatives shall not have the right to vote before the contract committee; provided, however, the SOCAR Representatives may express their opinion and that of SOCAR with regard to any bids, awards, and/or subsequent implementation for the Operating Company to duly consider and take account of.

18.2 <u>Petroleum Export</u>

Each Contractor Party, its customers and its and their carriers shall have the right to freely export, free of all Taxes (except for Profit Tax) and at any time, Petroleum to which Contractor is entitled in accordance with the provisions of this Agreement.

18.3 <u>Customs Laws</u>

Subject to Articles 12, 18.1 and 18.2, all imports and exports carried out in connection with this Agreement shall be subject to the procedures and documentation required by applicable customs laws and regulations, and Contractor, the Operating Company, their Affiliates, agents and Sub-contractors shall pay any customs service/ documentation fees to the extent they are nominal and consistent with the actual costs of providing such customs service/documentation and are of a non-discriminatory nature, but in no event shall the service/ documentation fees exceed the following:

Yükün bəyan edilmiş dəyəri, Dollarla	Gömrük yığımı
0 – 100.000	dəyərin 0,15%-i
100.001 – 1.000.000	$150 üstəgəl $100.001-dən artıq dəyərin 0,10%-i
1.000.001 – 5.000.000	$1050 üstəgəl $1.000.001-dən artıq dəyərin 0,07%-i
5.000.001 – 10.000.000	$3850 üstəgəl $5.000.001-dən artıq dəyərin 0,05%-i
10.000.000-dan yuxarı	$6350 üstəgəl $10.000.000-dan artıq dəyərin 0,01%-i

18.4 Xarici ticarət qaydaları

Podratçı, Əməliyyat şirkəti, onların Ortaq şirkətləri, agentləri və Subpodratçıları Azərbaycan Respublikasında qüvvədə olan xarici ticarət qaydalarının 18.1 bəndində göstərilən malların idxalına və ixracına, habelə onların mənşə ölkələrinə və bu Sazişin şərtlərinə görə Podratçıya çatan Karbohidrogenlərin ixracına aid qadağanlar və müxtəlif məhdudiyyətlər ilə bağlı tələblərə əməl etməkdən də azad olunurlar.

18.5 ARDNŞ-nin köməyi

Podratçının müvafiq xahişi olduqda ARDNŞ yuxarıda adı çəkilən azad olmaları və güzəştləri təmin etmək və Podratçının, Əməliyyat şirkətinin, onların Ortaq şirkətlərinin, agentlərinin və Subpodratçıların, onların bütün əməkdaşlarının və onların ailə üzvlərinin hər hansı avadanlığının və ya digər mallarının gömrük rəsmiləşdirilməsini sadələşdirmək və sürətləndirmək üçün səlahiyyətlərinin tam həcmi daxilində bütün lazımi qanuni tədbirləri görəcəkdir.

Declared Value of Shipment in Dollars	Fee
0 – 100,000	0.15% of value
100,001 – 1,000,000	$150 plus 0.10% of value over $100,001
1,000,001 – 5,000,000	$1,050 plus 0.07% of value over $1,000,001
5,000,001 – 10,000,000	$3,850 plus 0.05% of value over $5,000,001
more than 10,000,000	$6,350 plus 0.01% of value over $10,000,000

18.4 Foreign Trade Regulations

Contractor, Operating Company, their Affiliates, agents and Sub-contractors shall also be exempt from the provisions of the Republic of Azerbaijan foreign trade regulations concerning the prohibition, limitation and restriction of import and export and country of origin of those items indicated in Article 18.1 and with respect to the Petroleum allocated to Contractor pursuant to this Agreement.

18.5 SOCAR Assistance

SOCAR shall, within the full limits of its authority, use all reasonable lawful endeavours, when requested to do so by Contractor, to ensure that the above mentioned exemptions are applied and expedite the movement through customs of any equipment or supplies of Contractor, Operating Company, their Affiliates, agents and Sub-contractors and all of their employees and family members.

MADDƏ 19

HASİLATIN SƏRƏNCAMA KEÇMƏSİ

19.1 Karbohidrogenlər üzərində mülkiyyət hüququ

13.1(d) bəndində ayrıca göstərilmiş, Karbohidrogenlər hasilatını itirmək riski ilə bağlı olan hallar istisna edilməklə, Karbohidrogenlər hasilatının hər Podratçı tərəfə və ARDNŞ-ə çatan payı üzərində mülkiyyət və sahiblik hüququ belə Podratçı tərəfə və ARDNŞ-ə Çatdırılma məntəqəsində keçir.

19.2 Karbohidrogenlərin göndərilmə normaları

Həm ARDNŞ-nin, həm də Podratçı tərəflərin bu Sazişə əsasən özlərinə düşən Karbohidrogen paylarını göndərmək və onun barəsində sərəncam vermək hüququ və öhdəliyi vardır. Belə paylar mümkün qədər müntəzəm surətdə göndərilir, bu isə o deməkdir ki, həm ARDNŞ-ə, həm də Podratçı tərəflərə icazə verilir ki, ağlabatan hüdudlar daxilində onlar çıxarılmış, lakin göndərilmə gününə qədər göndərilməmiş Karbohidrogenlərdən çatan paylarından daha çox və ya daha az (müvafiq surətdə normativdən artıq və ya əskik) həcmlərdə Karbohidrogenlər göndərsinlər, lakin bunu elə etsinlər ki, normativdən artıq və ya əskik olan həmin göndərmələr digər Tərəfin hüquqlarına xələl gətirməsin, hasilatın sürətinə və saxlama çənlərinin tutumuna uyğun olsun. ARDNŞ və Podratçı yuxarıda göstərilmiş prinsiplər əsasında göndərmə proqramını nizamlayan qaydalar və üsullar müəyyən edirlər.

19.3 ARDNŞ-ə Xam nefti satın almaq imkanının verilməsi

(a) ARDNŞ Xam neft almaq istədiyi Təqvim rübü başlanmazdan doxsan (90) gün əvvəl Podratçıya bu barədə yazılı şəkildə bildiriş təqdim etməklə hər Təqvim rübündə bu Sazişin müddəaları əsasında Podratçıya düşən Xam neftin bir hissəsini Çatdırılma məntəqəsində satın almaq hüququna malikdir. Podratçı əvvəlcə ARDNŞ-ə qiymət müəyyənləşdirilən və göndərmə tarixindən əvvəl

ARTICLE 19

DISPOSAL OF PRODUCTION

19.1 Title to Petroleum

Except as expressly provided in Article 13.1(d) concerning the risk of loss of Petroleum production, the transfer of title and possession to each Contractor Party and SOCAR of the share of the Petroleum production to which such Contractor Party and SOCAR is entitled shall be made at the Delivery Point.

19.2 Overlift and Underlift

Each of SOCAR and Contractor Parties shall have the right and obligation to lift and dispose of the share of Petroleum to which it is entitled under this Agreement. Such share shall be lifted on as regular a basis as possible, it being understood that each of SOCAR and Contractor Parties, within reasonable limits, shall be authorised to lift more (overlift) or less (underlift) than its share of Petroleum produced and unlifted by the lifting day, to the extent that such overlift or underlift does not infringe on the rights of the other and is compatible with the production rate and the storage capacity. SOCAR and Contractor shall establish the rules and procedures to govern the lifting programme on the basis of the principles described above.

19.3 SOCAR Option to Purchase Crude Oil

(a) During each Calendar Quarter SOCAR shall be entitled to purchase from Contractor a portion of the Crude Oil allocated to Contractor under the provisions hereof, at the Delivery Point, by giving ninety (90) days written notice to Contractor of such purchase preceding the Calendar Quarter in which SOCAR elects to purchase the Crude Oil. Contractor shall initially invoice SOCAR for such Crude

gələn son Təqvim rübü üçün 13.1 bəndinə müvafiq surətdə müəyyən edilmiş Ton qiyməti ilə satın alınmış həmin Xam neftin hesab-fakturasını yazıb verir. Həmin Xam neftin 13.1 bəndində göstərilən qaydada göndərildiyi Təqvim rübü üçün Ton qiyməti məlum olduqda Podratçı vəziyyətdən asılı olaraq Podratçıya və ya ARDNŞ-ə çatası hər hansı pul vəsaiti haqqında dəyişdirilmiş hesab-faktura yazır. Xam neftin Podratçıdan bu qayda ilə satın alınan hissəsi Üçüncü tərəflərdən bu cür şəraitdə əldə edilmiş mütənasib paydan əsla çox olmamalı və bu hissə həmin Təqvim rübü ərzində Çatdırılma məntəqəsində Podratçıya düşən neft həcminin on (10) faizini əsla ötüb keçməməlidir. Həmin Xam neftə hər hansı Vergilər qoyulduğu halda ARDNŞ bu vergilərin müvafiq Hökumət orqanlarına ödənilməsi üçün müstəsna məsuliyyət daşıyır, həm də Podratçını həmin vergilərlə bağlı hər hansı öhdəliklər üzrə məsuliyyətdən azad edir.

(b) Hər hansı bir Təqvim rübündə ARDNŞ Satış məntəqəsində və ya hər hansı başqa alternativ ixrac variantları üzrə Xam nefti realizə edərkən hər hansı başqa son ixrac məntəqəsində olan Xam neftin Podratçıya çatası payının əlavə olaraq daha on (10) faizə qədərini satın almaq hüququna malikdir. Həmin Xam neftin qiyməti müvafiq Təqvim rübü başlanana qədər qarşılıqlı surətdə razılaşdırılır (beynəlxalq neft-qaz sənayesində ədalətli bazar qiyməti müəyyənləşdirilərkən adətən tətbiq edilən ünsürlərdən istifadə olunmaqla) və həmin Xam neftə hər hansı Vergi qoyulduğu halda ARDNŞ onların müvafiq Hökumət orqanlarına ödənilməsi üçün müstəsna məsuliyyət daşıyır və bu zaman Podratçını həmin Vergilərlə bağlı hər hansı öhdəliklər üzrə məsuliyyətdən azad edir. Bazar qiyməti haqqında yuxarıda nəzərdə tutulan razılaşma olmayanda, ARDNŞ-nin müvafiq Təqvim rübündə Podratçıdan əlavə həcmlərdə Xam neft satın almaq hüququ öz qüvvəsini itirir.

Oil purchased hereunder at the per Tonne price determined in accordance with Article 13.1 for the last Calendar Quarter preceding the date of lifting in which the price has been established. At such time that the per Tonne price for the Calendar Quarter in which such Crude Oil is lifted as determined in accordance with Article 13.1 is known, Contractor shall issue an amended invoice indicating any monies owed to Contractor or SOCAR, as the case may be. In no event shall the proportion of Crude Oil so purchased from Contractor exceed the proportion purchased from Third Parties under similar circumstances and in no event shall such quantities exceed more than ten (10) percent of Contractor's entitlement at the Delivery Point during that Calendar Quarter. In the event any Taxes are levied on such Crude Oil, SOCAR shall be solely responsible for the payment thereof to the relevant Governmental Authorities and shall indemnify and hold harmless Contractor from any liability with respect thereto.

(b) SOCAR shall have the additional right to purchase up to an additional ten (10) percent of Contractor's share of Crude Oil available in any Calendar Quarter at the Point of Sale or at any other export point located at the terminus when marketing Crude Oil through any other export alternative. The price for such Crude Oil shall be mutually agreed (using those factors normally utilised by the international Petroleum industry in determining a fair market price) prior to the relevant Calendar Quarter, and in the event any Taxes are levied on such Crude Oil, SOCAR shall be solely responsible for the payment thereof to the relevant Governmental Authorities and shall indemnify and hold harmless Contractor from any liability with respect thereto. In the event of any failure to agree on the sales price as provided above, SOCAR's right to purchase such additional Crude Oil from Contractor shall lapse with respect to the relevant Calendar Quarter.

(c) ARDNŞ-nin 19.3 (a) və (b) bəndlərinin müddəalarına uyğun olaraq özünün satınalma hüququndan istifadə etməklə hansı həcmdə Xam neft ala bilməsi hər Təqvim rübünün başlanmasından azı doxsan (90) gün əvvəl Podratçıya göndərilən yazılı bildirişdə göstərilir. ARDNŞ həmin 19.3 bəndinin şərtləri əsasında əldə edilmiş Xam neftin haqqını Podratçı hesab təqdim etdikdən sonra otuz (30) gün ərzində Dollarla ödəyir, özü də həmin hesab adı çəkilən Xam neftin göndərildiyi tarixdən tez olmayaraq təqdim edilir. Əgər ARDNŞ Podratçıya çatası məbləği vaxtında ödəmirsə, onun bu 19.3 bəndinə uyğun olaraq Xam neft almaq hüququ borc tamamilə ödənilənədək dayandırılır. Əgər bu yolla çatası haqq göstərilən otuz (30) gün müddətində ödənilmirsə, Podratçının ixtiyarı var ki, ARDNŞ-nin payı sayılan Xam neftin Podratçıya çatası məbləğləri ödəmək üçün zəruri olan həcmini ayırıb göndərsin. Podratçıya çatası Xam neftin həcmi dəyərin müəyyən edilməsinin 13.1 bəndində göstərilən və ARDNŞ-nin payından Podratçının həmin Xam nefti göndərdiyi tarixdə tətbiq olunan qayda ilə təyin edilir.

(c) The quantity of Crude Oil for which SOCAR may exercise its option to purchase pursuant to Articles 19.3 (a) and (b) shall be specified in a written notice to Contractor at least ninety (90) days preceding each Calendar Quarter. SOCAR shall pay for any Crude Oil purchased under this Article 19.3 in Dollars within thirty (30) days of Contractor's invoice to be issued no earlier than the date of lifting such Crude Oil. In the event that SOCAR fails to make timely payment of sums due to Contractor then its right to purchase Crude Oil under this Article 19.3 shall be suspended until all outstanding sums have been paid. If payment so due is not paid within said thirty (30) day period, Contractor shall be entitled to lift and export from Crude Oil to which SOCAR is entitled a quantity of Crude Oil, as is necessary to satisfy sums due to Contractor. The volume of Crude Oil to which Contractor shall be entitled shall be determined in accordance with the valuation procedure set forth in Article 13.1 applicable on the date Contractor lifts such Crude Oil from SOCAR's entitlement.

(d) ARDNŞ-nin 19.3(a) bəndində göstərilmiş hüquqlarından istifadə etməsi nəticəsində Podratçı tərəflər (və ya onların Ortaq şirkətləri) Üçüncü tərəflərlə müqavilələr (boru kəmərlərinə və terminallara dair müqavilələr daxil olmaqla) üzrə hər hansı rüsumlar, tariflər və ya cərimələr ödəməlidirsə, ARDNŞ bu rüsumlar, tariflər və ya cərimələr üçün məsuliyyət daşıyır və onları Sərbəst dönərli valyuta ilə Podratçı tərəflərə ödəyir. ARDNŞ-nin 19.3(b) bəndində nəzərdə tutulmuş hüquqlarını həyata keçirməsi nəticəsində Üçüncü tərəflərlə müqavilələr üzrə Podratçı tərəflərə (və ya onların Ortaq şirkətlərinə) qoyula biləcək cərimələr üçün ARDNŞ Podratçı tərəflər qarşısında cavabdeh deyildir. Əməli surətdə nə dərəcədə mümkündürsə, Podratçı gözlənilən hər hansı rüsumlar, tariflər və ya cərimələr haqqında ARDNŞ-ə vaxtaşırı məlumat verəcəkdir.

(d) To the extent that Contractor Parties (or their Affiliates) incur any fees, charges or penalties under contracts with Third Parties (including but not limited to pipeline and terminaling agreements) as a result of SOCAR's exercise of its rights pursuant to Article 19.3(a), SOCAR shall be liable for and shall reimburse Contractor Parties in Foreign Exchange for such fees, charges and penalties. SOCAR shall have no liability to Contractor Parties for penalties Contractor Parties (or their Affiliates) may incur under contracts with Third Parties as a result of SOCAR's exercise of its rights under Article 19.3(b). Contractor to the extent practicable will from time-to-time notify SOCAR of any anticipated fees, charges and penalties.

19.4 ARDNŞ üçün Xam neftin marketinqinin həyata keçirilməsi

ARDNŞ ilə Podratçı arasında marketinq haqqında qarşılıqlı razılaşdırılmış saziş olduqda, Podratçı ARDNŞ-nin xahişi ilə və marketinq haqqında həmin əlahiddə sazişin şərtlərinə görə Xam neftin ARDNŞ-ə çatası payının hamısının və ya bir hissəsinin ARDNŞ üçün marketinqini həyata keçirir. Marketinqə dair yuxarıda göstərilən öhdəliklə əlaqədar olaraq Xam neftin nəzərdə tutulan həcmi müvafiq Təqvim rübünün başlanmasından azı doxsan (90) gün əvvəl ARDNŞ-nin Podratçıya yazılı bildirişində müəyyən edilir. Podratçının bu 19.4 bəndinə uyğun olaraq həyata keçirdiyi heç bir marketinq Ümumi hasilat həcminin bir hissəsi üzərində ARDNŞ-nin mülkiyyət hüququna və ARDNŞ-nin ixtiyarında qalacaq həmin payın itirilməsi riskinə təsir göstərmir.

19.5 Maksimum səmərəli hasilat sürəti

Karbohidrogenlərin iqtisadi baxımdan ən səmərəli şəkildə çıxarılmasını təmin etmək üçün Tərəflər Kontrakt sahəsində Karbohidrogen ehtiyatlarının hasilatını beynəlxalq neft-qaz sənayesi praktikasının tələblərinə əsasən cari iqtisadi konyunkturaya və layların işlənməsinin düzgün texnologiyası prinsiplərinə tamamilə uyğun gəlməli olan optimal sürətlə aparmaq niyyətindədirlər ("Maksimum səmərəli sürət"). Yuxarıda göstərilənlərə uyğun olaraq və bu cür layların işlənməsinin yerli təcrübəsini nəzərə alaraq, İllik iş proqramının və Büdcənin təsdiq üçün Rəhbər komitəyə təqdim edilməsi ilə bir vaxtda Podratçı müvafiq Təqvim ili üçün hasilatın həcminə dair özünün ilkin qiymətləndirmə rəqəmini də təqdim edir, amma təsdiq edilmiş həmin qiymətləndirmə rəqəmindən yalnız planlaşdırma məqsədləri üçün istifadə olunur. Lakin Hökumət orqanı Podratçıdan Kontrakt sahəsində hasilatı Maksimum səmərəli sürətdən az olan debitlə aparmağı tələb etsə, Podratçı hasilatı qəti ifadə olunmuş belə bir şərtlə azaldacaqdır ki, Karbohidrogenlər hasilatının bu cür azaldılması ARDNŞ-nin bu Saziş üzrə bütün digər öhdəlikləri yerinə yetirildikdən sonra ARDNŞ-nin Karbohidrogenlər payı hesabına tam ödənilə biləcək həcmlərdən heç bir şəraitdə artıq olmasın. Bu Sazişin qüvvədə olduğu bütün müddət ərzində həmin Saziş üzrə Podratçıya çatası Karbohidrogenlərin ümumi həcmi ona hasilatın azaldılmayaçağı

19.4 Marketing of Crude Oil for SOCAR

If a marketing agreement has been mutually agreed between SOCAR and Contractor, Contractor shall market for SOCAR, if SOCAR so requests pursuant to the terms of such separate marketing agreement, all or a portion of SOCAR's share of Crude Oil. The amount of Crude Oil which will be subject to the foregoing obligation to market shall be stated in a written notice from SOCAR to Contractor no later than ninety (90) days prior to the beginning of the applicable Calendar Quarter. Any marketing undertaken by Contractor pursuant to this Article 19.4 shall not affect title to and risk of loss of SOCAR's share of Total Production which shall remain with SOCAR.

19.5 Maximum Efficient Rate

It is the intention of the Parties that the Petroleum resources of the Contract Area should be produced at the optimum rate which is to be fully consistent with the then current economic conditions, and the principles of sound reservoir management according to international Petroleum industry practice, in order to provide for the most economically efficient recovery of Petroleum ("Maximum Efficient Rate"). Consistent with the foregoing, and taking into account local experience in managing similar reservoirs, Contractor shall submit for agreement of the Steering Committee, at the same time as it submits the Annual Work Programme and Budget to the Steering Committee, Contractor's estimate of the relevant Calendar Year's production volume, but such agreed estimate shall be used for planning purposes only. However, in the event any Governmental Authority requires Contractor to produce Petroleum from the Contract Area at less than the Maximum Efficient Rate Contractor will reduce production, subject to the express condition that such reduction in Petroleum production shall in no event be greater than can be borne entirely from SOCAR's share of Petroleum remaining after satisfying all other SOCAR obligations hereunder. Contractor's total entitlement to Petroleum under this Agreement shall, at no time throughout the term of this Agreement, be less than it would have been had such reduction not been made.

şəraitdə çata biləcək həcmdən az ola bilməz. Əgər ölkədə elan edilən fövqəladə vəziyyətlə əlaqədar olaraq hər hansı Hökumət orqanı hasilatın sürətini hasilatın Maksimum səmərəli sürətindən daha yüksək səviyyəyə çatdırmağı tələb edərsə, Podratçı hər hansı Təqvim ilində ən çoxu qırx beş (45) gün müddətində hasilatın sürətini müvafiq sürətdə artırır; bu şərtlə ki, hasilatın sürətini, Podratçının fikrincə, kollektoru (kollektorları) zədələyə biləcək bir səviyyəyə qədər artırmaq Podratçıdan heç bir şəraitdə tələb edilməyəcəkdir.

If due to a declared national emergency Governmental Authority requires an increase in the production rate above the Maximum Efficient Rate, Contractor shall so increase the production rate for a period of time not to exceed forty-five (45) days in any Calendar Year; provided, however, that in no event shall Contractor ever be required to increase the production rate to a level which in Contractor's opinion could possibly cause damage to the reservoir(s).

MADDƏ 20

SIĞORTA, MƏSULİYYƏT VƏ MƏSULİYYƏTİN ÖDƏNMƏSİ TƏMİNATLARI

20.1 Sığorta

(a) BP özünüsığorta həyata keçirməyə sərbəstdir, yaxud Podratçı (dəqiqləşdirmə məqsədilə bu 20-ci Maddəyə münasibətdə Əməliyyat şirkətini də əhatə edir) İllik iş proqramı çərçivəsində bu 20.1 bəndinə uyğun olaraq illik sığorta proqramını təsdiq olunmaq üçün Rəhbər komitənin müzakirəsinə təqdim edir. Belə illik sığorta proqramına Neft-qaz əməliyyatları üçün və onlarla bağlı aşağıda sadalanan məbləğlərdə və risklərə qarşı və/yaxud ARDNŞ ilə konkret olaraq razılaşdırıldığı kimi sığorta əldə etmək daxildir. Podratçı həmçinin belə sığortanın qüvvədə olmasını və Podratçının idarəsi altında olan ARDNŞ-nin əmlakına münasibətdə Podratçının sığortaçılarının ARDNŞ-ə qarşı subroqasiya hüququndan imtinasını nəzərdə tutan polisləri/sertifikatları ARDNŞ-ə təqdim edir. Podratçı aşağıdakı 20.1(a) (i)–(vii) və (e) bəndləri ilə müəyyən edilmiş sığortanın təmin edilməsi məqsədləri üçün Azərbaycan Respublikasında qeydə alınmış nüfuzlu və beynəlxalq səviyyədə tanınmış sığorta və təkrar sığorta broker şirkətini təyin etməli və müəyyən olunmuş sığortaların Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə və beynəlxalq standartlara uyğun olduğunu təmin etməlidir. Aşağıda 20.1(a) (i)–(vii) bəndlərində göstərilən sığorta, bu şirkətin götürdüyü risklərin beynəlxalq neft-qaz sənayesinin adi sığorta təcrübəsinə uyğun olması şərtilə, Azərbaycan Respublikasında yaradılmış nüfuzlu sığorta şirkətindən sığorta brokeri vasitəsi ilə alınmalıdır. Yuxarıda göstərilənlərin bütövlüyünə xələl gətirmədən, qeyd olunan sığorta aşağıdakıları əhatə edir:

ARTICLE 20

INSURANCE, LIABILITIES AND INDEMNITIES

20.1 Insurance

(a) BP shall have the freedom to self insure, or Contractor (which for purposes of clarification with respect to this Article 20 shall include the Operating Company) shall provide the annual insurance programme pursuant to this Article 20.1 included to an Annual Work Programme for the approval of the Steering Committee. Such annual insurance programme shall include purchase of insurance coverage for and in relation to Petroleum Operations for such amounts and against such risks as listed below and/or may be specifically agreed by Contractor and SOCAR. Contractor shall also furnish SOCAR with policies/certificates of insurance confirming the effectiveness of such coverage and waiver by Contractor's insurers of their rights of subrogation against SOCAR in relation to SOCAR's property managed by Contractor. Contractor shall appoint a reputable and internationally recognised insurance and reinsurance broking company registered in the Republic of Azerbaijan in order to arrange insurance specified in Articles 20.1(a) (i)–(vii) and (e) below and make sure that specified insurances comply with the legislation of the Republic of Azerbaijan and international standards. Such appointment shall be approved and agreed by Contractor and SOCAR. Insurance specified in Articles 20.1(a) (i) to (vi) below, shall be obtained through the appointed broker from a reputable insurance company established in the Republic of Azerbaijan, so long as risks covered by such company are comparable with customary insurance practice of international Petroleum industry. Without prejudice to the generality of the foregoing, the said insurance shall cover:

(i) Podratçının Neft-qaz əməliyyatlarında və ya onlarla bağlı istifadə olunan qurğu, avadanlıq və digər əmlakına dəymiş itki və ya zərəri; lakin hər hansı səbəbdən Podratçı Neft-qaz əməliyyatlarında və ya onlarla bağlı istifadə olunan müvafiq qurğu, avadanlıq və əmlakı sığorta etdirməmişdirsə, onlara hər hansı itki və ya zərər vurulduğu halında, itkilərin və ya vurulmuş zərərin əvəzini ödəmək öhdəliyi daşıyır (bu cür hallar üçün müvafiq sığortaların əlverişli qiymətlərlə mövcud olmaması halları istisna olmaqla);

(ii) Neft-qaz əməliyyatlarının gedişində və ya nəticəsində ətraf mühitin çirklənməsi nəticəsində əmələ gələn itki, vurulan zərər və ya fiziki xəsarət;

(iii) Podratçının məsuliyyət daşıya biləcəyi Neft-qaz əməliyyatları gedişində və ya nəticəsində baş vermiş hər hansı Üçüncü tərəfin əmlak itkisi və ya əmlaka zərər və ya bədən xəsarəti;

(iv) ARDNŞ məsuliyyət daşıya biləcəyi Neft-qaz əməliyyatları gedişində və ya nəticəsində baş vermiş hər hansı Üçüncü tərəfin əmlak itkisi və ya əmlaka zərər və ya fiziki xəsarət ilə bağlı hər hansı tələbi;

(v) Neft-qaz əməliyyatları gedişində və nəticəsində baş vermiş hər hansı qəzanın nəticələrinin aradan qaldırılması və ya hər hansı qəzadan sonra aparılan təmizləmə əməliyyatları ilə bağlı məsrəfləri;

(vi) Neft-qaz əməliyyatlarında çalışan işçilər qarşısında Podratçının məsuliyyətini (əgər bu cür hallar üçün müəyyən dərəcədə müvafiq sığortalar əlverişli qiymətlərlə mövcuddursa);

(vii) Enerji ehtiyatlarının kəşfiyyatı və işlənməsi üzrə 8.86 Formullarının (Energy Exploration and

(i) Loss or damage to any installation, equipment or other assets of Contractor used in or in connection with Petroleum Operations; however, if Contractor fails to insure any such installation, equipment or assets used in or in connection with Petroleum Operations, Contractor shall be liable for their loss or damage, except if such insurances are not available at a reasonable cost;

(ii) Loss, damage, injury arising from pollution of environment in the course of or as a result of Petroleum Operations;

(iii) Loss of or damage to property or bodily injury suffered by any Third Party in the course of or as a result of Petroleum Operations for which Contractor may be liable;

(iv) Any claim for which SOCAR may be liable relating to the loss of or damage to property or bodily injury suffered by any Third Party in the course of or as a result of Petroleum Operations;

(v) Cost of removing wreck and cleaning up operations caused by any accident in the course of or as a result of Petroleum Operations;

(vi) Contractor's liability to its employees engaged in Petroleum Operations, to the extent that such insurances are available at a reasonable cost;

(vii) Cost of well control and redrilling expenses in accordance with Sections A, B and C of the Energy

Development Wording 8.86 – hər növ quyular üçün sığortanı təmin etmək məqsədilə Qazma Qurğuları Komitəsi tərəfindən işlənib hazırlanmış London Sığorta Bazarının standart formulu) A, B və C bölmələrinə uyğun olaraq quyular üzərində nəzarət xərclərini və quyuların təkrar qazılma xərclərini, o cümlədən aşağıdakılar üçün genişləndirilmiş sığortanı:

(aa) qeyri-məhdud təkrar qazma;

(bb) yeraltı atqı;

(cc) boşaltma;

(dd) quyuların təhlükəsizliyinin təmin olunması.

(b) ARDNŞ ilə xüsusi razılaşdırılana qədər, yuxanda göstərilmiş və bu 20.1 bəndində sadalanmış sığortaların minimal hədləri aşağıdakılardan ibarətdir:

20.1(a)(i) bəndinə əsasən – sığorta olunmuş qurğuların/əmlakın əvəz edilməsi xərcləri;

20.1(a)(ii) bəndinə əsasən – ümumi vahid hədd olaraq on milyon (10.000.000) Dollar və yaxud yerli qanunvericiliyin tələblərinə müvafiq olaraq (hansı daha yüksək olarsa);

20.1(a)(iii) və 20.1(a)(iv) bəndlərinə əsasən – meydana çıxan hər hansı bir hadisəyə görə on milyon (10.000.000) Dollar;

20.1(a)(v) bəndinə əsasən – hər hansı bir qəza və ya hadisəyə görə iyirmi beş milyon (25.000.000) Dollara qədər sığortalanmış əmlakın dəyərinin iyirmi beş (25) faizi;

20.1(a)(vi) bəndinə əsasən – ümumi vahid hədd olaraq on milyon (10.000.000) Dollar və yaxud yerli qanunvericiliyin tələblərinə müvafiq olaraq (hansı daha yüksək olarsa).

Exploration and Development Wording 8.86 (Standard London Insurance Market Wording issued by the Rig Committee with respect to well insurance coverage for any types of well), shall include coverage extension as follows:

(aa) unlimited redrilling;

(bb) underground blowout;

(cc) evacuation expenses;

(dd) making well safe.

(b) Unless specifically agreed by SOCAR, minimum limits for the above coverages specified in this Article 20.1 shall be as follows:

pursuant to Article 20.1(a)(i) – replacement value of the installation/property insured;

pursuant to Article 20.1(a)(ii) – a combined single limit of ten million (10,000,000) Dollars or according to requirements of the local legislation, whichever is greater;

pursuant to Articles 20.1(a)(iii) and 20.1(a)(iv) – ten million (10,000,000) Dollars for any one occurrence;

pursuant to Article 20.1(a)(v) – twenty five (25) percent of the value of property insured up to twenty five million (25,000,000) Dollars for any one accident or occurrence;

pursuant to Article 20.1(a)(vi) – a combined single limit of ten million (10,000,000) Dollars or according to requirements of the local legislation, whichever is greater.

(c) Hər hansı qəzaya və ya hadisəyə görə maksimum franşiza, əgər Tərəflər arasında xüsusi şəkildə başqa cür razılaşdırılmamışdırsa, iki milyon (2.000.000) Dollardan ibarətdir.

(d) Podratçının yuxarıda göstərilən 20.1(a) (i)–(vii) bəndlərinə əsasən sığortaları təmin etməməsi nəticəsində çəkilən xərclərin və/yaxud məsrəflərin əvəzi ödənilmir (bu cür hallar üçün müvafiq sığortaların əlverişli qiymətlərlə mövcud olmaması halları istisna olmaqla).

(e) Podratçı müvafiq işçilərini tibbi sığorta ilə və Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq olaraq nəzərdə tutulmuş icbari sığortalarla təmin edir.

(f) 13.1(d) bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla, bu 20.1 bəndinə uyğun olaraq Neft-qaz əməliyyatlarına görə Podratçı tərəfindən alınan bütün sığorta növlərinə görə sığorta haqlarının (Karbohidrogenlərin satışına görə sığorta haqları istisna olmaqla) əvəzi Neft-qaz əməliyyatları məsrəfləri kimi ödənilir. Sığorta təminatı Sərbəst dönərli valyuta ilə ifadə oluna bilər.

(g) Yerli sığorta şirkəti Podratçının tələbi ilə ümumiliklə qəbul edilmiş beynəlxalq təkrar sığorta mexanizmlərindən istifadə edərək Podratçı qarşısında sığortaçı kimi öz məsuliyyətini təkrar sığorta etdirməlidir. Yerli sığorta şirkəti və təkrar sığorta şirkəti arasında imzalanan təkrar sığorta sazişi ARDNŞ və təkrar sığortanı tələb edən Podratçı tərəfindən təsdiqlənir. Sığorta şirkəti ARDNŞ-ə və Podratçıya təkrar sığorta haqqında şəhadətnamələri, təkrar sığorta kovernotlarını və ya təkrar sığortanın mövcudluğunu təsdiq edən digər hüquqi sənədləri təqdim etməlidir.

(h) Hər bir Podratçı tərəfə yerli sığorta şirkəti tərəfindən 20.1(a) (i)–(vii) bəndlərinə əsasən təmin edilən sığortaların hər hansısı və ya hamısı üçün (onun İştirak payı həddində)

(c) Unless otherwise agreed between the Parties, maximum insurance deductible for any one accident or occurrence shall be two million (2,000,000) Dollars.

(d) Costs and/or expenses incurred by Contractor's failure to provide insurance under Articles 20.1(a) (i)–(vii) above shall not be Cost Recoverable, except if such insurance is not available at a reasonable cost.

(e) Contractor shall provide medical insurance to respective employees and shall take out compulsory insurances in accordance with applicable law of the Republic of Azerbaijan.

(f) Except as provided in Article 13.1(d), the premiums for all insurance (excluding premiums for insurance covering the marketing of Petroleum) obtained by Contractor for Petroleum Operations pursuant to this Article 20.1 shall be Cost Recoverable. Insurance cover may be denominated in Foreign Exchange.

(g) Upon Contractor's request, the local insurance company, as insurer to Contractor, shall reinsure its own liability by internationally accepted reinsurance mechanisms. The reinsurance arrangement between the local insurance company and the reinsurance company shall be approved by SOCAR and Contractor. The insurance company shall submit to SOCAR and Contractor the evidence of reinsurance cover in the form of certificates, cover notes or other legal documents of reinsurance.

(h) Each Contractor Party will be provided the opportunity to have any or all of the insurances to be obtained under Articles 20.1(a) (i)–(vii) reinsured by the local insurance

təkrar sığortanı özünün Ortaq şirkəti və ya üstünlük verdiyi digər sığorta şirkətindən əldə etmək imkanı veriləcəkdir; bu şərtlə ki, bu cür Ortaq sığorta şirkətinin təminat vermək və ödəmə qabiliyyəti ARDNŞ-ni və Podratçını qane etsin.

(i) Subpodratçılar, yaxud Podratçı və Subpodratçılar arasında razılaşdırıldıqda Subpodratçıların adından Podratçı, Podratçı üçün Azərbaycan Respublikası ərazisində görülən işi Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə və bu 20.1 bəndinə uyğun olaraq sığorta etdirməlidir. Bütün franşizalar Subpodratçıların hesabına ödənilir.

j) Tələb olunduğu hallarda, Podratçı Subpodratçının sığortasının mövcudluğunu təsdiq edən sertifikatları və/ya kovernotları ARDNŞ-ə təqdim edir.

20.2 <u>Vurulan zərər üçün məsuliyyət</u>

Podratçı tərəflər ARDNŞ qarşısında və/yaxud hər hansı Hökumət orqanı qarşısında yalnız onların Qərəzli xətası və ya onların Neft-qaz əməliyyatları apararkən verilmiş səlahiyyətlər daxilində hərəkət edən müvafiq işçilərinin və Subpodratçılarının, habelə Subpodratçıların işçilərinin Qərəzli xətası nəticəsində vurulmuş zərər və ya itkilər üçün məsuliyyət daşıyır. ARDNŞ hər Podratçı tərəfi, onun müvafiq Ortaq şirkətlərini və Subpodratçılarını ARDNŞ-nin və onun hər hansı Ortaq şirkətlərinin məruz qaldıqları bütün digər zərər və itkilər üçün məsuliyyətdən azad edir, hər Podratçı tərəfə, onun müvafiq Ortaq şirkətlərinə və Subpodratçılarına kompensasiya verir, onları ARDNŞ-nin və/yaxud Hökumət orqanının məruz qaldığı bütün başqa zərər və itkilərə görə həmin Podratçı tərəfə və/yaxud onun hər hansı Ortaq şirkətlərinə və Subpodratçılarına qarşı irəli sürülən və ya qaldırılan hər hansı pretenziyalar, tələblər, iddialar və ya məhkəmə araşdırmaları ilə bağlı məsuliyyətdən azad edir. Podratçı tərəflərin Üçüncü tərəflər (Hökumət orqanları istisna olmaqla) qarşısında məsuliyyəti Azərbaycan Respublikasının tətbiq edilə bilən qanunları ilə nizamlanır, bu şərtlə ki, ARDNŞ-nin Xəzər dənizində Kontrakt

company through such Contractor Party's Affiliate or preferred insurance company up to its Participating Interest; provided that the security and credit worthiness of such Affiliate insurance company are satisfactory to SOCAR and Contractor.

(i) Sub-contractors, or if agreed between Contractor and Sub-contractors, Contractor on behalf of Sub-contractors, shall insure the work performed for Contractor within the Republic of Azerbaijan in accordance with applicable law of the Republic of Azerbaijan and pursuant to this Article 20.1. All deductibles shall be covered by Sub-contractors.

(j) Upon request, Contractor shall furnish SOCAR with certificates and/or cover notes confirming the insurance coverage of Sub-contractor.

20.2 <u>Liability for Damages</u>

The Contractor Parties shall be liable to SOCAR and/or any Governmental Authority only for any loss or damage arising from their Wilful Misconduct or the Wilful Misconduct of their respective employees and Sub-contractors, and Sub-contractors' employees acting in the scope of their employment in the performance of Petroleum Operations. SOCAR shall release each Contractor Party and its respective Affiliates and Sub-contractors from all other losses and damages suffered by SOCAR and any of its Affiliates and shall indemnify and hold harmless each Contractor Party and its respective Affiliates and Sub-contractors against all claims, demands, actions and proceedings brought against such Contractor Party and/or any of its Affiliates and Sub-contractors pertaining to all other losses and damages suffered by SOCAR and/or any Governmental Authority. The liabilities of Contractor Parties to Third Parties (other than Governmental Authorities) shall be governed by applicable laws of the Republic of Azerbaijan, provided that structures and facilities of SOCAR located in the Caspian Sea outside of the Contract Area shall be treated as if such structures and facilities were owned by a Third Party.

sahəsinin hüdudlarından kənarda yerləşən qurğularına və obyektlərinə Üçüncü tərəfə məxsus qurğular və obyektlər kimi baxılsın.

20.3 İşçi heyəti ilə bağlı məsuliyyətdən azad etmə

Bu Sazişin digər müddəalarına baxmayaraq,

(a) Bu Sazişin müddəalarına əməl edilməsi və ya edilməməsi səbəbindən, yaxud bunlarla bağlı baş verən və ya bunlara aid olan hadisələr – şəxsi ziyan, peşə xəstəlikləri, ölüm və ya şəxsi əmlaka dəyən zərər ilə əlaqədar olaraq istənilən Podratçı tərəfin hər hansı bir işçisi (və ya onun hər hansı Ortaq şirkətinin hər hansı işçisi; bu şərtlə ki, həmin Ortaq şirkət zərərin və ya xəsarətin yetirildiyi vaxt Subpodratçı olmasın), yaxud həmin işçinin himayəsində olan şəxs ARDNŞ-ə qarşı hər hansı pretenziyalar, tələblər, iddialar irəli sürdükdə və ya məhkəmə işi başladıqda həmin Podratçı tərəf hər hansı hüquqi və ya fiziki şəxsin tamamilə, yaxud qismən təqsirindən və ya laqeydliyindən asılı olmayaraq həmin ziyanların, zərər və məsuliyyətlərin hamısı üzrə ARDNŞ-ə kompensasiya verir və onu məsuliyyətdən azad edir.

(b) Bu Sazişin müddəalarına əməl edilməsi və ya edilməməsi səbəbindən, yaxud bunlarla bağlı baş verən və ya bunlara aid olan hadisələr – şəxsi ziyan, peşə xəstəlikləri, ölüm və ya şəxsi əmlaka dəyən zərər ilə əlaqədar olaraq ARDNŞ-nin hər hansı bir işçisi (və ya hər hansı Hökumət orqanı da daxil olmaqla onun hər hansı Ortaq şirkətinin hər hansı işçisi; bu şərtlə ki, həmin Ortaq şirkət zərərin və ya xəsarətin yetirildiyi vaxt Subpodratçı olmasın), yaxud həmin işçinin himayəsində olan şəxs istənilən Podratçı tərəfə qarşı hər hansı pretenziyalar, tələblər, iddialar irəli sürdükdə və ya məhkəmə işi başladıqda ARDNŞ hər hansı hüquqi və ya fiziki şəxsin tamamilə, yaxud qismən təqsirindən və ya laqeydliyindən asılı olmayaraq həmin ziyanların, itki və məsuliyyətlərin hamısı üzrə həmin Podratçı tərəfə kompensasiya verir və onu məsuliyyətdən azad edir. ARDNŞ müvafiq xahiş etdikdə, hər Podratçı tərəf

20.3 Indemnity for Personnel

Notwithstanding the other provisions of this Agreement:

(a) Each Contractor Party shall indemnify and hold harmless SOCAR against all losses, damages and liability arising under any claim, demand, action or proceeding brought or instituted against SOCAR by any employee of the respective Contractor Party (or any Affiliate thereof, provided that such Affiliate, at the time of the injury or damage, is not acting in the capacity of a Sub-contractor) or dependent thereof, for personal injuries, industrial illness, death or damage to personal property sustained in connection with, related to or arising out of the performance or non performance of this Agreement regardless of the fault or negligence in whole or in part of any entity or individual.

(b) SOCAR shall indemnify and hold harmless each Contractor Party against all losses, damages, and liability arising under any claim, demand, action or proceeding brought or instituted against such Contractor Party by any employee of SOCAR (or any Affiliate thereof, which shall include any Governmental Authority, provided that such Affiliate, at the time of the injury or damage, is not acting in the capacity of a Sub-contractor) or dependent thereof, for personal injuries, industrial illness, death or damage to personal property sustained in connection with, related to or arising out of the performance or non-performance of this Agreement regardless of the fault or negligence in whole or in part of any entity or individual. Each Contractor Party shall, if requested by SOCAR, use its reasonable lawful endeavours to assist SOCAR in its obtaining insurance with respect to its liability under this Article 20.

ARDNŞ-nin bu 20-ci Maddə üzrə öhdəlikləri ilə əlaqədar sığorta almaqda ARDNŞ-ə kömək etmək üçün bütün lazımi qanuni səylər göstərir.

20.4 Qüvvəyəminmə tarixinədək məsuliyyətdən azad etmə

Kontrakt sahəsi ilə bağlı və ya Kontrakt sahəsində, Qüvvəyəminmə tarixinədək ARDNŞ-nin və ya onun hər hansı sələflərinin həyata keçirdiyi hər hansı əməliyyatlar, o cümlədən, lakin bunlarla məhdudlaşdırılmadan, ətraf mühitə ziyan vurulması nəticəsində baş verən hadisələr – hər hansı ziyan, ölüm və ya itki ilə əlaqədar olaraq hər hansı fiziki və ya hüquqi şəxs, o cümlədən, lakin bununla məhdudlaşdırılmadan, Hökumət orqanları istənilən Podratçı tərəfə, Əməliyyat şirkətinə və/yaxud onların müvafiq Ortaq şirkətlərinə qarşı hər hansı pretenziyalar, tələblər, iddialar irəli sürdükdə və ya məhkəmə işi başladıqda ARDNŞ həmin ziyanların, itki və məsuliyyətlərin hamısı üçün həmin Podratçı tərəfi, Əməliyyat şirkətini və onların müvafiq Ortaq şirkətlərini məsuliyyətdən azad edir.

20.5 İmtina edilmiş sahələr və ARDNŞ-nin əməliyyatları ilə bağlı məsuliyyətdən azad etmə

(a) Aşağıdakı hallarda hər hansı ziyan, ölüm və ya itki nəticəsində, yaxud onunla əlaqədar olaraq hər hansı fiziki və ya hüquqi şəxs, o cümlədən, lakin bunlarla məhdudlaşmadan, Hökumət orqanları istənilən Podratçı tərəfə və/yaxud onun Ortaq şirkətlərinə qarşı hər hansı pretenziyalar, tələblər, iddialar irəli sürdükdə və ya məhkəmə işi başladıqda ARDNŞ həmin ziyanların, itki və məsuliyyətlərin hamısı üçün hər Podratçı tərəfi, Əməliyyat şirkətini və onların Ortaq şirkətlərini məsuliyyətdən azad edir:

(i) 21.3 və 15.2 bəndlərinə əsasən ARDNŞ-nin əməliyyatları ilə bağlı, yaxud 7.2 bəndinə əsasən ARDNŞ-nin apardığı yoxlama nəticəsində; habelə

20.4 Indemnity Prior to Effective Date

SOCAR shall indemnify each Contractor Party, the Operating Company and their respective Affiliates from and against all losses, damages and liabilities, arising under any claim, demand, action or proceeding instituted against any Contractor Party, the Operating Company and/or any of their Affiliates by any person or entity, including but not limited to Governmental Authorities, arising out of or in any way connected with any injury, death or damage of any kind sustained in connection with or arising from the Contract Area, any operations of SOCAR or any of its predecessors in the Contract Area, prior to the Effective Date, including but not limited to damage to the environment.

20.5 Indemnity for Surrendered Areas and SOCAR Operations

(a) SOCAR shall indemnify each Contractor Party, the Operating Company and their Affiliates from and against all losses, damages and liabilities arising under any claim, demand, action or proceeding instituted against any Contractor Party and/or any of its Affiliates by any person or entity, including but not limited to Governmental Authorities, arising out of or in any way connected with any injury, death or damage of any kind sustained in connection with or arising from:

(i) SOCAR's operations pursuant to Articles 21.3 and 15.2, or as the result of SOCAR access pursuant to Article 7.2; and

(ii) 29.3 və 29.5 bəndlərinə uyğun surətdə Kontrakt sahəsinin Podratçı tərəfindən imtina edilən hər hansı hissəsi ilə və/yaxud 14-cü Maddəyə uyğun surətdə Podratçıdan ARDNŞ-nin nəzarəti və məsuliyyəti altına verilmiş əmlakdan istifadənin davam etdirilməsi və/yaxud əmlakın ləğv edilməsi ilə və belə imtina tarixindən və/yaxud ARDNŞ-nin hər hansı belə əmlakdan istifadə etmək və hər hansı əmlakı ləğv etmək hüququnu qəbul etdiyi tarixdən əvvəl olan hallarla, o cümlədən, lakin bununla məhdudlaşdırılmadan, ətraf mühitə ziyan vurulması ilə əlaqədar olaraq (imtina tarixindən əvvəl və ya sonra Podratçının Qərəzli xətası nəticəsində irəli sürülmüş hər hansı pretenziyanı, iddianı və ya məhkəmə işi başlanmasını istisna etməklə).

(b) Kontrakt sahəsinin Podratçı tərəfindən imtina edilən hər hansı hissəsində və imtina günü, yaxud ondan əvvəl baş verən hadisələr – ölüm və ya hər hansı ziyan, o cümlədən, lakin bunlarla məhdudlaşdırılmadan, ətraf mühitə vurulan ziyan nəticəsində və ya bunlarla əlaqədar olaraq hər hansı fiziki və ya hüquqi şəxs ARDNŞ-ə qarşı hər hansı pretenziya, tələb, iddia irəli sürdükdə və ya məhkəmə işi başladıqda həmin itkilər, zərər və ya məsuliyyət barəsində bu Sazişin müddəaları və Podratçının Sazişə uyğun olaraq öhdəlikləri qüvvədə qalmaqda davam edəcəkdir.

20.6 <u>Birgə məsuliyyət</u>

12-ci Maddədə və 27.1 bəndində nəzərdə tutulanlar istisna olmaqla, Podratçının bu Saziş üzrə bütün öhdəlikləri barəsində Podratçı tərəflər birgə məsuliyyət daşıyırlar.

20.7 <u>Dolayı itkilər</u>

Bu Sazişin başqa hissələrində zidd gələn hər hansı müddəalara baxmayaraq, bu Sazişdən doğan və ya bu Sazişlə, yaxud ona aid hər hansı fəaliyyətlə bağlı olan dolayı itkilər baxımından Tərəflər hər

(ii) Any portion of the Contract Area surrendered by Contractor pursuant to Articles 29.3 and 29.5 and/or any continued use of any assets, and/or the abandonment of any assets, for which SOCAR has assumed control and responsibility from Contractor pursuant to Article 14 and accruing after the date of such surrender and/or SOCAR's assumption of the use of any such assets and abandonment of any assets, including but not limited to damage to the environment (but excluding any claim, action or proceeding which results from Contractor's Wilful Misconduct whether occurring before or after the date of surrender).

(b) In respect of any loss, damage or liability, as well as any claim, demand, action or proceeding instituted against SOCAR by any person or entity for death or damage of any kind sustained in connection with or arising from any portion of the Contract Area surrendered by Contractor and accruing on or before the date of surrender, including but not limited to damage to the environment, the provisions of this Agreement, and Contractor's obligations hereunder, shall continue to apply.

20.6 <u>Joint and Several Liability</u>

Except as provided under Articles 12 and 27.1, the liability of the Contractor Parties shall be joint and several with respect to all of the obligations of Contractor under this Agreement.

20.7 <u>Consequential Losses</u>

With respect to indirect or consequential loss arising out of or in connection with this Agreement or any activities thereunder, notwithstanding anything to the contrary elsewhere in the

hansı laqeydliyə rəğmən heç bir halda, o cümlədən müqavilə, mülki hüquq pozuntusu ilə əlaqədar və ya hər hansı başqa tərzdə məsuliyyət daşımırlar; amma Tərəf bu Saziş üzrə verdiyi hüquqların və imtiyazların məhdudlaşdırılmasından yaranan dolayı itkilər üçün məsuliyyət daşıyır. Bu 20.7 bəndinin məqsədləri baxımından "Dolayı itkilər" ifadəsi hər hansı dolayı itkilər və ya ziyan, o cümlədən bunlarla məhdudlaşdırılmadan, Karbohidrogenlər çıxarmaq qabiliyyətinin olmaması, Karbohidrogenlər hasilatının itirilməsi və ya ləngidilməsi, yaxud mənfəətin itirilməsi deməkdir.

Agreement the Parties shall not be liable whether in contract, tort or otherwise and regardless of any negligence under any circumstances whatsoever for any indirect or consequential loss save that a Party shall be liable for indirect or consequential loss to the extent that the same arise from any derogation from the rights and benefits granted by that Party under this Agreement. For the purposes of this Article 20.7 the expression “indirect or consequential loss” shall mean any indirect or consequential loss or damage including but not limited to inability to produce Petroleum, loss of or delay in production of Petroleum or loss of profits.

MADDƏ 21

FORS-MAJOR HALLARI

21.1 Fors-major halları

Hər hansı Tərəfin bu Saziş üzrə, pulların ödənilməsinə dair öhdəlikdən savayı öhdəliklərini (ya da onların hər hansı hissəsini) yerinə yetirməməsi, yaxud yerinə yetirilməsini ləngitməsi fors-major hallarından irəli gəldikdə və ya həmin hallar nəticəsində baş verdikdə, məsuliyyətə səbəb olmur. Fors-major halları o deməkdir ki, hər hansı bir hadisə Neft-qaz əməliyyatlarının qarşısını alır, onları ləngidir və ya onlara maneçilik törədir, bütün lazımi tədbirlər görülsə də bu hadisə və ya onun nəticələri, o cümlədən, lakin bunlarla məhdudlaşdırılmadan, fövqəladə hadisələr, təbii fəlakətlər (məsələn, ildırım vurması və zəlzələ), müharibələr (elan edilmiş, yaxud elan edilməmiş) və ya digər hərbi əməliyyatlar, Kontrakt sahəsi üzərində yurisdiksiya dəyişiklikləri, yanğınlar, əmək ixtilafları, qiyamlar, üsyanlar, terrorçuluq aktları, kütləvi şuluqluqlar, vətəndaş iğtişaşları, habelə bu Sazişə görə Podratçının əməliyyatlar aparmasına mane olan və ya əngəl törədən, yaxud Podratçının hüquqlarına ciddi ziyan vuran və ya təhlükə yaradan qanunlar, müqavilələr, qaydalar, sərəncamlar, fərmanlar, əmrlər, hər hansı hökumət orqanının fəaliyyəti, yaxud fəaliyyətsizliyi üzərində nəzarət etmək hadisənin aid olduğu Tərəfin imkanları xaricindədir; lakin bu şərtlə ki, qanunlar, müqavilələr, qaydalar, Azərbaycanın ərazisində hər hansı Hökumət orqanının adından, yaxud himayəsi altında və ya onun göstərişi ilə çıxış edən hər hansı orqanın və ya agentliyin sərəncamları, fərmanları, əmrləri, yaxud digər qərarları ARDNŞ-nin öz öhdəliklərini yubatmasına, ya da yerinə yetirməməsinə rəvac verən Fors-major halları sayılmayacaqdır. Hər Tərəf Fors-major hallarının əmələ gəlməsinin qarşısını almaq üçün hər cür lazımi qanuni səylər göstərəcəkdir. Hər hansı Fors-major vəziyyəti yarandığı halda onun təsirinə məruz qalan Tərəf Fors-major vəziyyətinin xarakterini təsvir etməklə (və müvafiq sübut təqdim etməklə) dərhal digər Tərəflərə yazılı bildiriş verəcək və həmin Fors-major vəziyyətinin təsirini aradan qaldırmaq, yaxud yüngülləşdirmək üçün lazımi qanuni səylər göstərərək, nə

ARTICLE 21

FORCE MAJEURE

21.1 Force Majeure

Non-performance or delays in performance on the part of any Party of its obligations (or any part thereof) under this Agreement, other than the obligation to pay money, shall be excused if occasioned or caused by Force Majeure. "Force Majeure" means any event which prevents, hinders or impedes Petroleum Operations and is beyond the ability of the affected Party to control such event or its consequences using reasonable efforts, including without limitation, extraordinary events, natural disasters (for example lightning and earthquake), wars (declared or undeclared) or other military activity, jurisdictional change with respect to the Contract Area, fire, labour disputes, insurrections, rebellions, acts of terrorism, riot, civil commotion, and laws, treaties, rules, regulations, decrees, orders, actions or inactions of any governmental authority which prevent hinder or impede Contractor's conduct of operations or which substantially impairs or threatens Contractor's rights under this Agreement; provided, however, that laws, treaties, rules, regulations, decrees, orders or other acts of any entity or agency acting on behalf of, under the auspices of, or at the direction of any Governmental Authority within the territory of the Republic of Azerbaijan shall not constitute Force Majeure with respect to delay or non-performance on the part of SOCAR. Each Party shall use its reasonable lawful efforts to prevent the occurrence of Force Majeure events. Upon the occurrence of any Force Majeure event, the Party affected shall give prompt notice to the other Parties specifying the event of Force Majeure (and providing evidence thereof) and shall do all things possible using reasonable lawful efforts to remove or mitigate the effect of the Force Majeure event. If the government within whose jurisdiction a Contractor Party or its Ultimate Parent Company is incorporated or is subject takes actions which preclude such Contractor Party from fulfilling its obligations under this Agreement, the remaining Contractor Parties may not claim such an event as Force Majeure and shall, consistent

mümkündürsə edəcəkdir. Yurisdiksiyasında bu və ya digər Podratçı tərəfin, yaxud onun Əsas ana şirkətinin təsis edildiyi və ya subyekti olduğu Hökumət həmin Podratçı tərəfin bu Saziş üzrə öz öhdəliklərini yerinə yetirməsinə maneçilik törədən tədbirlər gördükdə, qalan Podratçı tərəflərin həmin vəziyyəti Fors-major vəziyyəti hesab etməyə ixtiyarı yoxdur və onlar 20.6 bəndində şərh olunmuş prinsiplərə əməl etməklə bu Saziş üzrə öz öhdəliklərini yerinə yetirməkdə davam edirlər.

with the principles set forth in Article 20.6, continue to fulfil their obligations under this Agreement.

21.2 Müddətlərin uzadılması

Əgər Fors-major halları Neft-qaz əməliyyatlarını ləngidirsə, onları azaldırsa və ya aparılmasına maneçilik törədirsə, həmin halların şamil edildiyi öhdəliklərin yerinə yetirildiyi müddət, Neft-qaz əməliyyatlarının müvafiq mərhələsinin müddəti, bu Sazişin qüvvədə olması müddəti (onun hər dəfə uzadılması daxil edilməklə), habelə bu Saziş üzrə bütün hüquqların və öhdəliklərin müddəti Fors-major hallarının əmələ gəlməsinin doğurduğu ləngimə müddətinə bərabər müddət qədər, üstəgəl Fors-major halları aradan qaldırıldıqdan və ya dayandırıldıqdan sonra əməliyyatların yenidən başlanması üçün zəruri olan müddət qədər uzadılır.

21.2 Extension of Time

If Petroleum Operations are delayed, curtailed or prevented by Force Majeure, then the time for carrying out the obligations affected thereby, the duration of the relevant phase of Petroleum Operations, the term of this Agreement (including any extension period hereof) and all rights and obligations hereunder shall be extended for a period equal to the delay caused by the Force Majeure occurrence plus such period of time as is necessary to re-establish operations upon removal or termination of Force Majeure.

Bu Sazişin hər hansı digər müddəalarına baxmayaraq, Fors-major hallarının davam etdiyi bütün dövr ərzində Maliyyə məsrəfləri hər hansı əvəzi ödənilməmiş Neft-qaz əməliyyatları məsrəflərinə hesablanmır.

Notwithstanding any provision in this Agreement to the contrary, Finance Costs shall not be applied to any unrecovered Petroleum Costs during the period of Force Majeure.

21.3 Hasilat başlandıqdan sonra Fors-major halları

Əgər Kontrakt sahəsində Sənaye hasilatının başlanma tarixindən sonra hər hansı bir vaxtda Podratçı Fors-major halının mövcudluğunu elan etmişdirsə və əgər bu cür Fors-major halı sonra bir-birin ardınca gələn azı doxsan (90) gün ərzində mövcud olmaqda davam edirsə və həmin Fors-major halı Azərbaycan Respublikasından kənarda hər hansı hadisələr və ya Hökumət orqanlarının hər hansı fəaliyyəti nəticəsində əmələ gəlmişsə və bu Fors-major halı nəticəsində Podratçı bu Sazişdə nəzərdə tutulan Karbohidrogenləri çıxara bilmirsə, Podratçı və ARDNŞ yuxarıda göstərilmiş doxsan (90) gün müddəti axıra çatdıqdan sonra on beş

21.3 Post-Production Force Majeure

If at any time after the Commencement Date of Commercial Production from the Contract Area Contractor declares Force Majeure and such Force Majeure situation has continued for a period of not less than ninety (90) consecutive days and such Force Majeure results of events outside the Republic of Azerbaijan or as a result of any action on the part of Governmental Authority and as a result of such Force Majeure Contractor has been unable to produce Petroleum under this Agreement then SOCAR and Contractor shall meet within fifteen (15) days following the expiry of the said period of ninety (90) days to discuss how best to continue production.

(15) gün ərzində görüşüb hasilatı davam etdirməyin ən yaxşı yolunu müzakirə edirlər. Əgər sonrakı doxsan (90) gün ərzində qənaətbəxş razılıq əldə edilməsə, Fors-major halının mövcud olduğu dövrdə ARDNŞ və ya onun Ortaq şirkəti məsuliyyəti öz üzərinə götürərək öz vəsaiti hesabına, Podratçı Fors-major halının başa çatmasını elan edənədək, lazım gələrsə, Subpodratçıları cəlb etməklə bu Saziş üzrə əməliyyatlar aparmaq və Karbohidrogenlər hasilatını davam etdirmək hüququna malikdir. Podratçının ixtiyarı var ki, bundan sonra bu Saziş üzrə Karbohidrogenlər hasilatının tam məsuliyyətini yenidən öz üzərinə götürsün.

ARDNŞ-nin və ya onun Ortaq şirkətinin ixtiyarı var ki, Məsrəflərin əvəzinin ödənilməsi mexanizminə uyğun olaraq özünün müstəqim məsrəflərinin əvəzini alsın və Fors-major halı dövründə çatdırılmış bütün Karbohidrogenlər həcminə görə Neft-qaz əməliyyatları hesabını Fors-major halı başlananadək Satış məntəqələrində istifadə olunmuş dünya qiymətləri ilə kreditləşdirsin.

Failing agreement on satisfactory arrangements within ninety (90) days thereafter SOCAR shall have the option of itself or its Affiliate assuming operations hereunder and continuing production of Petroleum during the period of Force Majeure at its risk and cost with the possible participation of sub-contractors until Contractor declares the cessation of the Force Majeure circumstance when Contractor shall resume its full responsibilities for production of Petroleum under this Agreement.

SOCAR or its Affiliate shall be entitled to recover SOCAR's or its Affiliate's direct costs in accordance with the Cost Recovery mechanism and shall credit the Petroleum Operations Account for the volumes of Petroleum delivered whilst the Force Majeure circumstance continued at international prices at the Points of Sale used prior to commencement of the Force Majeure.

MADDƏ 22

ETİBARLILIQ, HÜQUQ VƏ ÖHDƏLİKLƏRİN BAŞQASINA VERİLMƏSİ VƏ TƏMİNATLAR

22.1 Etibarlılıq

(a) 22.1 (b) bəndində başqa cür nəzərdə tutulan hallar istisna olmaqla, bu Saziş Qüvvəyəminmə tarixindən etibarən Tərəflər və onların müvafiq hüquq varisləri və müvəkkilləri üçün bu Sazişin şərtlərinə uyğun icra edilən, icbari hüquqi qüvvəsi olan etibarlı öhdəlikdir. ARDNŞ bu Sazişin bağlandığı tarixdə Kontrakt sahəsinin hüdudları daxilində Karbohidrogenlərə malik olmaq hüquqlarına dair heç bir özgə saziş olmadığına təminat verir. ARDNŞ həmçinin təminat verir ki, bağlanma tarixi ilə Qüvvəyəminmə tarixi arasında o, Kontrakt sahəsində (və ya onun hər hansı hissəsində) Karbohidrogenlərin kəşfiyyatına, qiymətləndirilməsinə və ya işlənməsinə ixtiyar verilməsi haqqında hər hansı Üçüncü tərəflə heç bir danışıq aparmayacaq və müqavilə bağlamayacaqdır. Qüvvəyəminmə tarixindən bu Saziş onun şərtlərinə müvafiq olan və ya Tərəflərin qarşılıqlı yazılı razılaşmasına əsaslanan hallardan başqa, heç bir halda ləğv edilmir, düzəldilmir və ya dəyişdirilmir. Tərəflər bu Sazişdə toxunulmamış hər cür məsələlərin xoş məramla həlli üçün işin davam etdirilməsinin zəruriliyini təsdiq edirlər.

(b) Tərəflər bəzi öhdəliklərin bu Sazişin Qüvvəyəminmə tarixində və ya ondan əvvəl yerinə yetirilməli olduğunu təsdiq etdiklərinə görə razılıq verirlər ki, 25.1(b) bəndinin müddəaları və 22.1(a) bəndinə müvafiq surətdə ARDNŞ-nin təminatları bu Sazişin Bağlandığı tarixdə qüvvəyə minir.

(c) Əgər bu Saziş Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəti rədd edilirsə və Podratçı Sazişin ratifikasiyadan ötrü zəruri olan hər hansı sonrakı

ARTICLE 22

VALIDITY, ASSIGNMENT AND GUARANTEES

22.1 Validity

(a) Except as otherwise provided under Article 22.1(b), this Agreement shall constitute a valid and binding legal obligation enforceable in accordance with its terms among the Parties and their respective successors and assigns as of the Effective Date. SOCAR guarantees that as of the date of execution no other agreement exists with respect to the Petroleum rights within the Contract Area. SOCAR further guarantees that between the date of execution and the Effective Date it shall not enter into any negotiations or arrangements with any Third Party for the granting of rights to explore for, appraise or develop, Petroleum from within the Contract Area (or any part thereof). From and after the Effective Date this Agreement shall not be cancelled, amended or modified except in accordance with its terms or by written agreement between the Parties. The Parties acknowledge the necessity of continuing to work in good faith to resolve any matters not presently covered by this Agreement.

(b) In recognition by the Parties that certain obligations have to be performed on or before the Effective Date, it is agreed that the provisions of Article 25.1(b), and SOCAR's guarantees under Article 22.1(a) shall come into force on the Execution Date.

(c) In the event this Agreement is finally rejected by Milli Mejlis of the Republic of Azerbaijan and Contractor has notified SOCAR that any further revisions to this

dəyişikliklərinin, belə dəyişikliklər varsa, Podratçı üçün məqbul olmadığını ARDNŞ-ə bildirirsə, bu Saziş qüvvəyə minmir, bu Saziş üzrə və Kontrakt sahəsinə aid olan hər hansı əvvəlki sazişlər üzrə Tərəflərin hüquqları və öhdəlikləri ləğv edilir.

22.2 Hüquq və öhdəliklərin başqasına verilməsi

(a) Məhdudiyyətlər. Podratçı tərəflərin bu Sazişdən irəli gələn hüquq və öhdəliklərinin hər hansı şəkildə başqasına verilməsinə, ipotekaya, girova, hüquq və öhdəliklərin başqa cür yüklənməsinə yalnız bu 22.2 bəndində nəzərdə tutulmuş şərtlərlə yol verilir. 22.2 bəndinin müddəalarını pozmaqla həyata keçirilən hər hansı verilmə ləğv edilir və hüquqi qüvvəyə malik deyildir. Bu 22-ci Maddənin məqsədləri baxımından, Podratçı tərəfin nəzarətinin (9.2(c) bəndində müəyyən edildiyi kimi) ötürülməsi (bunun daxili yenidəntəşkil və ya birləşmə üçün edildiyi hallar istisna olmaqla) bu Sazişin şərtlərinə görə hüquq və öhdəliklərin verilməsi sayılır. Bir Podratçı tərəfin bütün İştirak payı faizini verdiyi hallardan savayı, Podratçı tərəflərdən heç biri ARDNŞ-nin razılığı olmadan öz İştirak payının beş (5) faizdən az hissəsini başqasına vermir.

(b) Podratçı tərəfin öz hüquq və öhdəliklərini başqasına verməsi

(i) Hüquq və öhdəliklərin Üçüncü tərəflərə verilməsi. Bu 22.2(b) bəndinin müddəalarına əməl edilməsi şərtilə Podratçı tərəf bu Saziş üzrə öz hüquq və öhdəliklərini tamamilə və ya qismən hər hansı bir Üçüncü tərəfə vermək hüququna malikdir, bu şərtlə ki, Üçüncü tərəf:

(aa) bu Saziş üzrə onun üzərinə qoyulan vəzifələrə uyğun texniki imkanlara və maliyyə imkanlarına malik olsun;

Agreement, if any, necessary for ratification are unacceptable to Contractor, this Agreement shall not become effective, the rights and obligations of the Parties under this Agreement and any previous agreements pertaining to the Contract Area shall be extinguished.

22.2 Assignment

(a) Restriction. No assignment, mortgage, pledge or other encumbrance shall be made by a Contractor Party of its rights and obligations arising under this Agreement other than in accordance with the provisions of this Article 22.2. Any purported assignment made in breach of the provisions of this Article 22.2 shall be null and void. For purposes of this Article 22 transfer of control (as defined in Article 9.2(c)) of a Contractor Party (other than for the purposes of internal reconstruction or amalgamation) shall be deemed an assignment under this Agreement. Except in the case of a Contractor Party assigning all of its percentage Participating Interest, no Contractor Party shall assign less than a five (5) percent percentage Participating Interest without SOCAR's approval.

(b) By a Contractor Party

(i) Assignments to Third Parties. Subject to the provisions of this Article 22.2(b) a Contractor Party shall be entitled to assign all or part of its rights and obligations arising under this Agreement to any Third Party which:

(aa) has the technical and financial ability commensurate with the responsibilities and obligations which would be imposed on it hereunder;

(bb) ona verilən payla əlaqədar bu Sazişin bütün şərtlərini qəbul etsin;

(cc) elə bir təşkilat olsun ki, ARDNŞ onunla qanuni olaraq işgüzar münasibətlər qura bilsin.

(ii) Podratçı tərəfin yükləməsi. Bu Saziş üzrə öz öhdəliklərinə xələl gətirmədən hər Podratçı tərəf Sazişdə göstərilən payının, yaxud Azərbaycan Respublikasının ərazisində və ya onun hüdudlarından kənarda Neft-qaz əməliyyatları üçün istifadə olunan hər hansı əmlakda öz payının ipotekasını, girovunu və ya başqa şəkildə yüklənməsini maneəsiz həyata keçirmək hüququna malikdir, bu şərtlə ki, həmin ipoteka, girovqoyma və ya əmlakı başqa şəkildə yükləmə yalnız bu Sazişin şərtlərinə müvafiq surətdə həyata keçirilir.

(iii) ARDNŞ-nin icazəsi. Üçüncü tərəfin xeyrinə Podratçı tərəf hər hansı hüquq və öhdəliklərin verilməsini, ipoteka, girov və ya başqa şəkildə yükləməni planlaşdırdıqda bunun üçün ARDNŞ-nin qabaqcadan icazəsi tələb olunur, və buna icazə verməkdən əsassız olaraq imtina edilə bilməz. Əgər ARDNŞ hüquq və öhdəliklərin verilməsi, ipoteka, girov və ya başqa yükləmə haqqında bütün müvafiq informasiya və sənəd layihəsi əlavə olunmaqla, planlaşdırılan bu cür verilmə barəsində bildiriş aldıqdan doxsan (90) gün sonra öz qərarını elan etmirsə, həmin verilmə, ipoteka, girov və ya başqa yükləmə ARDNŞ tərəfindən bəyənilmiş hesab edilir.

(iv) Hüquq varisinin öhdəlikləri. Podratçı tərəf bu Saziş üzrə hüquqlarını və öhdəliklərini tamamilə və ya qismən verdiyi halda və həmin verilmənin ARDNŞ tərəfindən bəyənilməsi, yaxud bəyənilmiş sayılması

(bb) as to the interest assigned, accepts and assumes all of the terms and conditions of this Agreement; and

(cc) is an entity with which SOCAR can legally do business.

(ii) Encumbrance by Contractor Party. Without prejudice to its obligations hereunder, each Contractor Party shall have the right to freely mortgage, pledge or otherwise encumber its interests in the Agreement or any property in or outside the Republic of Azerbaijan which is used for Petroleum Operations, provided that any such mortgage, pledge or other encumbrance shall be made expressly subject to the terms of this Agreement.

(iii) Approval of SOCAR. Any proposed assignment, mortgage, pledge or other encumbrance by a Contractor Party to a Third Party shall require the prior approval of SOCAR which approval shall not be unreasonably withheld. If within ninety (90) days following notification to SOCAR of a proposed assignment accompanied by the relevant information and the draft deed of assignment, mortgage, pledge or other encumbrance, SOCAR has not given its decision, such assignment, mortgage, pledge or other encumbrance shall be deemed to be approved by SOCAR.

(iv) Obligations of Assignee. In the event a Contractor Party assigns all or a portion of its rights and obligations arising under this Agreement, and the assignment has been approved or deemed approved

şərtilə hüquq və öhdəlikləri verən tərəf həmin verilmənin qüvvəyə mindiyi tarixdən sonra bu Saziş üzrə bütün gələcək öhdəliklərindən özünün verdiyi iştirak payı həcmində azad olunur. Bundan sonra hüquq varisi, bu Sazişdə ayrıca göstərilmiş hallar istisna olmaqla, bu Sazişdən irəli gələn öhdəliklər uçun digər Podratçı tərəflərlə birgə məsuliyyət daşıyır.

(v) Hüquq və öhdəliklərin Ortaq şirkətlərə və Podratçı tərəflərə verilməsi. Podratçı tərəf ARDNŞ ilə qabaqcadan razılaşdırmadan bu Sazişdən irəli gələn hüquqları və öhdəlikləri özünün bir və ya bir neçə Ortaq şirkətinə, yaxud Podratçı tərəflərdən hər hansı birinə bütünlüklə, yaxud qismən və istənilən vaxt vermək hüququna malikdir, bu şərtlə ki, ARDNŞ-ə bu barədə ən qısa vaxtda məlumat verilsin. Əlavə olaraq, Podratçı tərəf hüquq və öhdəliklərini Ortaq şirkətinə verdikdə, hər hansı bu cür Ortaq şirkət yuxarıdakı 22.2(b)(i) bəndinin tələblərini ödəməlidir və həmçinin bu şərtlə ki, hüquq və öhdəlikləri verən tərəf bu Saziş üzrə öhdəliklər üçün öz məsuliyyətini, eynilə hüquq və öhdəliklərin verilmədiyi halda olduğu kimi, saxlasın.

22.3 Hüquq və öhdəliklərin verilməsinin Vergilərdən azad edilməsi

22.2 bəndinin müddəalarına əsasən hüquq və öhdəliklərin verilməsi Podratçı tərəflər üçün bütün Vergilərdən (12.9 bəndində nəzərdə tutulmuş Mənfəət vergisi istisna olmaqla) və hər hansı məsrəf və ya ödəmələrdən azad edilir.

22.4 Hüquq və öhdəliklərin verilməsinin şərtləri

Podratçı tərəflərin hər hansı hüquq və öhdəlikləri başqasına ancaq bu şərtlə verilə bilər ki, hüquq varisi ARDNŞ-ə 22.5 bəndində göstərilən Əsas ana şirkətin təminatına oxşar təminat təqdim etsin.

by SOCAR, the assignor shall, to the extent of the interest assigned, be released from all further obligations and liabilities arising under this Agreement after the effective date of such assignment. The assignee with the remaining Contractor Parties shall thereafter be jointly and severally liable for the obligations arising from this Agreement, except to the extent otherwise provided under this Agreement.

(v) Assignments to Affiliates and Contractor Parties. A Contractor Party shall be entitled at any time to assign all or part of its rights and obligations arising from this Agreement to one or more of its Affiliates or to any of the Contractor Parties without the prior consent of SOCAR, provided that SOCAR shall be promptly advised of any such assignment. Additionally, with respect to an assignment by a Contractor Party to an Affiliate, any such Affiliate must satisfy the requirements of Article 22.2(b)(i) above, and further provided that the assigning party shall remain liable for obligations under this Agreement in the same manner as though no assignment had been made.

22.3 No Tax on Assignments

Any assignment or transfer pursuant to Article 22.2 shall be free of Taxes, except the Profit Tax as per Article 12.9, and shall be free of any cost or charge to Contractor Parties.

22.4 Conditions on Assignment

Any assignment by a Contractor Party shall be expressly conditioned upon the assignee providing to SOCAR an Ultimate Parent Company Guarantee similar to that referred to in Article 22.5.

22.5 Əsas ana şirkətlərin təminatları

BP Bağlanma tarixindən sonra mümkün qədər qısa müddət ərzində, lakin Qüvvəyəminmə tarixindən gec olmayaraq öz Əsas ana şirkətinin təminatını ARDNŞ-ə təqdim edir.

Bununla ARDNŞ, ONŞ istisna olmaqla, hər Podratçı tərəfə zəmanət verir ki:

(a) ONŞ-in bütün öhdəliklərini yerinə yetirməsindən ötrü zəruri olan bütün maliyyə vəsaiti və digər vəsait üçün təminat verilir; və

(b) ONŞ-ə verilən hüquqlara və bütün öhdəliklərinə təminat verilir.

22.6 Hökumətin Təminatı

Bağlanma tarixindən sonra, lakin Qüvvəyəminmə tarixindən gec olmayaraq ARDNŞ Hökumətin Təminatının imzalanmasını təmin edir. Hökumətin Təminatının imzalanmış əsli hər Podratçı tərəfə verilir və Sazişin Azərbaycan Respublikası Milli Məclisini müzakirəsinə təqdim olunan imzalanmış nüsxəsinə onun tərkib hissəsi kimi daxil edilir. Saziş Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya və təsdiq edildikdən və adi qaydada dərc olunduqdan sonra Hökumətin Təminatı Azərbaycan Respublikasının qanunu qüvvəsini kəsb edir.

22.5 Ultimate Parent Company Guarantees

BP shall as soon as practicable after the Execution Date but not later than the Effective Date, provide to SOCAR an Ultimate Parent Company Guarantee.

SOCAR hereby guarantees to each Contractor Party other than SOA:

(a) all funds necessary for SOA to fulfil all of its obligations, financial or otherwise, under the Agreement; and

(b) the rights granted and the obligations undertaken by SOA.

22.6 Government Guarantee

Upon the Execution Date but not later than the Effective Date, SOCAR shall procure the execution of the Government Guarantee. An executed original of the Government Guarantee shall be provided to each Contractor Party and shall be included in the executed copy of this Agreement to be submitted to Milli Mejlis of the Republic of Azerbaijan. Upon ratification and approval of this Agreement by Milli Mejlis of the Republic of Azerbaijan and publication in the customary manner the Government Guarantee shall have the force of law of the Republic of Azerbaijan.

MADDƏ 23

TƏTBİQ EDİLƏ BİLƏN HÜQUQ, İQTİSADİ SABİTLƏŞMƏ VƏ ARBİTRAJ

23.1 Tətbiq edilə bilən hüquq

Bu Saziş Azərbaycan Respublikasının və İngiltərənin qanunları üçün ümumi olan hüquq prinsiplərinə müvafiq surətdə, hər hansı məsələyə dair ümumi prinsiplər olmadığı halda isə Kanadanın Alberta əyalətinin ümumi hüquq prinsiplərinə müvafiq surətdə tənzimlənir və təfsir edilir (hüquq normalarının kolliziyalarına aid qanunlar istisna olmaqla). Bu Saziş həmçinin "pacta sunt servanda" ("müqavilələrə riayət olunmalıdır") beynəlxalq hüquq prinsipinə tabe edilir. Bu Saziş Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Qanunu olur və bu Sazişdə konkret surətdə başqa cür göstərilmiş hallar istisna edilməklə Azərbaycan Respublikasında müddəaları bu Sazişə uyğun gəlməyən və ya zidd olan hər hansı başqa mövcud, yaxud gələcək qanundan, fərmandan və ya inzibati sərəncamdan (yaxud onun bir hissəsindən) üstün tutulur.

23.2 İqtisadi sabitləşmə

Bu Saziş üzrə Podratçıya (yaxud onun hüquq varislərinə) və onun Subpodratçılarına veriləsi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilmir, modifikasiya edilmir və ya məhdudlaşdırılmır. Əgər hər hansı Hökumət orqanı bu Sazişin müddəalarına zidd olan, yaxud bu Saziş üzrə Podratçının hüquqlarına və ya mənafelərinə mənfi, yaxud müsbət təsir göstərən hər hansı mövcud və ya gələcək qanunun, müqavilənin, hökumətlərarası sazişin, fərmanın, yaxud inzibati sərəncamın, o cümlədən, lakin bununla məhdudlaşdırılmadan vergi qanunvericiliyində, qaydalarda, inzibati praktikada hər hansı dəyişikliklərin, yaxud Kontrakt sahəsi barəsində yurisdiksiya dəyişikliklərinin tətbiq olunmasını tələb edirsə, Tərəflərin iqtisadi mənafelərinin tarazlığını bərpa etmək məqsədilə bu Sazişin müddəalarında təshihlər aparılır, Podratçının hüquqlarına və ya

ARTICLE 23

APPLICABLE LAW, ECONOMIC STABILISATION AND ARBITRATION

23.1 Applicable Law

This Agreement shall be governed and interpreted in accordance with principles of law common to the law of the Republic of Azerbaijan and English law, and to the extent that no common principles exist in relation to any matter then in accordance with the principles of the common law of Alberta, Canada (except for laws regarding conflicts of laws). This Agreement shall also be subject to the international legal principle of *pacta sunt servanda* (agreements must be observed). Upon approval by Milli Mejlis of the Republic of Azerbaijan of this Agreement, this Agreement shall constitute a law of the Republic of Azerbaijan and shall take precedence over any other current or future law, decree or administrative order (or part thereof) of the Republic of Azerbaijan which is inconsistent with or conflicts with this Agreement except as specifically otherwise provided in this Agreement.

23.2 Economic Stabilisation

The rights and interests accruing to Contractor (or its assignees) under this Agreement and its Sub-contractors under this Agreement shall not be amended, modified or reduced without the prior consent of Contractor. In the event that any Governmental Authority invokes any present or future law, treaty, intergovernmental agreement, decree or administrative order which contravenes the provisions of this Agreement or adversely or positively affects the rights or interests of Contractor hereunder, including, but not limited to, any changes in tax legislation, regulations, or administrative practice, or jurisdictional changes pertaining to the Contract Area, the terms of this Agreement shall be adjusted to re-establish the economic equilibrium of the Parties, and if the rights or interests of Contractor have been adversely affected, then SOCAR shall indemnify Contractor (and its assignees) for any

mənafelərinə mənfi təsir olduqda isə, ARDNŞ Podratçıya (və onun hüquq varislərinə) bununla bağlı hər cür itkilər, iqtisadi vəziyyətin pisləşməsi, zərər və ya ziyan müqabilində əvəz ödəyir. ARDNŞ hər hansı belə müqavilə, hökumətlərarası saziş, qanun, fərman, yaxud inzibati sərəncam ilə bu Saziş arasında hər hansı münaqişənin və ya uyğunsuzluğun yuxarıda göstərilmiş prinsiplərə müvafiq surətdə tez bir zamanda həll olunması məqsədilə müvafiq Hökumət orqanlarının müvafiq tədbirlər görməsini təmin etmək üçün öz səlahiyyətlərinin tam həcmi çərçivəsində hər cür ağlabatan qanuni səylər göstərir.

23.3 Arbitraj

(a) 13.1(c) bəndinin müddəalarına müvafiq surətdə nəzərdən keçirilmək üçün ekspertə göndərilən məsələlər istisna olmaqla, ARDNŞ ilə hər hansı Podratçı tərəf, yaxud bütün Podratçı tərəflər arasında mübahisələr (Rəhbər komitənin iclaslarında həll edilməmiş qalan məsələlər daxil olmaqla) baş verdikdə, mübahisə edən Tərəflər bu Sazişin şərtlərinə əsaslanaraq mübahisənin qarşılıqlı surətdə qənaətbəxş bir şəkildə həll olunmasına cəhd göstərmək üçün görüşürlər. Tərəf həmin mübahisə haqqında bildiriş aldıqdan sonra mübahisə otuz (30) gün ərzində Tərəfləri qarşılıqlı surətdə qənaətləndirən bir şəkildə aradan qaldırılmırsa, həmin mübahisə Arbitraj qaydasının müddəalarına və tətbiq edilə bilən hüquq barəsində 23.1 bəndində göstərilmiş müddəalara müvafiq surətdə həll edilir.

(b) Bu Sazişdə heç nə Podratçı tərəflərin xarici investisiyaların qorunması haqqında Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyində nəzərdə tutulan hüquqlarını əsla məhdudlaşdırmır və Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya gələcək qanununun müddəalarına baxmayaraq, həmin hüquqlar Podratçıya bu Saziş üzrə məxsus olan hər hansı başqa hüquqlara əlavə olaraq tətbiq edilir. Hər hansı Hökumət orqanının hər hansı fəaliyyəti və ya fəaliyyətsizliyi nəticəsində Podratçının hər hansı hüquqlarının, mənafelərinin, yaxud əmlakının ekspropriasiyası, milliləşdirilməsi və ya başqa cür

disbenefit, deterioration in economic circumstances, loss or damages that ensue therefrom. SOCAR shall within the full limits of its authority use its reasonable lawful endeavours to ensure that the appropriate Governmental Authorities will take appropriate measures to resolve promptly in accordance with the foregoing principles any conflict or anomaly between any such treaty, intergovernmental agreement, law, decree or administrative order and this Agreement.

23.3 Arbitration

(a) Except for any matter to be referred to an expert pursuant to Article 13.1(c) in the event of a dispute arising between SOCAR and any or all of the Contractor Parties (including matters which are not resolved at the Steering Committee), the disputing Parties shall meet in an attempt to resolve the dispute to their mutual satisfaction by reference to the terms of this Agreement. If satisfactory mutual agreement is not achieved within thirty (30) days after receipt by a Party of notice of such dispute, such dispute shall be settled in accordance with the Arbitration Procedure and the applicable law provisions of Article 23.1.

(b) Nothing in this Agreement shall limit the rights of the Contractor Parties pursuant to the existing laws of the Republic of Azerbaijan on protection of foreign investments, which rights shall apply in addition to any other rights Contractor may have under this Agreement notwithstanding any other law, both current and future, in the Republic of Azerbaijan. If any of Contractor's rights, interests or property are expropriated, nationalised or otherwise taken by reason of any act or failure to act of any Governmental Authority, then the arbitrators shall apply the principle of indemnification (including prompt, full and

özgəninkiləşdirilməsi hallarında arbitrlər nağd pulun diskontlaşdırılmış axını metodunu tətbiq edərək və əlverişli konyunktura şəraitində əqddə maraqlı olan alıcının və satıcının mövcudluğunu ehtimal edərək, habelə Podratçının öz hüquqlarından, mənafelərindən, paylarından (o cümlədən mənimsənilməmiş ehtiyatlarda iştirak payından) və ya əmlakından məhrum olması ilə nəticələnən əlverişsiz vəziyyəti nəzərə almayaraq, işləyən müəssisə timsalında müəyyən edilmiş zərərin əvəzinin tam bazar dəyəri ilə ödənilməsi (o cümlədən Dollarla dərhal, tam və təsirli kompensasiyası) prinsiplərini tətbiq edirlər. Podratçının sadalanan hüquqlarının, mənafelərinin, paylarının (o cümlədən mənimsənilməmiş ehtiyatlarda iştirak payının) və ya əmlakının tam bazar dəyərini müəyyənləşdirmək üçün arbitrlər yüksək beynəlxalq nüfuza malik investisiya bankı seçirlər.

effective compensation in Dollars) at the full market value, on the basis of an on-going concern utilising the discounted cash flow method, assuming a willing buyer and seller in a non-hostile environment, and disregarding the unfavourable circumstances under which or following which Contractor shall be deprived of its rights, interest (including its interest in undeveloped reserves) or property. The arbitrators shall select an investment bank of good international reputation for purpose of appraising the full market value of said rights, interest (including its interest in undeveloped reserves) or property of Contractor.

(c) Bu 23.3 bəndində nəzərdə tutulmuş hüquqlar və öhdəliklər bu Sazişə xitam verildikdən sonra da qüvvədə qalır.

(c) The rights and obligations under this Article 23.3 shall survive the termination of this Agreement.

MADDƏ 24

BİLDİRİŞLƏR

Bu Sazişin müddəalarına müvafiq surətdə təqdim olunan bütün bildirişlər ingilis və/və ya Azərbaycan dillərində yazılı surətdə tərtib edilir və faksla yaxud məktubla hər bir Tərəfə aşağıda göstərilən ünvana (yaxud bir Tərəfin digər Tərəflərə vaxtaşırı bildirə biləcəyi hər hansı başqa ünvana) göndərilir, bu şərtlə ki, Qüvvəyəminmə tarixindən sonra ARDNŞ tərəfindən Podratçı tərəflərə göndərilən və bu Sazişin şərtlərinə görə zəruri olan bütün bildirişlər (29-cu Maddədə nəzərdə tutulduğu kimi, pozuntu haqqında hər hansı bildirişlər, 22.2 (b) (iii) bəndinə uyğun olaraq göndərilən hər hansı bildirişlər, yaxud Sazişin qüvvəsinə xitam verilməsi haqqında bildirişlər, habelə 23.3 bəndində nəzərdə tutulan, arbitraja aid olan hər hansı bildirişlər istisna edilməklə) bu 24-cü Maddənin müddəalarına müvafiq surətdə Əməliyyat şirkətinə verilmişdirsə, bütün Podratçı tərəflərə çatdırılmış hesab olunur. Podratçı ARDNŞ-ə Əməliyyat şirkətinin adını və ünvanını (habelə onlara müvafiq dəyişiklikləri) onun yaradılmasından sonra əməli cəhətdən mümkün olan ən qısa müddətdə təqdim edəcəkdir. Faks ilə verilmiş bildiriş göndərildiyi tarixdən sonra birinci iş günü çatdırılmış hesab olunur. Məktubla göndərilən bildiriş yalnız alındıqdan sonra çatdırılmış sayılır. Bu Sazişin qüvvəsinə xitam verilməsi haqqında və Köklü pozuntu haqqında bildirişlər yalnız məktubla verilir.

ARDNŞ: Azərbaycan Respublikası Dövlət Neft Şirkəti
Azərbaycan Respublikası
AZ1000, Bakı şəhəri
Neftçilər prospekti, 73
Faks: (+994 12) 493 64 92
Telefon: (+994 12) 492 07 45
Kimə: Prezidentə

ARTICLE 24

NOTICES

All notices required to be given pursuant to this Agreement shall be in writing in English and/or Azerbaijani and may be given by facsimile or letter to the address set out below for each Party (or such other address as a Party may notify to the other Parties from time to time) provided, however, that following the Effective Date any notices required to be given to Contractor Parties hereunder by SOCAR (except any notice of breach pursuant to Article 29, any notice pursuant to Article 22.2(b)(iii) and any notice of termination of this Agreement and any notice of arbitration pursuant to Article 23.3) shall be considered effective as to all Contractor Parties if given to the Operating Company in accordance with this Article 24. Contractor shall advise SOCAR of details of the name and address of the Operating Company (and of any changes thereto) as soon as practicable after its formation. A notice given by facsimile shall be deemed to be served on the first working day following the date of dispatch. A notice sent by letter shall not be deemed to be delivered until received. Notices of termination of this Agreement and notices of Material Breach shall only be given by letter.

SOCAR: State Oil Company of the Republic of Azerbaijan
Neftchilar Prospekti 73
Baku AZ1000
Republic of Azerbaijan
Fax: (+994 12) 493 64 92
Tel: (+994 12) 492 07 45
Attention: President

BP: BP Exploration (Azerbaijan) Limited
Azərbaycan Respublikası
AZ1003, Bakı şəhəri
Neftchilar prospekti, 2
Villa Petrolea
Faks: (+994 12) 497 9602
Telefon: (+994 12) 497 9000
Kimə: Direktora

və məlumat üçün surəti:

BP Exploration Operating Company Limited
Chertsey Road
Sunbury on Thames
Middlesex TW16 7BP
United Kingdom
Faks: +44 1932 756000
Kimə: Asset Manager, Azerbaijan

ONŞ: Azərbaycan Respublikası Dövlət Neft Şirkəti
Azərbaycan Respublikası
AZ1000, Bakı şəhəri
Neftçilər prospekti, 73
Faks: (+994 12) 493 64 92
Telefon: (+994 12) 492 07 45
Kimə: Prezidentə

BP: BP Exploration (Azerbaijan) Limited
Villa Petrolea
Neftchilar Prospekti 2
Baku AZ1003
Republic of Azerbaijan
Fax: (+994 12) 497 9602
Tel: (+994 12) 497 9000
Attention: Director

and copied for information to:

BP Exploration Operating Company Limited
Chertsey Road
Sunbury on Thames
Middlesex TW16 7BP
United Kingdom
Fax: +44 1932 756000
Attention: Asset Manager, Azerbaijan

SOA: Care of: State Oil Company of the Republic of Azerbaijan
Neftchilar Prospekti 73
Baku AZ1000
Republic of Azerbaijan
Fax: (+994 12) 493 64 92
Tel: (+994 12) 492 07 45
Attention: President

MADDƏ 25

QÜVVƏYƏMİNMƏ TARİXİ

25.1 Qüvvəyəminmə tarixi

(a) Azərbaycan Respublikasının qanunvericilik orqanının Azərbaycan Respublikasının Konstitusiyasına, tələb olunan bütün hüquqi rəsmiyyətlərə və qaydalara tam əməl edərək, bu Sazişə (Hökumətin Təminatı daxil olmaqla) Azərbaycan Respublikasında tam qanun qüvvəsi verən qanunvericilik aktı qəbul etdiyi və onun mövcud praktikaya əsasən dərc olunduğu haqqında şəhadətnamə ARDNŞ tərəfindən Podratçıya hansı tarixdə təqdim edilirsə, o tarix Sazişin Qüvvəyəminmə tarixi sayılır, lakin aşağıdakı ilkin şərtlərə əməl edilməyincə, Tərəflər yuxarıda göstərilən qanunvericilik aktının qəbul olunmasına səy göstərmirlər (və Qüvvəyəminmə tarixi başlanmır):

(i) bu Sazişin bağlanmasına hər bir Tərəfin Direktorlar şurası tərəfindən səlahiyyət verilməsi (Tərəfin təsis sənədlərində tələb olunduğu halda);

(ii) BP-nin Əsas ana şirkətinin təminatının ARDNŞ-ə təqdim edilməsi;

(iv) Digər Podratçı tərəflərin hər birinə Hökumətin Təminatının verilməsi.

(b) Tərəflər bütün səylərini sərf edirlər ki, mümkün qədər qısa müddətdə: (1) 25.1(a) (i)–(iii) bəndlərində göstərilmiş şərtlərə əməl edilməsinə, və onlara əməl edilməsindən sonra (2) yuxarıda göstərilənlərə əsasən Azərbaycan Respublikasının qanunvericilik orqanı tərəfindən bu Sazişə və Hökumətin Təminatına Azərbaycan Respublikasında tam qanun qüvvəsi verən qanunvericilik aktının qəbul edilməsinə nail olsunlar.

ARTICLE 25

EFFECTIVE DATE

25.1 Effective Date

(a) The Effective Date shall be the date upon which SOCAR delivers to Contractor written evidence of the enactment by the legislature of the Republic of Azerbaijan in full compliance with the Constitution of the Republic of Azerbaijan and all requisite legal formalities and procedures and publication in the customary manner of legislation giving this Agreement (including the Government Guarantee), the full force of law in the Republic of Azerbaijan, provided, however, that the enactment as aforesaid shall not be sought by the Parties (and the Effective Date shall not occur) until the following conditions precedent have been satisfied:

(i) authorisation to enter into this Agreement by the Boards of Directors of each of the Parties (if applicable under the foundation documents of such Party);

(ii) delivery to SOCAR of BP's Ultimate Parent Company Guarantee;

(iii) delivery to each of the Other Contractor Parties of the Government Guarantee.

(b) The Parties shall use their best endeavours to obtain as soon as possible: (1) satisfaction of the conditions referred to in Article 25.1(a) (i) to (iii), and upon satisfaction thereof (2) the enactment as aforesaid by the legislature of the Republic of Azerbaijan giving this Agreement and the said Government Guarantee the full force of law in the Republic of Azerbaijan.

25.2 Qüvvəyəminmə tarixinədək Neft-qaz əməliyyatları

25.1 bəndinin müddəalarına baxmayaraq, ARDNŞ-nin qabaqcadan verilmiş yazılı razılığı ilə Podratçı Bağlanma tarixindən Qüvvəyəminmə tarixinədək olan müddətdə Neft-qaz əməliyyatları aparırsa, həmin Neft-qaz əməliyyatları ilə əlaqədar olaraq Podratçının çəkdiyi Məsrəflərin əvəzi ödənilir.

25.2 Pre-Effective Date Petroleum Operations

Notwithstanding the provisions of Article 25.1, in the event that, from the Execution Date and prior to the Effective Date, Contractor, with prior written consent of SOCAR, does conduct Petroleum Operations, the costs incurred by Contractor in relation to such Petroleum Operations shall be Cost Recoverable.

MADDƏ 26

ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ TƏHLÜKƏSİZLİK

26.1 Ətraf mühitin mühafizəsi standartları

Podratçı ARDNŞ və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi ("ETSN") ilə birlikdə Neft-qaz əməliyyatlarını tənzimləmək üçün təhlükəsizlik texnikasına və ətraf mühitin mühafizəsinə dair münasib standartlar və metodlar işləyib hazırlayır. Təhlükəsizlik texnikası və ətraf mühitin mühafizəsi standartları Xəzər dənizinin səciyyəvi ekoloji xüsusiyyətlərini nəzərə alır və müvafiq olaraq, (i) dünyanın digər bölgələrində kəşfiyyat və hasilat işlərində tətbiq edilən beynəlxalq neft-qaz sənayesi standartlarına və təcrübəsinə və (ii) Azərbaycan Respublikasının təhlükəsizlik texnikası və ətraf mühitin mühafizəsi haqqında mövcud qanunvericiliyinə istinad edir. Belə standartlar və metodlar müəyyənləşdirilərkən ətraf mühitin keyfiyyət məqsədləri, texniki imkanlar, iqtisadi və kommersiya cəhətdən rentabellik kimi məsələlər nəzərə alınır. Nə qədər ki, 9-cu Əlavənin II hissəsində göstərilmiş standartlar və metodlar Podratçının, ARDNŞ-nin və ETSN-in hazırlayıb razılaşdırdıqları yeni təhlükəsizlik texnikası və ətraf mühitin mühafizəsi standartları ilə əvəz edilməmişdir, 26.4 bəndinin birinci cümləsinə əməl edilməsi şərtilə, onlar Qüvvəyəminmə tarixindən etibarən Neft-qaz əməliyyatlarına tətbiq edilən standartlar sayılırlar. Bu cür əvəzetmə Podratçı, ARDNŞ və ETSN arasında saziş imzalandıqdan sonra, Tərəflərlə ETSN-in razılaşdırdıqları tarixdən etibarən qüvvəyə minir və həmin tarixdən sonra bu cür razılaşdırılmış standartlar, bu Sazişdə tam şəkildə şərh olunduğu kimi, qanun qüvvəsi kəsb edir. Podratçı ilə razılaşdırılmamış təhlükəsizlik texnikası və ətraf mühitin mühafizəsi standartları və metodları tətbiq edildikdə, 23.2 bəndinin müddəaları tətbiq olunur. Tərəflər və ETSN yeni təhlükəsizlik texnikası və ətraf mühitin mühafizəsi standartlarını və metodlarını birlikdə hərtərəfli işləyib hazırlamaq və müəyyənləşdirmək üçün əlavə protokol razılaşdırırlar. Belə standartların və metodların hazırlanmasına və müəyyənləşdirilməsinə Podratçının çəkdiyi məsrəflər Əvəzi ödənilən məsrəflərdir.

ARTICLE 26

ENVIRONMENTAL PROTECTION AND SAFETY

26.1 Environmental Standards

Contractor shall develop jointly with SOCAR and the Ministry of Ecology and Natural Resources of the Republic of Azerbaijan ("MENR") safety and environmental protection standards and practices appropriate for the regulation of Petroleum Operations. The safety and environmental protection standards shall take account of the specific environmental characteristics of the Caspian Sea and draw, as appropriate, on (i) international Petroleum industry standards and experience with their implementation in exploration and production operations in other parts of the world and (ii) existing Azerbaijan safety and environmental legislation. In compilation of such standards and practices account shall be taken of such matters as environmental quality objectives, technical feasibility and economic and commercial viability. Subject to the first sentence of Article 26.4 the standards, which shall apply to Petroleum Operations from Effective Date shall be the standards and practices set out in part II of Appendix 9 until substituted by new safety and environmental protection standards devised and agreed between Contractor, SOCAR and MENR. Such substitution shall take effect following the written agreement between Contractor, SOCAR and MENR on a date agreed between the Parties and MENR and from such date such agreed standards and practices shall have the force of law as if set out in full in the Agreement. In the event that safety and environmental protection standards and practices are imposed otherwise than with the agreement of Contractor it is agreed that the provisions of Article 23.2 shall apply. The Parties and MENR shall agree a separate protocol for the detailed implementation of the joint development and definition of the new standards and practices for safety and environmental protection. The cost to Contractor of such development and definition shall be Cost Recoverable.

26.2 Əməliyyatların aparılması

Podratçı Neft-qaz əməliyyatlarını Ətraf mühitin mühafizəsi standartlarına uyğun olaraq lazımi həssaslıqla, səmərəli və təhlükəsiz şəkildə aparır və məhdudiyyət qoymadan, yerin üstü, yerin təki, dəniz, hava, göllər, çaylar, flora və fauna, kənd təsərrüfatı bitkiləri, digər təbii ehtiyatlar və əmlak daxil olmaqla bütövlükdə ətraf mühitin müvazinətinin hər hansı potensial pozuntularını minimuma endirmək üçün Ətraf mühitin mühafizəsi standartlarına müvafiq surətdə bütün zəruri tədbirləri görür. Tədbirlərin prioritet üzrə ardıcıllığı belə müəyyən edilir: həyatın mühafizəsi, ətraf mühitin mühafizəsi və əmlakın mühafizəsi. Podratçı, 9-cu Əlavənin I hissəsində şərh olunduğu kimi, Neft-qaz əməliyyatları ilə əlaqədar işlərin səhiyyə, təhlükəsizlik və ətraf mühitin mühafizəsi aspektlərini bütünlüklə əhatə edən kompleks idarəetmə sistemi yaradır.

26.3 Qəza vəziyyətləri

Ətraf mühitə zərər vuran və ya zərər vura biləcək qəza halları və ya bədbəxt hadisələr baş verərkən, o cümlədən, lakin bununla məhdudlaşdırılmadan, partlayışlar, püskürmələr, sızmalar və başqa hadisələr zamanı Podratçı həmin hallar barəsində dərhal ETSN-i və ARDNŞ-i xəbərdar edir və vəziyyətdən çıxmaq üçün dərhal gördüyü tədbirlər və bu tədbirlərin nəticələri haqqında məlumat verir. Podratçı təcili tədbirlər görmək, qəza vəziyyətini nəzarət altına almaq, insan tələfatının və itkilərin, əmlaka zərər dəyməsinin qarşısını almaq, habelə təbii ehtiyatlara və bütövlükdə ətraf mühitə zərər dəyməsinə yol verməmək üçün hər cür lazımi səylər göstərir. Podratçı həmçinin görülmüş tədbirlər haqqında ARDNŞ və müvafiq Hökumət orqanlarına hesabat verir.

26.4 Qanunlara tabelik

Podratçı Azərbaycan Respublikasının səhiyyəyə, təhlükəsizlik texnikasına, ətraf mühitin mühafizəsinə və bərpasına ümumən tətbiq edilə bilən mövcud və gələcək qanunlarına, yaxud qərarlarına tabe olur, bu şərtlə ki, həmin qanunların və qərarların tələbləri Ətraf

26.2 Conduct of Operations

Contractor shall conduct the Petroleum Operations in a diligent, safe and efficient manner in accordance with the Environmental Standards and shall take all reasonable actions in accordance with the Environmental Standards to minimise any potential disturbance to the general environment, including without limitation the surface, subsurface, sea, air, lakes, rivers, animal life, plant life, crops and other natural resources and property. The order of priority for actions shall be the protection of life, environment and property. Contractor shall implement an integrated management system covering all health, safety and environmental aspects of the activities carried out in relation to the Petroleum Operations as outlined in part I of Appendix 9.

26.3 Emergencies

In the event of emergency and accidents, including but not limited to explosions, blow-outs, leaks and other incidents which damage or might damage the environment, Contractor shall promptly notify MENR and SOCAR of such circumstances and of its first steps to remedy this situation and the results of said efforts. Contractor shall use all reasonable endeavours to take immediate steps to bring the emergency situation under control and protect against loss of life and loss of or damage to property and prevent harm to natural resources and to the general environment. Contractor shall also report to SOCAR and appropriate Governmental Authorities on the measures taken.

26.4 Compliance

Contractor shall comply with present and future Azerbaijani laws or regulations of general applicability with respect to public health, safety and protection and restoration of the environment, to the extent that such laws and regulations are no more stringent than the

mühitin mühafizəsi standartlarının tələblərindən sərt olmasın. Əgər müvafiq yurisdiksiyası olan hər hansı bölgə orqanı və ya hökumətlərarası orqan Kontrakt sahəsinə aid olan ətraf mühitin mühafizəsi normalarını qəbul edirsə və ya müzakirəyə verirsə, Tərəflər bu normaların Layihəyə göstərə biləcəyi təsiri müzakirə edirlər. Bu Saziş üzrə Podratçının hüquqlarına və ya mənafelərinə mənfi təsir göstərən hər hansı bu cür normalara Podratçının tabe olması, yaxud tabe olmağa cəhd göstərməsi barəsində 23.2 bəndinin müddəaları tətbiq edilir.

Environmental Standards. In the event any regional or multi-governmental authority having jurisdiction enacts or promulgates environmental standards relating to the Contract Area, the Parties will discuss the possible impact thereof on the project. The provisions of Article 23.2 shall apply to any compliance or attempted compliance by Contractor with any such standards which adversely affect the rights or interests of Contractor hereunder.

26.5 <u>Ətraf mühitin mühafizəsi strategiyası</u>

Aşağıdakıları ehtiva etməklə ətraf mühitin mühafizəsi strategiyası işlənib hazırlanır:

(a) Ətraf mühitin mühafizəsi standartlarında və metodlarında şərh edildiyi kimi, Neft-qaz əməliyyatlarının tərkib hissəsi olaraq ətraf mühitin mühafizəsinin idarəetmə sisteminin yaradılması və ekologiya üzrə yardımçı komitənin təşkil edilməsi;

(b) Ətraf mühitin mühafizəsi standartlarında və metodlarında şərh edildiyi kimi, Neft-qaz əməliyyatlarının adi mərhələlərinə uyğun gələn qaydada ətraf mühitin mühafizəsinə dair iş proqramının yerinə yetirilməsi (seysmik kəşfiyyat, kəşfiyyat qazması, yatağın işlənməsi və hasilat).

26.5 <u>Environmental Protection Strategy</u>

An environmental protection strategy shall be developed which shall include:

(a) the establishment of an environmental management system as an integral part of Petroleum Operations and the formation of an environmental sub-committee as described in the Environmental Standards;

(b) an environmental work programme carried out in sequences appropriate to the normal phases of Petroleum Operations as described in the Environmental Standards (seismic survey, exploration drilling, field development and production).

26.6 <u>Ətraf mühitə ziyan vurulması</u>

(a) Podratçı onun Azərbaycan Respublikasının müvafiq məhkəməsi tərəfindən müəyyən edilmiş təqsiri üzündən ətraf mühitin hər hansı şəkildə çirklənməsi nəticəsində Üçüncü tərəfin (hər hansı Hökumət orqanları istisna olmaqla) məruz qaldığı birbaşa itkilər və ya ziyan üçün məsuliyyət daşıyır. Podratçının təqsiri üzündən ətraf mühit çirkləndiyi və ya ona ziyan vurulduğu halda ətraf mühitin bu cür çirklənməsinin və ya ətraf mühitə vurulmuş ziyanın təsirini azaltmaq üçün Podratçı beynəlxalq neft-qaz

26.6 <u>Environmental Damage</u>

(a) Contractor shall be liable for those direct losses or damages incurred by a Third Party (other than Governmental Authority) arising out of any environmental pollution determined by the appropriate court of the Republic of Azerbaijan to have been caused by the fault of Contractor. In the event of any environmental pollution or environmental damage caused by the fault of Contractor, Contractor shall reasonably endeavour, in accordance with generally acceptable international Petroleum industry

sənayesində hamılıqla qəbul edilmiş metodlara müvafiq surətdə lazımi səylər göstərir.

(b) Bu Sazişin qüvvəyə mindiyi tarixədək mövcud olmuş şəraitə görə, lakin bununla məhdudlaşdırılmadan, Podratçı səbəbkarı olmadığı hallar – hər hansı ekoloji çirklənmələr və ya ətraf mühitə vurulan digər ziyan, ətraf mühitin vəziyyəti yaxud problemləri üçün cavabdeh deyil və bunlardan irəli gələn, yaxud onlarla əlaqədar olan iddialara, ziyan və itkilərə görə heç bir xərc çəkmir və maddi məsuliyyət daşımır və ARDNŞ Podratçını, onun Subpodratçılarını, onun və onların məsləhətçilərini, agentlərini, işçilərini, qulluqçularını və direktorlarını yuxarıda deyilənlərlə əlaqədar olaraq hər cür və bütün məsrəflərdən, xərclərdən və məsuliyyətdən azad edir və onlara dəymiş zərərin əvəzini ödəyir.

(c) Ətraf mühitin çirklənməsinə və ya ona ziyan vurulmasına görə Podratçıya qarşı irəli sürülmüş hər hansı iddialar, tələblər, məhkəmə təqibləri və ya araşdırmaları nəticəsində, yaxud bunlarla əlaqədar olaraq Podratçının məruz qaldığı hər hansı zərər, məsuliyyət, itkilər, məsrəflər və xərclər, habelə Podratçının apardığı hər hansı remediasiya və təmizləmə işlərinə çəkilən məsrəflər (Podratçının Qərəzli xətası nəticəsində baş verən belə çirklənmə və ya belə zərər istisna olmaqla) Neft-qaz əməliyyatlarına çəkilən məsrəflərə daxil edilir.

practices, to mitigate the effect of any such pollution or damage on the environment.

(b) Contractor shall not be responsible and shall bear no cost, expense or liability for claims, damages or losses arising out of or related to any environmental pollution or other environmental damage, condition or problems which it did not cause, including but not limited to those in existence prior to the Effective Date of this Agreement and SOCAR shall indemnify and hold harmless Contractor, its Sub-contractor and its and their consultants, agents, employees, officers and directors from any and all costs, expenses and liabilities relating thereto.

(c) Any damages, liability, losses, costs and expenses incurred by Contractor arising out of or related to any claim, demand, action or proceeding brought against Contractor, as well as the costs of any remediation and clean-up work undertaken by Contractor, on account of any environmental pollution or environmental damage (except for such pollution or damage resulting from Contractor's Wilful Misconduct) caused by Contractor shall be included in Petroleum Costs.

MADDƏ 27

MƏXFİLİK

27.1 Ümumi müddəalar

(a) Tərəflərin hər biri razılaşır ki, Neft-qaz əməliyyatları ilə əlaqədar əldə edilmiş və ya alınmış, və Qüvvəyəminmə tarixinədək geniş ictimaiyyətə məlum olmayan, yaxud açıqlanmasına məhdudiyyət olmadan Tərəfin qanuni sərəncamında olmayan bütün texniki, geoloji və ya kommersiya xarakterli informasiyaya və məlumata məxfi informasiya və məlumat kimi baxılır və onlar gizli saxlanılır (Podratçının 14.1(e) bəndinə müvafiq surətdə belə məlumatdan və informasiyadan istifadə etmək və 27.2 bəndinə müvafiq surətdə bu cür məlumatı və informasiyanı mübadilə etmək hüququna əməl edilməsi şərtilə), bu Sazişin Tərəfi olmayan heç bir fiziki yaxud hüquqi şəxsə açıqlanmır, lakin aşağıdakılar istisna təşkil edir:

(i) Ortaq şirkət; bu şərtlə ki, həmin Ortaq şirkət bu Sazişin müddəalarına müvafiq surətdə məxfiliyi saxlasın;

(ii) Əgər bu Sazişə müvafiq olaraq tələb edilirsə, Hökumət orqanı;

(iii) Əgər tətbiq edilə bilən hər hansı qanunlara və ya qaydalara müvafiq surətdə, yaxud hər hansı məhkəmə baxışı nəticəsində, ya da hər hansı məhkəmənin bu və ya digər Tərəf üçün məcburi olan əmri ilə bu cür məlumat və informasiya verilməlidirsə;

(iv) Aşağıdakı (c) bəndinin müddəalarına əməl olunmaqla, hər hansı Podratçı tərəfin işə cəlb etdiyi potensial Subpodratçılar, məsləhətçilər və hüquqşünaslar; bu şərtlə ki, həmin məlumatın və

ARTICLE 27

CONFIDENTIALITY

27.1 General Provisions

(a) Each Party agrees that all information and data of a technically, geologically or commercially sensitive nature acquired or obtained relating to Petroleum Operations and which on the Effective Date is not in the public domain or otherwise legally in the possession of such Party without restriction on disclosure shall be considered confidential and shall be kept confidential (subject to Contractor's right to use such data and information in accordance with Article 14.1(e) and to trade in such data and information in accordance with Article 27.2) and not be disclosed to any person or entity not a Party to this Agreement, except:

(i) To an Affiliate, provided such Affiliate maintains confidentiality as provided in this Agreement;

(ii) To a Governmental Authority when required by this Agreement;

(iii) To the extent such data and information is required to be furnished in compliance with any applicable laws or regulations, or pursuant to any legal proceedings or because of any order of any court binding upon a Party;

(iv) Subject to (c) below, to potential Sub-contractors, consultants and attorneys employed by any Contractor Party where disclosure of such data or information is essential to such Sub-contractor's,

informasiyanın açıqlanması həmin Subpodratçının, məsləhətçinin və ya hüquqşünasın işi üçün zəruri olsun;

(v) Aşağıdakı (c) bəndinin müddəalarına əməl olunmaqla, bu və ya digər Tərəfin İştirak payının nəzərdə tutulan əsl varisi (o cümlədən birləşmə, konsolidasiya, yaxud öz səhmlərinin və ya öz Ortaq şirkətinin səhmlərinin çox hissəsinin satışı barəsində Tərəfin açıq danışıqlar apardığı hüquqi şəxs);

(vi) Aşağıdakı (c) bəndinin müddəalarına əməl olunmaqla, bank və ya başqa maliyyə təsisatı – bu Saziş üzrə öz öhdəliklərinin maliyyələşdirilməsi haqqında danışıqlar aparan Tərəf üçün lazım olan həcmdə;

(vii) Yurisdiksiyası həmin Podratçı tərəfə və ya onun Ortaq şirkətlərinə şamil edilən hər hansı hökumətin, yaxud fond birjasının hər hansı qaydalarına və ya tələblərinə müvafiq olaraq həmin məlumatın və ya informasiyanın müəyyən dərəcədə açıqlanmalı olduğu hallar;

(viii) Hər hansı məlumat və ya informasiyanın Podratçı tərəfin əsla təqsiri olmadan ictimaiyyətə bəlli olduğu hallar; və

(ix) Bu Sazişin 23-cü Maddəsinə müvafiq surətdə arbitrlər və ya 13.1(c) bəndi ilə bağlı olaraq hər hansı ekspert.

(b) Hər Tərəf Neft-qaz əməliyyatlarına dair həmin məlumat və informasiya barəsində məxfiliyə öz əməkdaşlarının əməl etmələrini təmin etmək üçün adi ehtiyat tədbirləri görür.

(c) 27.1(a) bəndinin (iv), (v) və (vi) yarımbəndlərinə müvafiq surətdə informasiya ancaq o halda açıqlanır ki, hər belə

consultant's or attorney's work;

(v) Subject to (c) below, to a bona fide prospective transferee of a Party's Participating Interest (including an entity with whom a Party is conducting bona fide negotiations directed toward a merger, consolidation or the sale of a majority of its or an Affiliate's shares);

(vi) Subject to (c) below, to a bank or other financial institution to the extent appropriate to a Party arranging for funding for its obligations under this Agreement;

(vii) To the extent such data and information must be disclosed pursuant to any rules or requirements of any government or stock exchange having jurisdiction over such Contractor Party, or its Affiliates;

(viii) Where any data or information which, through no fault of a Contractor Party, becomes a part of the public domain; and

(ix) To the arbitrators in accordance with Article 23 or to any expert in connection with Article 13.1(c) of this Agreement.

(b) Each Party shall take customary precautions to ensure such data and information on Petroleum Operations is kept confidential by its respective employees.

(c) Disclosure pursuant to Articles 27.1(a) (iv), (v) and (vi) shall not be made unless prior to each such disclosure the

açıqlamayadək informasiyanı açıqlayan Tərəf informasiyanın verildiyi tərəfdən yazılı iltizam alsın ki, o, həmin məlumatı və informasiyanı (ictimaiyyətə bəlli olan və ya ona çatdırılan məlumatdan başqa) Üçüncü tərəflərdən ciddi surətdə gizli saxlayacaq, məlumat və informasiya digər Tərəflərin qabaqcadan verilmiş yazılı icazəsi olmadan hansı məqsədlər üçün açıqlanırsa, o məqsədlərdən savayı heç bir məqsədlə həmin məlumatdan və informasiyadan istifadə etməyəcək və onu açıqlamayacaqdır.

(d) Hər hansı Podratçı tərəf bu Sazişin qüvvədə olduğu müddət ərzində İştirak payına sahibliyi dayandırdıqda məxfilik barəsində yuxarıda göstərilən öhdəliklərdən azad olunmur, hər hansı fikir ayrılıqları isə Arbitraj qaydasına müvafiq surətdə həll edilir və Podratçı tərəflərin məxfilik öhdəlikləri bu Sazişdə hansı şəkildə göstərilmişdirsə, bu Sazişin qüvvəsinə xitam verildikdən sonra beş (5) il ərzində o şəkildə də qüvvədə qalmaqda davam edir.

27.2 <u>Məlumat mübadiləsi</u>

Yuxarıda deyilənlərə baxmayaraq, 14.1(e) bəndinə müvafiq surətdə Podratçının ixtiyarı vardır ki, ARDNŞ-nin icazəsi ilə Kontrakt sahəsinə aid bütün məlumatı Üçüncü tərəflərlə Azərbaycan Respublikasına dair başqa məlumatla sərbəst mübadilə etsin və buna icazə verməkdən əsassız olaraq imtina edilməməlidir.

27.3 <u>Şirkətin fəaliyyəti haqqında informasiya verilməsi</u>

Bu 27-ci Maddənin hər hansı digər müddəalarına baxmayaraq, hər Podratçı tərəf illik hesabatlarda, əməkdaşlar və səhmdarlar üçün informasiya bülletenlərində, jurnallarda və oxşar nəşrlərdə Neft-qaz əməliyyatları haqqında ümumi xarakterli məlumatı adətən bu cür nəşrlərdə dərc edildiyi və ya işıqlandırıldığı tərzdə verə bilər.

disclosing Party has obtained a written undertaking from the recipient party to keep the data and information strictly confidential from Third Parties (except for data which is or becomes in the public domain) and not to use or disclose the data and information except for the express purpose for which disclosure is to be made without the prior written permission of the other Parties.

(d) Any Contractor Party ceasing to own a Participating Interest during the term of this Agreement shall nonetheless remain bound by the obligations of confidentiality set forth above and any disputes shall be resolved in accordance with the Arbitration Procedure, and the confidentiality obligations of the Contractor Parties as set forth herein shall survive a period of five (5) years from the termination of this Agreement.

27.2 <u>Trading of Data</u>

Notwithstanding the foregoing, in accordance with Article 14.1(e), Contractor shall have the free right to trade with Third Parties all data relating to the Contract Area for other data relating to the Republic of Azerbaijan with the approval of SOCAR, such approval not to be unreasonably withheld.

27.3 <u>Corporate Disclosure</u>

Each Contractor Party, notwithstanding any other provisions in this Article 27 may make disclosures in annual reports, employee and stockholder newsletters, magazines and the like of summarisation of a general nature relating to Petroleum Operations, which are customarily or routinely described or reported in such publications.

MADDƏ 28

BONUS ÖDƏNİŞLƏRİ VƏ AKRHESABI ÖDƏMƏLƏR

28.1 <u>Podratçının Bonusu ödəməsi</u>

Digər Podratçı tərəflər ARNDŞ-ə aşağıdakı qaydada Bonusu ödəyirlər:

(a) İyirmi milyon (20.000.000) Dollar Qüvvəyəminmə tarixindən sonra otuz (30) gün ərzində ödənilir.

(b) Xam neft Kəşf edildikdə, İşlənmə proqramında müəyyən edilmiş, sənaye miqyasında çıxarıla biləcək hər yüz milyon (100.000.000) Barrel Xam neft üçün bir milyon (1.000.000) Dollar ARDNŞ tərəfindən İşlənmə proqramının faktik və ya hesab olunan təsdiqindən otuz (30) gün sonra ödənilir.

(c) Sərbəst təbii qaz Kəşf edildikdə, Bonus ödənişləri hər bir Təbii qazın alqı-satqısı müqaviləsi (TQASM) üzrə ayrı-ayrılıqda aşağıda qeyd edilmiş qaydada hesablanır və ödənilir

(i) 28.1(c)(v) bəndinin müddəaları nəzərə alınmaqla, Bonus ödənişləri Sərbəst təbii qazın hər bir (1) trilyon kub futu üçün bir milyon yeddi yüz doxsan səkkiz min səkkiz yüz səksən beş (1.798.885) Dollar və Xam neftin hər bir (1) milyon Bareli üçün on min (10.000) Dollar əsasında hesablanır.

(ii) İşlənmə və hasilat dövründə bağlanmış hər TQASM ilə əlaqədar olaraq ilkin Bonus:

ARTICLE 28

BONUS PAYMENTS AND ACREAGE FEES

28.1 <u>Contractor Bonus Payments</u>

The Other Contractor Parties shall pay to SOCAR the Bonus as follows:

(a) Twenty million (20,000,000) Dollars shall be paid within thirty (30) days following the Effective Date.

(b) In the event of a Crude Oil Discovery, one million (1,000,000) Dollars per each one hundred million (100,000,000) Barrels of Crude Oil specified to be commercially recoverable in the Development Programme shall be paid within thirty (30) days following SOCAR's approval or deemed approval of the Development Programme.

(c) If the event of a Non-associated Natural Gas Discovery, the Bonus payments shall be calculated and payable, separately in respect of each Natural Gas Sale and Purchase Agreement (NGSPA), as follows:

(i) Subject to Article 28.1(c)(v), Bonus payments shall be calculated on the basis of one million seven hundred and ninety eight thousand eight hundred and eighty five (1,798,885) Dollars per one trillion cubic feet (1 tcf) of Non-associated Natural Gas and ten thousand (10,000) Dollars per one million (1,000,000) Barrels of Crude Oil.

(ii) An initial Bonus payment shall be made in respect of each NGSPA entered into during the Development and Production Period, which shall:

(1) aşağıda göstərilən iki həcmdən daha az olanı əsasında hesablanır: (i) müvafiq TQASM-a uyğun olaraq Podratçının çatdırmalı olduğu Sərbəst təbii qaz həcmi, və ya (ii) təqdim edildiyi halda, müvafiq TQASM-a əsasən alıcının qəbul etməyə və ödəməyə borclu olduğu (və ya qəbul etməsə, ödəməli olduğu) Sərbəst təbii qaz həcmi, belə şərtlə ki, həmin həcm, belə ehtiyatlarla birgə hasil edilməsi gözlənilən Xam neft ilə birlikdə, İşlənmə və hasilat dövrünün qalan müddəti ərzində çıxarıla bilən miqdara bərabər olsun; və

(2) TQASM-ın tam hüquqi qüvvəyə mindiyi və bütün ilkin şərtlərinin yerinə yetirildiyi və ya icrasından könüllü imtina edildiyi tarixdən etibarən otuz (30) gün ərzində ödənilməli olur.

(iii) Sazişin 28.1(d) maddəsində göstərilən hallar istisna edilməklə, hər hansı TQASM üzrə Kontrakt sahəsindən faktiki olaraq hasil edilmiş cəmi Sərbəst təbii qaz və ya cəmi Xam neft həcmləri qeyd olunan TQASM ilə əlaqədar ilkin Bonusun hesablanması üçün əsas götürülmüş Sərbəst təbii qaz və ya Xam neft hasilatının miqdarından artıq olduğu Təqvim ilinin sonunadək hər hansı TQASM ilə əlaqədar heç bir əlavə Bonus ödənişi edilməyəcəkdir, və bu baş verdiyi halda, həmin TQASM-a aşağıda qeyd olunan şərtlər tətbiq olunacaq:

(1) qeyd olunan Təqvim ilinin sonunda və ondan sonra hər Təqvim ilinin sonunda hasil edilmiş Sərbəst təbii qaz və Xam neftin faktiki cəmi həcmləri həmin TQASM-a münasibətdə müəyyən olunur və Podratçı, əlavə Bonus kimi, aşağıda qeyd olunanları ARDNŞ-a ödəyir: (i) Sərbəst təbii qazın

(1) be calculated on the lesser of (i) the amount of Non-associated Natural Gas that Contractor is obliged to make available under the relevant NGSPA and (ii) the amount of Non-associated Natural Gas that the purchaser under the relevant NGSPA is obliged to take and pay for (or pay for if not taken) if made available, to the extent that such amount is producible within the remaining duration of the Development and Production Period, together with Crude Oil expected to be produced in association therewith; and

(2) be payable within thirty (30) days of the date upon which the relevant NGSPA enters into full force and effect with all conditions precedent having been either satisfied or agreed to be waived.

(iii) Except as provided in Article 28.1(d), no subsequent Bonus payment shall be made in respect of an NGSPA until the end of the Calendar Year in which either the actual cumulative Non-associated Natural Gas or cumulative Crude Oil production from the Contract Area in respect of such NGSPA exceeds the amount of Non-associated Natural Gas or Crude Oil production upon which the initial Bonus in respect of such NGSPA has been calculated, whereupon the following provisions shall apply in respect of such NGSPA:

(1) at the end of said Calendar Year, and at the end of each Calendar Year thereafter the actual cumulative produced volumes of Non-associated Natural Gas and Crude Oil shall be determined in respect of such NGSPA and the Other Contractor Parties shall pay to SOCAR as subsequent Bonus (i) an amount

həmin cəmi hasil edilmiş həcmləri üzrə ödənilməli olan (yuxarıdakı 28.1(c)(i) bəndinə əsasən hesablanan) Bonusdan bu 28.1(c) bəndinə müvafiq qaydada həmin Sərbəst təbii qaz ilə əlaqədar Bonus kimi ARDNŞ-a ödənilmiş vəsaitlər çıxıldıqdan sonra qalan məbləğ, və (ii) Xam neftin həmin cəmi hasil edilmiş həcmləri üzrə ödənilməli olan (yuxarıdakı 28.1(c)(i) bəndinə əsasən hesablanan) Bonusdan bu 28.1(c) bəndinə müvafiq qaydada həmin Xam neft ilə əlaqədar Bonus kimi ARDNŞ-a ödənilmiş vəsaitlər çıxıldıqdan sonra qalan məbləğ; və

(2) bu 28.1(c)(iii) bəndinə əsasən ARDNŞ-a ödənilməli olan hər hansı əlavə Bonus ödənişin aid olduğu Təqvim ilinin sonundan etibarən otuz (30) gün ərzində ödənilməli olur.

(iv) 28.1(c)(ii) bəndinə əsasən ödənilmiş ilkin Bonusların aid olduğu ehtiyatlar hər hansı səbəbdən Podratçı tərəfindən hasil olunmadığı halda, qeyd olunan ilkin Bonuslar geri qaytarılmır.

(v) 28.1(c)(iii) bəndinə müvafiq qaydada ödənilməli olan hər hansı əlavə Bonusun hesablanması məqsədi ilə, 28.1(c)(i) bəndində istinad olunmuş Dollar ilə ifadə olunan məbləğlər 28.1(c)(ii)(2) bəndinə əsasən ilkin Bonusun ödəniş tarixindən etibarən 28.1(c)(iii)(2) bəndinə əsasən hər hansı əlavə Bonus ödənilməli olduğu tarixə qədər olan müddət ərzində LİBOR illik faiz dərəcəsi əsasında artırılır.

(d) Əlli milyon (50.000.000) Dollar Sənaye hasilatının başlanma tarixindən sonrakı otuz (30) gün ərzində ödənilir.

equal to the Bonus payable on such cumulative produced volumes of Non-associated Natural Gas (calculated in accordance with Article 28.1(c)(i) above) less any amounts already paid to SOCAR as Bonus in respect of such Non-associated Natural Gas pursuant to this Article 28.1(c), and (ii) an amount equal to the Bonus payable on such cumulative produced volumes of Crude Oil (calculated in accordance with Article 28.1(c)(i) above) less any amounts already paid to SOCAR as Bonus in respect of such Crude Oil pursuant to this Article 28.1(c); and

(2) any subsequent Bonus payable to SOCAR pursuant to this Article 28.1(c)(iii) shall be payable within thirty (30) days of the end of the Calendar Year to which the payment relates.

(iv) The initial Bonus payment pursuant to Article 28.1(c)(ii) shall not be repayable, in whole or in part, if, for any reason, the reserves upon which it is based are not produced by Contractor.

(v) For the purposes of calculating any subsequent Bonus payable pursuant to Article 28.1(c)(iii), the Dollar amounts referred to in Article 28.1(c)(i) shall be escalated at the annual interest rate of LIBOR, from the date of payment of the initial Bonus pursuant to Article 28.1(c)(ii)(2) to the date when any subsequent Bonus becomes payable pursuant to Article 28.1(c)(iii)(2).

(d) Fifty million (50,000,000) Dollars shall be paid within thirty (30) days of the Commencement Date of Commercial Production.

(e) Bu 28.1 bəndində nəzərdə tutulmuş Bonusların məbləğləri hesablanarkən İşlənmə proqramında göstərilmiş Xam neftin bir (1) Barelinə ekvivalent Təbii qaz həcmini müəyyən edilməsində hər Barel neft ekvivalenti üçün beş min beş yüz əlli doqquz standart kub fut (5559 skf/bne) əmsalı ("Konversiya əmsalı") əsas götürülür.

Digər Podratçı tərəflər Bonusu ARDNŞ-nin yüksək beynəlxalq nüfuza malik bankda göstərdiyi hesaba ödəyirlər. Ödəniş öhdəliyi yalnız tam məbləğ, hər hansı komissiya və haqlardan azad şəkildə, həmin bank hesabına daxil olduqda icra olunmuş hesab edilir.

28.2 <u>Akrhesabı ödənişlər</u>

Kəşfiyyat dövrü, habelə Əlavə Kəşfiyyat dövrü (əgər Podratçı bu Sazişin 4.3 bəndinin müddəalarına uyğun olaraq Əlavə kəşfiyyat dövrünə başlayırsa) ərzində Digər Podratçı tərəflər Kontrakt sahəsinin hər kvadrat kilometri üçün iki min (2.000) Dollar məbləğində illik akrhesabı haqq ödəyir. Bu haqq hər il Qüvvəyəminmə tarixinin ildönümündə ödənilir.

28.3 <u>Digər məsələlər</u>

Bu 28-ci Maddəyə uyğun olaraq Digər Podratçı tərəflərin etdiyi ödənişlərin Əvəzi ödənilmir.

(e) For the purposes of calculation of Bonuses payable pursuant to this Article 28.1, the determination of the volume of Natural Gas equivalent to one (1) Barrel of Crude Oil included in the Development Programme shall be based on a conversion factor of five thousand five hundred and fifty nine standard cubic feet per Barrel of oil equivalent (5,559 scf/boe) (the "Conversion Factor").

Bonus payments by the Other Contractor Parties shall be made into SOCAR's nominated account in a bank of good international repute and shall be deemed paid when a full amount has been deposited into such bank account net of any possible charges and fees.

28.2 <u>Acreage Fees</u>

The Other Contractor Parties shall pay annual acreage fees of two thousand (2,000) Dollars per square kilometre of the Contract Area during the Exploration Period and the Additional Exploration Period (if Contractor proceeds to the Additional Exploration Period pursuant to Article 4.3). Acreage fees shall be paid annually in arrears on each anniversary of the Effective Date.

28.3 <u>Miscellaneous</u>

The payments made by the Other Contractor Parties pursuant to this Article 28 shall not be Cost Recoverable.

MADDƏ 29

SAZİŞİN QÜVVƏSİNƏ XİTAM VERİLMƏSİ

29.1 Köklü pozuntu

(a) Bu Saziş üzrə, yaxud vəziyyətdən asılı olaraq Hökumətin Təminatı üzrə öhdəliklərin Köklü pozuntusuna yol verilmişsə və digər Tərəfin həmin Köklü pozuntunun xarakteri və mahiyyəti, habelə həmin Köklü pozuntuya görə bu Sazişin qüvvəsinə xitam vermək niyyəti haqqında yazılı bildirişi alınandan sonra doxsan (90) gün müddətində bu Köklü pozuntunu aradan qaldırmaq və ya düzəltmək mümkün deyilsə, bunlara

(i) Podratçı yol verirsə, ARDNŞ, yaxud

(ii) ARDNŞ və ya hər hansı Hökumət orqanı yol verirsə, Podratçı

bu Sazişin qüvvəsinə istənilən vaxt xitam verə bilər, bu şərtlə ki,

(aa) həmin Köklü pozuntu aradan qaldırıla və ya düzəldilə bilərsə, lakin lazımi səylər göstərildiyinə baxmayaraq, onların aradan qaldırılmasına və ya düzəldilməsinə doxsan (90) gün kifayət etmirsə, Sazişə xitam vermək hüququ o halda tətbiq oluna bilməz ki, Köklü pozuntuda ittiham edilən Tərəf həmin Köklü pozuntunu aradan qaldırmaq və ya düzəltmək üçün göstərilən doxsan (90) gün ərzində ağlabatan zəruri tədbirlər görsün və Köklü pozuntu aradan qaldırılanadək və ya düzəldilənədək belə tədbirləri görməkdə israrla davam etsin; həm də başa düşülür ki, bu halda Tərəflər Köklü pozuntunun aradan qaldırılması və ya düzəldilməsi üçün zəruri olan hərəkətlər barəsində qarşılıqlı razılığa gəlməyə çalışırlar;

ARTICLE 29

TERMINATION

29.1 Material Breach

(a) This Agreement may be terminated at any time:

(i) by SOCAR if Contractor commits, or

(ii) by Contractor if SOCAR or any Governmental Authority commits

a Material Breach of its obligations under this Agreement or the Government Guarantee, as the case may be, and fails to cure or remedy such Material Breach within ninety (90) days following written notice to it from the other describing the particulars of such Material Breach as well as its intention to terminate this Agreement on account of such Material Breach; provided however, that

(aa) if such Material Breach can be cured or remedied but not within ninety (90) days despite the exercise of reasonable diligence, then there shall be no right to terminate so long as the Party alleged to be in Material Breach commences within said ninety (90) days actions reasonably necessary to cure or remedy such Material Breach and diligently pursues such actions until the Material Breach is cured or remedied, it being understood that in such instance the Parties shall endeavour to reach mutual agreement on the actions necessary to cure or remedy the Material Breach; and

(bb) Podratçı, yaxud ARDNŞ – aidiyyətindən asılı olaraq – göstərilən doxsan (90) gün ərzində Köklü pozuntu məsələsini Arbitraj qaydasına əsasən arbitraj baxışına çıxardıqda bu Saziş yalnız o halda və yalnız ondan sonra xitam verilə bilər ki, (1) arbitraj baxışı belə rəyə gəlsin ki, həqiqətən belə Köklü pozuntuya yol verilmişdir və (2) pozuntuya yol vermiş sayılan Tərəf arbitraj kollegiyasının müəyyən etdiyi bu Köklü pozuntunu aradan qaldırmaq və ya düzəltmək üçün müvafiq imkan (lakin bütün hallarda doxsan (90) gündən az olmamaqla) əldə etdiyinə baxmayaraq həmin imkandan istifadə etmir, bu Tərəf Köklü pozuntunu müvəffəqiyyətlə aradan qaldırmaq və ya düzəltmək üçün təkidlə lazımi tədbir görməmişdir və görməməkdə davam edir. Arbitrajın qərarı qəti və Tərəflər üçün məcburidir, dərhal icra edilməlidir.

(cc) Bu Saziş çərçivəsində "Köklü pozuntu" termini elə mahiyyətcə pozuntu deməkdir ki, əgər düzəldilməsə, ya Podratçının, ARDNŞ-nin, yaxud Hökumət orqanının – aidiyyətindən asılı olaraq – öz müqavilə öhdəliklərini yerinə yetirməkdən açıq-aydın imtina etməsi nəticəsində, ya da Sazişin kommersiya məqsədinin baş tutmamasına səbəb olmuş davranış nəticəsində Sazişin bütövlükdə öz mənasını itirməsinə bərabərdir.

(b) Fors-major halları istisna olmaqla, bu Sazişin 4.2(a) (i)–(iii) və 4.3 bəndlərində göstərilən hər hansı işlərin başa çatdırılmaması Podratçı tərəfindən Sazişin Köklü pozuntusu hesab olunur; bu halda ARDNŞ Podratçıya yazılı bildiriş göndərərək, bu Sazişin qüvvəsinə birtərəfli xitam vermək hüququna malikdir və Podratçı belə Köklü pozuntunu aradan qaldırmaq və ya düzəltmək üçün, 29.1(a) bəndində nəzərdə tutulduğu kimi, möhlət almaq hüququna malik deyildir. 4.2(c) və 4.3 bəndlərinə və bu 29.1 bəndinə müvafiq surətdə ARDNŞ tərəfindən Sazişin qüvvəsinə

(bb) if either Contractor or SOCAR, as the case may be, within said ninety (90) day period refers the question of Material Breach to arbitration in accordance with the Arbitration Procedure, then termination of this Agreement will not occur unless and until (1) the arbitration proceeding results in a finding that such Material Breach does in fact exist, and (2) the Party found to have been in breach has had a reasonable opportunity thereafter (but in no event less than ninety (90) days), but failed, to cure or remedy the Material Breach identified by the arbitration panel, unless such Party has been diligently pursuing such actions and continues to do so until such Material Breach is cured or remedied. The arbitration tribunal's award shall be final and binding on the Parties and shall be immediately enforceable; and

(cc) as used in this Agreement the term "Material Breach" means a fundamental breach, which, if not cured, is tantamount to the frustration of the entire Agreement either as a result of the unequivocal refusal of either Contractor, SOCAR or a Governmental Authority, as the case may be, to perform its contractual obligations or as a result of conduct which has destroyed the commercial purpose of this Agreement.

(b) A failure to complete any of the activities listed in Articles 4.2(a) (i)–(iii) and 4.3 other than as a result of Force Majeure, shall be deemed to constitute a Material Breach of the Agreement by Contractor whereupon SOCAR shall have the right to unilaterally terminate this Agreement upon giving written notice to Contractor without Contractor being entitled to any period within which to cure or remedy such Material Breach as provided in Article 29.1(a). Termination of the Agreement by SOCAR pursuant to Articles 4.2(c) and 4.3 and this Article 29.1 shall be

xitam verilməsi göstərilən Köklü pozuntu ilə əlaqədar ARDNŞ-nin Podratçıya qarşı yeganə hüquqi müdafiə vasitəsidir, Podratçı isə yuxarıda göstərilən işlərlə bağlı əvvəllər çəkdiyi hər hansı məsrəflərin əvəzinin ödənilməsi barəsində iddia qaldırmaq hüququna malik deyildir.

29.2 <u>ARDNŞ-nin Sazişə xitam verməsi</u>

Aşağıdakı hallarda ARDNŞ qabaqcadan, doxsan (90) gün əvvəl Podratçıya yazılı bildiriş göndərməklə bu Sazişin qüvvəsinə xitam verə bilər:

(a) Əgər hər hansı Podratçı tərəfin adından Əsas ana şirkət təminatı verən şirkət ödəmə qabiliyyətini itirirsə və ya ləğv edilirsə (birləşdirmək və ya yenidən təşkil etmək məqsədilə ləğv edildiyi hallardan başqa); bu şərtlə ki, Sazişə xitam vermək haqqında bildiriş bütün qalan Podratçı tərəflər birgə məsuliyyətə dair müddəalara əsasən bu Saziş üzrə həmin Podratçı tərəfin hüquqlarını və öhdəliklərini (ödəmə qabiliyyətini itirdiklərinə və ya ləğv edildiklərinə görə) öz üzərlərinə götürə bilmədikdən və bunu həmin doxsan (90) gün ərzində ARDNŞ-ə bildirdikdən sonra qüvvəyə minir.

(b) Əgər Podratçı tərəflər birlikdə ödəmə qabiliyyətini itirirsə və ya ləğv edilirsə (birləşdirmək və ya yenidən təşkil etmək məqsədilə ləğv edildiyi hallardan başqa).

(c) Fors-major hallarından başqa hər hansı səbəblərə görə sənaye miqyasında Karbohidrogenlərin hasilatı həmişəlik dayandırılmışdırsa.

29.3 <u>Podratçının Sazişin qüvvəsinə xitam verməsi / Kontrakt sahəsindən imtina etməsi</u>

(a) Podratçı Kəşfiyyat dövrü başa çatdığı anda, yaxud başa çatdıqdan sonra hər hansı bir vaxtda, yaxud Podratçı Əlavə kəşfiyyat dövrünə başladığı təqdirdə, Əlavə kəşfiyyat dövrü başa çatdığı anda və yaxud başa çatdıqdan sonra, və müvafiq olaraq 4.2(a) (i)–(iii) və 4.3(a) bəndlərində

SOCAR's sole remedy against Contractor for such Material Breach and Contractor shall have no claim for reimbursement of any costs incurred by Contractor with respect to the execution of the said activities.

29.2 <u>Termination by SOCAR</u>

SOCAR may terminate this Agreement by giving Contractor ninety (90) days prior written notice:

(a) If any company issuing an Ultimate Parent Company Guarantee on behalf of any Contractor Party becomes insolvent or goes into liquidation (other than for the purpose of amalgamation or reorganisation), provided that such notice of termination shall take effect as soon as the other Contractor Parties, because of their insolvency or liquidation, and subject to the provisions of joint liability, are not able to assume such Contractor Party's rights and obligations under this Agreement and so notify SOCAR within such ninety (90) day period.

(b) If all Contractor Parties collectively become insolvent or go into liquidation (other than for the purposes of amalgamation or reconstruction).

(c) If, for reasons other than Force Majeure, production of Petroleum in commercial quantities shall have permanently ceased.

29.3 <u>Termination/Relinquishment by Contractor</u>

(a) Contractor may terminate this Agreement with effect on or at any time after the expiry of the Exploration Period, or if Contractor enters the Additional Exploration Period then with effect on or at any time after the expiry of the Additional Exploration Period, and after fulfilment in full to

müəyyən olunmuş işlərin ARDNŞ-ni qane edəcək şəkildə tam yerinə yetirməsi şərti ilə, hər hansı bir vaxtda ARDNŞ-ə doxsan (90) gün qabaqcadan yazılı bildiriş verməklə bu Sazişə xitam verə bilər. Sazişin qüvvəsinə bu yolla xitam verildikdən sonra Podratçı öz öhdəliklərinin və o vaxt üçün qüvvədə olan İllik iş proqramında nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsi istisna olmaqla ARDNŞ qarşısında heç bir öhdəlik daşımır.

(b) Bu 29.3 bəndinin qalan müddəalarına əməl etmək şərtilə Podratçı azı doxsan (90) gün əvvəl ARDNŞ-ə yazılı şəkildə bildiriş göndərməklə bütün Kontrakt sahəsindən hər vaxt könüllü imtina edə bilər. Həmin bildirişdə bu imtinanın qüvvəyə minəcəyi tarix, habelə Podratçının 29.3(c) bəndinin müddəalarına müvafiq surətdə özünün hər hansı qalan öhdəliklərini necə yerinə yetirəcəyi göstərilməlidir. Belə imtina olduqda, Sazişin qüvvəsinə xitam verilmiş olur və Tərəflər 29.3(c) bəndində nəzərdə tutulan öhdəliklərdən başqa bütün digər öhdəliklərindən azad olurlar. Kontrakt sahəsindən imtina ilə əlaqədar olaraq qarşıya çıxa biləcək bu və ya başqa məsələlərin müzakirəsi üçün ARDNŞ-nin və ya Podratçının tələbi ilə Rəhbər komitənin iclası çağırıla bilər.

(c) 29.3 (a) və ya (b) bəndlərinə əsasən bu Sazişin qüvvəsinə Podratçının xitam verməsi və ya Podratçının bütün Kontrakt sahəsindən imtina etməsi onu o vaxt üçün qüvvədə olan İllik iş proqramı üzrə digər öhdəliklərindən azad etmir; bu proqramı Podratçı ARDNŞ ilə qabaqcadan əldə edilmiş razılaşmaya uyğun olaraq öz mülahizəsinə görə aşağıdakı tərzdə yerinə yetirə bilər:

(i) həmin İllik iş proqramını onun şərtlərinə müvafiq surətdə tam yerinə yetirməklə; və ya

(ii) müvafiq Büdcədə nəzərdə tutulmuş vəsaitin qalığını ARDNŞ-ə Dollarla ödəməklə.

the satisfaction of SOCAR of the work provided in Articles 4.2(a) (i)–(iii) and 4.3(a), as the case may be, by giving SOCAR ninety (90) days prior written notice. Upon such termination, Contractor shall have no further obligations of any kind whatsoever to SOCAR except for the performance of its obligations under the then current Annual Work Programme.

(b) Subject to the remaining provisions of this Article 29.3, Contractor may at any time voluntarily relinquish all of the Contract Area by giving SOCAR not less than ninety (90) days prior written notice. Such notice shall specify the date upon which the relinquishment is to take effect and the manner in which Contractor will perform any remaining obligations pursuant to Article 29.3(c). Upon such relinquishment, this Agreement shall terminate and the Parties shall be relieved of any obligations assumed other than those set forth in Article 29.3(c). If SOCAR or Contractor requests, a meeting of the Steering Committee shall be convened to address any questions which may arise in connection with the relinquishment.

(c) Termination of this Agreement or relinquishment of the entire Contract Area by Contractor pursuant to Article 29.3 (a) or (b) shall not relieve Contractor of any remaining obligations under the then current Annual Work Programme which Contractor upon the prior agreement with SOCAR may fulfil, at Contractor's option:

(i) by performing in full in accordance with such Annual Work Programme; or

(ii) by payment in Dollars to SOCAR of the outstanding balance of money stipulated in the respective Budget.

(d) 29.3 (a) və ya (b) bəndlərinə əsasən bu Sazişə xitam verildikdə və ya bütün Kontrakt sahəsindən imtina edildikdə, əlavə olaraq meydana çıxan hər hansı hüquqlara və ya belə xitamdan əvvəl irəli sürülmüş iddialara xələl gətirmədən Podratçı Neft-qaz əməliyyatlarını davam etdirmək və ya Sazişin qüvvəsinə xitam verildiyi tarixədək əvəzi ödənilməmiş Neft-qaz əməliyyatları məsrəflərinin əvəzini almaq hüququnu itirir.

(e) 3.5 bəndinin müddəalarına xələl gətirmədən, ARDNŞ Sazişə 4.2(c) və 4.3 bəndlərinə əsasən xitam verərsə və ya Podratçı 29.3(b) bəndinə əsasən bütün Kontrakt sahəsindən imtina edərsə, ONŞ 3.5(a) bəndinin müddəalarına uyğun olaraq Maliyyələşdirmə ilə əlaqədar çəkilmiş və bu cür xitamın və yaxud Kontrakt sahəsindən imtinanın tarixinə əvəzi ödənilməmiş məsrəflərin əvəzini Digər Podratçı tərəflərə ödəmək öhdəliyindən azad olunur.

29.4 <u>Digər hüquqi müdafiə vasitələri</u>

20.7, 29.1(b) və 29.3(b) bəndlərinə əməl etmək şərtilə, yuxarıda göstərilmiş müddəalara müvafiq surətdə bu Sazişin qüvvəsinə ya Podratçı, ya da ARDNŞ xitam verdikdə, bu xitamvermə Podratçının və ya ARDNŞ-nin zərər üstündə bir-birinə qarşı arbitraja müraciət etmək, yaxud Podratçının və ya ARDNŞ-nin (şəraitdən asılı olaraq) qanun üzrə malik olduğu hər hansı başqa hüquqi müdafiə vasitəsindən istifadə etmək hüququnu məhdudlaşdırmır.

29.5 <u>Kontrakt sahəsinin bir hissəsindən imtina</u>

Podratçı Kontrakt sahəsinin bir hissəsindən birtərəfli qaydada imtina etmək hüququna malik deyildir. Podratçı Kontrakt sahəsinin hər hansı hissəsinin işlənməməsini qərara alsa, Tərəflər qarşılıqlı surətdə razılaşdırılmış şərtlər əsasında qismən imtina imkanını müzakirə edəcəklər. Podratçı bu 29.5 bəndinin müddəalarına əsasən Kontrakt sahəsinin bir hissəsindən imtina etdikdə onun ixtiyarı yoxdur ki, Kontrakt sahəsinin imtina edilmiş hissəsinə İşlənmə və hasilat dövründə çəkilmiş və belə imtina tarixinədək Əvəzi ödənilməmiş Neft-qaz əməliyyatları məsrəflərinin hər hansı

(d) In the event of termination of this Agreement or relinquishment of the entire Contract Area pursuant to Article 29.3 (a) or (b), without prejudice to any rights which may have accrued, or claims which have been made, prior to such termination, Contractor shall have no further rights to conduct Petroleum Operations or to recover any Petroleum Costs not Cost Recovered by the date of termination.

(e) Without prejudice to provisions of Article 3.5, if SOCAR terminates the Agreement pursuant to Articles 4.2(c) and 4.3, or if Contractor relinquishes the entire Contract Area pursuant to Article 29.3(b), SOA shall not be bound by the obligation to reimburse to the Other Contractor Parties the costs of the Carry incurred in accordance with Article 3.5(a) and which have not been recovered as at the date of such termination or relinquishment.

29.4 <u>Other Remedies</u>

Subject to Articles 20.7, 29.1(b) and 29.3(b), in the event that Contractor or SOCAR terminates this Agreement pursuant to the above provisions, such termination shall be without prejudice to Contractor's or SOCAR's entitlement to arbitrate with the other for damages, or to any other remedy Contractor or SOCAR (as the case may be) may have in law.

29.5 <u>Partial Relinquishment</u>

Contractor shall have no unilateral right to relinquish a part of the Contract Area. In the event Contractor decides not to develop any portions of the Contract Area, the Parties will discuss the possibility of partial relinquishment on mutually agreed terms. In the event of partial relinquishment pursuant to this Article 29.5, Contractor shall have no right to recover out of the production from the remainder of the Contract Area not relinquished, any amount of Petroleum Costs incurred during the Development and Production Period in connection with the portion of the Contract Area relinquished which

həcminin əvəzini Kontrakt sahəsinin imtina edilməmiş hissələrindəki hasilat həcmindən alsın. Kəşfiyyat dövrü və Əlavə kəşfiyyat dövrü ərzində Podratçının çəkdiyi bütün məsrəflərin əvəzi Kontrakt sahəsinin imtina edilməyən hissəsindən əldə edilmiş hasilatdan ödənilməlidir.

has not been recovered at the date of such relinquishment. All costs incurred by Contractor during the Exploration Period and the Additional Exploration Period shall be Cost Recoverable from production from the remainder of the Contract Area which is not relinquished.

MADDƏ 30

DİGƏR MƏSƏLƏLƏR

30.1 Bu Saziş Azərbaycan və ingilis dillərində bağlanmışdır, və Arbitraj qaydasına və 13.1(c) bəndinə əməl edilməsi şərtilə hər iki dildə olan mətnlər bərabər qüvvəyə malikdir.

30.2 Bu Sazişdə başlıqlar yalnız rahatlıq üçün qoyulmuşdur və bu Sazişin təfsiri zamanı nəzərə alınmır.

30.3 Kontekst başqa təfsir tələb etmədikdə, tək halda işlənmiş sözlərə istinadlar cəm halında işlənmiş həmin sözlərə də şamil edilir və əksinə; hər hansı qrammatik cinsə istinad başqa cinsləri də ehtiva edir.

30.4 Bu Sazişin Əlavələri və ARDNŞ-nin Ortaq Neft Şirkətinin yaradılmasına dair Qoşma ("Qoşma") onun ayrılmaz hissələridir. Sazişin əsas hissəsinin müddəaları ilə onun Əlavələri (Sazişin əsas hissəsinin tərkib hissəsi sayılan 1-ci Əlavə istisna edilməklə) arasında hər hansı uyğunsuzluq olduqda əsas hissənin müddəalarına üstünlük verilir.

ARTICLE 30

MISCELLANEOUS

30.1 This Agreement is executed in the Azerbaijani and English languages and, subject to the Arbitration Procedure and Article 13.1(c), both languages shall have equal force.

30.2 The headings in this Agreement are inserted for convenience only and shall be ignored in construing this Agreement.

30.3 Unless the context otherwise requires, references to the singular shall include a reference to the plural and vice-versa; and reference to any gender shall include a reference to all other genders.

30.4 The Appendices to this Agreement and the attached Addendum Relating to the Formation of the SOCAR Oil Affiliate (the "Addendum") form part of this Agreement. In the event of any conflict between the provisions of the main body of this Agreement and the Appendices (other than Appendix 1 which shall be considered part of the main body of the Agreement) or the Addendum, then the provisions of the main body shall prevail.

BUNLARI TƏSDİQ EDƏRƏK, Tərəflərin lazımi səlahiyyətlər verilmiş nümayəndələri bu Sazişi əvvəldə göstərilmiş tarixdə bağladılar.

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ
adından və onun tapşırığı ilə

İmza: _____

Adı: _____

Vəzifə: _____

İmza: _____

Adı: _____

Vəzifə: _____

BP EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED
şirkətinin adından və onun tapşırığı ilə

İmza: _____

Adı: _____

Vəzifə: _____

İmza: _____

Adı: _____

Vəzifə: _____

IN WITNESS WHEREOF the Parties have executed this Agreement as of the date first above written by their duly authorised representatives.

For and on behalf of the
STATE OIL COMPANY OF THE REPUBLIC OF AZERBAIJAN

By: _____

Name: _____

Title: _____

By: _____

Name: _____

Title: _____

For and on behalf of
BP EXPLORATION (AZERBAIJAN) LIMITED

By: _____

Name: _____

Title: _____

By: _____

Name: _____

Title: _____

ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİ
adından və onun tapşırığı ilə

İmza: _____

Adı: _____

Vəzifə: _____

İmza: _____

Adı: _____

Vəzifə: _____

For and on behalf of
SOCAR OIL AFFILIATE

By: _____

Name: _____

Title: _____

By: _____

Name: _____

Title: _____

ƏLAVƏ 1

TƏRİFLƏR

Kontekst başqa təfsir tələb etmirsə, bu Sazişdə işlədilmiş aşağıdakı sözlərin və ifadələrin mənası belədir:

"Ləğvetmə işləri fondu" – mənası 14.2(a) bəndində verilmişdir.

"Mühasibat uçotunun aparılması qaydası" – hesabata aid olan və 3-cü Əlavədə göstərilən iş üsulları və tələblər deməkdir.

"Əlavə kəşfiyyat dövrü" – mənası 4.3 bəndində verilmişdir.

"Ortaq şirkət"

(a) hər hansı Tərəfə aid olanda:

(i) elə şirkət, korporasiya və ya hər hansı başqa hüquqi şəxsdir ki, göstərilən Tərəf həmin şirkətin, korporasiyanın və ya hər hansı digər hüquqi şəxsin ümumi yığıncağında səslərin əlli (50) faizindən çoxunu təmin edən səhmlərin bilavasitə və ya dolayısı ilə sahibidir, yaxud

(ii) elə şirkət, korporasiya və ya hər hansı başqa hüquqi şəxsdir ki, həmin Tərəfin ümumi yığıncağında səslərin əlli (50) faizindən çoxunu təmin edən səhmlərin bilavasitə və ya dolayısı ilə sahibidir, yaxud

(iii) elə şirkət, korporasiya və ya hər hansı başqa hüquqi şəxsdir ki, həmin şirkətin, korporasiyanın və ya hər hansı başqa hüquqi şəxsin ümumi yığıncağında səslərin əlli (50) faizindən çoxunu təmin edən səhmlərin bilavasitə və ya dolayısı ilə sahibi olan şirkət, korporasiya və ya başqa hüquqi şəxs həmin Tərəfin ümumi yığıncağında səslərin əlli (50) faizindən çoxunu təmin edən səhmlərin də bilavasitə və ya dolayısı ilə sahibidir;

APPENDIX 1

DEFINITIONS

In this Agreement the following words and expressions shall have the following meanings unless the context otherwise requires:

"Abandonment Fund" shall have the meaning given to it in Article 14.2(a).

"Accounting Procedure" means the procedures and reporting requirements set forth in Appendix 3.

"Additional Exploration Period" shall have the meaning given to it in Article 4.3.

"Affiliate" means,

(a) in relation to any Party, either

(i) a company, corporation or other legal entity in which such Party holds directly or indirectly shares carrying more than fifty (50) percent of the votes at a general meeting of such company, corporation or other legal entity; or

(ii) a company, corporation or other legal entity holding directly or indirectly shares carrying more than fifty (50) percent of the votes at a general meeting of such Party; or

(iii) a company, corporation or other legal entity of which shares carrying more than fifty (50) percent of the votes at a general meeting of such company, corporation or other legal entity are held directly or indirectly by a company, corporation or other legal entity which also holds directly or indirectly shares carrying more than fifty (50) percent of the votes at a general meeting of such Party;

(b) habelə ARDNŞ-ə aid olanda – hər hansı elə müəssisə və ya təşkilatdır ki, burada ARDNŞ-nin iştirak payı vardır və o, həmin müəssisə və ya təşkilatın fəaliyyətinə nəzarət etmək (9.2(c) bəndində göstərildiyinə uyğun olaraq), onu idarə etmək və ya istiqamətləndirmək hüququna malikdir.

(b) and, furthermore, in relation to SOCAR, any venture or enterprise in which SOCAR has an interest and the right to control (as defined in Article 9.2(c)), manage or direct the action thereof.

"Saziş" – bu sənəd, ona aid 1–10-cu Əlavələr və ARDNŞ-nin Ortaq Neft Şirkətinin yaradılmasına dair Qoşma, eləcə də Tərəflərin qarşılıqlı surətdə razılaşdıra və imzalaya biləcəkləri hər cür yazılı əlavələr, təzələmələr, əvəzetmələr və ya dəyişikliklər deməkdir.

"Agreement" means this instrument and its Appendices 1 to 10, the Addendum Relating to the Formation of the SOCAR Oil Affiliate, together with any written extensions, renewals, replacement or modifications hereto which may be mutually agreed and signed by the Parties.

"İllik iş proqramı" – Təqvim ili ərzində həyata keçirilməli olan və Rəhbər komitə tərəfindən təsdiq edilən Neft-qaz əməliyyatları proqramının bənd-bənd şərh olunduğu sənəd deməkdir.

"Annual Work Programme" means the document describing, item by item, the Petroleum Operations to be carried out during a Calendar Year which has been approved by the Steering Committee.

"Arbitraj qaydası" – 6-cı Əlavədə verilən arbitraj araşdırmaları qaydası deməkdir.

"Arbitration Procedure" means the arbitration procedure set forth in Appendix 6.

"Təbii səmt qazı" – layda olan, Xam neftdə həll olunmuş Təbii qaz deməkdir; belə Xam neft kəşf edildiyi anda hər Barreli üçün on min (10.000) standart kub futdan artıq olmayan qaz amili ilə çıxarılır və qazın neftdən ayrıldığı məntəqədə ölçülür.

"Associated Natural Gas" means Natural Gas which exists in a reservoir in solution with Crude Oil, such Crude Oil being producible, as initially discovered, at a gas oil ratio of not greater than ten thousand (10,000) standard cubic feet per Barrel of Crude Oil as measured at the point of separation of gas from oil.

"Azərbaycan təchizatçıları" – mənası 18.1(a) bəndində verilmişdir.

"Azerbaijani Supplier(s)" shall have the meaning given to it in Article 18.1(a).

"Barrel" – ABŞ barreli, yəni Normal temperatur və təzyiq şəraitində ölçülmüş 42 ABŞ qallonu (158,987 litr) deməkdir.

"Barrel" means U.S. barrel, i.e. 42 U.S. gallons (158.987 litres) measured at STP.

"Bonus" – Kontrakt sahəsindən istifadə hüququna malik olmaq üçün 28.1 bəndinə əsasən ödənilən haqq deməkdir.

"Bonus" means a payment for the right to access Contract Area payable pursuant to Article 28.1.

"Büdcə" – İllik iş proqramına daxil edilmiş bütün Neft-qaz əməliyyatlarına çəkilən xərclərin maddə-maddə hesablanması deməkdir.

"Budget" means estimates of itemised expenditures of all Petroleum Operations included in an Annual Work Programme.

“Təqvim rübü” – hər hansı Təqvim ilində yanvarın 1-də, aprelin 1-də, iyulun 1-də və ya oktyabrın 1-də başlanan üç (3) ardıcıl aydan ibarət dövr deməkdir.

“Təqvim ili” – Qriqori təqvimi üzrə yanvarın 1-də başlanan və ondan sonrakı dekabrın 31-də qurtaran on iki (12) ardıcıl aydan ibarət dövr deməkdir.

“Əsaslı məsrəflər” – Əməliyyat məsrəfləri istisna olmaqla Kontrakt sahəsində və ya onunla əlaqədar çəkilmiş məsrəflər (kəşfiyyat quyularının qazılması və sınağı, habelə qazıma qurğusunun və/və ya digər obyektlərin/vasitələrin və infrastrukturun yeniləşdirilməsi, təmiri və ya quraşdırılması ilə bağlı məsrəflər daxil olmaqla, lakin bunlarla məhdudlaşmadan) deməkdir.

“Əsaslı məsrəflərin ödənilməsi üçün Karbohidrogenlər” – mənası 11.2(a)(ii) bəndində verilmişdir.

“Maliyyələşdirmə” – mənası 3.5(a) bəndində verilmişdir.

“Sənaye hasilatının başlanma tarixi” – Sərbəst təbii qazın Kəşfinə münasibətdə Podratçı tərəfindən Kontrakt sahəsindən sənaye üsulu ilə əldə edilmiş hasilatın Təbii qazın alqı-satqısı müqaviləsinə əsasən altmış (60) ardıcıl gün ərzində çatdırıldığı tarix; Xam neftin Kəşfinə münasibətdə isə daha gec baş vermiş aşağıdakı tarixlərdən biri: (i) Podratçının sənaye üsulu ilə hasil etdiyi Xam neftin gündəlik orta həcminin altmış (60) ardıcıl gün ərzində on iki min (12.000) Barel səviyyəsində sabit qaldığı tarix, və ya (ii) Podratçının iki (2) istismar quyusundan sənaye hasilatının altmış (60) ardıcıl gün ərzində sabit qaldığı tarix deməkdir.

“Kontrakt sahəsi” – bu sənədə 2-ci Əlavədə verilmiş təsviri və konturları əhatə edən sahə (bu Sazişin qüvvədə olacağı bütün müddət ərzində hər vaxt işlənilə bilən, səthdən tutmuş qazmanın texniki cəhətdən mümkün olan bütün dərinliklərinədək) deməkdir.

“Podratçı” – birlikdə bütün Podratçı tərəflər deməkdir.

“Calendar Quarter” means a period of three (3) consecutive months commencing on the 1st of January, the 1st of April, the 1st of July, or the 1st of October in any Calendar Year.

“Calendar Year” means a period of twelve (12) consecutive months beginning on the 1st of January and ending on the following 31st of December according to the Gregorian Calendar.

“Capital Costs” means those costs incurred in or in relation to the Contract Area other than Operating Costs (including without limitation costs related to the drilling and testing of exploration wells and the upgrade, refurbishment or construction of a drilling rig and/or other facilities and infrastructure).

“Capital Cost Recovery Petroleum” shall have the meaning given to it in Article 11.2(a)(ii).

“Carry” shall have the meaning given to it in Article 3.5(a).

“Commencement Date of Commercial Production” means, in respect of a Non-associated Natural Gas Discovery, the date upon which commercial production from the Contract Area conducted by Contractor has been delivered for sixty (60) consecutive days under a Natural Gas Sale and Purchase Agreement; and in respect of a Crude Oil Discovery, the later of the following: (i) the date upon which commercial production conducted by Contractor at a stable average daily rate of twelve thousand (12,000) Barrels of Crude Oil has been sustained for a period of sixty (60) consecutive days, or (ii) the date upon which commercial production conducted by Contractor from two (2) production wells has been sustained at a stable production rate for a period of sixty (60) consecutive days.

“Contract Area” means the area (from the surface to any and all depths accessible to drilling technology as may be developed at any time during the term of this Agreement and as may be extended) as described and delineated in Appendix 2.

“Contractor” means all of the Contractor Parties collectively.

“Podratçının obyektləri” – mənası 9.3 bəndində verilmişdir.

“Podratçı tərəflər” – birlikdə BP, ONŞ və/və ya onların hər hansı hüquq varisləri və mümkün müvəkkilləri deməkdir.

“Podratçı tərəf” – BP və ya ONŞ və/və ya onların hər hansı hüquq varisləri və mümkün müvəkkilləri deməkdir.

“Konversiya əmsalı” – mənası 28.1(e) bəndində verilmişdir.

“Məsrəflərin əvəzinin ödənilməsi” – Podratçının Neft-qaz əməliyyatlarına məsrəflərinin əvəzinin ödənilməsi üçün Kontrakt sahəsində hasil edilmiş Karbohidrogenlər payının Podratçıya ayrılması prosesi deməkdir; **“Əvəzi ödənilən məsrəflər”** dedikdə gələcəkdə əvəzi ödəniləsi məsrəflər, **“Əvəzi ödənilmiş məsrəflər”** dedikdə isə əvəzi ödənilib qurtarmış məsrəflər başa düşülür.

“Məsrəflərin əvəzinin ödənilməsi üçün Karbohidrogenlər” – mənası 11.3 bəndində verilmişdir.

“Xam neft” – xam mineral neft, kondensat, neft bitumu, ozokerit və təbii şəkildə olan, yaxud kondensasiya və ya ekstraksiya vasitəsilə Təbii qazdan alınmış bərk və ya maye karbohidrogenlərin, yaxud bitumun xüsusi çəkisindən asılı olmayaraq bütün növləri, o cümlədən Normal temperatur və təzyiq şəraitində Təbii qazdan alınan qaz kondensat mayeləri və eləcə də yuxarıda adları çəkilən maddələrdən emal edilmiş və ya işlənmiş məhsullar deməkdir.

“Çatdırılma məntəqəsi” – Karbohidrogenlərin sahildəki emalı və saxlama terminalında qoyulmuş çıxış flansındakı məsrəfölçən cihaz, və ya dəmir yolu yükləmə sisteminin yük tərəziləri, əgər Podratçı onlardan işlənmə obyektləri kimi istifadə etmək qərarına gələrsə, yaxud Bakıdan ixrac sisteminin giriş flansı (BTC ixrac kəmərinin giriş flansı daxil olmaqla, lakin bununla məhdudlaşmadan), və ya quyunun ağzı ilə yuxarıda qeyd edilən çıxış flansı arasında Podratçının tövsiyələri əsasında Rəhbər komitə tərəfindən vaxtaşırı təyin edilən hər hansı digər nöqtə, yaxud nöqtələr deməkdir.

“Contractor Facilities” shall have the meaning given to it in Article 9.3.

“Contractor Parties” means collectively BP and SOA and/or any of their successors or permitted assignees.

“Contractor Party” means any one of BP and SOA and/or any of their successors or permitted assignees.

“Conversion Factor” shall have the meaning given to it in Article 28.1(e).

“Cost Recovery” means the process by which Contractor is allocated Petroleum production from the Contract Area for the recovery of its Petroleum Costs. **“Cost Recoverable”** means such costs to be recovered in the future and **“Cost Recovered”** means such costs recovered in the past.

“Cost Recovery Petroleum” shall have the meaning given to it in Article 11.3.

“Crude Oil” means crude mineral oil, condensate, asphalt, ozocerite, and all kinds of hydrocarbons and bitumen regardless of gravity, either solid or liquid, in their natural condition or obtained from Natural Gas by condensation or extraction, including Natural Gas liquids at STP and including products refined or processed from any of the forgoing.

“Delivery Point” means the custody transfer meter at the outlet flange of the onshore Petroleum processing and storage terminal, or at the weighbridge of a rail loading system if Contractor elects to have it developed as part of the upstream facilities, or at the entry flange in an export system from Baku (including, but not limited to the inlet of the BTC pipeline) and any other place or places between well head and the said outlet flange as may be decided upon by the Steering Committee from time to time based on recommendations made by Contractor.

"Layihə standartları" – 8-ci Əlavədə verilmiş layihə standartları və texniki şərtlər deməkdir.

"İşlənmə və istismar dövrü" – mənası 4.5 bəndində verilmişdir.

"İşlənmə proqramı" – mənası 4.6 bəndində verilmişdir.

"Kəşf" – Kontrakt sahəsində yerləşən Karbohidrogen yatağının kəşfi deməkdir.

"Dollar" və ya **"$"** – Amerika Birləşmiş Ştatlarının valyutası deməkdir.

"İkiqat vergitutmanın aradan qaldırılması haqqında müqavilə" – gəlirlərdən ikiqat vergi tutulmasının aradan qaldırılması üçün Azərbaycan Respublikasına tətbiq edilə bilən hər hansı Vergilərə aid konvensiya və ya müqavilə deməkdir.

"Qüvvəyəminmə tarixi" – mənası 25.1 bəndində verilmişdir.

"Ətraf mühitin mühafizəsi standartları" – 26.1 bəndində nəzərdə tutulduğu kimi Podratçı, ARDNŞ və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında razılaşdırılmış digər standartlar və metodlarla əvəz olunana qədər 9-cu Əlavədə göstərilən standartlar və metodlar deməkdir.

"Bağlanma tarixi" – Sazişin əvvəlində göstərilən və Tərəflərin səlahiyyətli nümayəndələri Sazişi imzaladıqları tarix deməkdir.

"Kəşfiyyat dövrü" – mənası 4.1 bəndində verilmişdir.

"Kəşfiyyat işləri proqramı" – 10-cu Əlavədə qeyd olunmuş kəşfiyyat işləri deməkdir.

"Maliyyə məsrəfləri" – LİBOR məbləğinin dörddə bir hissəsinin üstəgəl illik dörd (4) faizin hər Təqvim rübünün axırında Əsaslı məsrəflərin və Əməliyyat məsrəflərinin ödənilməmiş saldosu ilə hasili deməkdir.

"Design Standards" means the design standards and specifications set forth in Appendix 8.

"Development and Production Period" shall have the meaning given to it in Article 4.5.

"Development Programme" shall have the meaning given to it in Article 4.6.

"Discovery" means a discovery within the Contract Area of an accumulation of Petroleum.

"Dollars" or **"$"** means the currency of the United States of America.

"Double Tax Treaty" means any treaty or convention with respect to Taxes which is applicable to the Republic of Azerbaijan for the avoidance of double taxation of income.

"Effective Date" shall have the meaning given to it in Article 25.1.

"Environmental Standards" means the environmental standards and practices set forth in Appendix 9 until substituted by other standards and practices agreed between Contractor, SOCAR and the Ministry of Ecology and Natural Resources of the Republic of Azerbaijan or its successor, as provided in Article 26.1.

"Execution Date" means the date first above written in the Agreement on which duly authorised representatives of the Parties have executed the Agreement.

"Exploration Period" shall have the meaning given to it in Article 4.1.

"Exploration Work Programme" shall mean the exploration work set out in Appendix 10.

"Finance Costs" means a charge of one-quarter of the sum of LIBOR plus four (4) percent multiplied by the unrecovered balances of Capital Costs and Operating Costs at the end of each Calendar Quarter.

“Fors-major halları” – mənası 21.1 bəndində verilmişdir.

“Sərbəst dönərli valyuta” – Dollar və/yaxud beynəlxalq bank birliyində hamılıqla qəbul edilmiş digər sərbəst dönərli xarici valyuta deməkdir.

“Xarici Subpodratçı” – Azərbaycan Respublikası hüdudlarından kənarda qeydə alınmış, qanuni yolla yaradılmış, yaxud təşkil edilmiş hər hansı hüquqi şəxs və ya təşkilat deməkdir.

“ÜDM deflyatorunun indeksi” – ABŞ-ın ümumi daxili məhsulu üçün qiymətlər deflyasiyasının indeksi deməkdir və o, ABŞ Ticarət Nazirliyinin İqtisadi Təhlil Burosu (İTB) tərəfindən "Müasir təsərrüfat fəaliyyətinin icmalı" adlı rüblük nəşrdə elan edilir. Bu nəşrin buraxılışı dayandırıldıqda Tərəflər Beynəlxalq Valyuta Fondunun "Beynəlxalq maliyyə statistikası" nəşrindən, yaxud Tərəflər arasında qarşılıqlı razılığa görə digər münasib nəşrdən istifadə edəcəklər.

“Hökumət orqanı” və ya **“Hökumət orqanları”** – Azərbaycan Respublikasının Hökuməti və onun hər hansı siyasi və ya digər orqanı, o cümlədən yerli hökumət orqanları, bələdiyyələr, habelə hər cür başqa təmsiledici orqanlar, baş idarələr və ya idarə etmək, qanunlar və qaydalar qəbul etmək, vergilər və ya rüsumlar qoymaq və ya tutmaq, lisenziyalar və icazələr vermək, Sazişlə əlaqədar ARDNŞ-nin və/yaxud Podratçının hər hansı hüquqlarını, öhdəliklərini və ya fəaliyyətini təsdiq etmək, yaxud bunlara başqa tərzdə birbaşa və ya dolayısı ilə (maliyyə sahəsində və ya digər sahədə) təsir etmək səlahiyyətləri verilmiş hakimiyyət orqanları deməkdir. Bu Sazişə əsasən razılıq əldə edilmişdir ki, yalnız 20.2 və 26.6(a) bəndlərindəki məqsədlər baxımından hər hansı dövlət müəssisəsi, eləcə də ancaq kommersiya, yaxud digər təsərrüfat fəaliyyəti ilə məşğul olan (və heç bir hökumət funksiyası daşımayan, habelə heç bir qanunvericilik, tənzimləyici və ya vergi funksiyasına malik olmayan) hər hansı bələdiyyə orqanı "Hökumət orqanı" məfhumuna daxil deyil.

“Hökumətin Təminatı” – 5-ci Əlavədə göstərilən formada Azərbaycan Respublikası Hökumətinin Təminatı və Öhdəlikləri deməkdir.

“Force Majeure” shall have the meaning given to it in Article 21.1.

“Foreign Exchange” means Dollars and/or other freely convertible foreign currency generally accepted in the international banking community.

“Foreign Sub-contractor” means a Sub-contractor which is an entity or organisation which is incorporated, legally created or organised outside the Republic of Azerbaijan.

“GDP Deflator Index” means the Implicit Price Deflator Index for United States Gross Domestic Product issued by the Bureau of Economic Analysis (BEA) of the United States Department of Commerce, as reported in the quarterly publication “Survey of Current Business”. If this publication ceases to exist the Parties shall use “International Financial Statistics” of the International Monetary Fund, or other suitable publication as mutually agreed by the Parties.

“Governmental Authority” or **“Governmental Authorities”** means the government of the Republic of Azerbaijan and any political or other subdivision thereof, including any local government, municipality, or other representative, agency or authority, which has the authority to govern, legislate, regulate, levy or collect taxes or duties, grant licenses and permits, approve or otherwise impact (whether financially or otherwise), directly or indirectly, any of SOCAR’s and/or Contractor’s rights, obligations or activities under the Agreement. For the purpose of Articles 20.2 and 26.6(a) only, it is agreed that any state enterprise, as well as any municipal body, which is engaged solely in the conduct of commercial or other business activities (and is not engaged in any act of governing and does not possess any legislative, regulatory or taxing functions), shall be excluded from the definition of “Governmental Authority”.

“Government Guarantee” means the Guarantee and Undertaking of the Government of the Republic of Azerbaijan in the form set forth in Appendix 5.

“Karbohidrogen fəaliyyəti” – mənası 12.1(c)(iii) bəndində verilmişdir.

“Hydrocarbon Activities” shall have the meaning given to it in Article 12.1(c)(iii).

“Birgə əməliyyat sazişi” və ya **“BƏS” –** mənası 6.1 bəndində verilmişdir.

“Joint Operating Agreement” or **“JOA”** shall have the meaning given to it in Article 6.1.

“LİBOR” – London banklararası depozitlər bazarında üç (3) aylıq Dollar təklifləri dərəcəsinin Təqvim rübü dövrü üçün orta ədədi qiyməti kimi hesablanan faiz dərəcəsi deməkdir; bu dərəcə hər gün Londonun "Faynənşl Tayms" (Financial Times) qəzetində dərc edilir ("Faynənşl Tayms" qəzetinin nəşri dayandırıldıqda, dərəcənin elan olunduğu mənbə Tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilir).

“LIBOR” means a rate of interest calculated from the arithmetic average over a Calendar Quarter period of the three (3) month Dollar London Interbank offer rate quoted daily in the London Financial Times (or in the event that the London Financial Times ceases to be published then such other publication as the Parties shall agree).

“Köklü pozuntu” – mənası 29.1(a) bəndində verilmişdir.

“Material Breach” shall have the meaning given to it in Article 29.1(a).

“Ölçmə qaydası” – Xam neftin və Təbii qazın qiymətləndirilməsinin və həcmlərinin ölçülməsinin 7-ci Əlavədə göstərilmiş qaydası deməkdir.

“Measurement Procedure” means the Crude Oil and Natural Gas Measurement and Evaluation Procedure set forth in Appendix 7.

“Təbii qaz” – Normal temperatur və təzyiq şəraitində qazaoxşar fazada olan bütün karbohidrogenlər, o cümlədən yağlı qazdan maye karbohidrogenlər ekstraksiya və ya separasiya edildikdən sonra qalan səmt qazı və quru qaz, habelə karbohidrogen mənşəli olmayan bütün qazlar və ya qazaoxşar karbohidrogenlərlə birlikdə hasil edilən digər maddələr (o cümlədən, lakin bunlarla məhdudlaşdırılmadan, karbon qazı, kükürd və helium) deməkdir, bu şərtlə ki, kondensasiya və ya ekstraksiya edilmiş maye karbohidrogenlər bu tərifə daxil olmasın.

“Natural Gas” means all hydrocarbons that are in a gaseous phase at STP including but not limited to casing head gas and residue gas remaining after the extraction or separation of liquid hydrocarbons from wet gas, and all non-hydrocarbon gas or other substances (including but not limited to carbon dioxide, sulphur and helium) which are produced in association with gaseous hydrocarbons; provided that this definition shall exclude condensed or extracted liquid hydrocarbons.

“Təbii qazın alqı-satqısı müqaviləsi” və ya **“TQASM”** – Təbii qaz Kəşfindən Podratçının payına düşən Təbii qaz həcmlərinin ixrac alqı-satqısına dair Podratçı tərəfindən bağlanmış istənilən müqavilə deməkdir.

“Natural Gas Sale and Purchase Agreement” or **“NGSPA”** means any Natural Gas export sale and purchase agreement entered into by Contractor in respect of its entitlement to Natural Gas from a Natural Gas Discovery.

“Sərbəst təbii qaz” – Təbii səmt qazı olmayan Təbii qaz deməkdir.

“Non-associated Natural Gas” means Natural Gas other than Associated Natural Gas.

“Kəşf və onun kommersiya dəyəri haqqında bildiriş” – mənası 4.4 bəndində verilmişdir.

“Notice of Discovery and its Commerciality” shall have the meaning given to it in Article 4.4.

“Əməliyyat şirkəti” – 6-cı Maddəyə uyğun olaraq Podratçının adından Neft-qaz əməliyyatları aparmaq üçün müəyyən məqamda təyin edilmiş

“Operating Company” means a company appointed for the time being to conduct Petroleum Operations on behalf of Contractor in accordance with

şirkət, o cümlədən bu Sazişin və BƏS-in şərtlərinə uyğun olaraq yaradılmış və Əməliyyat şirkəti kimi təyin edilmiş birgə Əməliyyat şirkəti deməkdir.

Article 6, including a joint Operating Company from the time of its incorporation and appointment as the Operating Company in accordance with the terms and conditions of this Agreement and the JOA.

"Əməliyyat məsrəfləri" – Kontrakt sahəsində və ya onunla əlaqədar gündəlik Neft-qaz əməliyyatları çərçivəsində bilavasitə, yaxud dolayısı ilə çəkilmiş məsrəflər, o cümlədən Karbohidrogenlərin çıxarılmasına, təmizlənməsinə, oyadılmasına, təzyiq göstərilməsinə, toplanmasına, emalına, saxlanmasına, hazırlanmasına, yola salınmasına və Çatdırılma məntəqəsinədək nəql edilməsinə, texniki xidmətə/təmirə, xidmətlərə və inzibati idarəetməyə çəkilən məsrəflər, habelə ləğvetmə işləri ilə bağlı ödənişlər, o cümlədən Ləğvetmə işləri fonduna ayırmalar deməkdir.

"Operating Costs" means those costs incurred in day to day Petroleum Operations in or in relation to the Contract Area whether directly or indirectly incurred, including but not limited to extraction, treatment, stimulation, injection, gathering, processing, storage, handling, lifting and transportation of Petroleum to the Delivery Point, maintenance, service, administration, and payments incurred in respect of abandonment including payments to the Abandonment Fund.

"Digər Podratçı tərəflər" – ONŞ və onun yüz (100) faiz ARDNŞ-ə məxsus və onun tərəfindən idarə olunan hüquq varisləri və mümkün müvəkilləri istisna olmaqla, birlikdə bütün Podratçı tərəflər deməkdir.

"Other Contractor Parties" means collectively all Contractor Parties at any time except for SOA or its successors and permitted assignees that are one hundred (100) percent owned and controlled by SOCAR.

"İştirak payı" – mənası 1.1 bəndində verilmişdir.

"Participating Interest" shall have the meaning given to it in Article 1.1.

"Tərəflər" – ARDNŞ, BP və ONŞ, habelə və müvafiq olaraq onların hər hansı hüquq varisləri və mümkün müvəkkilləri deməkdir.

"Parties" means SOCAR, BP and SOA and any of their respective successors and permitted assignees.

"Tərəf" – Tərəflərdən hər hansı biri deməkdir.

"Party" means any of the Parties.

"Karbohidrogenlər" – Xam neft və Təbii qaz deməkdir.

"Petroleum" means Crude Oil and Natural Gas.

"Neft-qaz əməliyyatları məsrəfləri" – Əməliyyat məsrəfləri və Əsaslı məsrəflər deməkdir, Neft-qaz əməliyyatları məqsədləri üçün Podratçının faktik çəkdiyi bütün məsrəfləri əhatə edir. Sazişdə (i) Neft-qaz əməliyyatları məsrəfləri kimi dəqiq göstərilmiş məbləğlərin istisnasız olaraq hamısı (o cümlədən, lakin bununla məhdudlaşdırılmadan, 18.3 bəndində müəyyən edilmiş məbləğlər), habelə (ii) Mühasibat uçotunun aparılması qaydasına müvafiq surətdə Neft-qaz əməliyyatları hesabına lazımi şəkildə köçürülmüş məbləğlər Neft-qaz əməliyyatları məsrəflərinə daxildir.

"Petroleum Costs" means Operating Costs and Capital Costs and shall include all expenditures actually incurred by Contractor for the purposes of the Petroleum Operations. Petroleum Costs shall include, without limitation, (i) the amounts expressly identified in the Agreement as Petroleum Costs (including but not limited to the amounts identified in Article 18.3) and (ii) the amounts properly debited to the Petroleum Operations Account in accordance with the Accounting Procedure.

"Neft-qaz əməliyyatları" – Karbohidrogenlərin kəşfiyyatı, qiymətləndirilməsi, işlənməsi, çıxarılması, hasilatı, sabitləşdirilməsi, hazırlanması (o cümlədən Təbii qazın hazırlanması), oyadılması, təzyiq göstərilməsi, toplanması, saxlanması, yükvurma avadanlıqları üçün dəmir

"Petroleum Operations" means all operations relating to the exploration, appraisal, development, extraction, production, stabilisation, treatment (including processing of Natural Gas), stimulation, injection, gathering, storage, building rail or roads for loading facilities, building connecting

yolların və ya avtomobil yollarının çəkilməsi, dəmir yol şəbəkəsi və ya mövcud boru kəmərləri üçün birləşdirici giriş məntəqələrin tikilməsi, yüklənib göndərilməsi, Çatdırılma məntəqəsinədək nəql edilməsi və Kontrakt sahəsində hasil edilmiş Karbohidrogenlərin marketinqi və Kontrakt sahəsində ləğvetmə işləri ilə bağlı bütün əməliyyatlar deməkdir.

entry point to the rail network or to existing pipelines, handling, lifting, transporting Petroleum to the Delivery Point and marketing of Petroleum from, and abandonment operations with respect to the Contract Area.

"Neft-qaz əməliyyatları hesabı" – Mühasibat uçotunun aparılması qaydasının 1.2 bəndində verilmişdir.

"Petroleum Operations Account" shall have the meaning given to it in paragraph 1.2 of the Accounting Procedure.

"Satış məntəqəsi" – mənası 13.1(e)(iii) bəndində verilmişdir.

"Point of Sale" shall have the meaning given to it in Article 13.1(e)(iii).

"Mənfəət Karbohidrogenləri" – mənası 11.5 bəndində verilmişdir.

"Profit Petroleum" shall have the meaning given to it in Article 11.5.

"Mənfəət vergisi" – mənası 12.2(a) bəndində verilmişdir.

"Profit Tax" shall have the meaning given to it in Article 12.2(a).

"Mənfəət vergisi dərəcəsi" – mənası 12.1(c)(v) bəndində verilmişdir.

"Profit Tax Rate" shall have the meaning given to it in Article 12.1(c)(v).

"Normal temperatur və təzyiq şəraiti" – Farengeyt üzrə altmış dərəcə/Selsi üzrə on beş tam yüzdə əlli altı dərəcə (60°F/15,56°C) normal temperatur və 1,01325 bar normal atmosfer təzyiqi deməkdir.

"Standard Temperature and Pressure" or **"STP"** means the standard temperature and atmospheric pressure of sixty degrees Fahrenheit/fifteen point five six degrees Centigrade (60°F/15.56°C) and 1.01325 bars.

"Dövlət büdcəsi" – mənası 12.1(c)(i) bəndində verilmişdir.

"State Budget" shall have the meaning given to it in Article 12.1(c)(i).

"Rəhbər komitə" – 5.1 bəndinə müvafiq olaraq yaradılan komitə deməkdir.

"Steering Committee" means the committee established pursuant to Article 5.1.

"Subpodratçı" – Podratçı və ya Əməliyyat şirkəti ilə birbaşa və ya vasitəli müqavilə üzrə, yaxud onların adından bu Sazişlə əlaqədar mallar göndərən, işlər görən, yaxud xidmətlər göstərən hər hansı fiziki və ya hüquqi şəxs deməkdir.

"Sub-contractor" means any natural person or juridical entity contracted directly or indirectly by or on behalf of Contractor or by or on behalf of the Operating Company, to supply goods, work or services related to this Agreement.

"Vergi qoyulan mənfəət" – mənası 12.2(e) bəndində verilmişdir.

"Taxable Profit" shall have the meaning given to it in Article 12.2(e).

"Vergilər" – hər hansı Hökumət orqanına ödənilən, yaxud onun tərəfindən alınan bütün mövcud və ya gələcək rüsumlar, gömrüklər, tədiyələr, qonorarlar, vergilər və ya haqlar deməkdir.

"Taxes" means all existing or future levies, duties, payments, fees, taxes or contributions payable to or imposed by any Governmental Authority.

"Vergi orqanı" – mənası 12.1(c)(iv) bəndində verilmişdir.

"Tax Authority" shall have the meaning given to it in Article 12.1(c)(iv).

"Üçüncü tərəf" elə fiziki və ya hüquqi şəxs deməkdir ki, o, Tərəf və ya hər hansı Tərəfin Ortaq şirkəti deyil.

"Ton" – metrik ton, yəni Sevr (Fransa) Beynəlxalq Ölçü və Çəki Bürosunun müəyyən etdiyi kimi, min (1000) kiloqramlıq kütlə deməkdir.

"Ümumi hasilat həcmi" – 11.1 bəndinin müddəalarına uyğun olaraq Neft-qaz əməliyyatları üçün işlədilmiş həcmlər çıxılmaqla hər hansı Təqvim rübündə Kontrakt sahəsindən alınmış Xam neft və Sərbəst təbii qaz hasilatının ümumi həcmi deməkdir.

"Nəqletmə itkiləri" – mənası 13.1(e)(iv) bəndində verilmişdir.

"Əsas ana şirkət" – BP-yə aid olduqda İngiltərədə qeydə alınmış BP Eksploreyşn Opereytinq Kompani Limited şirkəti; ONŞ-ə aid olduqda Azərbaycan Respublikasında qeydə alınmış ARDNŞ; və hər hansı digər Podratçı tərəfə aid olduqda bu Podratçı tərəfin əsas ana şirkəti və hər hansı belə Əsas ana şirkətinin hüquq varisi deməkdir.

"Əsas ana şirkətin təminatı" – 4-cü Əlavədə göstərilən nümunə üzrə Əsas ana şirkət tərəfindən verilən təminat deməkdir.

"Ödənilməmiş balans" – mənası 3.5(b) bəndində verilmişdir.

"ƏDV" – Azərbaycan Respublikasının əlavə dəyər vergisi deməkdir.

"Qərəzli xəta" – 23.3 bəndinə əsasən arbitraj araşdırması nəticəsində müəyyən olunan, beynəlxalq neft-qaz sənayesi təcrübəsində qəbul edilmiş yaxşı və qənaətləndirici üsullara və ya bu Sazişin şərtlərinə qəsdən, qərəzlə və şüurlu surətdə etinasızlıq demək olan hər hansı fəaliyyət və fəaliyyətsizlik deməkdir.

"Sıfır balansı" – İşlənmə və hasilat dövrünə başlandıqdan sonra Mühasibat uçotunun aparılması qaydasına müvafiq surətdə Əsaslı məsrəflərin ödənilməsi ilə əlaqədar Podratçının apardığı hesabda sıfır balansının əldə edilməsi deməkdir. İlk dəfə Sıfır balansı əldə edildikdən sonra, 14.1 bəndindəki məqsədlər üçün Əsaslı məsrəflər əsas büdcə kateqoriyaları üzrə təsnif edilir.

"Third Party" means a natural person or juridical entity, other than a Party hereto or an Affiliate of a Party.

"Tonne" means metric ton, i.e. one thousand (1000) kilograms as defined by the International Bureau of Weights and Measures, Sevres, France.

"Total Production" means, for any Calendar Quarter, the total production of Crude Oil and Non-associated Natural Gas obtained from the Contract Area, less the quantities used pursuant to Article 11.1 for Petroleum Operations.

"Transit Losses" shall have the meaning given to it in Article 13.1(e)(iv).

"Ultimate Parent Company" means in relation to BP, BP Exploration Operating Company Limited, a company incorporated in England; in the case of SOA, SOCAR, a company incorporated in the Republic of Azerbaijan; and in the case of any other Contractor Party, such Contractor Party's ultimate parent company and the successor of any such Ultimate Parent Company.

"Ultimate Parent Company Guarantee" means the guarantee given by an Ultimate Parent Company in the form set forth in Appendix 4.

"Unrecovered Balance" shall have meaning given to it in Article 3.5(b).

"VAT" means the Republic of Azerbaijan value added tax.

"Wilful Misconduct" means any unjustifiable act or omission which constitutes an intentional, deliberate and conscious disregard of good and prudent international oil field practices or the terms of this Agreement as determined by arbitration pursuant to Article 23.3.

"Zero Balance" means the achievement after the commencement of the Development and Production Period of zero balance in the accounts maintained by Contractor with respect to Capital Costs in accordance with the Accounting Procedure. After the occurrence of the first Zero Balance for the purposes of Article 14.1, Capital Costs thereafter will be classified by main budget category.

ƏLAVƏ 2

KONTRAKT SAHƏSİ VƏ XƏRİTƏ

Bu Sazişin imzalandığı tarixdə Kontrakt sahəsi aşağıda göstərilmiş və əlavə edilən xəritədə ayrıca nişanlanmış coğrafi koordinatların əmələ gətirdiyi perimetr daxilində olan sahədir.

Kontrakt sahəsi Krasovskiy referens-ellipsoidinə əsaslanan 1942-ci il Pulkovo koordinat sisteminə bağlanmış və aşağıdakı təyinedici parametrləri olan Qauss-Krüger proyeksiyasında düzbucaqlı xətlərlə hüdudlanmışdır:

Başlanğıc en dairəsi:	0 dərəcə şimal en dairəsi
Başlanğıc uzunluq dairəsi:	51 dərəcə şərq uzunluq dairəsi
Başlanğıc miqyas əmsalı:	1,0
Dərəcə şəbəkəsinin ilkin koordinatları:	500.000 m şərqə doğru uzunluq dairəsi, 0 m şimala doğru en dairəsi

Dərəcə şəbəkəsi vahidi – metr.

Kontrakt sahəsinin on (10) bucağı üzrə coğrafi koordinatları:

1942-ci il Pulkovo koordinat sistemi

Nöqtə	En dairəsi (şimal)	Uzunluq dairəsi (şərq)
1	39° 39' 24"	50° 57' 03"
2	39° 34' 53"	51° 04' 40"
3	39° 24' 13"	51° 01' 53"
4	39° 22' 24"	50° 49' 07"
5	39° 17' 15"	50° 42' 02"
6	39° 16' 19"	50° 35' 47"
7	39° 20' 37"	50° 31' 21"

APPENDIX 2

CONTRACT AREA AND MAP

As of the date of execution of the Agreement, the Contract Area is the area inside the perimeter constituted by the geographical co-ordinates set forth below and as separately identified on the map attached hereto.

The Contract Area is bounded by straight lines on a Gauss-Kruger projection which is referenced to Pulkovo 1942 geodetic datum, Krassovski ellipsoid, and with defining parameters of:

Latitude of Origin:	0 degrees North
Longitude of Origin:	51 degrees East
Scale Factor at Origin:	1.0
Grid co-ordinates at Origin:	500,000 metres East, 0 metres North

Grid units are meters.

Geographic co-ordinates for the ten (10) corners of the Contract Area are:

Pulkovo 1942 Datum

Point	Latitude (North)	Longitude (East)
1	39° 39' 24"	50° 57' 03"
2	39° 34' 53"	51° 04' 40"
3	39° 24' 13"	51° 01' 53"
4	39° 22' 24"	50° 49' 07"
5	39° 17' 15"	50° 42' 02"
6	39° 16' 19"	50° 35' 47"
7	39° 20' 37"	50° 31' 21"


8	39° 25' 41"	50° 32' 59"
9	39° 30' 46"	50° 42' 31"
10	39° 35' 23"	50° 48' 51"

Yuxarıda göstərilən Kontrakt sahəsinin ərazisi min əlli doqquz (1059) kvadrat kilometrdir.

8	39° 25' 41"	50° 32' 59"
9	39° 30' 46"	50° 42' 31"
10	39° 35' 23"	50° 48' 51"

The surface of the Contract Area above defined is one thousand and fifty nine (1,059) square kilometres.

Kontrakt sahəsinin xəritəsi **Map of the Contract Area**



SHAFAG ASIMAN CONTRACT AREA

(Local Datum Pulkovo 1942)

ƏLAVƏ 3

MÜHASİBAT UÇOTUNUN APARILMASI QAYDASI

1. <u>Ümumi müddəalar</u>

Bu 3-cu Əlavədə mühasibat uçotunun təməl prinsipləri beynəlxalq neft-qaz sənayesində hamılıqla qəbul olunmuş qaydada müəyyən edilir.

Bu "Mühasibat uçotunun aparılması qaydası"nın məqsədi bu Sazişə əsasən Neft-qaz əməliyyatları aparılarkən ayırmaların və kreditlərin müəyyənləşdirilməsinin ədalətli və obyektiv metodunun təyin edilməsi, habelə xərclərin təsdiq olunmuş büdcələrə uyğun olub-olmaması üzərində nəzarət metodu göstərilməsindən ibarətdir. Mühasibat uçotunun aparılması qaydasının məqsədləri baxımından Podratçıya hər hansı istinad kontekstə görə aidiyyəti üzrə Əməliyyat şirkətini, Podratçı tərəfləri və onların Ortaq şirkətlərini nəzərdə tutur. Tərəflər razılaşırlar ki, həmin metodların hər hansı biri hər hansı Tərəf barəsində ədalətsiz və ya qeyri-obyektiv olarsa, Tərəflər hər hansı ədalətsizliyin və ya qeyri-obyektivliyin aradan qaldırılması üçün lazımi dəyişiklikləri xoş məramla tənzimləmək məqsədilə görüş təşkil edirlər.

1.1 <u>Təriflər</u>

Bu Mühasibat uçotunun aparılması qaydası məqsədləri baxımından aşağıdakı terminlərə belə mənalar verilir:

(i) **Mühasibat uçotunun aparılması qaydası** – mühasibat uçotunun bu Əlavədə göstərilən prinsipləri, metodları və qaydaları deməkdir.

(ii) **Mühasibat uçotunun qəbul olunmuş metodları** – mühasibat uçotunun beynəlxalq neft-qaz sənayesində hamılıqla qəbul və təsdiq edilmiş prinsipləri, metodları və qaydaları deməkdir.

APPENDIX 3

ACCOUNTING PROCEDURE

1. <u>General Provisions</u>

This Appendix 3 establishes a framework of accounting principles as generally accepted within the international Petroleum industry.

The purpose of this Accounting Procedure is to establish a fair and equitable method for determining charges and credits applicable to Petroleum Operations under the Agreement and to provide a method for controlling expenditure against approved budgets. For purposes of this Accounting Procedure any reference to Contractor shall be deemed to include the Operating Company, Contractor Parties and their respective Affiliates, as the context may imply. The Parties agree that if any of such methods prove to be unfair or inequitable to any of the Parties then the Parties will meet and in good faith endeavour to agree on such changes as are necessary to correct any unfairness or inequity.

1.1 <u>Definitions</u>

For the purposes of this Accounting Procedure the following terms shall have the following meanings:

(i) **Accounting Procedure** shall mean the accounting principles, practices and procedures set forth in this Appendix.

(ii) **Accepted Accounting Practices** shall mean accounting principles, practices and procedures that are generally accepted and recognised in the international Petroleum industry.

(iii) **Artma** – uçot dövrü qurtarmazdan əvvəl olmuş hadisələr və əməliyyatlar nəticəsində uçot dövrü qurtardıqdan sonra ödəniləcəyi və ya alınacağı gözlənilən məbləğlər deməkdir.

(iv) **Artma prinsipi** – mühasibat uçotunun elə prinsipi deməkdir ki, həmin prinsipə görə əməliyyatların maliyyə şəraitinə və gəlirə təsiri sadəcə olaraq əməliyyatlar üzrə nağd haqq-hesab çəkiləndə deyil, həmin əməliyyatlar aparılanda mühasibat kitablarında qeyd olunur.

(v) **Kassa prinsipi** – mühasibat uçotunun elə prinsipi deməkdir ki, həmin prinsipə görə nağd pul hərəkəti banka təlimatlar vermək və ya nağd pul ödəmək və Əməliyyat şirkətinin xəzinə kitablarında qeydəalma yolu ilə təsbit edilir.

(vi) **Materiallar və avadanlıq** – Neft-qaz əməliyyatlarında işlədilmək üçün əldə edilən və saxlanılan materiallarla və avadanlıqla birlikdə kəşfiyyat, qiymətləndirmə və işlənmə üzrə məhdudiyyət qoyulmadan bütün obyektlər də daxil olmaqla əmlak (torpaq istisna edilməklə) deməkdir.

(vii) **Nəzarət altında material** – Podratçının nəzarət etdiyi və inventarlaşdırdığı Materiallar və avadanlıq deməkdir. Belə Materialların və avadanlığın növlərinin siyahısı ARDNŞ-nin tələbi ilə ona təqdim edilir.

Sazişdə tərifləri verilən, lakin yuxarıdakı siyahıya daxil edilməyən terminlər və ifadələr bu Mühasibat uçotunun aparılması qaydasında da Sazişdə onlara verilmiş eyni mənanı daşıyır.

1.2 Hesablar

Podratçı bu Mühasibat uçotunun aparılması qaydasına müvafiq surətdə Neft-qaz əməliyyatları üzrə ayrıca hesabat sənədləri və ayrıca hesablar aparır (“Neft-qaz əməliyyatları hesabı”).

Podratçı Neft-qaz əməliyyatları hesabına yalnız Neft-qaz əməliyyatlarının aparılması ilə əlaqədar xərcləri aid edir.

(iii) **Accruals** means amounts which are expected to be paid or received after the end of an accounting period as a result of events and transactions prior to the end of the said accounting period.

(iv) **Accruals Basis** means the basis of accounting which records the effect of transactions on financial conditions and income when the transactions take place, not merely when they are settled in cash.

(v) **Cash Basis** means the basis of accounting which records the cash flows as they are effected by the issue of instructions for payment to a bank or payments in cash and recorded in the cash books of the Operating Company.

(vi) **Material and Equipment** means property (with the exception of land), including without limitation all exploration, appraisal and development facilities together with supplies and equipment, acquired and held for use in Petroleum Operations.

(vii) **Controllable Material** means Material and Equipment which Contractor subjects to record control and inventory. A list of types of such Material and Equipment shall be furnished to SOCAR upon request.

Words and phrases defined in the Agreement but not defined above shall have the same meaning in this Accounting Procedure as is given to them in the Agreement.

1.2 Accounts

Contractor shall maintain separate books and accounts for Petroleum Operations in accordance with this Accounting Procedure (“Petroleum Operations Account”).

Contractor shall charge to the Petroleum Operations Account only those expenditures incurred for Petroleum Operations.

Podratçı Neft-qaz əməliyyatları hesabını Dollarla aparır. Dollarla deyil, başqa valyuta ilə çəkilmiş məsrəflər Dollara Mühasibat uçotunun qəbul olunmuş metodlara uyğun olan çevirmə əmsalları ilə çevrilir. Neft-qaz əməliyyatları üçün lazım olan valyutanın mübadiləsi, yaxud valyutaların çevrilməsi nəticəsində hər cür mənfəət və ya itkilər Neft-qaz əməliyyatları hesabına aid edilir və ya kreditləşdirilir.

Neft-qaz əməliyyatları hesabı Mühasibat uçotunun qəbul olunmuş metodlarına müvafiq surətdə aparılır.

Mühasibat uçotu Artma prinsipi əsasında aparılır, bu şərtlə ki, Məsrəflərin əvəzinin ödənilməsi məqsədləri üçün Kassa prinsipindən istifadə edilir.

1.3 Auditor təftişləri

Podratçı Neft-qaz əməliyyatları hesablarını auditorların bunlara dair hesabatları ilə birlikdə hər Təqvim ili qurtardıqdan sonra yeddi (7) aydan gec olmayaraq ARDNŞ-ə təqdim edir. ARDNŞ müvafiq Təqvim ili qurtardıqdan sonra on iki (12) aydan gec olmayaraq göstərilmiş Təqvim ili üçün hesabların təftiş olunmasını Podratçıya bu barədə bildiriş göndərməklə xahiş edə bilər. Belə təftişləri ARDNŞ tərəfindən seçilən, beynəlxalq miqyasda tanınan müstəqil mühasiblər şirkəti aparır. Təftişə çəkilən məsrəflər Neft-qaz əməliyyatları hesabına daxil edilir və Podratçı tərəfindən ödənilir. Təftiş elə aparılır ki, cari əməliyyatların əsassız pozulmasına səbəb olmasın. Əgər ARDNŞ yuxarıda göstərilmiş hesablarla əlaqədar etiraz etdiyini, yaxud Podratçının Qərəzli xətası haqqında sübutlar olduğunu nəzərdən keçirilən Təqvim ilindən sonrakı iyirmi dörd (24) ay ərzində Podratçıya yazılı bildirişlə (sübutlar göstərilməklə) məlumat verməsə, müvafiq Təqvim ilinin hesabları həmin tarix üçün təsdiq edilmiş sayılır. Hesablar barəsində ARDNŞ-nin Tərəflər arasında razılaşma ilə tənzimlənməmiş hər cür etirazları Arbitraj qaydasına müvafiq surətdə arbitraj baxışına verilir. Arbitrajın qərarında ARDNŞ-nin hər hansı etirazı təsdiq edilərsə, Neft-qaz əməliyyatları hesabı müvafiq surətdə təshih olunur.

The Petroleum Operations Account shall be maintained by Contractor in Dollars. Costs incurred in currencies other than Dollars shall be converted into Dollars using translation rates in accordance with Accepted Accounting Practices. Any gain or loss resulting from the exchange of currencies required for Petroleum Operations or from translation shall be charged or credited to the Petroleum Operations Account.

The Petroleum Operations Account shall be kept in accordance with the Accepted Accounting Practices.

Accounting shall be carried out on an Accruals Basis, provided however that the Cash Basis principle shall be used for the purposes of Cost Recovery.

1.3 Audits

The accounts of the Petroleum Operations, together with the auditors' report thereon, shall be submitted to SOCAR by Contractor no later than seven (7) months following the end of each Calendar Year. SOCAR may, by giving notice to that effect to Contractor not later than twelve (12) months following the end of the subject Calendar Year, request an audit of the accounts for such Calendar Year. Such audits shall be carried out by a firm of internationally recognised independent accountants selected by SOCAR. The cost of such audit shall be included into Petroleum Operations Account and shall be borne by Contractor and shall be conducted in such a manner as not to interfere unduly with ongoing operations. Unless SOCAR notifies Contractor in writing before twenty-four (24) months following the subject Calendar Year either that it has an objection to the said accounts or that there is evidence of Contractor's Wilful Misconduct (details of which shall be included in said notice), the accounts for such Calendar Year shall be deemed to have been approved as on that date. Any objection to the accounts raised by SOCAR shall, unless settled by agreement among the Parties, be submitted to arbitration in accordance with the Arbitration Procedure. In the event the arbitration award sustains any of SOCAR's objections to the account, the Petroleum Operating Account shall be adjusted accordingly.

Yuxarıdakılara baxmayaraq, Tərəflər aşağıdakılara razılaşır:

(a) ARDNŞ İşlənmə və hasilat dövrü başlayanadək hesabatların təftişini aparmır; və

(b) İşlənmə və hasilat dövrü başlayandan sonra on iki (12) aydan gec olmayaraq bildiriş verməklə ARDNŞ, vəziyyətdən asılı olaraq, bütün Kəşfiyyat dövrü və Əlavə kəşfiyyat dövrü üçün mövcud olan hesabatları yoxlamaq hüququnda olacaq.

Neft-qaz əməliyyatları üzrə xidmətlər göstərən Podratçıların Ortaq şirkətlərinin hesabatları və qeydləri ARDNŞ-nin auditorları tərəfindən yoxlanılmır.

Müvafiq sorğu daxil olsa, Podratçı və ya Əməliyyat şirkəti Ortaq şirkətinin təyin edilmiş auditoru (belə təyin edilmiş auditor lisenziya almış mühasiblərdən ibarət olan beynəlxalq nüfuzlu firması olmaq şərtilə) tərəfindən verilən və Neft-qaz əməliyyatları üzrə göstərilən xidmətlərə münasibətdə sərf edilmiş iş saatların və saathesabı haqların hesablanmasında 2.4(b) bəndinə müvafiq surətdə müəyyən edilən heç bir mənfəətin tətbiq edilməməsini, müvafiq ödənişlərin hesablanmasının belə Ortaq şirkətləri davamlı şəkildə tətbiq edən mühasibat prinsiplərinə əsaslanmasını və ödənişlərin hesablanmasında standart hesablaşma sisteminin ayrı-seçkiliyə yol verilmədən tətbiqini təsdiq edən arayışı təqdim edirlər.

Podratçı Neft-qaz əməliyyatlarına dair bütün mühasibat sənədlərini, bəyannamələrini, kitablarını və hesablarını bütün Kəşfiyyat dövrü ərzində, və əgər Podratçı Əlavə kəşfiyyat dövrünə keçərsə onda bütün Əlavə kəşfiyyat dövrü ərzində, ondan sonra isə onların aid olduğu Təqvim ili qurtardıqdan sonra azı yeddi (7) il, yaxud ARDNŞ Qərəzli xəta haqqında iddia irəli sürdükdə (i) onların aid olduğu Təqvim ili qurtardıqdan sonra azı yeddi (7) il, və ya (ii) Qərəzli xəta ilə əlaqədar olaraq hesablara dair etirazlar tənzimləndikdən sonra azı bir (1) il saxlayır – hansı müddətin daha gec başa çatmasından asılı olaraq.

Notwithstanding the aforesaid, the Parties have agreed as follows:

(a) SOCAR shall not carry out audit of accounts until the commencement of the Development and Production Period; and

(b) By giving notice not later than twelve (12) months from the commencement of the Development and Production Period SOCAR shall have the right to carry out audit of accounts for the entire Exploration Period and the Additional Exploration Period, as the case may be.

The accounts and records of Contractor's Affiliates providing services to the Petroleum Operations shall not be audited by SOCAR's auditors.

If requested, Contractor or the Operating Company will provide an annual certificate issued by the Affiliate's statutory auditor (such statutory auditor being an internationally recognized firm of public accountants) certifying that the calculation of the man-hour, man-day rates used in determining the charges for services provided to the Petroleum Operations do not include any element of profit as part of paragraph 2.4(b) below and that such charges are calculated pursuant to consistently applied accounting practices of such Affiliates and are charged out in a non-discriminatory manner, in accordance with its standard charge-out system.

All accounting records, returns, books and accounts relating to Petroleum Operations shall be maintained by Contractor during the entire Exploration Period and Additional Exploration Period (if Contractor proceeds thereto), and thereafter for a minimum of seven (7) years following the end of the Calendar Year to which they relate or, in the case where SOCAR alleges Wilful Misconduct, the later of (i) a minimum of seven (7) years following the end of the Calendar Year to which they relate and (ii) a minimum of one (1) year after resolution of the objections to the accounts made in respect of such Wilful Misconduct.

2. Ayırmalar və xərclər

Podratçı bu Sazişin bağlandığı tarixdən sonra bu Sazişin şərtlərinə uyğun surətdə çəkilmiş Neft-qaz əməliyyatlarının aparılması üçün zəruri olan məsrəflərin hamısını Neft-qaz əməliyyatları hesabına aid edir; heç bir məsrəf hesaba bir dəfədən artıq aid edilə bilməz. Hesaba aid edilən məsrəflər aşağıdakılardan ibarətdir, lakin təkcə onlarla məhdudlaşmır:

2.1 İşçi qüvvəsinə məsrəflər və bunlarla əlaqədar digər məsrəflər

(a) Podratçının və onun Ortaq şirkətlərinin (Subpodratçı kimi fəaliyyət göstərən şirkətlərdən başqa) Azərbaycan Respublikası ərazisində və ya Podratçının ofisləri olan hər hansı başqa yerlərdə Neft-qaz əməliyyatlarında istər müvəqqəti, istərsə də daimi çalışan işçilərinin əmək haqqına və maaşlarına çəkilən ümumi məsrəflər (o cümlədən Hökumət orqanları tərəfindən tutulan məbləğlər), həmçinin göstərilmiş əməliyyatlarla əlaqədar şəxsi xərclər.

(b) Bayram və məzuniyyət günlərinin, xəstəlik vərəqələrinin, əlilliyin və əmək haqqına tətbiq edilə bilən digər bu cür güzəştlərin ödənilməsinə məsrəflər; bunlar yuxarıdakı 2.1 (a) bəndinə əsasən hesaba keçirilir.

(c) Podratçının yuxarıdakı 2.1(a) bəndinə əsasən hesablanan əmək haqqı məsrəflərinə tətbiq edilə biləcək xərclər və ya Azərbaycan Respublikası qanunlarında nəzərdə tutulan ödəmələr, yaxud bu 2.1 bəndinə uyğun surətdə hesablanan digər məsrəflər.

(d) Həyatın sığortalanmasının tərtib edilmiş planları, qospitallaşdırma, pensiyalar və bu xarakterli digər güzəştlər üzrə məsrəflər.

(e) Podratçının Neft-qaz əməliyyatlarında çalışan əməkdaşlarına mənzil və dolanacaq müavinətləri və bunlarla əlaqədar xərclər.

2. Charges And Expenditures

Contractor shall charge the Petroleum Operations Account for all costs incurred after the date of execution of this Agreement in compliance with the terms of this Agreement or those necessary to conduct the Petroleum Operations; no cost shall be charged more than once. Chargeable costs shall include, but not be limited to:

2.1 Labour and Related Costs

(a) Gross salaries, wages (including amounts imposed by Governmental Authorities) in respect of employees of Contractor and its Affiliates (except when acting as Sub-contractor) who are engaged in the conduct of Petroleum Operations whether temporarily or permanently assigned within the Republic of Azerbaijan or located in Contractor's offices elsewhere, as well as personal expenses incurred in connection therewith.

(b) Costs of all holiday, vacation, sickness, disability and other like benefits applicable to the salaries chargeable under paragraph 2.1(a) above.

(c) Expenses or contributions imposed under the laws of the Republic of Azerbaijan which are applicable to Contractor's cost of salaries and wages chargeable under paragraph 2.1(a) above or other costs chargeable under this paragraph 2.1.

(d) Cost of established plans for life insurance, hospitalisation, pensions, and other benefits of a like nature.

(e) Housing and living allowances and related expenses of the employees of Contractor assigned to Petroleum Operations.

(f) Əməkdaşların Neft-qaz əməliyyatları aparmaq üçün ezam olunduqları müddət qurtardıqdan sonra Podratçı onların gələcək daimi məşğulluğunu təmin edə bilmirsə, Neft-qaz əməliyyatları aparmaq üçün ezam edilmiş əməkdaşların işdənçıxma müavinətinin ezamiyyət müddətlərinə mütənasib hissəsi hesaba aid edilir.

2.2 Materiallar və avadanlıq

Podratçı Materialları və avadanlığı bu Mühasibat uçotu qaydasının 4-cü bölməsinə müvafiq surətdə Neft-qaz əməliyyatlarında istifadə etmək üçün alır və ya göndərir. Ağlabatan hüdudlar daxilində əməli cəhətdən mümkün olduqda və işlərin səmərəli və rentabelli görülməsinə uyğun gəldikdə Neft-qaz əməliyyatlarında istifadə olunmaq üçün yalnız elə Materiallar və avadanlıq əldə edilir və ya göndərilir ki, dərhal tətbiq edilmək, yaxud lazımi ehtiyat saxlamaq üçün bunlara tələbat ola bilsin. Belə Materialların və avadanlığın artıq ehtiyatlarının toplanmasına yol verilmir.

2.3 Nəqliyyat xərcləri. İşçi heyətinin köçmə xərcləri

(a) Materialların və avadanlığın daşınması xərcləri və bununla əlaqədar digər xərclər, məsələn, ekspeditor xidmətlərinə, qablaşdırmaya, dokda dayanmalara, quru daşımaları, hava və dəniz daşımaları üçün kirələməyə, səmərəsiz dayanmalara, tranzit tariflərinə, təyinat məntəqəsində yükvurma-yükboşaltma işlərinə çəkilən xərclər, rüsumlar, lisenziya haqları, vergilər və yuxarıda göstərilənlərə aid olan bu kimi tutmalar.

(b) Neft-qaz əməliyyatları aparılması üçün işçi heyətin daşınması xərcləri.

(c) Neft-qaz əməliyyatları aparılmasına daimi və ya müvəqqəti təyinat almış işçi heyətinin yaşadığı yerdən və geriyə köçməsi xərcləri. Belə xərclərə işçilərin və onların ailə üzvlərinin yol xərcləri və şəxsi əmlakının daşınması xərcləri daxil edilir.

(f) In the event that Contractor is unable to provide continued employment for staff at the end of their assignment to Petroleum Operations, the proportionate share of termination payments relating to the employees' period of assignment to Petroleum Operations shall be chargeable.

2.2 Material and Equipment

Material and Equipment purchased or furnished by Contractor for use in Petroleum Operations as provided under Section 4 of this Accounting Procedure. So far as it is reasonably practical and consistent with efficient and economical operation, only such Material and Equipment shall be purchased or transferred for use in Petroleum Operations as may be required for immediate use or prudent contingent stock. The accumulation of surplus stocks shall be avoided.

2.3 Transportation and Employee Relocation Costs

(a) Transportation of Material and Equipment and other related costs such as expediting, crating, dock charges, inland, air and ocean freight, demurrage, transit fees and unloading at destination and any duties, licence fees, taxes and any other charges with respect thereto.

(b) Costs incurred for transportation of personnel as required in the conduct of Petroleum Operations.

(c) Relocation costs of employees permanently or temporarily assigned to Petroleum Operations to and from their point of origin. Such costs shall include travelling costs of employees and their families and transportation cost of their personal and household effects.

2.4 Xidmətlər

(a) 2.14 bəndində göstərilən xidmətlərdən savayı podrat xidmətləri, peşəkar məsləhətçilərin xidmətləri və xarici mənbələrin başqa xidmətləri.

(b) Texniki xidmətlər, o cümlədən, lakin aşağıdakılarla məhdudlaşdırılmadan, bilavasitə Neft-qaz əməliyyatları ilə bağlı Podratçının və onun Ortaq şirkətlərinin (bunlar Subpodratçı kimi fəaliyyət göstərmirlərsə) göstərdikləri xidmətlər: laboratoriya analizi, çertyoj çəkmə, geoloji və geofiziki məlumatların təfsiri, kollektorların tətbiqi, satınalma, qazma işlərinə nəzarət, hasilatın texnologiyası, kommersiya analizi, habelə müvafiq kompüter xidmətləri və məlumatın təhlili. Həmin ödənişlər Podratçının mühasibat uçotunun adi prinsiplərinə müvafiq surətdə elə hesablanmalıdır ki, heç bir mənfəət və itki Podratçının hesabına aid edilməsin.

(c) Xidmətlərin konkret surətdə Neft-qaz əməliyyatları ilə bağlı olduğu hallarda inzibati-təşkilati təminat, o cümlədən hüquq məsələləri üzrə, satınalma, podrat müqavilələri bağlanması üzrə xidmətlər, maliyyə və kassa xarakterli xidmətlər, mühasibat xidmətləri, informasiya və telekommunikasiya xidmətləri və inzibati xidmətlər.

(d) Podratçının və onun Ortaq şirkətinin (bu şirkət Subpodratçı kimi fəaliyyət göstərmirsə), mühəndis-texnik şöbəsi heyətinin xidmətləri – həmin mühəndis-texnik şöbəsinin hazırlayıb təqdim etdiyi haqq-hesab üzrə.

(e) Marketinq xidmətləri: Kontrakt sahəsindən hasil edilən Sərbəst təbii qazın satışı ilə əlaqədar bütün qonorarlar, komisyon haqqı və digər tutmalar.

(f) Sahiblik və istismar dəyərinə uyğun qiymətlərlə Podratçının verdiyi avadanlıqdan və obyektlərdən istifadə edilməsi, bu şərtlə ki, bu, iqtisadi cəhətdən məqsədəuyğun olsun.

2.4 Services

(a) Contract services, professional consultants, and other services procured from outside sources other than services covered by paragraph 2.14.

(b) Technical services, such as, but not limited to, laboratory analysis, drafting, geophysical and geological interpretation, reservoir studies, purchasing, drilling supervision, petroleum engineering, commercial analysis and related computer services and data processing, performed by Contractor and its Affiliates (except when acting as Sub-contractor) for the direct benefit of Petroleum Operations. Such charges shall be computed in line with Contractor's usual accounting policy such that no gain or loss accrues to Contractor.

(c) Business support where the services provided are specifically attributable to Petroleum Operations, including, but not restricted to legal, purchasing, contracting, treasury, accounting, information and telecommunication, and administrative services.

(d) Services performed by Contractor and its Affiliates (except when acting as Sub-contractor) engineering division personnel, as computed and charged by such engineering division.

(e) Marketing services – all fees, commissions and other charges related to the marketing of Non-associated Natural Gas produced from the Contract Area.

(f) Use of equipment and facilities furnished by Contractor at rates commensurate with the cost of ownership and operation if such use is economically viable. Rates shall

Qiymətlər saxlanma, təmir dəyərini və digər istismar xərclərini, sığorta, vergi və faizləri əhatə edir, lakin bunlarla məhdudlaşdırılmır.

include but not be limited to costs of maintenance, repairs, other operating expenses, insurance, taxes and interest.

Podratçı və ya onun Ortaq şirkətləri (bunların Subpodratçı kimi fəaliyyət göstərdikləri hallar istisna edilməklə) tərəfindən göstərilən xidmətlər Əməliyyat şirkəti ilə bağlanan iş sifarişi və ya xidmət müqaviləsinə əsasən təqdim edilir və onların əvəzi belə Podratçı tərəfin nə mənfəət əldə edilməsi, nə də zərər çəkməsi prinsipinə əsasən Podratçı tərəfin və onun Ortaq şirkətlərinin adi iş qaydası və mühasibat metoduna uyğun surətdə ödənilir.

Services performed by Contractor or its Affiliates (except when acting as Sub-contractor) shall be performed under a work order or service agreement issued by the Operating Company and shall be charged in accordance with such Contractor Party's and its Affiliates' usual practice and accounting policies such that no gain, no loss accrues to such Contractor Party.

2.5 Əmlakın zədələnməsi və itkisi

Yanğın, daşqın, fırtına, oğurluq, qəza və ya hər hansı başqa səbəblər üzündən əmlakın zədələnməsi və ya itkisi ilə əlaqədar olaraq onun təmir və ya əvəz edilməsi üçün lazım olan, sığorta hesabına ödənilməyən bütün xərclər və məsrəflər; Podratçının Qərəzli xətası ilə bağlı xərclər və məsrəflər istisna edilməklə.

Podratçı iki yüz əlli min (250.000) Dollardan artıq məbləğdə hər hansı bu cür zədələnmə və ya itki haqqında ARDNŞ-ə əməli cəhətdən mümkün olan ən qısa müddətdə yazılı məlumat verir.

2.5 Damages and Losses to Property

All costs or expenses necessary for the repair or replacement of property resulting from damages or losses incurred by fire, flood, storm, theft, accident, or any other cause, not recovered from insurance except where caused by the Wilful Misconduct of Contractor.

Contractor shall furnish SOCAR with written notice of such damages or losses in excess of Dollars two hundred and fifty thousand (250,000) as soon as reasonably practicable.

2.6 Sığorta

(a) Neft-qaz əməliyyatları aparılması ilə əlaqədar bütün sığorta haqları, habelə risklər üçün müstəqil sığorta şirkətinin müəyyənləşdirdiyi ekvivalent məbləğlərdə haqlar; bunlar Podratçının öz sığorta fondundan ödənilir.

(b) Hər cür itkilərin, pretenziyaların, zərərin və məhkəmə qərarlarının kompensasiyası verilərkən çəkilən və ödənilən bütün xərclər, habelə Podratçının Qərəzli xətası ilə bağlı xərclər istisna edilməklə, sığorta hesabına ödənilməyən bütün başqa xərclər.

2.6 Insurance

(a) All premiums for insurance carried for the benefit of Petroleum Operations, as well as the equivalent amount of premiums quoted by an independent underwriter for the risks that are self-insured by Contractor.

(b) All expenditures incurred and paid in the settlement of any and all losses, claims, damages, judgements and any other expenses, not recovered from insurance except where caused by the Wilful Misconduct of Contractor.

2.7 Hüquq xərcləri

Neft-qaz əməliyyatları ilə bağlı məhkəmə iddialarına və ya pretenziyalara baxılması, bunların öyrənilməsi və tənzimlənməsi üzrə, yaxud əmlakın qorunması və ya onun üçün kompensasiya alınması üzrə bütün xərclər və ya məsrəflər, lakin bunlarla məhdudlaşdırılmadan vəkillərin qonorarları, məhkəmə xərcləri, sübutlar əldə etmək məqsədilə aparılan təhqiqatların xərcləri, habelə hər hansı bu cür məhkəmə iddialarının və ya pretenziyaların nizamlanması, yaxud ödənilməsi üçün verilən məbləğlər; Podratçının Qərəzli xətası ilə bağlı hallar istisna edilməklə.

2.7 Legal Expenses

All costs or expenses of handling, investigating and settling litigation or claims arising from Petroleum Operations or necessary to protect or recover property, including, but not limited to, lawyers' fees, court costs, cost of investigation of procuring evidence and amounts paid in settlement or satisfaction of any such litigation or claims except where caused by the Wilful Misconduct of Contractor.

2.8 Rüsumlar və vergilər

Hökumət orqanları tərəfindən tutulmuş və Podratçıya qaytarılmamış bütün Vergilər (Mənfəət vergisi istisna olmaqla).

2.8 Duties and Taxes

All Taxes imposed by Governmental Authorities (except for Profit Tax) which are not refunded to the Contractor.

2.9 Ofislərin, fəhlə qəsəbələrinin və digər obyektlərin saxlanması

Xüsusi layihə qrupları fiziki cəhətdən Azərbaycan Respublikasının ərazisində yerləşmədiyi hallarda Azərbaycan Respublikasının ərazisində və ya onun hüdudlarından kənarda Neft-qaz əməliyyatlarının aparılmasına bilavasitə xidmət edən hər cür ofislərin, bölmələrin, fəhlə qəsəbələrinin, anbarların, yaşayış binalarının və digər obyektlərin saxlanmasına və işləməsinə çəkilən xərclər.

2.9 Offices, Camps and Miscellaneous Facilities

The cost of maintaining and operating any offices, sub-offices, camps, warehouses, housing and other facilities directly serving Petroleum Operations either within the Republic of Azerbaijan or elsewhere with respect to dedicated project groups which are not physically located within the Republic of Azerbaijan.

2.10 Peşə hazırlığı və texnologiyanın verilməsi

6.8 bəndinə müvafiq surətdə işçi heyətinin hazırlığı üzrə xərclər və Podratçının texnologiyalarının razılaşdırılmış qaydada ARDNŞ-ə verilməsi ilə bağlı xərclər.

2.10 Training and Technology Transfer

The costs of the provision of training in accordance with Article 6.8, and the costs of agreed technology transfer from Contractor to SOCAR.

2.11 Enerji təchizatına məsrəflər

Neft-qaz əməliyyatlarının aparılması üçün istifadə edilən yanacağa, elektrik enerjisinə, qızdırıcı sistemə, su təchizatına və ya başqa enerji növlərinə çəkilən bütün xərclər.

2.11 Energy Expenses

All costs of fuel, electricity, heat, water or other energy used for Petroleum Operations.

2.12 Rabitə vasitələrinə məsrəflər

Rabitə sistemlərinin və kompüter sistemlərinin əldə edilməsinə, icarəyə götürülməsinə, qurulmasına, istismarına, təmirinə və saxlanmasına çəkilən məsrəflər.

2.13 Ekoloji proqramlara məsrəflər

Ekoloji proqramların həyata keçirilməsinə çəkilən məsrəflər, o cümlədən, lakin bunlarla məhdudlaşdırılmadan, ətraf mühitin ilkin vəziyyətinin öyrənilməsi işlərinə, cari monitorinq proqramlarına, ətraf mühitin və sağlamlığın qorunması üzrə peşə təliminə, ətraf mühitin və sağlamlığın qorunması məqsədləri üçün avadanlıqlara və vasitələrə, bu Sazişlə və tətbiq edilən qanunvericiliklə ətraf mühitin və sağlamlığın qorunması üçün nəzərdə tutulan tədbirlərə və Neft-qaz əməliyyatları ilə əlaqədar ətraf mühitin bərpası tədbirlərinə çəkilən məsrəflər (o cümlədən, başqa məsrəflərlə yanaşı, flora və faunanın qorunmasına çəkilən məsrəflər).

2.14 Digər xidmətlər

(a) Podratçı

(i) BP-nin Azərbaycan Respublikasının hüdudlarından kənarda yerləşən Ortaq şirkətləri tərəfindən; və/ya

(ii) ONŞ və onun Ortaq şirkətləri tərəfindən

həyata keçirilən və Neft-qaz əməliyyatlarının aparılmasına dolayısı ilə kömək edən texniki nou-hau və ümumi inzibati-təşkilati təminat tədbirləri ilə bağlı əlavə inzibati xərcləri Neft-qaz əməliyyatları hesabına aid edir. Belə kömək ofis xidmətlərinə, o cümlədən inzibati və hüquqi işlə, maliyyə və vergi məsələləri ilə, kadr işi ilə, ekspert biliklərinin verilməsi ilə və dəqiq müəyyənləşdirilməsi və ya iş sifarişi yaxud xidmət müqavilələri əsasında yerinə yetirilən müəyyən layihələrə aid edilməsi mümkün olmayan qeyri-texniki xarakterli digər funksiyaların yerinə yetirilməsi ilə məşğul olan heyətin xidmətlərinə çəkilən məsrəfləri əhatə edir.

2.12 Communication Charges

The costs of acquiring, leasing, installing, operating, repairing and maintaining communication systems and computer systems.

2.13 Environmental Charges

The costs of environmental programmes, including, but not limited to environmental baseline studies, ongoing monitoring programmes, environmental and safety training, equipment and facilities for protection of safety or the environment, activities related to environment and safety required by this Agreement or by applicable law and remedial work undertaken with respect to Petroleum Operations (including but not limited to costs incurred to sustain flora and fauna).

2.14 Other Services

(a) Contractor shall charge an administrative overhead to the Petroleum Operations Account, covering technical know-how, general administrative support provided by

(i) BP Affiliates located outside of the Republic of Azerbaijan; and/or

(ii) SOA and its Affiliates

for the indirect benefit of Petroleum Operations. Such support will include the services and related office costs of personnel performing administrative, legal, treasury, tax and employee relations, provision of expertise and other non-technical functions which cannot be specifically identified or attributed to particular projects performed under a work order or service agreement.

(b) Yuxarıdakı (a) bəndində göstərilmiş xərclər Neft-qaz əməliyyatları ilə əlaqədar illik məcmu xərclərə əsaslanan qiymətlər üzrə hesaba aşağıdakı qaydada aid ediləcəkdir:

(i) Podratçının Əsaslı məsrəfləri ilə əlaqədar:

Təqvim ili ərzində ilk on beş milyon (15.000.000) Dollar üçün – üç (3) faiz;

Təqvim ili ərzində on beş milyon (15.000.000) Dollar və otuz milyon (30.000.000) Dollar hüdudları daxilində məbləğ üçün – iki (2) faiz;

Təqvim ili ərzində otuz milyon (30.000.000) Dollardan artıq məbləğ üçün – bir (1) faiz.

(ii) Podratçının Əməliyyat məsrəfləri ilə əlaqədar:

Təqvim ili ərzində bir tam onda beş (1,5) faizdən ibarət sabit dərəcə.

2.15 Maliyyə məsrəfləri

Bütün Maliyyə məsrəfləri.

2.16 Digər xərclər

Neft-qaz əməliyyatlarının (Qüvvəyəminmə tarixinədək olan digər fəaliyyət növləri daxil edilməklə) lazımınca və düzgün aparılması üçün Podratçının və onun Ortaq şirkətlərinin (onlar Subpodratçı kimi fəaliyyət göstərmirlərsə) çəkdikləri və əvvəlki müddəalarda nəzərdən keçirilməyən, yaxud xatırlanmayan bütün digər xərclər. Bu xərclərə Kontrakt sahəsi barəsində hüquqların əldə edilməsi və saxlanması üçün, yaxud Neft-qaz əməliyyatlarının aparılması, həmçinin fondların ləğvi və bərpası, o cümlədən 14.3 bəndinə uyğun surətdə Ləğvetmə fonduna haqların ödənilməsi üçün lazım olan, lakin bunlarla məhdudlaşdırılmayan xərclər daxildir.

(b) The charge under (a) above shall be charged at rates on total annual expenditures attributable to Petroleum Operations as follows:

(i) With respect to Contractor's Capital Costs:

For the first Dollars fifteen million (15,000,000) per Calendar Year –three (3) percent;

For the amount between Dollars fifteen million (15,000,000) and Dollars thirty million (30,000,000) per Calendar Year – two (2) percent;

For the amount in excess of Dollars thirty million (30,000,000) per Calendar Year – one (1) percent.

(ii) With respect of Contractor's Operating Costs:

A flat rate of one and a half (1.5) percent per Calendar Year.

2.15 Finance Costs

All Finance Costs.

2.16 Other Expenditures

Any other expenditures not covered or dealt with in the foregoing provisions which are incurred by Contractor and its Affiliates (except when acting as Sub-contractor) for the necessary and proper conduct of Petroleum Operations (including other activities prior to the Effective Date). These shall include but not be limited to any expenditures necessary to acquire and maintain rights to the Contract Area or to implement Petroleum Operations, costs for decommissioning (abandonment) and reclamation of assets including payment to the Abandonment Fund as referred in Article 14.3.

3. Kreditlər

Podratçı əməliyyatlardan gələn aşağıdakı xalis varidatı Neft-qaz əməliyyatları hesabına keçirir:

(a) Sığortalanmış əməliyyatlar və ya əmlak barəsində iddiaların verildiyi və həmin əməliyyatlar və əmlak üzrə sığorta haqlarının Neft-qaz əməliyyatları hesabına aid edildiyi hallarda Neft-qaz əməliyyatları ilə əlaqədar hər hansı uğurlu sığorta iddiası üzrə alınmış xalis varidatı.

(b) Podratçının satın aldığı və çəkilən məsrəfləri qabaqcadan Neft-qaz əməliyyatları hesabına aid etdiyi Materiallar və avadanlıq qüsurlu olduqda, Podratçının malgöndərənlərdən/ istehsalçılardan (yaxud onların agentlərindən) geri götürdüyü hər cür tənzimləmə məbləğini.

(c) Əmlakın dəyəri əvvəllər Neft-qaz əməliyyatları hesabına daxil edilmişdirsə Neft-qaz əməliyyatlarında istifadə edilən belə əmlakın satışından əldə edilmiş xalis gəliri.

(d) 9-cu Maddənin müddəalarına uyğun surətdə obyektlərdən istifadə ilə əlaqədar olaraq Üçüncü tərəflərdən və/yaxud ARDNŞ-dən alınmış xalis varidatı.

4. Materiallar və avadanlıq

4.1 Satınalmalar

(a) Satın alınmış Materiallar və avadanlıq Podratçının qoyduğu maya dəyəri üzrə hesablanır ("Maya dəyəri"). Maya dəyərinə aşağıdakılar, lakin bunlarla məhdudlaşdırılmadan, maddi-texniki təchizat xərcləri, nəqliyyat məsrəfləri, rüsumlar, lisenziya yığımları və ödənilən vergilər daxil edilir.

(b) Hər hansı Podratçı tərəfə və ya onların Ortaq şirkətlərinə məxsus olan və Neft-qaz əməliyyatları ilə əlaqədar istifadə

3. Credits

Contractor will credit to the Petroleum Operations Account the net proceeds of the following transactions:

(a) The net proceeds of any successful insurance claim in connection with Petroleum Operations where the claim is with respect to operations or assets which were insured and where the insurance premium with respect thereto has been charged to the Petroleum Operations Account.

(b) Any adjustments received by Contractor from the suppliers/manufacturers (or their agents) in connection with defective Material and Equipment, the cost of which was previously charged by Contractor to the Petroleum Operations Account.

(c) The net proceeds of sale on disposal of assets used in Petroleum Operations, provided the cost of such assets was previously charged to the Petroleum Operations Account.

(d) The net proceeds received from Third Parties and/or SOCAR in respect of the use of facilities pursuant to Article 9.

4. Material And Equipment

4.1 Acquisitions

(a) Material and Equipment purchased shall be charged at net cost ("Net Cost") incurred by Contractor. Net Cost shall include, but shall not be limited to, such items as procurement cost, transportation, duties, licence fees and applicable taxes.

(b) New Material and Equipment owned by any of the Contractor Parties or their Affiliates and transferred to

olunmaq üçün Podratçıya verilən yeni Materiallar və avadanlıq yeni avadanlığın satın alınmasının yuxarıdakı (a) bəndinə müvafiq surətdə müəyyənləşdirilən Maya dəyəri ilə qiymətləndirilir. İşlənmiş Materiallara və avadanlığa onun işlənmə dərəcəsinə görə qiymət qoyulur, bu şərtlə ki, qiymət satın alınan yeni avadanlığın Maya dəyərinin yetmiş beş (75) faizindən çox olmasın.

(c) Qəbul edilmiş mühasibat uçotu metodlarına müvafiq surətdə Nəzarət altında olan material kimi təsnifləşdirilməyən Materiallar və avadanlıq tam yüz (100) faiz Əməliyyat məsrəflərinə aid edilir.

4.2 Satış

Sazişin 9.3 bəndinin müddəalarını nəzərə almaq şərtilə, Podratçı lüzumsuz saydığı, Neft-qaz əməliyyatları hesabında dəyəri iki yüz əlli min (250.000) Dollar və ya daha yüksək olan Materialların və avadanlığın satılmasını təklif etməsi haqqında Rəhbər komitəyə məlumat verməklə onları satmaq hüququna malikdir.

4.3 İnventarlaşdırma

(a) Podratçı Nəzarət altında olan bütün materialı vaxtaşırı inventarlaşdırır. Podratçı inventarlaşdırma keçirmək niyyətində olduğu barədə altmış (60) gün əvvəl yazılı bildiriş verir ki, onun keçirilməsində ARDNŞ-nin iştirak etmək imkanı olsun. İnventarlaşdırmada ARDNŞ nümayəndələrinin olmaması o deməkdir ki, ARDNŞ Podratçının keçirdiyi inventarlaşdırmanı qəbul edir.

(b) İnventarlaşdırmanın nəticələri Neft-qaz əməliyyatları hesabı üzrə yoxlanılır. Tərəflərin tələblərinə müvafiq surətdə Podratçı inventarlaşdırmaya dair hesabat əsasında Neft-qaz əməliyyatları hesabında inventar ehtiyatlarına düzəliş edir.

Contractor for use in connection with Petroleum Operations shall be priced at new purchase Net Cost determined in accordance with (a) above. Used Material and Equipment shall be priced at a value commensurate with its use, provided however that this price shall not exceed seventy five (75) percent of the new purchase Net Cost of such equipment.

(c) Material and Equipment not classified as Controllable Material under Accepted Accounting Practices shall be charged one hundred (100) percent to Operating Costs.

4.2 Disposal

Subject to Article 9.3 of the Agreement, Contractor shall have the right to dispose of Material and Equipment it deems to be surplus and shall advise the Steering Committee of proposed disposals having a value in the Petroleum Operations Account of Dollars two hundred and fifty thousand (250,000) or more.

4.3 Inventories

(a) Periodic inventories shall be taken by Contractor of all Controllable Material. Contractor shall give sixty (60) days written notice of intention to take such inventories to allow SOCAR to be represented. Failure of SOCAR to be represented shall bind SOCAR to accept the inventory taken by Contractor.

(b) Reconciliation of inventory with the Petroleum Operations Account shall be made. Inventory adjustments shall be made by Contractor to the Petroleum Operations Account, based on the inventory report as required by the Parties.

5. Mühasibat hesabatları

5.1 Rüblük hesabatlar

Hər Təqvim rübü qurtardıqdan sonra çoxu qırx beş (45) gün ərzində Podratçı ARDNŞ-ə əvvəlki Təqvim rübündə Neft-qaz əməliyyatlarına çəkilmiş məsrəflərin təhlili ilə birlikdə həmin məsrəfləri müvafiq büdcələrlə müqayisə etməyə imkan verən formada hesabat təqdim edir. Fəaliyyətin iki və ya daha çox növü üçün ümumi olan məsrəflər onların arasında ədalətli mütənasibliklə bölüşdürülür.

5.2 İllik hesabatlar

Hər Təqvim ilinin birinci Təqvim rübü ərzində Podratçı əvvəlki Təqvim ili ərzində çəkilmiş Neft-qaz əməliyyatları məsrəfləri barədə ARDNŞ-ə illik hesabat təqdim edir.

6. Məsrəflərin əvəzinin ödənilməsi və Mənfəət Karbohidrogenlərinin bölüşdürülməsi barədə hesabatlar

Sənaye hasilatının başlanması tarixinin daxil olduğu Təqvim rübü qurtardıqdan sonra çoxu qırx beş (45) gün ərzində və hər növbəti Təqvim rübü qurtardıqdan sonra çoxu qırx beş (45) gün ərzində Podratçı Məsrəflərin əvəzinin ödənilməsi barədə Təqvim rübü hesabatını və Mənfəət Karbohidrogenlərinin bölüşdürülməsi barədə Təqvim rübü hesabatını aşağıdakı məlumatla birlikdə ARDNŞ-ə təqdim edir:

(a) Əvvəlki Təqvim rübü başlananadək əvəzi ödənilməmiş Əməliyyat məsrəfləri və Əsaslı məsrəflər;

(b) Yuxarıdakı 1.2 bəndinə uyğun olaraq və Kassa prinsipinə əsaslanaraq həmin əvvəlki Təqvim rübü ərzində çəkilmiş Əməliyyat məsrəfləri və Əsaslı məsrəflər;

(c) Əvvəlki Təqvim rübü ərzində Podratçının yola saldığı Məsrəflərin əvəzinin ödənilməsi üçün Karbohidrogenlərin dəyəri və həcmi;

5. Accounting Reports

5.1 Quarterly Reports

Not later than forty five (45) days after the end of each Calendar Quarter, Contractor shall supply to SOCAR a Calendar Quarter report reviewing Petroleum Costs, incurred during the preceding Calendar Quarter, in a form which permits their comparison with the corresponding budgets. Costs which are common to two or more activities shall be allocated in an equitable manner.

5.2 Annual Reports

During the first Calendar Quarter of each Calendar Year Contractor shall supply to SOCAR an annual report reviewing Petroleum Costs incurred during the preceding Calendar Year.

6. Cost Recovery And Profit Petroleum Reports

Not later than forty-five (45) days after the end of the Calendar Quarter in which the Commencement Date of Commercial Production first occurs, and not later than forty-five (45) days after the end of each succeeding Calendar Quarter, Contractor shall supply to SOCAR a Calendar Quarter Cost Recovery report and Calendar Quarter Profit Petroleum division report showing:

(a) Unrecovered Operating Costs and Capital Costs as at the beginning of the preceding Calendar Quarter;

(b) Operating Costs and Capital Costs incurred during such preceding Calendar Quarter based on the Cash Basis principle in accordance with paragraph 1.2 above;

(c) The value and volume of Cost Recovery Petroleum lifted by Contractor during the preceding Calendar Quarter;

(d) Əvəzi ödənilməmiş, lakin əvəzi ödənilməkdən ötrü sonrakı Təqvim rüblərinə keçirilmiş Əməliyyat məsrəfləri və Əsaslı məsrəflər;

(e) (i) Hasil edilmiş Karbohidrogenlərin, (ii) Neft-qaz əməliyyatlarında istifadə olunmuş Karbohidrogenlərin, (iii) yola salınmaq üçün hazırlanmış Karbohidrogenlərin və (iv) əvvəlki Təqvim rübünün axırınadək Tərəflərin faktiki yola saldıqları Karbohidrogenlərin dəyəri və həcmi;

(f) Podratçının tərkibində olan hər Podratçı tərəf və ARDNŞ üçün əvvəlki Təqvim rübündə ayrılmış Mənfəət Karbohidrogenləri.

(d) Unrecovered Operating Costs and Capital Costs carried forward for recovery in succeeding Calendar Quarters;

(e) The value and volume of (i) Petroleum produced, (ii) Petroleum used in Petroleum Operations, (iii) Petroleum available for lifting and (iv) Petroleum actually lifted by the Parties, as at the end of the preceding Calendar Quarter;

(f) Profit Petroleum allocated to each of the Contractor Parties constituting Contractor, and SOCAR, during the preceding Calendar Quarter.

ƏLAVƏ 4

PODRATÇI TƏRƏFİN ƏSAS ANA ŞİRKƏTİNİN TƏMİNATININ NÜMUNƏSİ

ƏSAS ANA ŞİRKƏTİN TƏMİNATI

Kimə: Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə
Azərbaycan Respublikası
AZ1000, Bakı şəhəri
Neftçilər prospekti, 73

[Tarix]

Hörmətli cənablar,

AZƏRBAYCAN – ŞƏFƏQ-ASİMAN DƏNİZ BLOKU

Biz Xəzər dənizinin Azərbaycan sektorunda Şəfəq-Asiman dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, BP Eksploreyşn (Azərbaycan) Limited və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında _____ tarixində imzalanmış Sazişə ("Saziş") əsaslanırıq.

[ ] şirkətinin əsas benefisiar sahibi olan [ ] şirkəti bununla təminat verir ki, o, [ ] şirkətini Sazişə müvafiq surətdə bütün öhdəliklərini, maliyyə və digər vəzifələrini yerinə yetirməsi üçün zəruri olan pul vəsaiti ilə onun İştirak payı həddində təmin edəcəkdir. Bu Əsas ana şirkətinin təminatı Sazişlə eyni gündə qüvvəyə minir və [törəmə şirkəti] Sazişdə nəzərdə tutulan öhdəliklərini tamamilə yerinə yetirməsinə qədər qüvvədə olacaqdır.

Bu Əsas ana şirkətinin təminatı əsasında ödənişlər [ ] tərəfindən yalnız [ ] şirkətinin pozuntu faktı Sazişə müvafiq surətdə arbitraj qərarına görə [ ] şirkətinin xeyrinə olmadığı müəyyən edildikdən və qərarın surəti [ ] şirkətinə təqdim olunduqdan sonra aparılır.

APPENDIX 4

FORM OF CONTRACTOR PARTY'S ULTIMATE PARENT COMPANY GUARANTEE

ULTIMATE PARENT COMPANY GUARANTEE

To: The State Oil Company of the Republic of Azerbaijan
Neftchilar Prospekti 73
Baku AZ1000
Republic of Azerbaijan

[Date]

Gentlemen,

AZERBAIJAN – SHAFAG-ASIMAN OFFSHORE BLOCK

We refer to the Agreement on the Exploration, Development and Production Sharing for the Shafag-Asiman Offshore Block in the Azerbaijan Sector of the Caspian Sea (the "Agreement") signed on _____ between the State Oil Company of the Republic of Azerbaijan, BP Exploration (Azerbaijan) Limited and SOCAR Oil Affiliate.

[ ] being the beneficial owner of [ ] hereby guarantees that [ ] will provide [ ] with all funds necessary for [ ] to fulfil all of its obligations, financial or otherwise, under the Agreement up to its Participating Interest share of such obligations. This Ultimate Parent Company Guarantee shall enter into force as from the Effective Date of the Agreement and remain in force until [subsidiary] has no further obligations to be performed by it under the Agreement.

Payment under this Ultimate Parent Company Guarantee shall be made by [ ] only after a default by [ ] under the Agreement has been established pursuant to an arbitration award against [ ] and a copy of the award to support the claim has been submitted to [ ].

Bu Əsas ana şirkətinin təminatı tətbiq edilə bilən hüquq barəsində Sazişin 23.1 bəndindəki müddəada nəzərdə tutulan hüquqla tənzimlənir və təfsir edilir. Bu Əsas ana şirkətinin təminatı ilə əlaqədar hər cür mübahisələr arbitraj qaydasında, Sazişdə nəzərdə tutulduğu kimi, həmin yerdə və həmin qayda ilə həll edilir.

Hörmətlə,

_____
adından və tapşırığı ilə

[ ]

This Ultimate Parent Company Guarantee shall be governed and interpreted by the same law as provided under the applicable law provision in the Article 23.1 of the Agreement. Any dispute under this Ultimate Parent Company Guarantee shall be resolved by arbitration in the same place and manner as provided in the Agreement.

Yours faithfully

_____
for and on behalf of

[ ]

ƏLAVƏ 5

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN TƏMİNATI VƏ ÖHDƏLİKLƏRİ

Kimə: BP Eksploreyşn (Azərbaycan) Limited şirkətinə

Hörmətli cənablar,

AZƏRBAYCAN – ŞƏFƏQ-ASİMAN DƏNİZ BLOKU

Biz, Azərbaycan Respublikasının Hökuməti ("Hökumət"), bir tərəfdən Hökumətə məxsus və onun yurisdiksiyasında olan Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ("ARDNŞ") və digər tərəfdən BP Eksploreyşn (Azərbaycan) Limited şirkəti ("BP") və ARDNŞ-nin Ortaq Neft Şirkəti ("ONŞ") arasında (BP və ONŞ birlikdə "Podratçı" kimi çıxış edirlər) Xəzər dənizinin Azərbaycan sektorunda Şəfəq-Asiman dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında ____ _____ 2010-cu il tarixində bağlanmış sazişlə ("Saziş") tanış olduq.

Hökumət bununla təminat verir, öhdəsinə götürür və ayrılıqda hər Podratçı tərəflə aşağıdakılar barəsində razılığa gəlir:

1. Hökumət bununla aşağıdakılara təminat verir:

   (a) Sazişə görə ARDNŞ-nin Podratçıya verdiyi və ya verəcəyi hüquqlara; və

   (b) Sazişə görə ARDNŞ-nin götürdüyü və ya götürəcəyi öhdəliklərə; və

   (c) Hökumət Kontrakt sahəsi üzərində təkbaşına və müstəsna yurisdiksiyaya malikdir və onu Sazişin qüvvədə olduğu bütün müddət ərzində özündə saxlayır və ARDNŞ Podratçıya Sazişdə nəzərdə tutulan hüquqları və mənafeləri verməyə bütünlüklə vəkil edilmişdir; və

APPENDIX 5

GUARANTEE AND UNDERTAKING OF THE GOVERNMENT OF THE REPUBLIC OF AZERBAIJAN

To: BP Exploration (Azerbaijan) Limited

Gentlemen,

AZERBAIJAN – SHAFAG-ASIMAN OFFSHORE BLOCK

We the Government of the Republic of Azerbaijan (the "Government") have full knowledge of the Agreement on the Exploration, Development and Production Sharing for the Shafag-Asiman Offshore Block in the Azerbaijan Sector of the Caspian Sea ("Agreement") signed on ____ day of _____ 2010 between the State Oil Company of the Republic of Azerbaijan ("SOCAR"), being a company under the jurisdiction of and owned by the Government, of the First Part, and BP Exploration (Azerbaijan) Limited ("BP") and SOCAR Oil Affiliate ("SOA") (BP and SOA together constituting "Contractor"), of the Second Part.

The Government hereby guarantees, undertakes and agrees as to each Contractor Party severally as follows:

1. The Government hereby guarantees:

   (a) those rights granted or to be granted by SOCAR to the Contractor under the Agreement; and

   (b) those obligations undertaken or to be undertaken by SOCAR under the Agreement; and

   (c) that the Government has and shall maintain throughout the entire duration of the Agreement sole and exclusive jurisdiction over the Contract Area and that SOCAR has full authority to grant the rights and interests to the Contractor as provided in the Agreement; and

(d) Hökumət Sazişin qüvvədə olduğu bütün müddət ərzində Saziş üzrə Podratçının hüquqlarını və mənafelərini hər hansı şəkildə azaldan, pozan, ləğv edən və ya məhdudlaşdıran hər hansı müqavilələrə, hökumətlərarası sazişlərə və ya hər hansı başqa razılaşmalara getməyəcəkdir; habelə Hökumətin bağlaya biləcəyi və Kontrakt sahəsinə və/yaxud Saziş üzrə Podratçının hüquqlarına və mənafelərinə hər hansı şəkildə aid olan hər hansı müqavilələr, hökumətlərarası sazişlər və ya hər hansı başqa razılaşmalar Saziş üzrə Podratçının hüquqlarını və mənafelərini nəzərə alan və saxlayan, açıq ifadə olunan müddəaları əhatə edir; və

(e) Podratçı tərəfin heç bir hüququ, mənafeyi və ya əmlakı Azərbaycan Respublikasının hər hansı hakimiyyət orqanlarının hər hansı hərəkətləri nəticəsində ekspropriasiya edilə bilməz, milliləşdirilə bilməz və ya başqa şəkildə özgəninkiləşdirilə bilməz. Lakin bu Təminatın və Öhdəliklərin ("Hökumət Təminatı") müddəalarına baxmayaraq, Podratçı tərəfin hər hansı hüquqları, mənafeləri və ya əmlakı (o cümlədən mənimsənilməmiş ehtiyatları) ekspropriasiya edilərsə, milliləşdirilərsə və ya başqa şəkildə özgəninkiləşdirilərsə, Hökumət nağd pulun diskontlaşdırılmış axını metodunu tətbiq edərək və əlverişli konyunktura şəraitində əqddə maraqlı olan alıcının və satıcının mövcudluğunu ehtimal edərək, habelə Podratçı tərəfin öz hüquqlarından, mənafelərindən və ya əmlakından məhrum olması ilə nəticələnən əlverişsiz vəziyyəti nəzərə almayaraq, işləyən müəssisə timsalında müəyyən edilmiş tam bazar dəyəri üzrə Dollarla tam həcmdə dərhal kompensasiya verilməsini təmin edəcəkdir. Hökumət aşağıdakı 4-cü bənddə nəzərdə tutulduğu kimi arbitrajın yurisdiksiyasına tabe olacaqdır, və arbitraj bu sənədin prinsiplərinə uyğun olaraq hər bu cür Podratçı tərəfin göstərilən hüquqlarının, mənafelərinin və əmlakının tam bazar dəyərini qiymətləndirmək üçün yüksək beynəlxalq nüfuza malik investisiya bankını təyin edəcəkdir; və

(d) that the Government shall at no time during the entire duration of the Agreement enter into any treaties, intergovernmental agreements or any other arrangements which would, in any manner, diminish, infringe upon, nullify or derogate from the rights and interests of the Contractor under the Agreement; and that any treaties, intergovernmental agreements and any other arrangements which the Government might enter into which would in any way concern the Contract Area and/or the Contractor's rights and interests under the Agreement will include an express recognition and preservation of the rights and interests of the Contractor under the Agreement; and

(e) that none of the Contractor Party's rights, interests or property shall be expropriated, nationalised or otherwise taken by reason of any act of any authority of the Republic of Azerbaijan. In the event, however, that, notwithstanding the provisions of this Guarantee and Undertaking ("Government Guarantee"), any such expropriation, nationalisation or other taking of any of the Contractor Party's rights, interests or property (including undeveloped reserves) occurs, the Government shall provide full and prompt compensation in Dollars at the full market value determined on the basis of a going concern utilising the discounted cash flow method, assuming a willing buyer and a willing seller in a non-hostile environment and disregarding the unfavourable circumstances under which or following which such Contractor Party has been deprived of its rights, interests or property. The Government shall submit itself to the jurisdiction of the arbitration panel as provided in Paragraph 4 below and the arbitration panel shall select an investment bank of good international reputation for the purpose of appraising the full market value of said rights, interests and property of each such Contractor Party on the principles stated herein; and

(f) Sazişin qüvvədə olduğu və uzadıldığı hər hansı müddətdə Podratçıdan savayı heç bir başqa tərəfə, Sazişdə nəzərdə tutulan konkret hallar istisna olmaqla, Kontrakt sahəsində nəinki Karbohidrogenlər ehtiyatlarının kəşfiyyatı və işlənməsi hüquqları verilməyəcək, eləcə də belə hüquqların verilməsinə imkan yaradılmayacaqdır; və

(g) Sazişin Azərbaycan dilində olan mətninin bütün müddəaları Sazişin ingilis dilində olan mətninin bütün müddəalarının mənasını dəqiq ifadə edir.

2. Bundan əlavə, Hökumət razılaşır və öhdəsinə götürür ki, Sazişə və bu Hökumət Təminatına görə Podratçıya, Podratçının Ortaq şirkətlərinə və onların Subpodratçılarına, habelə Əməliyyat şirkətinə və Podratçının Sazişə əsasən yaratdığı hər hansı başqa hüquqi şəxsə verilən bütün hüquqların, imtiyazların və güzəştlərin tam hüquqi qüvvəsini təmin etmək məqsədilə Sazişin və bu Hökumət Təminatının qanun şəklində qəbul edilməsi üçün dərhal öz səlahiyyətləri çərçivəsində bütün tədbirləri görəcəkdir, o cümlədən:

(a) Sazişin müddəalarına uyğun olaraq Podratçıya Neft-qaz əməliyyatları aparmaq, öz hüquqlarından istifadə etmək və öhdəliklərini yerinə yetirmək üçün lazım olan bütün lisenziyaları, icazələri, təsdiqnamələri, razılıq sənədlərini və səlahiyyətləri istər Azərbaycan Respublikasının Hökuməti adından, istərsə də onun nazirlikləri və ya başqa rəsmi orqanları adından Podratçıya verəcəkdir; və

(b) Podratçıya bütün lazımi lisenziyaları, icazələri və razılıq sənədlərini, gömrük icazələrini, vizaları, yaşayış icazələrini, torpaq və ya su sahələrinə daxil olmaq üçün icazələri, idxal və ixrac lisenziyalarını, həmçinin bank hesabları açmaq, əməkdaşlar üçün ofis sahələri və mənzillər icarəyə götürmək və ya almaq, rabitə vasitələrindən istifadə etmək hüquqlarını və Neft-qaz əməliyyatlarını səmərəli şəkildə həyata keçirmək üçün vacib sayıla bilən buna bənzər başqa hüquqları verəcəkdir; və

(f) that no grant of rights to explore for and develop Petroleum reserves in the Contract Area shall be given or permitted to be given to any parties other than the Contractor during the term of the Agreement and any extensions thereof, except as otherwise expressly provided in the Agreement; and

(g) that all of the provisions in the Azerbaijani language version of the Agreement accurately convey the same meaning as all of the provisions set forth in the English language version of the Agreement.

2. In addition the Government agrees and undertakes that within the framework of its authority all measures will be taken forthwith to enact the Agreement and this Government Guarantee into law so as to ensure that all rights, privileges and exemptions granted under the Agreement and this Government Guarantee to the Contractor, Contractor's Affiliates and their Sub-contractors, as well as the Operating Company and any other entity established by Contractor pursuant to the Agreement, have full legal force and effect, and in particular:

(a) to provide the Contractor with the necessary licenses, permits and approvals, permissions and authorisations whether from the Government, its ministries or other official bodies in the Republic of Azerbaijan, required by Contractor to enable it to carry out Petroleum Operations, exercise its rights and fulfil its obligations in accordance with the provisions of the Agreement; and

(b) to provide the Contractor with the necessary licenses, permits and approvals, customs clearances, visas, residence permits, licenses to enter land or water and import and export licenses, as well as the right to open bank accounts, lease or acquire office space and employee accommodation, operate communication facilities and to do all other such matters as may be necessary for efficient implementation of the Petroleum Operations; and

(c) Sazişə uyğun olaraq Podratçının Azərbaycan Respublikasında öz Karbohidrogenlər payını almaq məqsədilə nəqletmə, emal və ixrac üzrə bütün zəruri obyektlərdən və infrastrukturdan, həmçinin Neft-qaz əməliyyatları üçün Podratçıya gərək olan torpaq sahələrindən istifadə etməsinə təminat verəcəkdir; həm də Hökumətə məxsus olan və ya onun nəzarəti altında olan (belə bir nəzarətin ARDNŞ vasitəsilə həyata keçirildiyi hallar istisna edilməklə) bu cür hər hansı obyektlərdən, infrastrukturdan, yaxud torpaq sahələrindən istifadə etmək imkanı Podratçıya belə obyektlərin və infrastrukturun kommersiya cəhətdən müstəqil olan hər hansı digər istifadəçisinə verilən və ya onunla razılaşdırılan ən sərfəli şərtlərdən heç də az sərfəli olmayan şərtlərlə verilməlidir; və

(c) to ensure that the Contractor has, in accordance with the Agreement, access for its share of Petroleum to all necessary transportation, treatment and export facilities and infrastructure in the Republic of Azerbaijan, as well as access to land required by the Contractor for Petroleum Operations, and that such access to any such facilities, infrastructure or land owned or controlled by the Government (other than through SOCAR) is on terms no less favourable to the Contractor than the best terms granted or agreed with any other bona fide arm's length user of such facilities and infrastructure; and

(d) Podratçının Azərbaycan Respublikasında başqa obyektlərlə yanaşı, tikinti və istehsal üçün sahil avadanlığından və qurğularından, təchizat bazalarından, gəmilərdən, anbarlardan, nəqletmə vasitələrindən, mallardan və xidmətlərdən istifadə etmək imkanını təmin etməkdən ötrü müstəqil surətdə və ya Azərbaycan Respublikasının digər hakimiyyət orqanları və ya Üçüncü tərəflər ilə birlikdə mümkün olan bütün səyləri göstərəcəkdir; həm də Podratçıya bu imkan belə obyektlərin və xidmətlərin kommersiya cəhətdən müstəqil olan hər hansı digər istifadəçisinə verilən və ya onunla razılaşdırılan ən sərfəli şərtlərdən heç də az sərfəli olmayan şərtlərlə və belə obyektlərin və xidmətlərin keyfiyyətinə və səmərəsinə uyğun gələn qiymətlərlə verilməlidir; həmin qiymətlər heç bir şəraitdə bu cür obyektlər və xidmətlər üçün Azərbaycan Respublikasının hüdudlarından kənarda üstünlük təşkil edən beynəlxalq bazar qiymətlərini ötüb keçməməlidir;

(d) to use its best endeavours, whether itself, or with other Azerbaijan authorities or Third Parties, to ensure that the Contractor has access to, inter alia, onshore construction and fabrication facilities, supply bases and vessels, warehousing, means of transportation, goods and services in the Republic of Azerbaijan, and that such access is on terms no less favourable to the Contractor than the best terms granted to or agreed with any other bona fide arm's length user of such facilities and services, and at rates commensurate with the quality and efficiency of such facilities and services, which shall in no circumstances exceed prevailing international market rates for such facilities and services outside the Republic of Azerbaijan; and

(e) Podratçının Neft-qaz əməliyyatları aparmaq üçün Azərbaycan Respublikası ərazisinin hüdudlarından kənarda əsaslandırılmış şəkildə zəruri saydığı hüquqları, imtiyazları, sanksiyaları, təsdiqnamələri, orqanlarla və yurisdiksiyalarla başqa razılaşmaları əldə etməsinə kömək etməkdən ötrü

(e) to use its best endeavours, whether itself, with other Azerbaijan authorities or Third Parties, to assist the Contractor in obtaining such rights, privileges, authorisations, approvals and other agreements from authorities and jurisdictions outside the territory of the

müstəqil surətdə və ya Azərbaycan Respublikasının digər hakimiyyət orqanları və ya Üçüncü tərəflər ilə birlikdə mümkün olan bütün səyləri göstərəcəkdir. Belə razılaşmalar ixrac boru kəmərini çəkməkdən ötrü müəyyən ərazidən keçmək hüququ, kəmərin istismarı hüququ, Kontrakt sahəsində çıxarılmış və toplanmış Karbohidrogenlərin, həmçinin Azərbaycan Respublikasının ərazisinə gətirilən və ya Azərbaycan Respublikasının ərazisindən göndərilən materialların, avadanlığın və başqa malların daşınması, mühafizəsi və boşaldılıb-yüklənməsi, həmçinin digər bu cür yurisdiksiyalarda aparılan Neft-qaz əməliyyatları ilə bağlı dövlət vergilərindən, yerli və başqa vergilərdən, gömrüklərdən, rüsumlardan, ödənclərdən, tranzit haqlarından və digər haqlardan və rüsumlardan azadedilmə barədə icazələr və öhdəliklər kimi məsələləri əhatə edə biləcək və yalnız bunlarla məhdudlaşmaq məcburi olmayacaqdır; və

Republic of Azerbaijan as the Contractor shall reasonably deem necessary for the Petroleum Operations. Such agreements may include, but need not be limited to, such matters as export pipeline rights, rights of way and operation rights, permits and undertakings with respect to the transhipment, storage or staging of Petroleum produced and saved from the Contract Area, material equipment and other supplies destined to or from the territory of the Republic of Azerbaijan, and exemptions from national, local and other taxes, duties, levies, imposts, transit fees, and other fees and charges on Petroleum Operations being conducted in such other jurisdictions; and

(f) obyektlərin ləğv edilməsi barədə Podratçının öhdəliklərini Sazişdə nəzərdə tutulmuş öhdəliklərlə məhdudlaşdıracaqdır; xüsusən Podratçı Əsas fondları ləğv etmək niyyəti barədə bildiriş göndərəndən sonra ARDNŞ-nin yiyələndiyi hər hansı Əsas fondların ləğvi ilə əlaqədar məsuliyyət daşımayacaqdır; və

(f) that the only abandonment obligations of the Contractor shall be as set forth in the Agreement and in particular Contractor shall have no liability for abandonment of any fixed assets which have been taken over by SOCAR upon Contractor's notice of its intention to abandon them; and

(g) Sazişdə göstərilən, Podratçı tərəflərin hər birindən (həmçinin müvafiq hallarda Ortaq şirkətlərdən, Üçüncü tərəflərdən, Əməliyyat şirkətindən, eləcə də onlardan hər hansı birinin əməkdaşlarından və Subpodratçılarından) tutulan Vergilərlə, eləcə də Sazişdə göstərildiyi tərzdə Vergilərdən azadetmə halları ilə kifayətlənəcəkdir; bu zaman ARDNŞ Hökumətdən bilavasitə və ya dolayısı ilə, ya Podratçı tərəflərin hər birinin məsuliyyət daşıdığı Vergilərin məbləği üzrə, ya da Podratçı tərəflərin hər birinin Vergi qoyulan mənfəəti (mənfəətləri) üzrə müəyyənləşdirilən hər hansı vəsait və ya digər imtiyazlar (o cümlədən, lakin bunlarla məhdudlaşdırılmadan, artıq verilmiş məbləğlərdən qaytarmalar, kompensasiyalar, vergi güzəştləri və çıxılmalar, ödəmələr yaxud hər hansı

(g) that liabilities and exemptions of each Contractor Party (and, where relevant, Affiliates, Third Parties and Operating Company, including employees and Sub-contractors of any of them) with respect to Taxes shall be as set out in the Agreement, and SOCAR shall not receive from the Government any funds or other benefit (including without limitation any rebate, refund, tax credit or deduction, payment or discharge of any obligation) which is determined, directly or indirectly, by reference either to the amount of Taxes for which any of the Contractor Parties is liable or by the Taxable Profit(s) of any of the Contractor Parties; and

öhdəliklər üzrə ödəmələrdən azadedilmələr) almayacaqdır; və

(h) Podratçının Sazişdə nəzərdə tutulan bank əməliyyatları aparmaq və valyuta dəyişdirmək hüququna riayət olunmasını, o cümlədən Podratçıya Karbohidrogenlər ixracından və/yaxud satışından əldə etdiyi bütün varidatı Azərbaycan Respublikasında və ya onun hüdudlarından kənarda sərbəst surətdə saxlamaq, eləcə də bunların sərbəst sərəncamçısı olmaq hüququ, Podratçının Neft-qaz əməliyyatları ilə bağlı fəaliyyətdən əldə etdiyi bütün varidatı sərbəst və qeyri-məhdud surətdə aparmaq hüququ verilməsini təmin edəcəkdir; və

(i) Saziş və Hökumət Təminatı üzrə Podratçının (və ya onun hüquq varislərinin) əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilməyəcək, düzəldilməyəcək və ya azaldılmayacaqdır. Azərbaycan Respublikasının hər hansı müqaviləsi, hökumətlərarası sazişi, qanunu, fərmanı və ya inzibati sərəncamı Sazişin və/yaxud Hökumət Təminatının müddəalarına uyğun gəlmədikdə və ya zidd olduqda, yaxud Kontrakt sahəsi üzərində yurisdiksiyada, vergi qanunvericiliyində, qaydalarda və ya inzibati praktikada hər hansı dəyişikliklər daxil olmaqla, Saziş və/yaxud Hökumət Təminatı üzrə Podratçının hüquqlarına və ya mənafelərinə mənfi təsir göstərdikdə, Hökumət bunun nəticəsində hər hansı mənfəətin itirilməsi, iqtisadi şəraitin pisləşməsi, zərər və ya itki dəyməsi müqabilində Podratçıya (və onun hüquq varislərinə) kompensasiya ödəyəcəkdir. Saziş və/yaxud Hökumət Təminatı ilə belə müqavilə, hökumətlərarası saziş, qanun, fərman və ya inzibati sərəncam arasında hər hansı ziddiyyəti və ya uyğunsuzluğu tez aradan qaldırmaq üçün Hökumət yuxarıda sadalanan prinsiplərə uyğun olaraq müvafiq tədbirlər görəcəkdir; və

(j) Hökumətə və ya Hökumət orqanlarına verilən hər hansı məxfi informasiya və ya məlumat barədə məxfiliyin saxlanmasını təmin edəcəkdir.

(h) to ensure the banking and currency exchange rights provided for in the Agreement, including the granting to Contractor of the right to freely retain, whether in the Republic of Azerbaijan or elsewhere, and dispose of all of the Contractor's proceeds from the export and/or sale of Petroleum, and the free and unfettered right of repatriation of all proceeds from the Contractor's activities in relation to Petroleum Operations; and

(i) that the rights and interest accruing to the Contractor (or its assignees) under the Agreement and the Government Guarantee shall not be amended, modified or reduced without the prior consent of the Contractor. In the event any Azerbaijan treaty, intergovernmental agreement, law, decree or administrative order which contravenes or conflicts with the provisions of the Agreement and/or this Government Guarantee or adversely affects the rights or interests of the Contractor thereunder, including any changes in jurisdiction over the Contract Area, tax legislation, regulations or administrative practice, then the Government shall indemnify Contractor (and its assignees) for any disbenefit, deterioration in economic circumstances, loss or damages that ensue therefrom. The Government will take appropriate measures to resolve promptly in accordance with the foregoing principles any conflict or anomaly between the Agreement and/or the Government Guarantee and such treaty, intergovernmental agreement, law, decree or administrative order; and

(j) to ensure observance of confidentiality with regard to any confidential information or data disclosed to the Government and Governmental Authorities.

3. ARDNŞ-nin özəlləşdirilməsi, ödəmə qabiliyyətsizliyi, ləğv olunması, yenidən təşkil edilməsi və ya strukturunda, yaxud hüquqi vəziyyətində hər hansı başqa dəyişikliklərin baş verməsi Hökumətin bu sənəddən irəli gələn öhdəliklərinə təsir göstərməyəcəkdir. Hökumət Sazişin qüvvədə olduğu bütün müddət ərzində ARDNŞ-nin Sazişdən irəli qələn hüquqlarının və öhdəliklərinin bu cür öhdəliklər götürməyə və yerinə yetirməyə qadir olan orqana verilməsini hökmən təmin edəcəkdir, əks təqdirdə ARDNŞ-nin Sazişdən irəli qələn bütün öhdəliklərini Hökumət özü yerinə yetirəcəkdir.

3. The privatisation, insolvency, liquidation, reorganisation or any other change in the structure or legal existence of SOCAR shall not affect the obligations of the Government hereunder. The Government shall, throughout the entire duration of the Agreement, ensure that the rights and obligations of SOCAR under the Agreement are always vested in and undertaken by an entity authorised to and capable of performing such obligations, failing which the Government itself shall perform directly all such obligations of SOCAR under the Agreement.

4. Bu Hökumət Təminatı ilə əlaqədar Hökumət və Podratçı arasında hər hansı ixtilaf Sazişdə göstərildiyi kimi, eyni yerdə, eyni tərzdə və eyni prinsiplərə uyğun olaraq arbitraj qaydası ilə həll ediləcəkdir. Belə arbitrajın baş tutmasını, habelə arbitrajın hər hansı qərarının, qətnaməsinin, hər hansı təminedici tədbirin, ilkin hüquqi müdafiə vasitəsinin və ya arbitraj qərarı çıxarılanadək digər aralıq məhkəmə müdafiəsi vasitəsinin məcburi icrasını təmin etmək məqsədi ilə Hökumət suveren immunitet hüququna dair bütün iddialardan imtina edir.

4. Any dispute between the Government and the Contractor concerning this Guarantee shall be resolved by arbitration in the same place and manner and in accordance with the same principles as provided in the Agreement. For the purposes of allowing such arbitration and enforcement and execution of any arbitration decision, award, issuance of any attachment, provisional remedy or other pre-award remedy, the Government hereby waives all rights to claim sovereign immunity.

5. Bu Hökumət Təminatı ilə Podratçı tərəfə verilən hüquqlar və mənafelər onun hər hansı hüquq varisi və ya müvəkkili üçün hüquqi qüvvəyə malikdir.

5. The rights and interests accorded to a Contractor Party under this Government Guarantee shall enure for the benefit of any successor or assignee of such Contractor Party.

6. Bu Hökumət Təminatı imzalandığı gündən qüvvəyə minir, və əgər Hökumət və Podratçı başqa razılığa gəlməsələr, Sazişin qüvvədə olduğu bütün müddət ərzində və bu Hökumət Təminatı və ya Saziş üzrə Podratçı tərəflərdən hər hansı birinin aldığı hər hansı hüquqları həyata keçirmək üçün lazım olan daha uzun müddət ərzində qüvvədə qalır və Sazişə (vaxtaşırı dəyişdirildiyi şəkildə) tətbiq edilir.

6. This Government Guarantee shall enter into force upon its execution and shall, unless the Government and the Contractor agree otherwise, remain in force and apply to the Agreement (as amended from time to time) for its entire duration and for such longer time as may be necessary for enforcement of any rights accruing to any of the Contractor Parties hereunder or under the Agreement.

7. Bu Hökumət Təminatında istifadə olunan və Sazişdə tərifi verilən sözlər və ifadələr onlara Sazişdə verilən mənanı daşıyır.

7. Words and phrases used in this Government Guarantee and which are defined in the Agreement shall have the same meaning as in the Agreement.

8. Bu Hökumət Təminatı tətbiq edilə bilən hüququn Sazişdə göstərilmiş prinsiplərinə uyğun surətdə tənzimlənir və təfsir olunur.

YUXARIDA DEYİLƏNLƏRİN TƏSDİQİ OLARAQ Hökumətin səlahiyyətli nümayəndəsi bu Hökumət Təminatını _____ 2010-cu il tarixində Bakı şəhərində imzalamışdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN
adından və tapşırığı ilə

_____

8. This Government Guarantee shall be governed by and interpreted in accordance with the principles of the applicable law provisions set out in the Agreement.

IN WITNESS WHEREOF the authorised representative of the Government has executed this Government Guarantee in Baku on _____ 2010.

For and on behalf of
THE GOVERNMENT OF THE REPUBLIC OF AZERBAIJAN

_____

ƏLAVƏ 6

ARBİTRAJ QAYDASI

1.1 Bu Sazişdə ayrıca olaraq başqa şəkildə göstərilən hallardan savayı, ARDNŞ ilə hər hansı Podratçı tərəf və ya bütün Podratçı tərəflər arasında meydana çıxan, 23.3(a) bəndinin müddəalarına əsasən Tərəflərin xoşluqla həll edə bilmədikləri bütün mübahisələr, o cümlədən bu Sazişin etibarlılığı, təfsiri, iddia qüvvəsinə malik olması və ya pozulması ilə bağlı hər hansı mübahisələrin məhdudiyyət qoyulmadan hamısı 15 dekabr 1976-cı il tarixində qəbul olunmuş və vaxtaşırı UNCITRAL tərəfindən ona dəyişikliklər edilən Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyasının (UNCITRAL) Arbitraj qaydalarına ("Qaydalar") uyğun surətdə, Tərəflərin yekdil qərarına əsasən təyin edilən tək arbitr tərəfindən, yaxud mübahisənin arbitraj qaydasında baxılması üçün müraciətin təqdim edilməsindən sonra otuz (30) gün ərzində Tərəflər belə yekdil qərara gələ bilmədikdə üç (3) arbitrdən ibarət kollegiya tərəfindən qəti şəkildə həll edilir. Qaydalarda baxılan məsələlərin və ya vəziyyətlərin hər hansı birinə tətbiq edilməli müddəalar yoxdursa, arbitraj belə məsələnin tənzimlənməsi üçün öz qaydalarını müəyyən edir və bu yolla qəbul edilmiş hər hansı qaydalar bundan sonra Qaydaların bir hissəsi sayılır. Belə bir arbitrajın baş tutmasını, həmçinin arbitrajın hər hansı bir qərarının, qətnaməsinin, təminedici tədbirin, hər hansı ilkin məhkəmə müdafiəsi vasitəsinin və ya arbitraj qərarı çıxarılanadək digər aralıq hüquqi müdafiə vasitəsinin məcburi icrasını təmin etmək məqsədilə Tərəflərdən hər biri toxunulmazlıq hüququna, o cümlədən, lakin bununla məhdudlaşmadan, suveren immunitet hüququna dair bütün və hər cür iddialardan imtina edir.

1.2 Arbitraj İsveçin Stokholm şəhərində keçirilir. Arbitraj baxışının dili ingilis dilidir və arbitrlər bu Sazişin ingiliscə mətnindən istifadə edəcəklər.

1.3 Arbitraja müraciət etmək niyyəti barədə otuz (30) gün qabaqcadan digər Tərəfə yazılı bildiriş göndərdikdən sonra istər ARDNŞ, istərsə

APPENDIX 6

ARBITRATION PROCEDURE

1.1 Except as otherwise provided in this Agreement, all disputes arising between SOCAR and any or all of the Contractor Parties, including without limitation, any dispute as to the validity, construction, enforceability or breach of this Agreement, which are not amicably resolved by the Parties in accordance with the provisions of Article 23.3(a) shall be finally settled by a sole arbitrator appointed by the unanimous decision of the Parties or, in the absence of such unanimous decision within thirty (30) days of a submission of the request for arbitration, by a panel of three (3) arbitrators under the Arbitration Rules of The United Nations Commission on International Trade Law known as UNCITRAL (the "Rules") adopted on 15 December 1976 as amended by UNCITRAL from time to time. In the event the Rules fail to make provision for any matter or situation the arbitration tribunal shall establish its own rules to govern such matter and procedure and any such rules so adopted shall be considered as a part of the Rules. For purposes of allowing such arbitration, and enforcement and execution of any arbitration decision, award, issuance of any attachment, provisional remedy or other pre-award remedy, each Party waives any and all claims to immunity, including, but not limited to, any claims to sovereign immunity.

1.2 The arbitration shall be held in Stockholm, Sweden. The language used during the procedure shall be the English language and the English language text of this Agreement will be utilised by the arbitrators.

1.3 After providing thirty (30) days prior written notice to the other Party of intent to arbitrate, either SOCAR or Contractor may initiate

də Podratçı Qaydalarda nəzərdə tutulduğu kimi, Haaqa şəhərindəki Daimi Arbitraj Məhkəməsinin Baş katibinə arbitraj baxışı haqqında ərizə verməklə və arbitr təyin edərək arbitraj baxışına başlaya bilər (arbitraj baxışına başlayan Tərəf bundan sonra "Birinci tərəf" adlanır); yuxarıda deyilən ərizədə arbitrin adı göstərilməlidir. Mübahisənin iştirakçısı olan digər Tərəf ("İkinci tərəf") ərizənin surətini aldıqdan sonra otuz (30) gün müddətində ərizəyə cavab verir və Birinci tərəfin təyin etdiyi arbitrin tək arbitr olmasına razılığını bildirir və ya əks halda seçdiyi digər arbitrin adını göstərir.

arbitration (the Party initiating the arbitration shall hereinafter be called the "First Party") submitting a request for arbitration to the Secretary General of the Permanent Court of Arbitration in the Hague, as provided in the Rules, and appointing an arbitrator who shall be identified in said request. Within thirty (30) days of receipt of a copy of the request the other Party to the dispute ("Second Party") shall respond, indicating whether it accepts the arbitrator appointed by the First Party as the sole arbitrator, or identifying a different arbitrator that it has selected.

Əgər İkinci tərəf Birinci tərəfin təyin etdiyi tək arbitri qəbul etmirsə, lakin eyni zamanda öz arbitrini təyin etmirsə, Haaqa şəhərindəki Daimi Arbitraj Məhkəməsinin Baş katibi Qaydalara uyğun olaraq ikinci arbitri təyin edir. Həmin iki arbitr otuz (30) gün ərzində üçüncü arbitri seçirlər; əgər seçə bilməsələr, üçüncü arbitri Haaqa şəhərindəki Daimi Arbitraj Məhkəməsinin Baş katibi Qaydalara uyğun surətdə təyin edir. Tərəflər arasında başqa yazılı razılaşma olmadıqda, təyin edilən üçüncü arbitr hər hansı bir Tərəfin (o cümlədən, belə Tərəfin Əsas ana şirkətinin) təsis edildiyi ölkənin vətəndaşı olmamalıdır.

If the Second Party does not accept the sole arbitrator appointed by the First Party and also does not appoint its arbitrator, the Secretary General of the Permanent Court of Arbitration in the Hague shall appoint a second arbitrator in accordance with the Rules. The two arbitrators shall, within thirty (30) days, select a third arbitrator failing which the third arbitrator shall be appointed by the Secretary General of the Permanent Court of Arbitration in the Hague, in accordance with the Rules. Unless otherwise agreed in writing by the Parties, the third arbitrator to be appointed shall not be a citizen of a country in which any Party (including the Ultimate Parent Company of such Party) is incorporated.

1.4 Tərəflər mübahisənin lazımi qaydada həlli üçün arbitraj məhkəməsinin (və ya tək arbitrin) hər hansı lazımi məlumat almasına hər cür imkan yaradırlar (Neft-qaz əməliyyatlarına və obyektlərə buraxılmaq imkanı daxil olmaqla). Hər hansı Tərəfə arbitraj baxışının hər hansı mərhələsində və ya bütün mərhələlərində keçirilməsinə mane olan və ya əngəl törədən üzürlü səbəbə görə iştirak etməməyə və ya çağırışa gəlməməyə yalnız bir dəfə icazə verilir. Tərəfin çağırışa təkrarən və ya üzrsüz səbəb üzündən gəlməməsi arbitraj baxışına fasilə verilməsi üçün əsas və ya onun keçirilməsinə mane ola bilməz.

1.4 The Parties shall extend to the arbitration tribunal (or the sole arbitrator as the case may be) all facilities (including access to the Petroleum Operations and facilities) for obtaining any information required for the proper determination of the dispute. Any Party shall be allowed only one absence or default beyond its reasonable control which prevents or hinders the arbitration proceeding in any or all of its stages. Additional absences, or absences which are within a Party's reasonable control, shall not be allowed to prevent or hinder the arbitration proceeding.

1.5 Öz səlahiyyətlərinin ümumi xarakterini məhdudlaşdırmadan arbitr(lər) zəruri hallarda 23.2 bəndindəki müddəalara istinadən Hökumətin Təminatına uyğun olaraq arbitraj xərclərinin və zərərin ödənilməsinə dair qərar qəbul etmək səlahiyyətinə malikdir(lər).

1.5 Without limiting the generality of their powers, the arbitrator(s) shall have the power to award costs and damages as necessary with respect to the Government Guarantee with respect to Article 23.2.

1.6 Arbitrajın qərarı qətidir, Tərəflər üçün məcburidir və dərhal icra edilir. Alınmış arbitraj qərarı icraata götürülməklə onun barəsində məhkəmə qərarı çıxarıla bilər və ya müvafiq yurisdiksiyaya malik hər hansı məhkəmədə icra barədə məhkəmə əmri alına bilər və ya şəraitdən asılı olaraq bu cür məhkəməyə ərizə verib məhkəmənin arbitraj qərarını tanımasını və məcburi icra haqqında əmr verməsini xahiş etmək olar.

1.7 Hər bir Tərəf öz arbitrinin xərclərini ödəyir, və üçüncü arbitrə çəkilən xərclər, eləcə Qaydalarla müəyyən edilmiş hər hansı məsrəflər Tərəflər arasında bərabər hissələrə bölünür. Yuxarıda deyilənlərə baxmayaraq arbitrlər udan Tərəfə uduzan Tərəfin hesabına arbitraj xərclərinin (hüquq xidmətlərinin müqabilində ödənilən ağlabatan qonorarlar daxil olmaqla) əvəzini verdirə bilərlər. Zərərin əvəzi pul ilə kompensasiya edildiyi halda buraya pozuntu vaxtından başlayaraq verdirilən məbləğin tam ödənilməsi vaxtınadək alınan faizlər daxil edilir. Belə hallarda bu cür və ya hər hansı digər pozuntu vaxtından tutmuş verdirilən məbləğin tam ödənilməsi vaxtınadək olan dövr üçün LİBOR faiz dərəcəsi üstəgəl dörd (4) faiz tətbiq olunur. Hər bir Tərəf alınmamış faizlərin və ya pul vəsaitindən istifadə imkanını itirmək nəticəsində dəymiş zərərin əvəzinin ödənilməsinə dair bildirişlər təqdim etmək barədə hər hansı milli qanunvericiliyin hər hansı və bütün tələblərinin tətbiqindən imtina edir.

1.6 The arbitration tribunal's award shall be final and binding on the Parties and shall be immediately enforceable. Judgement on the award rendered may be entered and execution had in any court having jurisdiction or application may be made to such court for a judicial acceptance of the award and an order of enforcement and execution, as applicable.

1.7 Each Party shall pay the costs of its own arbitrator and the costs of the third arbitrator in equal shares, and any costs imposed by the Rules shall be shared equally by the Parties. Notwithstanding the above, the arbitrators may, however, award costs (including reasonable legal fees) to the prevailing Party from the losing Party. In the event that monetary damages are awarded, the award shall include interest from the date of the breach or other violation to the date when the award is paid in full. The rate of interest shall be LIBOR plus four (4) percent over the period from the date of the breach or other violation to the date the award is paid in full. Each Party waives any and all requirements of any national law relating to notice of a demand for interest or damage for the loss of the use of funds.

ƏLAVƏ 7

XAM NEFTİN VƏ TƏBİİ QAZIN HƏCMLƏRİNİN ÖLÇÜLMƏSİ VƏ KEYFİYYƏTİNİN MÜƏYYƏN EDİLMƏSİ QAYDASI

1.1 Ümumi müddəa

Bu 7-ci Əlavədə Kontrakt sahəsində çıxarılan Karbohidrogenlərin həcmlərinin ölçülməsi və qiymətləndirilməsi üsulu şərh edilir.

1.2 Xam neftin ölçülməsi

(a) Həcm məsrəfölçənləri. Podratçı Çatdırılma məntəqəsində daimi həcm məsrəfölçənləri qurur. Kontrakt sahəsindən çıxarılan Xam neftin dəqiq ölçülməsini, tipinin, miqdarının müəyyənləşdirilməsini təmin edəcək həcm məsrəfölçənlərinə bütün zəruri ölçü qurğuları, ölçü qurğuları üçün nəzarət cihazları, Kontrakt sahəsində çıxarılan Xam neftin həcmini ölçmək, keyfiyyətini və fiziki xüsusiyyətlərini müəyyən etmək və qeydə almaq üçün cihazlar və başqa zəruri avadanlıq daxil olacaqdır. Podratçı Kontrakt sahəsindən çıxarılan Xam neftin həcmini ölçmək və qiymətləndirmək üçün həcm məsrəfölçənlərindən istifadə edir.

(b) Podratçı həmçinin Amerika Neft İnstitutunun (ANİ) dərəcələri ilə əsas çöküntüləri, suyu və sıxlığı ölçmək üçün lazımi cihazlar və alətlər alınmasını təmin edəcək və həmin cihazları müvafiq laboratoriyada saxlayacaqdır. Podratçı beynəlxalq neft-qaz sənayesində hamılıqla qəbul edilmiş standartlara uyğun olaraq, istifadə edilən sayğacların dəqiqliyini zəruri hallarda, lakin ayda bir dəfədən az olmayaraq sınaqdan keçirəcək və kalibrləyəcəkdir. Bütün sınaqlarda və kalibrləmədə həm ARDNŞ-nin, həm də Podratçının nümayəndələri iştirak edəcək və nəticələr barədə ətraflı hesabatları ARDNŞ-nin iki (2) və Podratçının iki (2) nümayəndəsi imzalayacaqdır.

APPENDIX 7

CRUDE OIL AND NATURAL GAS MEASUREMENT AND EVALUATION PROCEDURE

1.1 General

This Appendix 7 describes the method of measuring and evaluating the Petroleum produced from the Contract Area.

1.2 Crude Oil Measurement.

(a) Custody Transfer Meters. Contractor will have custody transfer meters permanently installed at the Delivery Point. The custody transfer meters will be capable of accurately measuring and evaluating the specific type and quantity of Crude Oil produced in the Contract Area and will be comprised of all necessary meters, meter testing devices, instruments, and other associated equipment necessary to measure, evaluate and record the quantity, quality and physical characteristics of the Crude Oil from the Contract Area. Contractor will use the custody transfer meters for measurement and evaluation of the Crude Oil from the Contract Area.

(b) Contractor will also provide necessary tools and instruments to measure BS&W and American Petroleum Institute (‘API’) gravity and shall store such tools and instruments in an appropriate laboratory. Contractor shall test and calibrate the accuracy of the meters being used in accordance with generally accepted international Petroleum industry practice whenever necessary and in any event at least once per month. All testing and calibration will be witnessed both by SOCAR and by Contractor with detailed reports and results signed by two (2) representatives from each of SOCAR and Contractor.

1.3 Xam neftin ölçülməsi müddətləri

Həcm məsrəfölçənlərinin rəsmi göstəriciləri mühasibat uçotu məqsədləri üçün, Xam neftin hasilatı və nəql edilməsi üçün həftədə bir dəfədən az olmayaraq qeydə alınacaqdır. Həmin göstəricilər əsasında əldə edilən informasiya ARDNŞ-ə və Podratçıya veriləcəkdir. Göstəricilərin qeydə alınmasının konkret vaxtını Podratçı təyin edəcək və bu barədə ARDNŞ-ə vaxtında bildiriş verəcəkdir. Həm ARDNŞ-nin, həm də Podratçının hərəsi iki (2) nümayəndə ayırmaq hüququna malik olacaqdır; onlar məsrəfölçənin göstəricilərinin qeydə alınmasında iştirak edəcək və göstəricilərin qeydiyyat vərəqəsini imzalayacaqlar.

1.4 Təbii qazın ölçülməsi

Bu Saziş üzrə çatdırılmış Təbii qazın həcmi diafraqmalı məsrəfölçənlərin göstəriciləri asasında, ANİ-nin standartları və qaydaları ilə müəyyən edilir. Təbii qaz üçün qurulacaq məsrəfölçənlərin tipini Podratçı müəyyənləşdirəcəkdir. Qurulan ölçmə və qiymətləndirmə sistemi Təbii qazın miqdarının, keyfiyyətinin və fiziki xüsusiyyətlərinin qeydiyyatı üçün bütün zəruri məsrəfölçənlərdən, alətlərdən və başqa əlavə avadanlıqdan ibarətdir. Təbii qazı ölçən bütün sistem ikinci dəst avadanlıqla təchiz ediləcək və sərf olunan bütün Təbii qaz haqqında məlumatı fasiləsiz qeydə ala biləcəkdir. Təbii qaz məsrəfölçənləri ayda bir dəfədən az olmayaraq kalibrlənəcək və kalibrləmə barəsində hesabatlar ARDNŞ-nin və Podratçının nümayəndələri tərəfindən təsdiq ediləcək və imzalanacaqdır.

1.5 Karbohidrogenlərin həcmlərinin ölçülməsi qaydası

(a) Podratçı və ARDNŞ başqa cür razılığa gəlməsələr, avadanlıqdan keçən Karbohidrogenlərin həcmini ölçmək və onları qiymətləndirmək üçün ANİ-nin qəbul etdiyi standartlardan və qaydalardan istifadə olunur. Həmin qayda və standartlar ANİ-nin "Nümunələr götürməyin standart metodu"ndan (Standard Method of Sampling) və "Karbohidrogenlərin ölçülməsi standartlarına dair"

1.3 Timing of Crude Oil Measurement

Official meter readings for accounting purposes will be monitored not less than weekly for purposes of providing production and Crude Oil shipment data. Information obtained from these readings will be reported to SOCAR and Contractor. The actual times of meter readings will be determined by Contractor with timely notification to SOCAR. SOCAR and Contractor will each have the right to have two (2) representatives present to witness meter readings and sign meter tickets.

1.4 Natural Gas Measurement

The quantity of Natural Gas delivered under this Agreement will be determined from data obtained from orifice meter runs using API standards and procedures. The type of Natural Gas meters to be installed will be determined by Contractor. The measurement and evaluation system installed will be comprised of all the necessary meters, instruments and other associated equipment necessary to record the quantity, quality and physical characteristics of the Natural Gas. The entire Natural Gas metering system will have a backup and be capable of continuously recording throughput data at all times. The Natural Gas meters will be calibrated at least once per month with calibration records witnessed and signed by representatives of both SOCAR and Contractor.

1.5 Petroleum Measurement Procedures

(a) Unless Contractor and SOCAR agree otherwise, API standards and procedures will be used to measure and evaluate Petroleum flowing through the equipment. The API standards and procedures will be taken from or provided by the API's Standard Method of Sampling and Manual of Petroleum Measurement Standards. A copy of the standards and procedures (and updates and reviews

vəsaitindən (Manual of Petroleum Measurement Standards) götürülür. Podratçı standartların və qaydaların bir nüsxəsini (habelə hər hansı dəyişiklikləri və bunlara düzəlişləri) ARDNŞ-ə verir, həm ARDNŞ, həm də Podratçı bundan istənilən vaxt istifadə edirlər.

(b) Podratçının və ARDNŞ-nin mütəxəssisləri Karbohidrogenlərin həcminin ölçülməsinin və onların qiymətləndirilməsinin konkret və dəqiq qaydasını və metodlarını razılaşdırmaq üçün görüşürlər. Qayda və metodlar İşlənmə proqramı təsdiq olunduqdan sonra əməli cəhətdən imkan yaranan kimi tətbiq edilir.

thereof) will be provided by Contractor and will be available both to SOCAR and to Contractor at all times.

(b) Specialists from Contractor and SOCAR shall meet to agree appropriate detailed Petroleum measurement and evaluation procedures to be implemented as soon as practicable after approval of the Development Programme.

ƏLAVƏ 8

LAYİHƏ STANDARTLARI VƏ TEXNİKİ ŞƏRTLƏR

Bütün mədən obyektlərinin və mövcud qurğuların modifikasiyası proqramı çərçivəsində quraşdırılan avadanlıq müasir beynəlxalq standartlara müvafiq surətdə layihələşdirilir və lazım gələrsə, Xəzər dənizinin konkret şəraiti üçün modifikasiya edilir.

Mövcud qurğular onların inşası zamanı qüvvədə olan standartlar üzrə layihələşdirilmişdir. Podratçı yeni avadanlığın təhlükəsiz istismarı üçün lazım bildiyi hallardan başqa, həmin qurğular beynəlxalq standartlara müvafiq surətdə modernləşdirilmir.

Layihədə istifadə olunan texniki şərtlər müasir standartlara və tanınmış beynəlxalq konstruktor təşkilatları və assosiasiyaları tərəfindən tövsiyə edilən normalara əsaslanır. Bunlardan bəziləri aşağıda sadalanır. Texniki layihə şərtlərinə Podratçının həmin beynəlxalq standartlar əsasında işləyib hazırladığı əlavə tələblər də daxil edilə bilər.

API	-	Amerika Neft İnstitutu
ANSI	-	Amerika Milli Standartlar İnstitutu
ASME	-	Amerika Mühəndis-Mexaniklər Cəmiyyəti
ASTM	-	Amerika Sınaq və Materiallar Cəmiyyəti
BSI	-	Britaniya Standartlar İnstitutu
CEN	-	Avropa Normalaşdırma Komissiyası
CENELEC	-	Avropa Elektrotexniki Standartlar Komissiyası
DIN	-	Almaniya Standartlar İnstitutu
IEC	-	Beynəlxalq Elektrotexnika Komissiyası
IEEE	-	Mühəndis Elektriklər və Elektronçular İnstitutu (ABŞ)
IP	-	Neft İnstitutu (Böyük Britaniya)
ISA	-	Amerika Cihazlar Cəmiyyəti
ISO	-	Beynəlxalq Standartlaşdırma Təşkilatı
NACE	-	Korroziya Mühəndisləri Milli Assosiasiyası (ABŞ)
NEMA	-	Elektrik Avadanlığı İstehsalçılarının Milli Assosiasiyası (ABŞ)
NFPA	-	Yanğından Mühafizə Təhlükəsizliyi Milli Assosiasiyası (ABŞ)

APPENDIX 8

DESIGN STANDARDS AND SPECIFICATIONS

All new production facilities and all new equipment added as part of a modification programme to existing facilities, will be designed in accordance with current international standards, modified where appropriate for the specific requirements of the Caspian Sea conditions.

Existing facilities were designed to the standards appropriate at the time of their construction. They will not be modified to comply with international standards except where determined necessary by Contractor for the safe operation of new equipment.

The design specifications used will be based on current standards and recommended practice as published by recognised international engineering organisations and associations, some of which are listed below. The design specifications may also include additional requirements developed from these international standards by Contractor.

API	-	American Petroleum Institute
ANSI	-	American National Standards Institute
ASME	-	American Society of Mechanical Engineers
ASTM	-	American Society for Testing and Materials
BSI	-	British Standards Institution
CEN	-	European Committee for Normalisation
CENELEC	-	European Committee for Electrotechnical Standards
DIN	-	The German Institute for Standards
IEC	-	International Electrotechnical Commission
IEEE	-	Institute of Electrical and Electronics Engineers (USA)
IP	-	Institute of Petroleum (UK)
ISA	-	Instrument Society of America
ISO	-	International Organisation for Standardisation
NACE	-	National Association of Corrosion Engineers (USA)
NEMA	-	National Electrical Manufacturers Association (USA)
NFPA	-	National Fire Prevention Association (USA)

ƏLAVƏ 9

ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ STANDARTLARI VƏ METODLARI

I. Kompleks idarəetmə sistemi

A. Ekologiya üzrə yardımçı komitə

1. Rəhbər komitənin ekologiya üzrə yardımçı komitəsinin təsis edilməsi və təşkilat strukturu Podratçının təklifində şərh olunur; təklif təsdiq olunmaq üçün ARDNŞ-ə təqdim edilir. ARDNŞ tərəfindən təsdiq edildikdən sonra ekologiya üzrə yardımçı komitə təsdiq olunmuş tövsiyələrə uyğun yaradılır və Podratçı tərəflərin, ARDNŞ-nin, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının və digər müvafiq tədqiqat institutlarının nümayəndələrindən ibarət olur.

2. Ekologiya üzrə yardımçı komitənin vəzifələri:

- müəyyən edilmiş ekoloji parametrlərin monitorinqi üçün monitorinq proqramını tərtib etmək;
- monitorinq proqramını koordinasiya etmək;
- nəticələri nəzərdən keçirmək və təkliflər irəli sürmək;
- illik hesabatı dərc etdirmək.

B. Ətraf mühitin mühafizəsi üzrə iş proqramı

Neft-qaz əməliyyatlarının yerinə yetirilməsi zamanı 26.2 bəndinə uyğun surətdə əməl edilməli olan Ətraf mühitin mühafizəsi proqramı aşağıdakı qaydada mərhələlərə bölünür:

APPENDIX 9

ENVIRONMENTAL STANDARDS AND PRACTICES

I. Integrated Management System

A. Environmental Sub-Committee

1. The formation and organisation of an environmental sub-committee of the Steering Committee shall be set forth in a proposal of Contractor which will be submitted to SOCAR for approval. Once approved by SOCAR, the Environmental Sub-Committee shall be formed in accordance with the approved recommendation and shall be composed of environmental representatives of Contractor Parties and SOCAR, the Ministry of Ecology and Natural Resources, Azerbaijan National Academy of Sciences and other relevant research institutes.

2. Responsibilities of the environmental sub-committee shall be to:

- design monitoring program for monitoring of selected environmental parameters;
- co-ordinate monitoring program;
- review results and propose recommendations;
- publish annual report.

B. Environmental Work Programme

The environmental work programme to be pursued during Petroleum Operations pursuant to Article 26.2 shall be phased as follows:

1. Seysmik tədqiqatlar

– Ətraf mühitə təsirin qiymətləndirilməsi;
– Seysmik əməliyyatlar zamanı sağlamlığın qorunması, təhlükəsizlik texnikasının və ətraf mühitin mühafizəsinin təmin edilməsi, o cümlədən qəza vəziyyətləri üçün prosedurlar, neft dağılmalarına qarşı cavab tədbirləri planı, tullantıların idarəolunması planı və audit proqramı.

2. Kəşfiyyat qazması

– Qazmanın ətraf mühitə təsirinin qiymətləndirilməsi;
– Ətraf mühitin ilkin vəziyyətinin qiymətləndirilməsi;
– Ekoloji monitorinq proqramı;
– Kəşfiyyat qazması zamanı sağlamlığın qorunması, təhlükəsizlik texnikasının və ətraf mühitin mühafizəsinin təmin edilməsi, o cümlədən qəza vəziyyətləri üçün prosedurlar, neft dağılmalarına qarşı cavab tədbirləri planı, tullantıların (qazma şlamı daxil olmaqla) idarəolunması planı və audit proqramı.

3. İşlənmə və hasilat

İşlənmə və hasilat dövrü üçün ətraf mühitin mühafizəsinə dair iş proqramı İşlənmə proqramı ilə birlikdə təsdiq üçün ARDNŞ-ə təqdim edilir.

II. Ətraf mühitin mühafizəsi standartları

Aşağıda neft və təbii qaz kəşfiyyatı və hasilatı sahəsində fəaliyyətlə bağlı atqılar üzrə ümumi və konkret normalar verilmişdir.

1. For seismic surveys

– Environmental impact assessment;
– Health, safety and environmental management plan for seismic operations, including emergency procedures, oil spill contingency plan, waste management plan and an audit programme.

2. For exploration drilling

– Drilling environment impact assessment;

– Baseline environmental study;

– Environmental monitoring programme;
– Health, safety and environment management plan for exploration drilling, including emergency procedures, oil spill contingency plan, waste management plan (including drill cuttings disposal) and an audit programme.

3. For development and production

The environmental work programme for the Development and Production Period shall be submitted together with the Development Programme to SOCAR for approval.

II. Environmental Standards

The following are general and specific guidelines relating to discharges associated with oil and natural gas exploration and production activities.

A. Ümumi normalar

1. Aşağıdakı normalarda göstərilənlər istisna edilməklə emal olunmuş neft, quyulardan çıxan qum, lay suyu, qazma məhlulu, qazma şlamı, yaxud kəşfiyyat və hasilat meydançalarındakı başqa tullantılar atılmır.

2. İcazə olmadan bilavasitə dəniz səthinə atqılar qadağandır. Hazırkı normalarda təsdiq olunan bütün atqılara kessonlara buraxılma yolu ilə nəzarət edilir; kessonların açıq ucları daim dəniz səthindən azı iki (2) fut aşağıda yerləşdirilir.

B. Tullantılara dair normalar və tullantıların monitorinqi

1. Lay suyu

Əgər Xəzər dənizinin suyu ilə lay suyunun uyuşmasını aydınlaşdırmaq üçün standart sınağın yekunları göstərsə ki, bu iki su axınının qarışması nəticəsində Karbohidrogenlər hasilatının ümumi səviyyəsinin aşağı düşməsinə səbəb olan lay zədələnməsi baş verməyəcək, onda Podratçı lay təzyiqini saxlamaq üçün lay suyundan istifadə etməyə çalışacaqdır. Əgər bu iki su axını bir-birinə uyuşsa, Podratçı qabaqcadan təmizlənmiş suyu Xəzər dənizinə yalnız lay təzyiqini saxlamaq üçün tələb edilən ümumi həcmdən artıq qalan həcmdə və ya qəza vəziyyəti yarandıqda, avadanlıq sındıqda, yaxud mexaniki cəhətdən nasaz olduqda ata bilər. Əgər bu iki su axını uyuşmasa, Podratçı çıxarılan lay suyunu Xəzər dənizinə beynəlxalq neft-qaz sənayesinin hamılıqla qəbul edilmiş prinsiplərinə və metodlarına uyğun surətdə qabaqcadan təmizlədikdən sonra ata bilər.

A. General Guidelines

1. There shall be no discharge of waste oil, produced water and sand, drilling fluids, drill cuttings or other wastes from exploration and production sites except in accordance with the following guidelines.

2. There shall be no unauthorised discharges directly to the surface of the sea. All discharges authorised by these guidelines shall be controlled by discharging into a caisson whose open end is submerged, at all times, a minimum of two (2) feet below the surface of the sea.

B. Discharge Guidelines and Monitoring

1. Produced Water

Contractor will endeavour to utilise produced water for reservoir pressure maintenance if, through standard compatibility testing with Caspian Sea water, no damage to the reservoir resulting in a reduction in overall hydrocarbon recovery would occur by mixing the two water streams. In the event that the two water streams are compatible, Contractor may only discharge a volume of produced water after treatment to the Caspian Sea that exceeds the total volume required for reservoir pressure maintenance or in the event of an emergency, accident or mechanical failure. In the event that the two water streams are not compatible, Contractor may discharge produced water to the Caspian Sea after treatment in accordance with generally accepted international Petroleum industry standards and practices.

2. Qazma şlamı və qazma məhlulları

(a) Az toksiklik xüsusiyyətinə malik qazma məhlulları və bioloji deqradasiyaya uğrayan qazma məhlulları istisna olmaqla, neft mənşəli qazma məhlullarını atmaq qadağandır.

(b) Az toksiklik xüsusiyyətinə malik qazma məhlullarından və bioloji deqradasiyaya uğrayan qazma məhlullarından istifadə nəticəsində alınan qazma şlamı istisna olmaqla, neft mənşəli qazma məhlullarından istifadə nəticəsində alınmış qazma şlamının, tərkibində "yağlı su" tipli emulsiya olan qazma məhlullarının və tərkibində işlənmiş maşın yağı, soyuducu yağ, transmissiya yağı və neft mənşəli hər hansı sürtkü yağları olan qazma məhlullarının atılması qadağandır.

(c) Qazma məhlulu sistemində xloridlərin maksimum qatılığı "qəbuledici" suyun tərkibindəki qatılıqdan dörd (4) dəfədən çox olduqda, qazma şlamının və qazma məhlullarının atılması qadağandır.

(d) Qazma proqramının yerinə yetirilməsinə başlamazdan əvvəl qazma məhlulunun dövretmə sistemi layihələndirilir; həmin sistem laboratoriyada misid dəniz xərçəngindən və ya Xəzər dənizinin Podratçı ilə ARDNŞ arasında razılaşdırılmış digər indikator orqanizmlərindən istifadə etməklə kəskin toksikliyi ABŞ Ətraf Mühitin Mühafizəsi Agentliyinin (EPA) 96 saat yoxlanması üsulu ilə sınaqdan keçirilir. Qazma proqramı həyata keçirilərkən bioloji deqradasiyaya uğrayan az toksiklik xüsusiyyətinə malik qazma məhlullarının atılmasına icazə veriləcəkdir.

2. Drill Cuttings and Drilling Fluids

(a) There shall be no discharge of oil based drilling fluids, other than low toxicity and biodegradable drilling fluids.

(b) There shall be no discharge of drill cuttings generated in association with the use of oil based drilling fluids, invert emulsion drilling fluids, or drilling fluids that contain radiation, if any, waste engine oil, cooling oil, gear oil, or other oil based lubricants, other than cuttings generated in association with the use of low toxicity and biodegradable drilling fluids.

(c) There shall be no discharge of drill cuttings or drilling fluids if the maximum chloride concentration of the drilling fluid system is greater than four (4) times the ambient concentration of the receiving water.

(d) Prior to the start of the drilling programme, a drilling mud system will be designed and laboratory tested under the U.S. EPA, 96-hour acute toxicity test using mycid shrimp or other indicator organisms of the Caspian Sea agreed between Contractor and SOCAR. Those muds biodegradable and of low toxicity will be authorised for discharge during the drilling programme.

(e) Zəhərliliyi Xəzər dənizi üçün müəyyən olunmuş üsullarla təyin etməkdən ötrü qazma zamanı müntəzəm surətdə qazma məhlulunun sınaq nümunələri seçilib götürüləcəkdir.

(f) Qazma məhlulunun dövretmə sisteminin tərkibi qazma əməliyyatlarının dəyişməsindən irəli kələn tələblərə uyqun olaraq təshih edilə bilər. Məhlulun neft, duzluluq və zəhərlilik üzrə yuxarıda göstərilən limitlərdən kənara çıxmadığı müəyyən edilərsə, dövretmə sisteminin dəyişilmiş qazma məhlulu atıla bilər.

3. Digər tullantılar

(a) Kanalizasiya tullantıları ABŞ-ın Sahil Mühafizə Xidməti tərəfindən sertifikatlaşdırılmış və ya ona bərabər dəniz sanitariya qurğusundan tərkibində gözlə görünən üzən bərk maddələrin olmaması və qalıq xloridlərin ümumi miqdarının 0,5 mq/l-dən çox, lakin 2,0 mq/l-dən az olması şərtilə atıla bilər. Qalıq xloridlərin miqdarını ölçmək üçün Hach metodu ilə CN-66-DPD sınağı keçirilir.

(b) Tərkibində gözlə görünən üzən bərk maddələr olmadıqda məişət tullantıları və çirkli məişət suları atıla bilər.

(c) Duzsuzlaşdırıcı qurğunun tullantıları atılır.

(d) Neft ləkələri vizual müşahidə edilmədikdə göyərtə suları və yuyuntu suları atıla bilər. Tərkibində neft olan sular ilə təmiz tullantı

(e) During drilling operations, mud samples will be collected periodically to determine toxicity using procedures established for the Caspian Sea.

(f) The composition of the mud system may be altered as necessary to meet changes in the drilling operations. The modified mud system may be discharged if it has been shown to meet the above limits for discharge on oil, salinity and toxicity.

3. Other Wastes

(a) Sanitary waste may be discharged from a U.S. Coast Guard certified or equivalent Marine Sanitation Device (MSD) with total residual chlorine content greater than 0.5 mg/l but less than 2.0 mg/l as long as no floating solids are observable. The Hach method CN-66-DPD test shall be used to measure the residual chlorine.

(b) Domestic wastes and gray water may be discharged as long as no floating solids are observable.

(c) Desalinisation unit wastes shall be discharged.

(d) Deck drainage and wash water may be discharged as long as no visible sheen is observable. Oily and clean drainage or wash

sular və ya yuyuntu suları ayrı-ayrılıqda yığılır; təmiz su dənizə buraxılır, tərkibində neft olan su isə yuxarıdakı B.1 bəndinə uyğun surətdə təmizlənir.

(e) Zibil dənizə atılmır. Zibil tullantılar üçün nəzərdə tutulan müvafiq sahil qurğusuna daşınır.

4. Monitorinq

(a) Lay suyu

(1) Yuxarıdakı B.1 bəndinə uyğun olaraq atılmış lay suyunun həcminə və bu suyun tərkibindəki neftin və yağın qatılığına hər gün nəzarət edilir.

(2) Neftin və yağın orta sutkalıq və orta aylıq qatılığı barədə ətraf mühitin mühafizəsi üzrə müvafiq orqanlara hər ay hesabat verilir.

(b) Qazma şlamı və qazma məhlulları

(1) Qazma məhlulları aşqarlarının və onların yuyucu maye sisteminə əlavə edilən həcmlərinin, yaxud kütlələrinin uçotu hər quyu üçün aparılır.

(2) Qazma məhlullarının xassələrinə, o cümlədən xloridlərin həcm faizinə və qatılığına hər gün hər quyu üçün nəzarət edilir.

(3) Atılan qazma şlamının və qazma məhlullarının hesablanmış həcmi hər gün qeydə alınır və bu barədə ətraf

water shall be segregated; clean water shall be discharged to the sea and oily water shall be treated as provided in B.1 above.

(e) Trash shall not be discharged offshore. Trash shall be transported to an appropriate land-based disposal facility.

4. Monitoring

(a) Produced water

(1) The volume of produced water discharged in accordance with B.1 above and concentration of oil and grease contained in the discharge will be monitored daily.

(2) The daily and monthly average oil and grease concentration will be reported to the appropriate environmental authority monthly.

(b) Drill Cuttings and Drilling Fluids

(1) An inventory of drilling fluids additives and their volumes or mass added to the drilling fluid system will be maintained for each well.

(2) Drilling fluid properties, including volume percent oil and concentration of chlorides, will be monitored daily for each well.

(3) The estimated volume of drill cuttings and drilling fluids discharged shall be recorded daily and reported monthly to

mühitin mühafizəsi üzrə müvafiq orqanlara hər ay məlumat verilir.

(c) Digər tullantılar

Atılan digər tullantıların hesablanmış həcmi hər gün qeydə alınır, bu barədə hər ay məlumat verilir və aşağıdakılar göstərilir:

(i) kanalizasiya tullantıları;

(ii) məişət tullantıları;

(iii) göyərtə suları və yuyuntu suyu.

C. Atmosferə emissiyalar üzrə normalar və monitorinq

Podratçıya atmosferə emissiyalar buraxmağa icazə verilir. Belə emissiyalar məhdud olmalı və onların monitorinqi beynəlxalq neft-qaz sənayesinin hamılıqla qəbul edilmiş prinsiplərinə və metodlarına uyğun surətdə keçirilməlidir.

D. Təhlükəsizlik texnikasına dair normalar

26.1 bəndinin müddəalarına əməl edilməsi şərtilə, Podratçı Sazişə uyğun olaraq Neft-qaz əməliyyatları apararkən Azərbaycanın müvafiq normativlərini və aşağıdakı beynəlxalq təhlükəsizlik texnikası və istehsalat gigiyenası normalarını nəzərə alır:

1. Beynəlxalq Neft və Qaz İstehsalçıları Assosiasiyasının (OGP) hesabat və normaları – SƏTƏM üzrə idarəetmə;

2. Beynəlxalq Qazma Podratçıları Assosiasiyası (IADC) – Qazma zamanı təhlükəsizlik texnikasına dair vəsait;

the appropriate environmental authority.

(c) Other Wastes

The estimated volume of other wastes discharged shall be recorded daily and reported monthly to include:

(i) Sanitary waste;

(ii) Domestic waste;

(iii) Deck drainage and wash water.

C. Air Emission Guidelines and Monitoring

Contractor is authorised to discharge air emissions. Such discharges will be limited and monitored in accordance with generally accepted international Petroleum industry standards and practices.

D. Safety Guidelines

Contractor shall take into account subject to the provisions of Article 26.1 relevant Azerbaijani regulations and the following international safety and industrial hygiene standards in conducting its Petroleum Operations under the Agreement:

1. International Association of Oil and Gas Producers (OGP) reports and guidelines – HSE Management;

2. International Association of Drilling Contractors (IADC) – Drilling Safety Manual;

3. Beynəlxalq Geofiziki Podratçılar Assosiasiyası (IAGC) – İstismar zamanı təhlükəsizlik texnikasına dair vəsait;

4. Sənaye gigiyenası üzrə dövlət həkimlərinin Amerika Konfransı – İş yerində kimyəvi maddələrin hədd göstəriciləri.

3. International Association of Geophysical Contractors (IAGC) – Operations Safety Manual;

4. Threshold Limited Values for Chemical Substances in the Work Environment – American Conference of Governmental Industrial Hygienists.

ƏLAVƏ 10

KƏŞFİYYAT İŞLƏRİ PROQRAMI

Kontrakt sahəsinin hüdudları daxilində neftin və qazın potensial ehtiyatlarını kəşf etmək məqsədilə, Podratçı 4-cü Maddədə təsvir edildiyi kimi, işlər proqramını aşağıdakı istiqamətlərdə həyata keçirir:

(i) ARDNŞ-nin razılığı ilə Kontrakt sahəsinin hüdudlarından kənarda əməliyyat baxımından qismən mümkün olan üçölçülü seysmik kəşfiyyat aparır, onun nəticələrini təhlil və təfsir edir; və

(ii) Qazma işləri üçün təhlükəsiz və ekoloji cəhətdən yararlı yer seçmək məqsədilə mühəndis-geoloji tədqiqat aparır; və

(iii) Sazişin 4.2(d) bəndinin müddəalarını nəzərə almaq şərtilə, perspektiv horizontlarda neftin və qazın mövcudluğunu müəyyən etmək üçün Kontrakt sahəsində iki (2) axtarış quyusu qazır. Kəşfiyyat dövrü ərzində, hansı dərinliyə daha tez çatmaqdan asılı olaraq, ya Fasilə lay dəstəsinin dabanına, ya da dəniz səviyyəsindən aşağıda yeddi min (7000) metr dərinliyinə bir (1) quyu qazılır. BP ikinci kəşfiyyat quyusunu qazmaq qərarına gələrsə, o da hansı dərinliyə daha tez çatmaqdan asılı olaraq ya Fasilə lay dəstəsinin dabanına, ya da dəniz səviyyəsindən aşağıda yeddi min (7000) metr dərinliyinə qazılır.

(iv) Əlavə kəşfiyyat dövrü ərzində Podratçı hansı dərinliyə daha tez çatmaqdan asılı olaraq ya Fasilə lay dəstəsinin dabanına, ya da dəniz səviyyəsindən aşağıda yeddi min (7000) metr dərinliyinə iki (2) quyu qazır.

(v) (iii) və (iv) bəndlərində göstərilən kəşfiyyat quyularını qazmaqdan məqsəd Kontrakt sahəsinin hüdudları daxilində aşkar edilmiş Karbohidrogenlərin aşağıya doğru yayılma sərhədlərini və layların parametrlərini dəqiqləşdirməkdir. Bu quyular qazılarkən beynəlxalq neft-qaz sənayesinin standartlarına və ənənəvi metodlarına uyğun olaraq süxur nümunələri götürüləcəkdir.

APPENDIX 10

EXPLORATION WORK PROGRAMME

For the purposes of exploring the oil and gas potential within the Contract Area Contractor shall carry out a programme of work as described in Article 4 in accordance with the following guidelines:

(i) Shoot, process and interpret three dimensional seismic which may for operational reasons upon SOCAR's approval be shot partially outside the Contract Area; and

(ii) Carry out an upper section site survey to select a safe and environmentally sound site for drilling; and

(iii) Subject to Article 4.2(d) of the Agreement, drill in the Contract Area two (2) exploration wells to ascertain the presence of oil and gas in the prospective horizons. During the Exploration Period one (1) well shall be drilled to the base of the Fasila Suite or to a depth of seven thousand (7000) metres subsea, whichever occurs first. If the decision to drill the second well is taken by BP, it shall also be drilled to the base of the Fasila Suite or to a depth of seven thousand (7000) metres subsea, whichever occurs first.

(iv) During the Additional Exploration Period, Contractor shall drill two (2) wells to the base of the Fasila Suite or to a depth of seven thousand (7000) metres subsea, whichever occurs first.

(v) Exploratory wells drilled as set out in (iii) and (iv) shall have the objective of further defining the areal extent, downdip limits and reservoir properties of any Petroleum found within the Contract Area. Drilling of such wells shall be accomplished with conventional core acquisition techniques according to international Petroleum industry standards.

(vi) Quyuların qiymətləndirilməsi üçün digər işlərlə yanaşı, aşağıdakı QKT (quyuların geofiziki tədqiqatı) sınaqları aparılır:

(a) konduktor kəmərinin başmağının qoyulduğu dərinlikdə – qamma-karotaj və neytron karotajı (təxminən konduktorun endirilmə dərinliyindən dənizin dibinə qədər);

(b) qoruyucu boruların birinci texniki kəmərinin endirildiyi dərinlikdə – vəziyyətə görə, qamma-karotaj, induksiya karotajı, akustik karotaj, sıxlıq və neytron karotajı, quyudivarı kernalma (Suraxanı, Ağcagil və Abşeron lay dəstələrindən keçərək təqribən birinci texniki kəmərinin endirilmə dərinliyindən konduktor kəmərinin başmağına qədər);

(c) ikinci texniki qoruyucu kəmərinin endirilmə dərinliyində – vəziyyətə görə, qamma-karotaj, induksiya karotajı, akustik karotaj, sıxlıq və neytron karotajı, yan mikro karotajı, inklinometriya, kavernometriya (profilometriya), quyudivarı kernalma və lay sınaqları (Balaxanı və Sabunçu lay dəstəsinin yuxarı hissəsindən keçərək təqribən ikinci texniki kəmərinin endirilmə dərinliyindən birinci texniki kəmərinin başmağına qədər);

(d) quyruq kəmərinin endirilmə dərinliyində – vəziyyətə görə, qamma-karotaj, induksiya karotajı, akustik karotaj, sıxlıq və neytron karotajı, yan mikrokarotajı, inklinometriya, kavernometriya (profilometriya), quyudivarı kernalma və lay sınaqları (Balaxanı lay dəstəsindən keçərək təxminən quyruq kəmərinin endirilmə dərinliyindən ikinci texniki qoruyucu kəmərinin başmağına qədər);

(e) quyunun son dərinliyində – vəziyyətə görə, qamma-karotaj, induksiya karotajı, akustik karotaj, sıxlıq və neytron karotajı, yan mikrokarotajı, inklinometriya, kavernometriya (profilometriya), quyudivarı kernalma və lay sınaqları (Fasilə lay dəstəsindən keçərək və Balaxanı lay dəstəsindən aşağıda təqribən istismar kəmərinin endirilmə dərinliyindən quyruq kəmərinin başmağına qədər), habelə son dərinlikdən

(vi) To evaluate the wells an appropriate logging and testing programme may include but not be limited to the following:

(a) at the conductor casing point, gamma ray and neutron log (from approximately conductor setting point to seafloor);

(b) at the surface casing point, gamma ray log, induction logs, sonic log, density and neutron logs, sidewall cores as appropriate (from approximately surface casing point to conductor casing shoe through the Surakhany, Akchagyl and Apsheron Suites);

(c) at the intermediate casing point, gamma ray log, induction logs, sonic log, density and neutron logs, microlaterolog, dipmeter, caliper (profiler), sidewall cores and formation tests as appropriate (from approximately intermediate casing setting point to surface casing shoe through the upper Balakhany and Sabunchi Suites);

(d) at the final casing point, gamma ray log, induction logs, sonic log, density and neutron logs, microlaterolog, dipmeter, caliper (profiler), sidewall cores and formation tests as appropriate (from approximately liner casing point to the intermediate casing shoe through the Balakhany Suite);

(e) at total drilled depth, gamma ray log, induction logs, sonic log, density and neutron logs, microlaterolog, dipmeter, caliper (profiler), sidewall cores and formation tests as appropriate (from approximately production casing point to the linear casing shoe through the Fasila and lower Balakhany Suites) as well as a vertical seismic profile log (VSP) taken at intervals between total depth to seafloor;

dənizin dibinədək olan intervallar arasında şaquli seysmik profilləşdirmə (ŞSP);

(f) qazma kəmərindəki laysınayıcı cihaz vasitəsilə əsas məhsuldar horizontların yoxlanması – vəziyyətdən asılı olaraq.

(vii) Podratçı əlavə geoloji informasiya əldə etmək məqsədilə Kontrakt sahəsinin hüdudları daxilində kəşfiyyat quyularının yan gövdələrini qazmaq və ya əlavə kəşfiyyat quyuları qazmaq hüququna malikdir, lakin buna borclu deyildir.

(viii) Kəşfiyyat qazmasına və qiymətləndirməyə dair bütün hesabat və sənədlər bu Sazişin 7-ci Maddəsinə uyğun surətdə təqdim edilir.

(f) drill stem tests (DST's) of major productive horizons as appropriate.

(vii) Contractor shall have the right, but not the obligation, to sidetrack any exploration wells, drill to greater depths or drill additional exploration wells within the Contract Area for the purposes of obtaining additional geological information.

(viii) All reporting and records pertaining to exploration drilling and evaluation shall be submitted according to Article 7 of this Agreement.

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA ŞƏFƏQ-ASİMAN DƏNİZ BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA SAZİŞƏ

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ

İLƏ

BP EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED

ARASINDA

ARDNŞ-NİN ORTAQ NEFT ŞİRKƏTİNİN YARADILMASINA DAİR

QOŞMA

ADDENDUM

TO

AGREEMENT ON THE EXPLORATION, DEVELOPMENT AND PRODUCTION SHARING FOR THE SHAFAG-ASIMAN OFFSHORE BLOCK IN THE AZERBAIJAN SECTOR OF THE CASPIAN SEA

RELATING TO THE FORMATION OF SOCAR OIL AFFILIATE

BETWEEN

THE STATE OIL COMPANY OF THE REPUBLIC OF AZERBAIJAN

AND

BP EXPLORATION (AZERBAIJAN) LIMITED

Bu Qoşma Xəzər dənizinin Azərbaycan sektorunda Şəfəq-Asiman dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişin (bundan sonra "Saziş" adlandırılacaq) imzalandığı tarixdə

bir tərəfdən Hökumət təşkilatı olan **AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ** (bundan sonra "ARDNŞ" adlandırılacaq) və

digər tərəfdən İngiltərədə qeydə alınmış **BP EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED** şirkəti (bundan sonra "BP" adlandırılacaq) arasında bağlanmışdır.

Yuxarıda sadalanan hüquqi şəxslər bəzən ayrılıqda "Tərəf", birlikdə isə "Tərəflər" adlandırıla bilər.

NƏZƏRƏ ALARAQ Kİ,

1. ARDNŞ BP-yə ARDNŞ-nin Ortaq Neft Şirkətinin (bundan sonra "ONŞ" adlandırılacaq) hələ yaradılmadığı barədə məlumat vermişdir; və

2. ARDNŞ Saziş üzrə ONŞ-in bütün öhdəlik və vəzifələrini öz üzərinə götürməyə hazırdır, onlar üçün məsuliyyət daşımaq səlahiyyətinə malikdir; və

3. ARDNŞ və BP razılığa gəlmişlər ki, ONŞ yaradılanadək və Saziş aşağıda göstərilən qaydada ONŞ tərəfindən yazılı şəkildə təsdiq edilənədək ARDNŞ ONŞ-in adından fəaliyyət göstərəcək.

BUNUNLA TƏSDİQ EDİLİR Kİ, Tərəflər aşağıdakılar barədə razılığa gəlmişlər:

1. ARDNŞ Saziş və gələcəkdə Digər Podratçı tərəflər və ONŞ arasında imzalanacaq hər hansı sonrakı sazişlər, müqavilələr və ya digər hüquqi sənədlər üzrə ONŞ-in bütün öhdəlikləri üçün məsuliyyət daşıyır və aşağıdakı məqamlaradək ONŞ-in adından fəaliyyət göstərir: (i) ONŞ-in lazımi qaydada qeydə alındığı və onu qeydə almış ölkənin qanunvericiliyinin müddəalarına və öz

This Addendum is made and entered into on the same date as the Agreement on the Exploration, Development and Production Sharing for the Shafag-Asiman Offshore Block in the Azerbaijan Sector of the Caspian Sea (hereinafter called the "EDPSA") between:

THE STATE OIL COMPANY OF THE REPUBLIC OF AZERBAIJAN (hereinafter called "SOCAR"), a Government body, on the one hand and

BP EXPLORATION (AZERBAIJAN) LIMITED, a company incorporated in England (hereinafter called "BP"), on the other hand.

The entities named above may sometimes be referred to individually as "Party" and collectively as "the Parties".

WHEREAS:

1. SOCAR has informed BP that SOCAR Oil Affiliate (hereinafter called "SOA") has not yet been formed; and

2. SOCAR is willing and fully empowered to assume and be bound by all obligations and liabilities of SOA under the EDPSA; and

3. SOCAR and BP have agreed that SOCAR will act on behalf of SOA pending the formation of the SOA and SOA's written ratification of the EDPSA as hereinafter appears.

NOW THEREFORE, the Parties hereby agree as follows:

1. SOCAR shall be responsible for all obligations of SOA under the EDPSA and any further agreements, contracts or legal instruments between the Other Contractor Parties and SOA and shall act on behalf of SOA, until such time as: (i) SOA has been duly organised and is validly existing in accordance with the law of its country of incorporation and with its charter; (ii) SOA has ratified its

nizamnaməsinin müddəalarına müvafiq surətdə mövcud olduğu günədək; (ii) ONŞ-in Direktorlar şurası onun Sazişdə iştirakını və bu Qoşmanı təsdiq edən qətnamə qəbul edənədək; (iii) ONŞ ARDNŞ-nin onun adından gördüyü bütün hərəkətləri təsdiq edənədək; və (iv) ONŞ yuxarıdakı (i), (ii) və (iii) bəndlərində göstərilənlərin təsdiq olunduğu bütün sənədləri Digər Podratçı tərəflərə təqdim edənədək. Tərəflər ONŞ-in adından ARDNŞ-nin gördüyü bütün hərəkətlərə yuxarıdakı (i), (ii), (iii) və (iv) bəndlərində nəzərdə tutulan hadisələrə və tədbirlərə qədər ONŞ-in özünün görmüş olduğu hərəkətlər kimi baxa bilərlər.

2. ARDNŞ bununla öhdəsinə götürür ki, (i) ONŞ-in lazımi qaydada qeydə alınmasını və qanuni surətdə mövcud olmasını təmin edəcəkdir; (ii) ARDNŞ təminat verir ki, ONŞ lazımi qaydada qeydə alındıqdan və qanuni surətdə mövcud olduqdan dərhal sonra onun Sazişdə iştirakı və bu Qoşma təsdiq ediləcəkdir; (iii) ARDNŞ təminat verir ki, ONŞ lazımi qaydada qeydə alındıqdan və qanuni surətdə mövcud olduqdan dərhal sonra bundan əvvəl onun adından ARDNŞ-nin gördüyü bütün hərəkətləri və Digər Podratçı tərəflərin gördükləri bütün hərəkətləri təsdiq edəcəkdir; (iv) ARDNŞ təminat verir ki, ONŞ lazımi qaydada qeydə alındıqdan və qanuni surətdə mövcud olduqdan dərhal sonra bu 2-ci maddənin yuxarıdakı (i), (ii) və (iii) bəndlərinə aid bütün sənədləri Tərəflərə təqdim edəcəkdir.

3. Bu Qoşma Sazişin müvafiq şərtlərinə yuxarıda şərh edilən şəkildə dəyişikliklər və/yaxud düzəlişlər edir və bütün məqsədlər üçün Sazişin tərkib hissəsi sayılır; müvafiq surətdə Sazişin 25.1 bəndinə uyğun olaraq ona Azərbaycan Respublikasında tam qanun qüvvəsi verilir.

4. Bu Qoşmadan irəli gələn və ya onunla bağlı bütün fikir ayrılıqları Sazişin 23.3 bəndinə müvafiq şəkildə həll edilir; bu Qoşma Sazişin 23.1 bəndində göstərilən hüquqla tənzimlənir.

BUNLARI TƏSDİQ EDƏRƏK, Tərəflərin lazımi səlahiyyət verilmiş nümayəndələri bu Qoşmanı "*7*" *oktyabr* 2010-cu il tarixində imzaladılar.

participation in the EDPSA and this Addendum through a resolution of its Board of Directors; (iii) SOA has ratified all actions taken by SOCAR on behalf of SOA; and (iv) SOA delivers to the Other Contractor Parties all documents evidencing (i), (ii) and (iii) above. The Parties may place reliance on the actions of SOCAR taken on behalf of SOA as if taken by SOA itself until such time as the events and actions required in (i), (ii), (iii) and (iv) above have occurred.

2. SOCAR hereby undertakes that: (i) SOA shall be duly organised and validly existing; (ii) SOCAR shall ensure that SOA authorises its participation in the EDPSA and this Addendum promptly after it is duly organised and is validly existing; (iii) SOCAR shall ensure that SOA ratifies all actions taken by SOCAR on behalf of SOA and all actions taken by the Other Contractor Parties promptly after it is duly organised and validly existing; and (iv) SOCAR shall ensure that SOA delivers to the Parties all documents evidencing (i), (ii) and (iii) of this Paragraph 2 promptly after it is duly organised and validly existing.

3. This Addendum modifies and/or amends the relevant terms and conditions of the EDPSA as set forth herein and shall be considered for all purposes a part of the EDPSA and shall accordingly be given the full force of law in the Republic of Azerbaijan as provided in Article 25.1 of the EDPSA.

4. Any disputes arising out of or in connection with this Addendum shall be resolved as set forth in Article 23.3 of the EDPSA and the law governing this Addendum shall be as set forth in Article 23.1 of the EDPSA.

IN WITNESS WHEREOF the Parties have executed this Addendum as of the *7th* day of *October* 2010 by their duly authorised representatives.

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ
adından və onun tapşırığı ilə

İmza: _____

Adı: _____

Vəzifə: _____

İmza: _____

Adı: _____

Vəzifə: _____

For and on behalf of the
STATE OIL COMPANY OF THE REPUBLIC OF AZERBAIJAN

By: _____

Name: _____

Title: _____

By: _____

Name: _____

Title: _____

BP EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED
şirkətinin adından və onun tapşırığı ilə

İmza: _____

Adı: _____

Vəzifə: _____

İmza: _____

Adı: _____

Vəzifə: _____

For and on behalf of
BP EXPLORATION (AZERBAIJAN) LIMITED

By: _____

Name: _____

Title: _____

By: _____

Name: _____

Title: _____